Rövşən ASİFOĞLU

# Qarabağlı HÜSEYNALI BƏY

Tarixi bədii
Roman

BAKI-2015

*Müəllif "Qrabağlı Hüseynalı bəy" kitabında ötən əsrin əvvəllərində Qarabağın Ağdam bölgəsində yaşamış, bütün fəaliyyətini Azərbaycan xalqının bütövlüyü və min illər boyu sahib olduğu torpaqlarda yaşamasına davam etməsi uğrunda mübarizəyə həsr etmiş Hüseynalı bəyin ömür yolundan bəhs edir. Əsər geniş oxycu kütləsi üçün nəzərdə tutulmuşdur.*

## Ön söz əvəzi

## QƏLƏMİN İLK NÜBARI
*və yaxud*
**gənc müəllifə xeyir-dua**

Yaxın günlərin söhbətidi. Telefonuma zəng edib mənimlə görüşmək istədiyini bildirdi. Doğrusu, tanımadım, amma səsində son dərəcə ziyalılıq və xüsusi olaraq səmimiyyət hiss etdiyim bu cavan oğlanın niyyətinin nədən ibarət olduğunu soruşmadan "istədiyiniz vaxt buyurub gəlin" - dedim. İki gün sonra iş otağımın qapısı döyüldü və içəri yaraşıqlı və həm də səliqəli geyimi ilə diqqəti çəkən bir cavan oğlan daxil oldu. Özünü təqdim etdi. Dərhal telefon söhbətimizi xatırladım. Mənə doğru uzanmış əlini sıxaraq, "buyurun, əyləşin!" - dedim.

Ümumi hal-əhval tutmaq mərasimindən sonra özünü təqdim etdi. Onu dinlədikcə ilk təəssüratdan yanılmadığıma daxilən sevindim. Bir neçə xarici dili bilən bu eloğlum öz peşəsi ilə yanaşı, içindən gələn bir sevdanın sorağında olub. Bu sevda isə doğulduğu bölgənin tarixinə, adamlarına, bir sözlə, qan yaddaşımıza olan böyük sevgisidi. O danışdıqca mən bu cavan oğlanın Azərbaycanı, onun bir parçası olan Qarabağı necə ürəkdən sevdiyini aydınca hiss edir, hətta görürdüm. Bu oğlan sözüylə, fikirləriylə məni əməlli-başlı özünə tərəf çəkə bilmişdi. Mən onu məmnunluqla dinləyirdim. Söhbətimizin sonunda özü ilə birlikdə gətirdiyi qovluğu mənə verdi və vurğuladı ki, burada eşitdiklərimi, tarixi mənbələrdən oxuduqlarımı toplayıb bütöv bir şəkildə ifadə etməyə çalışmışam. Vaxtınız, imkanınız olsa baxarsınız.

Mən böyük məmnuniyyətlə qəbul etdim qovluğu. Amma onu da bildirdim ki, bir az səbrli olsun, məni tələsdirməsin. O da razılaşdı. Və beləcə bir telefon zəngi və bir qısa görüş stolumun üstündə qalan qovluğumun sahibi ilə mənim aramda bir söz körpüsü, bir torpaq həsrətinin zaman-zaman göyərən cığırını saldı. Mən o körpüdən, o cığırdan keçib o qovluğa tərəf getməyə başladım.

Bəri başdan deyim ki, əlimdə olan bu kitab-qovluğun maraqlı bir tərtibatı var. Yəni mövzuya aid tarixi fotolar bu kitabda öz əksini tapıbdı. Barəsində oxuduğum hər bir şəxsin fikirlərini, sözlərini görməklə yanaşı, onun fotosurətini də görmək mümkündü. Bax bu mənada bu kitabda özünəməxsusluq var. İkinci bir tərəfdən oxuyub başa çıxdığım bu dünyaya gələcək kitabda bir zaman ardıcıllığı və bir də bu ardıcıllığın özünün şaxələri kifayət qədər geniş dairəni əhatə edir. Yəni mövzunun aid olduğu Qarabağın, daha doğrusu, Ağdamın Qiyaslı kəndi həm də böyük coğrafi məkandan, Avropadan, Asiyadan da bir tarix bağlılığı yaşayır. Bir az da dəqiq ifadə etsəm, yəni Qiyaslıda baş verən hadisənin əslində Peterburqdan tutmuş Parisə qədər, Praqaya qədər və daha neçə-neçə böyük şəhərlərə səsi-sorağı gedib çatır və yaxud da həmin yerlərdə baş verən hadisələrin dalğası Qiyaslıya da gəlib çatır. Bax, bu kontekstdə yanaşanda, onda müəllifin kitab üzərində işlədiyi vaxt ərzində arxiv sənədlərinə, tarixi mənbələrə çox diqqətlə, canıyananlıqla yanaşdığı üzə çıxır. Üstəlik, həm də müəllifin yaşlı həmvətənlərindən eşitdiyi, el-oba ağzından götürdüyü faktları cilalaması, onu bədiiləşdirməsi də uğurla həyata keçirilib.

Burda söhbət Qarabağ camaatının, xüsusilə Ağdam bölgəsinin bildiyi, yaddaşında yaşatdığı hadisələri, tarixi şəraiti və şəxsiyyətləri təqdim etməkdən, onları yeni nəslə çatdırmaqan

gedir. Gənc oxucu ötən əsrin 20-ci illərinə qayıdanda kimin kim olduğunu, kimin hansı proseslərdə hansı xidmətləri göstərdiyini aydın şəkildə qavramaq imkanı qazanır. Bax, zənnimcə, bu kitabda müəllifin uğuru elə burdan başlayır, burdan gəlib keçirg

Bəli, böyük maraqla oxuyub başa çıxdığım bu kitabda, etiraf edim ki, bilmədiyim bəzi gerçəklərdən də xəbərdar oldum. Bu mənada oxucu qarşısına çıxmaq haqqı qazanmış kitabın və onun müəllifinin missiyasını təqdir edirəm. Üsitəlik, onu da düşünürəm ki, Azərbaycanın, xüsusilə Qarabağın tarixində özünəməxsus yerləri olmuş aydınlarımızın, bəylərimizin, xanımlarımızın haqqını etiraf etmək, onu tirajlamaq çox vacib bir xidmətdi. Bu həm də bu gün üçün bir növü mesajdı. Yəni kiçik bir kəndin sahibi olan, müəyyən ölçüdə ərazisi, malı-mülkü qazanıb idarə edən Hüseynalı bəyin həyatı, onun el adamı olması, öz kəndinin daşından tutmuş suyuna qədər, suyundan tutmuş ağacına qədər və uşağından tutmuş ahılına qədər mövcud olan hər şeyə və hər kəsə təkcə sahib gözü ilə yox, həm də vətəndaş yanğısı ilə yanaşması öz-özlüyündə sovet təbliğat maşınının yalançı və yanlış tarixini, faktlarını alt-üst edir. Bu kitabı oxuduqca Hüseynalı bəyin, ali təhsilli bir ziyalının kəndi, el-obanı idarə etmək məharəti, kəndin sahibi olmasına baxmayaraq, həm də öz təbəələrinin savadlanması üçün məktəb açması, özünün müəllim kimi fəaliyyət göstərməsi, kəndinin kəhrizindən tutmuş əkin-biçininin çəyirtkədən qorunmasına qədər hər bir məsələsində ona xidmət edən insanların xeyir-şərində başda olmaq, ağsaqqallıq etmək haqqına qədər - belə bir yükü çiynində daşıyan Hüseynalı bəy əslində sovet təfəkkürü ilə yanaşsaq, ideal cəmiyyət yaratmaq arzusunda olan bir inqilabçı təsirini bağışlayır. Təsəvvür edin ki, bir kənd bəyinin həm imperiya ilə, onun məmurları ilə dil tapması, həm öz kəndinin

adət-ənənələrə uyğun inkişafını təmin etmək, qorumaq, abadlaşdırmaq yolunu seçməsi, üstəlik də bir kənddə oturub bütün dünyanda baş verən olaylardan məlumat əldə edib baş verə biləcək hadisələrə özünü və kəndini, təbəələrini hazırlamaq ancaq böyük ürəyin, müdrikliyin sahibi olan insanlara məxsus keyfiyyətdi. Məhz bu əsərin qəhrəmanı Hüseynalı bəy də həmin müdrik şəxslərdən biridi.

Kitabı oxuduqca Hüseynalı bəyin də zamanının işıqlı simaları ilə təması, aydınları ilə əlaqəsi ortaya çıxır, məlum olur. İstər Firudin bəy Köçərli, istər Zeynalabdin Tağıyev, istər Abbas Səhhət, istər Əbdürrəhim bəy Haqverdiyev və digərləri ilə, eləcə də dövrü mətbuatla bağlılığı, Qori seminariyası ilə əlaqəsi, özünün Azərbaycan tarixinin qaynaqlarına yanaşması, yəni Nizamidən tutmuş Füzuliyə, Seyid Əzimə qədər, hətta tibbi biliklərə özəl münasibəti, ondan yararlanması, bir sözlə, hər mənada bilgi sahibi olması adi bir kənd bəyinin nə qədər böyük düşüncəyə malik olduğunu sərgiləməklə yanaşı, həm də bugünün insanına bir növü hazırlıqlı olmaq ismarıcı kimi çox önəmlidi.

Kitabın ən maraqlı məqamlarından biri də, təbii ki, burada Azərbaycan oğullarının mərdliyi, şücaəti, onların bir əsgər, bir zabit kimi şərəfli döyüş yolu keçmək qabiliyyəti, imperiya ordusunda fərqlənməsi, üstəlik, Qızıl Ordunun Azərbaycan torpaqlarına yeridilməsi, Gəncədən Ağdam istiqamətində hərəkət edərkən etdikləri vəhşiliklər və nəhayət, Qiyaslı kəndinin məhz Hüseynalı bəyin müdrik qərarı ilə yerlə-yeksan olmaqdan xilas edilməsi kimi məqamlar faktlarla da yaddaqalandır. Həmin faktları ayıyla, günüylə, yəni tarixin diliylə bədii formada həzm etmək, onu birbaşa oxucu yaddaşına yazmaqdı. Və nəhayət, mənə elə gəlir ki, bu gün işğal altında

olan ərazilərimizin sakinləri, bütövlükdə Azərbaycan insanı ermənilərin və onların havadarlarının əməllərindən kifayət qədər xəbərdardır və həmin əməllərin yaralarını bu gün də canımızda daşıyırıq. Amma bu kitabda məhz həmin fitnələrin çox-çox uzun illər bundan öncəyə gedib çıxan izlərini görmək, XVIII əsrin sonlarından üzü bu günə gələn o fitnələrin ayrı-ayrı detallarını izləmək oxucuda düşmənə olan nifrəti bir az da artırır. Biz kim olduğumuzu və kimlərlə qonşu yaşadığımızı bir daha görüb, daha doğrusu, oxuyub bugünün faciələrinin kökündən xəbər tuturuq. Anlayırıq ki, düşmən və onun havadarları kimdi və düşmən öz əməllərindən XX əsrin sonlarında da əl çəkmir. Eyni üsulla eyni məqsəd üçün hər bir cinayətkar addımları davam etdirib. Bu, təkrar olunan tarixin gerçək üzüdü.

Bəli, kitabda Qarabağın, eləcə də Azərbaycanın musiqisi, mədəniyyəti, dağları, bulaqları, yaşayış məskənləri, adət-ənənələri, ayrı-ayrı ştrixlərlə önə çıxarılır. Oxucu diqqətinə təqdim olunur. Bax, bütün bunlar gənc müəllifin ilk təcrübəsinin uğurlu detallarıdı. Düşünürəm ki, kitabın belə oxunaqlı alınmasında əvvəldə qeyd etdiyim həmin o doğma torpağa böyük sevgi öz sözünü deyibdi. Elə həmin o sevginin ilk töhfəsi olan bu kitabın da geniş oxucu kütləsinə, Qarabağ tarixi ilə maraqlananlara ərməğan olacağına şübhə etmirəm.

**Aqil ABBAS**
*Yazıçı, publisist*
*Millət Vəkili*

**Əbülfət MƏDƏTOĞLU**
*Şair, publisist*
*Əməkdar jurnalist*

## Müəllifdən

Mövcud əsər ilk qələm təcrübəsibir. Şübhəsiz ki, nöqsan və çatışmamazlıqlardan da uzaq deyildir. Ona görə də bu haqda öz fikir və təkliflərinizi, iradlarınızı göndərməyi xeyirxah oxucularımızdan xahiş edirəm. Öncədən sizlərə təşəkkürümü bildirirəm.

*Elektron ünvan: rovshan.asifoglu@gmail.com*
*Votsapp ünvan və mobil nömrə: 055 610 90 74*

*"Günəş də onun ücün müəyyən edilmiş qərərgahına yetişmək üçün daim hərəkətdədir"*
Yasin surəsi 38

## I Hissə

## KİTAB"OĞURLUĞU"

Axşamdan xeyli keçmişdi. Yorğun olmasına baxmayaraq Hüseynalı bəyin kimisə, bəlkədə, nəyisə gözləyirmiş kimi əhvalı var idi. Vaxt keçdikcə bu hiss çəkilmir, əksinə artırdı. Elə bu dəm həyəti qorumaq üçün çəpərlərin yanında saxlanılan itlər həyəcanla hürüşməyə başladılar. Bəy narahatçılığını düşünərək eyvana çıxsa da həyət çox böyük olduğundan hələlik itlərin hürüşməsinin səbəbi bilinmirdi. Çox keçməmiş həyətin giriş hissəsi tərəfdə at ayağı səsləri ilə birgə hənirti gəldi. Köməkçisi İbrahim gəlib bir atlının gəldiyini, qonaq olduğunu, bəyə onun dostundan xəbər gətirdiyini bildirdi.

- Qonağı qapıda gözlətmək yaxşı deyil, - deyib tez köməkçisi İbrahimə qonağı evə dəvət etməyi tapşırdı.

Özü isə əsl azərbaycanlı ədəbinə və ağır nəsil-nəcabət əxlaqına uyğun olaraq qonağı görəndən sonra ayağa durmamaq üçün evə keçmədi. Adəti üzrə ağ daşdan tikilmiş ikimərtəbəli evinin eyvanında dayandı.

Eyvan gündoğana, yalnız bahalı və təmtəraqlı evlərə xas olan



***Qarabağ bəyi***

şüşəbəndi isə qibləyə tərəf idi. Hüseynalı bəyin əynindəki məhz Qarabağ bəylərinə xas olan çiyinüstü düz biçimli, çiyni tikişsiz üst köynəyi sarıya çalan açıq şabalıdı gur saçları ilə həmahəng rəngdə idi. Eyvana çıxanda o, mahuddan tikilmiş tünd, ancaq şux göy rəngli çiyin üstü uzun, beli ensiz arxalığını da geyindi. Qonaq atdan enib eyvana çıxanda bəy onu artıq eyvanda gözləyirdi. O yaxınlaşanda bəy bir azona tərəf gəlib salamlaşdı.

- Xoş gəlmisən! Xeyirdi İnşallah?!

Nisbətən gənc olan qonaq tanınmadığını anlayaraq salamdan sonra özünü təqdim etmək istəyəndə bəy tez sözə evə dəvətlə davam etdi.

- Buyur içəri, eyvanda söhbət etmək üçün nə tələsiyimiz var, - dedi.

Qonaq bəyin sözünü yerə salmadı, içəri keçdilər. Bəy gətirdiyi xəbəri ona tez çatdırmaq istədiyini qonağın pilləkənləri tələsik çıxmasından hiss etmişdi. Ancaq "tələsik işə şeytan qarışar" düşüncəsi ilə qonağı evdə dinləmək istədi. Qonaq sözə özünü təqdimatla başladı.

- Mən Firudin bəyin (red: Firudin bəy Köçərli) bacısı oğlu Qədirəm. Məni Firudin bəy sizin yanınıza göndərib, - deyə gənc qonaq sözə davam etdi.

Hüseynalı bəy Qədirin səsindəki təlaşı və tələskənliyi hiss edərək:

- Bəs bəy özü necədi, hardadı? Salamatçılıqdı ümid edirəm - deyərək Qədirin tez mətləbə keçməsinə şərait yaratdı.

- Şükür, salamatçılıqdı. Elə bəy sizinlə görüşmək istədiyini bildirmək üçün məni buraya göndərib.

"Şükür, salamatçılıqdı" sözünü eşitməsinə baxmayaraq, bəy nə isə qeyri adi bir işin baş verdiyini hiss edirdi.

- Bəs bəy özü hardadı? -deyə Hüseynalı bəy Qədirdən yenə soruşdu.

- İndi hardasa Uzundərəyə çatmış olar. Məni qabaqcadan xəbər vermək üçün göndərdi. Bir də özü ilə gətirdiyi iki fayton yükü yerləşdirmək üçün yer hazırlamağı xahiş etdi.

Bunu eşidən kimi Hüseynalı bəy İbrahimi səslədi.

- İbrahim, atımı hazırla, indi çıxıram, tez qayıdacam, qonağımız olacaq. Nə etmək lazım olduğunu bilirsən. Bir də alt evdə böyuk otağı boşaldın,- deyib Qədirə işarə etdi ki, gedək. Qədir işarəni başa düşüb yavaşca:

- Siz zəhmət etməsəydiniz - deyəndə…

- Firudin bəy bizim evə gəlir. Olarmı mən bunu biləm və onu qarşılamağa getməyəm?-deyib Hüseynalı bəy Qədiri də götürüb çölə çıxdı. Atlar hazır idi, minib yola düşdülər.



**Firudin bəy Köçərli (1863-1920)**

Firudin bəylə Hüseynalı bəyin dostluğu 11 il əvvəl (Hüseynalı bəyin 1895-1898 ci ilərdə Qori seminariyasında oxuduğu vaxtdan) başlamışrdı. Dostluqlarının möhkəm olmasına əsas səbəb isə onların el-oba sevgisi və bütün çətinliklərin həllinin maariflənməkdə, elm almaqda və bunu təbii ki, əxlaqı qorumaqla həyata keçirilməsi fikirlərinin üst-üstə düşməsi idi. Huseyinalı bəy məktəbi bitirdikdən və bir neçə il Bakıda yaşadıqdan sonra doğulub boya-başa çatdığı Ağdam bölgəsinin səfalı Qiyaslı kəndinə köçmüşdü. Kəndə köçməsinə bəyin el-oba sevgisi ilə bərabər, Qiyaslının gözəl təbiəti və mehriban camaatı səbəb olmuşdu. Qiyaslı kəndinin Keşdiazdı, Yavasallı, Həlimli, Sarallı, Nazdıxannı, Atdıcalı, Söyüdlüqol adlı məhlələri, gilas və qoz bağları ilə, birdə üstündə "Qara mərəndi" üzümü yetişdirilən böyük cəkil ağaşları ilə məşhur idi. Qiyaslı bağları öz gilasının həm dadı, həm al qırmızılı-sarılı rəngi, həm də bolluğu ilə o qədər məşhur idi, bəzən tərif mənasında buraya "Gilaslı Qiyaslı" deyərdilər.  Bəyin yaşadığı Həlimli məhləsinin adı belə yaranmışdı ki, əvvələr ata və babalarının bəyliyi dövründə və onun öz dövründə gələn qonaqlar və təsərrüfatda işləyənlər üçün o qədər düyü bişirilirmiş ki, düyünün həlimini (həlim-düyünü qaynadıb süzəndən sonrakı suyu) arxa tökəndə arxın suyu həlimlə qarışıb bulanıq rəng alırmış. Çökəklərdə toplaşan su gölməçələri də sanki həlim gölməçələri kimi görünürmüş. Beləcə bu məhəllənin adına hamı Həlimli məhəlləsi deyirdi.Məhəllələrin bəziləri kənddə yaşayan köklü tayfaların

adı ilə adlandırılırdı. Burda Məmmədxanlılar, Xanalılar, Mollahacılılar, Heydərlilər, Sarialılar, Atdicalılar, Nazdıxanlılar, Nurallılar, Qazılar və Həlimlilər adlı tayfalar 300 ildən artıq idi bu kənddə yaşayırdı.Qarabağın səfalı təbiətinin bütün gözəlliyinə burda rast gəlmək olurdu. Ağdam bölgəsının mərkəzinə bitişik olan Qiyaslı kəndinin ətrafı üzü Əsgəran yoluna tərəf baxanda sağ tərəfdən başlayaraq Yeddixirman dağı, Coban dağı və Beşik dağları ilə əhatə olunmuşdu. Kəndin istənilən yerindən qibləni təyin etmək istəsən, üzü Yeddixırman dağının zirvəsindəki at yəhərinə oxşar yüksəklik tərəfə baxmağın yetərli idi. Dağlardan əks tərəfdə işə üzü Bərdə istiqamətində düzəngahlıqlar uzanıb gedirdi. Səhər yuxudan durub ətrafa baxanda Beşik dağının zirvəsində tikilmiş qədim qalanın görünüşü buranın mənzərəsini heyrətamiz edirdi. Qalada olan daş saat bütün Qarabağda məşhur idi. İri qayanın yastı üst hissəsinə rəqəmlər dairəvi formada işarələnmişdi, dairənin mərkəzində isə dəlik açılmışdı. Gündüzün istənilən vaxtında dəliyə çubuq taxmaqla onun kölgəsindən dəqiq saatı bilmək olurdu. Bu sıra dağların ətəklərində isə yazın əvvəllərindəçox dadlı olan mələçöyrük (qulançar) və mantar (göbələk) bitirdi. Bu bitkilərin xüsusiliyi onda idi ki, bunları başqa heç bir təsərrüfatda yetişdirmək mümkün deyildi.

Gürcüstanın Qori şəhərində oxuyanda və Bakıda yaşadığı dövrlərdə rus, fars və ərəb dillərini mükəmməl öyrənən Hüseynalı bəy obada bəylik etməklə yanaşı öz vəsaiti hesabına tikdirdiyi məktəbdə dərs deyir, camaatın maariflənməsində birbaşa iştirak edirdi. Dil bilmək barədə şagirdlərinə həmişə deyərdi ki: "Hər bir insan Dünyanın gəliş-gedişini yaxşı anlamaq üşün rus yaxud hər hansı Avropa dillərindən birini, mütəfəkkirlərimizi oxumaq və poeziyanı anlamaq üçün fars dilini, ruhani olub Quranı yaxşı anlamaq üçün ərəb dilini

öyrənməlidir. Burada yaşadığı illərdə bir neçə dəfə Firudin bəy onunla görüşməyə gəlmiş, yaxşı oxuyan şagirdlərdən Qoridə təhsilini davam etdirmək üçün aparmışdı

Ağdamla Göytəpə arasında yerləşən Uzundərə Qiyaslı kəndindən o qədər də uzaqda deyildi. Atla yeyin gedərək 25-30 dəqiqəyə Uzundərənin bəri başına catanda artıq qaranlıq idi. Firudin Bəy bilərəkdən gəlişini qaranlığa salmışdı. Ancaq dostların qarşılaşması çətin olmadı. Çünki Firudin Bəy dəfələrlə Ağdama, Qiyaslıya Hüseynalı bəyin evinə gələndə həmin bu yolla gəlmişdi. Firudin bəyin uzaq yoldan gəldiyindən yorulduğunu nəzərə alaraq mehriban görüşdən sonra faytonları saxlamadan yollarına davam etdilər.

- Daha niyə zəhmət çəkib gəlirdin? Yolu bilirəm, evi tanıyıram, gəlirdim də, - deyə söhbətə Firudin bəy davam elədi. Öz evim kimidi sənin evin, daha təmtəraq nəyə gərəkdi, bir də durub gəlmisən.

- Əziz dostum, bilirsən səbirim tutmaz? Biləndə ki, siz gəlirsiniz, mən evdə necə gözləyim? Bir də uzağa gəlməmişəm ki? Mənim torpaqlarım elə buradan başlayır. Bax, üzü evə gedirik. Evə qədər, evdən o tərəfə və sağ tərəfimizlə düz Xıdırlı - Ağdam yolunun alt tərəfinə qədər mənim torpaqlarımdı. Dövlətin tələbini, vergisini verməklə bərabər, camaatımızı dolandırmaqla məşğuluq. Çox var-dövlətdən danışan deyiləm bilirsən. Mərd adam var-dövləti ilə yox, el-obaya münasibəti və dostları ilə öyünər. Bu torpaqların çox hissəsi də mənim fərasətim deyil ki, öyünəm. Mənə də atam Həsənalı bəydən, ona Babam Nəcəfqulu Bəydən, ona isə ulu babam Rüstəm bəydən qalıb.

- Ulu babanız Rüstəm bəyə bəylik camaat üçün canıyananlığına görə Qarabağ xanı İbrahimxəlil xan tərəfindən verilmişdi, elə deyilmi? - deyə Firudin bəy yaddaşını təzələmək istədi.

- Tamamilə doğrudur. Ancaq olan torpaqlar bü günkü əkin - biçinə, mal-qaraya yetmir. Bu yaxınlarda bir ərazi var, Allahın xeyirliyi ilə qismət olsa alacam. Şükürlər olsun, pulu hazırdı. Dəqiqləşəsi bir məsələ var onu gözləyirəm.

Şirin söhbət edə-edə dostlar həyətə vardılar. Həyətdə artıq hər şey hazırlanmışdı. Samovar qaynayır, heyvan kəsilmiş, oçaq qalanıb, köz düşmüşdü, üzərində kabab bişmək üzərə idi. Bəylər evə keçəndə əvvəlcə süfrəyə Hüseynalı bəyin öz bağlarının məhsulu olan gilaslardan bişirilmiş mürəbbələrlə samovar çayı verildi. Yeməyin süfrəyə gəlməsi heç cayların bitməsini gözləmədi. Qonaqlar yoldan gəldiyinə görə bu belə olmalı idi. Söhbət əsnasında Firudin bəy sabah Tiflisə, ordan da Qoriyə qayıdacağını bildirəndə Hüseynalı bəyi daha da maraq bürüdü. Baxmayaraq ki, köməkçilər gətirilmiş yükü artıq alt evdə hazırlanmış böyük otağa yerləşdirmişdilər, yenə də qonağa "niyə gəlmisən?", "yükün nədi?" kimi suallar vermək olmaz.

Firudin bəy Hüseynalı bəyin marağını hiss edərək sözə başlayanda artıq onlar üçün böyük eyvanda hazırlanmış yeməkdən sonra verilən çay süfrəsində əyləşmişdilər.

- Mən bilirəm, sənin mənə etibarın böyükdür, - deyə Firudin bəy sözünə davam etdi. Özüm birbaş Qoridən - seminariyadan gəlirəm. Gətirdiyim yük kitabdı. Çox hissəsi dərslikdi. Sənə təxminən anlatmışdım. Xəbərin olsun bu kitabları gətirə bilməyimdə sənin, yəni göndərdiyin sovqatın böyük rolu olub.

Firudin bəy sovqat deyəndə yarım il əvvəl Huseynalı bəyin ona "Xalqımızın maarıflənməsi yolunda kömək lazımdı" ismarıcı ilə yolladığı adamla Firudin bəyə göndərdiyi 8 kq qızıla işarə edirdi.

- Mənim istəyimin əsasını bilirsən, - Qori seminariyasının şöbəsini Azərbaycanda təşkil edək. Daha dəqiq desək, mümkün qədər "şimal"-dan uzağa, cənuba doğru Azərbaycanın

mərkəzində - Ağdamda təşkil etmək istəyirəm.

- Çox əcəb. Bilirsniz burda bu məsələyə bir çətinlik olmayacaq, - deyə Hüseynalı bəy mövzunu təstiqlədiyini və belə bir işi həyata kecirmək ücün bütün məsuliyyəti öz üzərinə götürəcəyini daha əvvəllər də bildirdiyini xatırlatdi.

- Bilirəm, əziz dostum. Ancaq məsələ tək bununla bitmir. Yuxarılarda məktəbin nəinki Azərbaycanın mərkəzində, ümumiyyətlə, Azərbaycanda açılmasina qəti etiraz edən qüvvələr var. Bir qismi daha uzaqda olduqda nəzarətin yaxşı olmayacağı qənaətindədi. Daha böyuk qismi isə, ümumiyyətlə maarifçiliyin əleyhinədir. Cünki elmli ziyalı insanların sayının çoxalması onların işinə yaramır. Məhz buna görə kitabları, dərslikləri rəsmi sənədlə, hamının razılığı ilə gətirdiyimi deyə bilmərəm. Belə desək, bir növ "oğurlamışam". Mümkün qədər xahişim odur ki, bu yükün nədən ibarət olduğunu hələlik örtülü saxlayaq, görək başımıza nə gəlir. Özün bilirsən, budur artıq Üzeyirə (red. Üzeyir Hacibəyov. 1900-cu ilin mart ayında məktəbdə tənəffüs zamanı ana dilində danışdığına görə ona şiddətli töhmət verilib. Töhmət şəxsi işinə tikilib və xəbərdarlıq edilib əgər yenə məktəbdə ana dilində danışsa, mətəbdən qovulacaq) töhmət verilməsindən 6 il keçməsinə baxmayaraq, böyük bir dəyişiklik olduğunu deyə bilmərəm. Sən götür Qori seminariyasının tələbəsinə töhmət ver ki, nə var, nə var tənəffüsdə ana dilində danışmısan. Hər kəs Aleksey Osipoviç (Aleksey Osipoviç Çernyayevski) kimi olsaydı, nə vardı. Qəbri nurla dolsun. Allah Soltan müəllimdən razi olsun (Soltan Məcid Qənizadə - həmin vaxt Qori seminariyasının Azərbaycan şöbəsinin müdiri). Aralarında böyük əksəriyyəti bizə vəhşi camaat kimi baxır. Cünki onlara belə sərf edir.

Hüseynalı bəy Firudin bəyin danışığından məsələnin nəinki

ciddi, hətta təhlükəli olduğunu hiss etmişdi. Ona görə köməkçisi İbrahimə tapşırdı, sabah qonaqlarımız qayıdacaq, onların təhlükəsizliyini təmin etmək üçün adamları hazır etsın.

OOO

Belə məsləhət oldu ki, səhərisi gün Firudin Bəy üzü gecəyə doğru Agdamdan Tiflisə yola düşsün. Yolda çoxlu adam olmasın deyə, Firudin bəy Hüseynalı bəyin hazırlatdığı adamlardan cəmi iki nəfərin onlara qoşulmasına razılıq verdi.

Hüseynalı bəyin narahatçılıq hissi özünü doğrultdu. Qonaqlar uzun dərəyə çatanda artıq qaranlıq idi. Təhlükəni qabaqcadan hiss etmək qabiliyyəti olan İbrahimin hazürladığı adamlar - Nicatla Səfər Qədirə yavaşca:

- Qağa, siz yolla beləcə davam edin, biz dərənin üstü ilə gedəcəyik, - deyib onlardan ayrıldılar.

Dərənin sağ tərəfi ilə hərəkət etməyə başladılar. Elə dərənin dərin yerinə çatmış Nicat əks tərəfdən beşatılan tüfəngin ayağa verilməsi, patronla doldurulması səsinə oxşar şaqqıltı eşitdi. Nicat Səfərlə səs gələn tərəfə ancaq göyə yaylım atəşi açdılar. Nicat zənnində yanılmamışdı. Bu, həqiqətən, əlində beşatılanla silahlanmış bir neçə nəfər idi. Adamlar yaylım atəşi ilə eyni vaxtda həm aşağıya, həm də güllə səsi gələn tərəfə çaşqın vəziyyətdə atəş açmağa başladılar. Pusquya yatanlar dərənin yuxarı yerində kiminsə olacağını gözləmirdilər. Bu da onları çaşdırmış və qorxutmuşdu. Qorxutmuşdu ona görə ki, əks tərəfdən duranda onların sipər aldığı yer dərənin içindən görünməsə də, yuxarıdan yaxşıca nişana düşürdü və onlar gülləyə gələ bilərdilər. Vəziyyət belə olduğundan atışma uzun sürmədi. Atəş açanlar təpənin arxasında saxladıqları atlara minib

gecənin qaranlığında itdilər.

Təhlükənin tam sovuşmadığını düşünərək Nicatla Səfər dərənin yuxarısı ilə yollarına davam etdilər. Onlar nəinki Uzundərədə hətta Tiflisə qədər bu münvalla hərəkət etdilər. Ancaq xoşbəxtlikdən bu xoşa-gəlməz hadisə təkrarlanmadı.

Geri qayıtdıqdan sonra Nicat atışma barədə Hüseynalı bəyə məlumat verəndə o, atəş acanların qaçaq-quldur olmadığını və hökumətin xüsusi idarəsinin göndərdiyi adamların olduğunu anlamışdı. Onlar Hüseynalı bəyin hökumət qarşısında olan nüfuzuna görə Qiyaslıya gəlməmişdilər. Ancaq tutduğu işə görə Uzundərədə gözləyərək Firudin bəyə hücum edib onu öldürmək istəmişdilər, amma bacarmadılar. Hüseynalı bəyin sayıqlığı öz bəhrəsini vermişdi.

# NİCAT və SƏADƏT

Şər qarışan vaxtı idi. Nicat Hüseynalı bəyin malikanəsindən çıxıb bir baş Səadətgilin məhəllələrinin aşağısına gedəndə Səadət onu orda gözləyirdi. O, Nicatı görən kimi:

- Hardasan, ay imansız dörd gündü yoxa çıxmısan?- deyib üzünü çevirdi və maraqla gözlədi. Görsün onun istəklisi birbirilərini istədikləri vaxtda ona etdiyi ilk sitəmin - ancaq nazla dolu sitəmin cavabı Nicatdan necə gələcək.

Nicat elə bil himə bənd imiş, dərdi açıldı, nə açıldı:

- Ay başına dönüm, elə bilirsən, mənim üçün xoşdu bu qədər ayrı durmaq?

Səadət onun uzun müddət deyəndə son dörd günə yox, uzun zamandı-üç ilə qədərdi bir-birilərini istədiyi vaxtı nəzərdə tutduğunu bilirdi.

- Ancaq bilirsən, bizim bu kişiləri yola gətirmək hələ də mümkün olmur.

O, kişilər deyəndə öz atası Bəhram kişini və Səadətin atası Rəşid bəyi nəzərdə tuturdu. Ancaq bu sözləri Nicat sakit səslə dedi. Çünki valideynə hörmət, böyüyün yolunu saxlamaq mühitində böyümüşdü. Bir də Səadəti o qədər çox istəyirdi ki, onun yanında özünü cənnətdə hiss edirdi. Bütün əsəbləri sakitləşir, özünü xoşbəxt sanırdı. Ancaq Səadətlə qovuşması uzandıqca o da səbirsizləşirdi. Nə qədər bu mövzuda evlərində anası söz açsa da, Bəhram kişi razılıq vermirdi. Razılıq verməməsinin səbəbi Nicatla, onun yaşımı, işimi, xasiyyəti, yaxud məsuliyyəti ilə əlaqəli deyildi. Əksinə, Nicat hərtərəfli bişmiş, yetişmiş, təmkinli, öz yerini bilən və yaraşıqlı oğlandı. Razılıq verməməsinin səbəbi heç Səadətlə də əlaqədar deyildi. Yəni Səadət də ailə həyatına yetərincə hazır olan,

tərbiyəli, hər şeyin yerini bilən qız idi. Burda tamam başqa mövzu var idi.

- Axı mən nə edim dədəmin sənin atanla arası soyuqdu. Bunları barışdırmaq üçün nə qədər çalışdıqsa hələ bir şey əldə edə bilməmişik. Barı arada bir şey ola. Nə var, nə var kiminsə babası kiminsə babasına hansısa dağda qarşı-qarşıya gələndə bir-birinə salam verməyib?- deyə Nicat olanlardan, keçənlərdən dəqiq məlumatlı olduğunu və küskünlüyün, soyuqluğun o qədər də ciddi səbəblərdən olmadığına obrazlı şəkildə işarə etdi.

- Bilirsən? - deyə sözə Səadət davam etdi. Mən nənəmdən soruşdum. O, mənə bütün işlərin Haykanuş arvadın başının altından çıxdığını nağıl elədi. Nənəm deyir bizim kənddə Sarıoğlu Bəhmənin bir erməni arvadı var ha? Adı Haykanuşdu. Hamı ona Qəniş deyir. Yaman sözgəzdirənlik edirmiş. Bu evdən o evə, o evdən bu evə xoşagəlməz sözlər aparıb gətirir, fitnə salırmış. Gedib gəldiyi, münasıbət elədiyi evlərin adamları ilə gülərüzlülük, mehribanlıq edərək söylədiyi fitnələrin üstünü örtbasdir edirmiş ki, insanlar bunun nə xişlətdə olduğunu hiss etməsinlər. Ay nə bilim, filankəs sənin haqqında filan sözü dedi, filankəs qonşunun malını pislədi, filankəs filankəsə filan adı qoydu, daha nəbilim nələr. Ancaq, Nicat, bilirsən, mənə nəsə inandırıcı gəlmədi. Çünki insan gərək insana pis şey arzulamasın, fitnə salmasın, ara vurmasın. Nə bilim e, belə şeyləri axı adam necə bacarır? İnanmağım gəlmir - deyəndə.

Nicat onun bu sözünü kəsdi:

- Bəli, Səadət, adamların belə şeyləri bacardığına inanmağın gəlmir, çünki sən elə adam deyilsən, tərbiyən elə olmayıb, xislətin elə deyil. Ustəlik, təcrübən də azdı, sən fikirləşirsən ki, nə olsun bir arvad söz gəzdirir, ara vurmağa çalışır. Daha bu boyda kişilərə nə olub? Bəli, dediyində böyük həqiqət payı var. Ancaq biləsən bizdə

kişilər çöldə-bayırda nə qədər tək görünsələr də, içəridə hər atdıqları addımı, etdikləri işi ailələri ilə bir yerdə görürlər. Ailələri ilə nəfəs alırlar. Ailələrə fitnəkar girib şeytanlıq edəndə belə qaniqaraçılıqlar baş verir.

Şeytan demişkən, gəl sənə şeytan barədə bir el deyimi deyim, yaz yaddaşının bir tərəfinə: Günlərin bir günü bir at sahibi işdən gələndən sonra atın dincəlməsi və otlaması üçün yəhərini, yüyənini atın üstündən açır, gətirir çölə öz məhləsində çəmənin yaxşı yerinə. Atın boğazına kəndirbağlayır. Kəndirin o biri başındakı tolamıxı (Tolamıx- bir başı halqa şəkilli, digər ucu şiş, 50 cm - ə qədər uzunluğu olan dəmir parçası. Şiş ucu yerə basdırılır. Halqa tərəfinə kəndir, ip bağlanır) yerə bərk-bərk vurur ki, at uzağa getməsin, qonşunun bağına girməsin. Kişi atdan ayrılandan sonra Şeytan yaxınlaşır.

Nicata diqqətlə qulaq asan Səadət özünü saxlaya bilməyərək qeyri-ixtiyari soruşur:

- Hara yaxınlaşır?

- Hara yaxınlaşacaq, ay gözümün işığı, şeytanlıq eləməyə. Ayrı əlindən nə gəlir ki? - deyə

Nicat sözünə davam elədi. Şeytan gəlib tolamıxı yerində laxladıb boşaldır. Fikir ver, çıxartmır da, sadəcə yerində laxladır və çəkilib durur bir kənarda. Heç nədən xəbərsiz at olduğu yeri otlaya-otlaya boğazındakı kəndiri dartıb daha uzağa getmək istəyəndə tolamıx yerindən çıxır və at asudə olur. Beləliklə, at istədiyi tərəfə gedə bilir. Getdiyi yer qonşunun dirriyi (dirrik - tərəvəz əkilən yer) olmasın?!!! Dərd burasıdı, dirrik yeyəsi acıdil, söyüşcül, hövsələsizin biri. Qonşunun atının öz dirriyinə girdiyini görən qonşu oz təbirincə söyüb söylənir, atı döyüb qovur. Bu dəmdə gəlib çıxan at sahibi də söz götürməyən olduğundan qonşunun bu hərəkətini, dediyi sözləri həzm edə bilmir. İki qonşu arasında dava

düşür. Qısası dava qonşulardan birinin o birisini öldürməsi ilə nəticələnir. Bu işdən xəbər tutan Cəbrayıl mələyi Şeytana üzünü tutaraq: Gördün neylədin?!!! Şeytan cavabında bilirsən nə deyir?

- Nə deyir? - deyə Səadət yenə soruşdu

- Nə deyəcək, qayıdıb deyir"Nə elədim? Özün gördün, mən sadəcə tolamıxı laxlatdım".

Söhbətdən çox təsirlənən Səadət:

- Düz deyirsən.

- Şükür, bizimkilər arasında ölüm-itim davası olmayıb, - deyə Nicat sözünə davam etdi.

Amma mənim səbrim tükənib. Daha belə davam etsə, səni götürüb qaçırdacam. Ancaq olmazdı ki, bir yol tapaydıq, el adəti ilə toyumuzu edəydik? Böyüklərin, bizi boya başa çatdıranların, zəhmətimizi çəkənlərin xeyir-duasını alaydıq?!...

- Düz deyirsən, ay Nicat. O nədi dünyanın axırı çatmış kimi götür qaç, qoşul qaç, daha bilmirəm, nələr, - deyə Səadət Nicatın sözünü təstiqlədi. Mən çox ümidliyəm və hiss edirəm Allah bizim üçün yol açacaq və biz əsl insanlara xas olan adət - ənənəmizlə, xeyir-dua ilə toy edib ailə quracağıq.

- Ağlıma bir fikir gəlib. Yadıma bir çıxış yolu düşdü - deyə Nicat gözlərini geniş açaraq Səadətin gözlərinin içinə baxdı və üç ildən bəri ilk dəfə olaraq Səadətin əlindən tutdu. Deyirlər, sevənlərin kəbinini Allah göylərdə kəsir, - dedi, ancaq sözünə davam etmədi. Fikirləşdi qoy nəticə olsun, sonra Səadətə məsələnin nədən ibarət olduğunu desin.

Bundan sonra Nicat Səadətdən ayrılıb qaranlıqda gözdən itdi.

Səhəri gün Nicat İbrahimlə görüşəndə onun fikirli olduğunu görən İdrahim soruşdu:

- Sözlü adama oxşayırsan. Dayan, dayan, mən bilirəm sənin niyə kefin yoxdu?

- Sən hardan bilirsən? - deyə Nicat yavaşca cavab verdi.

- Niyə bilmirəm? Sənin kefinin niyə olmadığını bilirəm, elə çıxış yolunu da bilirəm, sənə dəfələrlə demişəm.

- Nə demisən e!..

- Ay kişi, sənin məsələn incə məsələdi, qız məsələsidi, elə deyilmi, başına dönüm?

- Elədi.

- Bəs çıxış yolunun bircə dənə olduğunu deməmişəmmi? Sənə deyirəm, rüsxət ver, sənin bu məsələni bəyin hüzurunda danışım, o yatımı ilə sənin ağsaqqallarınla danışsın. Sən tutdurmusan utanıram, ayıbdı, nə bilim nə. Ə, bildik də abırlı, ağır oğlansan. Ə, sən bil ki, bəy hər vəziyyətdə barışıq tərəfdarıdı. Öz amalı, istəyi uğrunda mübarizə aparanları çox sevir, yaşından asılı olmayaraq, hörmət qoyur. Bir də xeyir işə Allah zamindi, deyərlər. Hüseynalı bəy Allah yolunu hər şeydən üstün tutan adamdı. Di nə deyirsən, oğurluq iş tutmursan, qəbahət iş tutmursan. Razılıq versən, bəyə deyərəm, inanıram bəy bu işi düzəldər.

- Nə deyim. Bizim də fikrimiz belədi. Toyumuzu məsləhətlə, xeyir-dua ilə el-oba adəti ilə edək. Bu nədi götürüb qaçmaq, qoşulub qaçmaq, belə şeylər bizim tərbiyəmizə uyğun deyil, bizə yaraşmaz. Bir də dünyanın axırı deyil ha…Hüseynalı bəy kimi böyüyümüz, ağsaqqalımız var. Düzün deyim, elə mənim axşamkı qərarım bu idi ki, bu məsələni gəlim səninlə dərdləşim. Səni min yaşa, sözü ağzımdan aldın. Mən sənə bu məsləhəti edəcəkdim, görən ayıb olmaz ki? Daha sən də məsləhət bilirsənsə, - deyir: "məsləhətli don gen olar,"- bax gör neynirsən.

Nicatın razılığını görən kimi İbrahim onun sözünü kəsdi:

- Əşi, neyliyəcəm, sən narahat olma. Bəy indi səfərə hazırlaşır. Getsin gəlsin, mən məsələni yatımıyla ona açaram. Daha sonrası onun qərarına bağlı olan işdi.

## TƏBRİZ SƏFƏRİ

Günortadan sonra Hüseyialı bəy tapşırıqlar vermək üçün İbrahimi yanına çağırdı:

- Səhər tezdənə miniklərimiz hazır olsun yola düşəcəyik. Gedəcəm Əhərə, işim ürəyimcə alınmasa, ordan gedəcəm Təbrizə. Beşik dağı tərəfki Çullu yalındakı torpağın sahibindən xəbər gəlsə, de ki: "Bəy səfərdədi, qayıtsin sizə dəqiq cavabı özü deyəcəyini tapşırıb". Mal-qara yaylaqdan qayıdana qədər yataq məsələsini həll etməliyik. Ancaq mən istəyirəm hərtərəfli istəyimizə yarayan yer götürək.

- Bəy, bütün işləriniz xeyirə calansın. Necə buyursanız, elə edərik.

Bəy səhər uzaq yola çıxacağına görə dincəlmək üçün evə qalxdı. Sübh tezdən tapşırdığı kimi İbrahim atları hazırlamışdı. Bəy evdən çıxmamış xanımı - həyat yoldaşı ona yaxınıaşdı. Bəy-in xanımının adı da Xanım idi, elə özü də. Əsl Azərbaycan ənə-nələrinə uyğun verilmiş tərbiyənin bütün xüsusiyyətlərini özündə cəmləmiş, həlim təbiətli, xoşxasiyyət, xanım-xatun bir qadın idi. Sanki yaradan ondan heç nəyi əsirgəməmişdi. Üzdə görünməsə də, əslini bilən bilirdi ki, Hüseynalı bəy onunla nəfəs alırdı, onu hədinnən artıq çox istəyirdi. Sanki haqqın yolunu tu-taraq, bütün nəsil şəcərəsinin gəldiyi yolu nəzərə alaraq gördüyü bütün yaxşı işləri ona ithaf edirdi. Bunun belə olduğunu xanımı bilirdi. Ancaq bu durumdan heç vaxt istifadə etmirdi, əksinə bu durumu qiymətləndirmək kimi onda bir vergi var idi. Heç vaxt səsini qaldırmaz, heç vaxt kəmhövsələ olmaz, bəyin gördüyü iş-lərdən heç vaxt narahatçılığa düşməzdi. Tam əksinə, ona inanar, hər işdə ona dəstək olduğunu bildirərdi. Bunları sevərək, inana-raq edərdi, daha kiminsə, nəyinsə xətrinə yox. Çünki o da geniş,

əhatəli ailə tərbiyəsi almış və dünyagörüşlü qadın idi. Tanrı onların bu mehribanlıqlarını mükafatlandırmışdı. Onlara Xanlar adında bir oğul, Dürrə adında bir qız bəxş etmişdi.

- Bəy, başına dönüm, yolun açıq olsun, gördüyün hər iş xeyrə calansın. Başına dönüm, çöl-dərə qaçaq-quldurla doludu. Bilirəm, o tərəflərdə səni tanıyırlar, dostların, qonaqların çoxdu, öz işini hamıdan yaxşı bilirsən, ancaq ehtiyatı əldən vermə. Xeyir, rifah üçün gedirsən, qoy Tanrı özü köməyin olsun.

- Duaların qəbul olsun, Xanım.

Hüseynalı bəy həmişə ona Xanım deyəndə adını yox, onun xanımlığını nəzərdə tuturdu. Bunu o da bilirdi. Uşaqlardan muğayat ol, - deyib papağını başına qoydu və bayıra çıxdı.

Açıqqızılı şabalıd rəngi olan papağını tikdirmək üçün Qaragül cinsindən olan quzu dərisini bəy Buxaradan gətirtmişdi. Konus şəklində tikilən şiş papaq, yaxud Qarabağda bəy papağı deyilən bu baş geyimi Hüseynalı bəyin hündür qamətinə xüsusi bir yaraşıq verirdi. Mövsümün yay olmasına baxmayaraq, çuxasını çiyninə atdı.

- Di nigaran qalmayın, öz el-obamıza gedirəm, qalmağa vaxtım yoxdu, tez dönərəm, -deyib pilləkənlərlə aşağı endi.

OOO



***Qarabağ atı***

Hüseynalı bəy at həvəskarı idi, saxladığı at Qarabağ cinsindən olan hündür, uzun boğazlı, ancaq incə görünüşlü, nazik ayaqlı, parlaq kürən rəngdə "Tufan" adlı at idi.

Atın Qarabağ cinsinə xas

olan əsas əlaməti - "qaşqa", yəni başında gözləri arasından burnuna qədər gələn ağ rəngin olması idi. Bundan başqa, atın qabaq ayaqlarının ən aşağısında dırnaqlarının üst hissəsində səkkiz barmaq enində ağ tüklərin olması, yəni "səkil" olması idi. Bu da ata xüsusi yaraşıq verirdi. El içində deyərdilər: "İki göz lazımdı onun yaraşığına baxsın". Bəy həyətdə ata mindi. Əvvəlcədən planlaşdırdığı kimi işlərə nəzarət üçün İbrahim qalacaqdı. Azərlə Mahir onunla səfərə çıxdı. Bəyin Əhərdə alacağı vardı. İki ay öncə yaxın dostu Cabirbəyə göndərdiyi bir sürü (1000 ədəd) qoyun, 300 ədəd mal- qaranın pulunu alacaqdı. Bu ticarət bəyin hər mövsümdə etdiyi iş idi. Həmişə malqaranı göndərər ödənişi almaq üçünsə adam yollayardı. Özü isə bu tərəflərə istirahət etmək üçün vaxt olanda gələrdi. Elə dostları da eyni ilə, nə zaman Agdama gələndə həmişə gəlib Hüseyinalı bəyin qonağı olardılar. Bəyin dostları ilə münasibət etibar və mərdlik üzərində qurulmuşdu. Bir kəlmə sözü puldan, qızıldan üstün tutardılar. Bu dəfə Hüseynalı bəyin özünün gəlməkdə məqsədi nə qalmaq, nə də istirahət idi. İstəyirdi, dostları ilə görüşüb məsləhətləşsin, yaxşı təcrübəli usta kankan (Kankan - quyu, kəhris ustası) bilirlərsə, ona tövsiyə etsinlər.

Əgər belə adam olsa, alacağını nəzərdə tutduğu torpaqlar barədə bu usta ilə məsləhətləşsin. Yeni yerin vəziyyətləri barədə ustayla danışıb təsəvvür yaratsın, görək usta nə deyir. Almaq istədiyi torpaqlardan hansından kəhrizlə yaxşı su çıxacağına əmin olmaq və ustanı gətirib kəhrizi həmin ustaya qazdırmaq istəyirdi. Ona görə bu dəfə özünün gəlməyini qərarlaşdırmışdı. Həmişəki kimi Arazı Xudafərin körpüsündən keçərək yol gəlirdi. Əhərə çatanda qaranlıq düşməsinə baxmayaraq, Cabir bəyə Hüseynalı bəyin gəlməsi xəbəri yetişmişdi. Hüseynalı bəy köməkcilərindən birini xəbər vermək

üçün yollamışdı. Bəy dostunu evdə gözləyirdi. Hüseynalı bəy həyətə çatanda Cabirbəy eyvanda ayaq üstə onu gözləyirdi. Həyətdə isə qonağın gəlməsinə hər cür hazırlıq görülmüşdü. Dostlar görüşüb evə keçdilər. Söhbət əsnasında Hüseynalı bəy bildirdi ki:

- Əziz dost, qismət olsa, nəzərdə tutduğum torpaq əraziləri var. Pulunu hazırlayıb qoymuşam bir tərəfə. Sizdən məsləhət almaq istdiyim məsələ var. Mənə kəhriz ustası tuşudasınız. Daha çox su hansı ərazidə çıxsa, o torpağı almaq istəyirəm. Yuxarısinda bizim kəndə yetəcək qədər coxlu suyu olan kəhriz vurdura bilim. Aşağısında da mal-qara yaylaqdan gələndə qış yatağı kimi bir tərəfdən yer edə bilim. İstiyirəm, ustaya nəzərdə tutulan yerlər barəsində burda təsəvvür yaradım. Əgər ustanın gözü işi yesə, götürüb aparam özümlə bu işi görsün. Təbii ki, ustanın nə qədər təcrübəlı, əli yüngül və işi bərəkətli olduğunu sən mənə bildirməlisən.

- Səni anladım deyərək Cabir bəy sözə başladı. Anladım, sənə elə usta lazımdı ki, çox bacarıqlı usta olsun. Fikir eliyirəm heyvanların üçün yataq seçmək sənin üçün müşkül məsələ deyil, sənin dərdin kənd əhalisinə yetərincə su verməkdi. Sizin obanı bilirəm. Ərazisinə görə sənə hardasa bir baş su lazımdı (Bir baş su - qədim zamanlardan olan bir axar su ölçü vahidi kimi istifadə olunurdu. İndiki hesabla təxninən diametri 70 sm- ə çatan su borusundan öz təzyiqiilə axan suyun həcminə bərabərdi). Məncə, səni bu dəfə bu tərəfə gətirən bu istəkdi. Elə bu gözəl istəyinə görə dünyanın o başına da getməyə dəyər.

- Məsləhətdisə Təbrizə getmək istəyimi sənə deyim. Çünki bir iş görürüksə, layiqincə, görək.

- Doğru deyirsən, deyə Cabirbəy sözünə davam etdi. Sənə elə bu yaraşır. Bilirsən Əhərin torpağı Təbrizə baxanda nisbətən hamardı. Təcrübəli bir usta tanıyıram. Eşitdiyimə görə əlində yeni başladığı iş var. Ancaq Təbrizdə sorağı buralara qədər gəlib çatan Kamil usta deyə bir kankan var. Bu sənət ona ata-babasından qalıb. Təbrizin əhalisi çox, ərazisi böyuk olduğundan bu ustanın təcrübəsi çoxdu. Elə Təbrizin quruluşu da Qarabağ kimi böyük dağlar əhatəsindədir.

OOO

Dostlar gecəni qaldıqdan sonra səhər Hüseynalı bəyin Təbrizə yollanması qərarını verdilər. Yay olduğuna görə gecə atlara az arpa ilə çoxlu kişmiş yedirtdilər. Səhərə qədər yatıb dincəldikdən sonra Hüseyinalı bəy öz köməkçiləri ilə yola düşdü. Hüseynalı bəyin Təbrizdə çoxlu dostları, qonaqları vardı. Bunu Cabir bəy bildiyindən ona nə bələdçi, nədə kiminsə yanına getməyi təklif etmədi. Çünki təklif etmək artıq olardı. Hüseynalı bəy artıq birbaş Əli Əkbər bəyin görüşünə gedəcəyini qərarlaşdırmışdı. Bəyin Əli Əkbər bəylə dostluğunun onlar üçün xüsusi yeri var idi. Əvvəla bu dostluq onlara atalarından qalan miras idi. Yəni həm ataları, həm də babaları dost olmuşdular. Bundan başqa yaşıd olmaqla, dost olmaqla yanaşı, keçənlərdə baş vermis iki hadisə onların dostluğunu qardaşlıq səviyyəsinə gətirmişdi. Birinci hadisə belə olmuşdu. Ağdamda Əli Əkbər bəyə Fərrux meşəsində qaçaqlar hücum edəndə Atışma səsinə gələn Hüseynalı bəy onu basqından qurtarmışdı. İkinci hadisə isə

Hüseynalı bəyin mal-qarası Təbrizə, satışa gedəndə heyvan üstə gedən adamları İran hökumətinin hərbişiləri tərəfindın qaçaq adı qoyub qazamata basırmışlar, gətirdikləri sürüləri əllərindən almaq istəyəndə Əli Əkdər bəy özünü yetirmiş və Hüseynalı bəyin mal-qarasının əlindən getməsindən qurtarmış, adamlarını qazamatdan azad etdirmişdi. Bu hadısələrdən sonra dostlar öz dostluğunu Allahın təqdiri kimi bilir və bir birilərinə qoruyuci mələk kimi baxırdılar. Daha iki gün sonra axşamüstü Təbrizə çatan Hüseynalı bəy atını birbaşa Əli Əkbər bəyin evinə sürdü. Ora çatanda Bəy artıq eyvanda onu gözləyirdi. Həyətin girişində qonaqları görən kimi yerində dayanmayıb həyətə endi, qapıya doğru gəldi. Çünki bunlar adi qonaq, dost yox, demək olar qan qardaşı idilər. Mehriban görüşdükdən sonra evə qalxdılar. Çay, yemək süfrəsi ətrafında xoş hal əhval tutandan və Bəyin Təbrizə bu dəfəki gəlişinin səbəbini biləndən sonra:

- Sorağı düz eşitmisən, ən yaxşı kəhriz üstası elə Kamil ustadı, - deyə Əli Əkbər bəy sözə başladı. Təbrizə gələn ən yaxşı kəhrizlərin üstündə elə Kamil ustanın işlədiyini bilirəm. Özü ilə yaxşı münasibətim var. Yaxşı sənətkar olmaqla yanaşı, yaxşı tərbiyə görmüş, hər şeyin yerini bilən, ürəyi su kimi təmiz, əliaçıq adamdı. Əliaçıqlığını mən onda bilirəm ki, öz gözəl sənətini başqalarına qısqanmır. Nəinki, oğul uşağına, əqrəbasına hətta kim olur - olsun, bu sənəti öyrənmək istəyən hər kim olsa, böyük məmnuniyyətlə yanına alır, iş, qazanc verir və qısqanmadan öyrədir. Deyir, su Allahın nemətidi, xalqa, camaata məxsusdu. Biz nə edirik ki, sadəcə Tanrı bizim əlimizlə suyu camaata çatdırır. Sən hələ bir dincəl, mən indi adam yollayıb gəlməsini xahış edəcəm. Son məlumatıma görə Eynalı dağının gündoğanındakı kəhrizin təmizlənməsi ilə məşğul idi. Dəqiqini özü gələndə deyəcək. Həmin kəhriz Təbrizə gələn kəhrizlərin

ən bol sululanndandı. İllər öncə həmin kəhrizi Kamil usta özü qazıb. İndi səhv etmirəmsə cari təmizlənməsi ilə məşğuldular.

Şam yeməyindən bir az keçmiş Bəylər çay süfrəsinə əyləşmək istəyəndə Kamil usta gəlib çıxdı.

Ədəb - ərkanla görüşdükdən sonra çay süfrəsinə əyləşdilər. Kamil usta biləndə ki, Hüseynalı bəy

Qarabağdandı, Ağdamdandı çox sevindi, görüşməyə çox şad olduğunu bildirdi və Hüseyinalıbəyin məhz onunla əlaqədar gəldiyini eşıdəndə:

- Əgər bizə ümid olub gəlibsə getməmək olmaz, -deyə sözə başladı. Burda indi məşğul olduğum məsələ kəhrizin təmizlik işidi, o da sonuncu quyunun çıxacağını təmizləyirdik. Önəmli bir iş qalmayıb. Tapşırıqlarımı vermişəm. İşləyənlərin üstündə böyuk oğlum dayanıb. Hesab edirəm təvəqqe etdiyiniz vaxtda Ağdama yola düşə bilərik.

Usta ilə işin belə alındığıdı görən Hüseyinalı bəy inancını dilə gətirdi:

- Belə yerdə deyirlər, Allah xeyir, rifah işə zamindi. Əgər məsləhətdi, sabahertədən tərpənib Əhərdə gecələyib sonra Ağdama yollanarıq.

OOO

Dörd gün sonra Bəy, köməkçiləri və kəhriz ustası Kamil kişi artıq Ağdamda idilər. Gecə dincəldikdən sonra səhərisi İbrahimi yanına çağırab Çoban dağından Yeddi Xırman yüksəkliyindən tutmuş Şahbulaq istiqamətində bütün əraziləri ustaya göstərməyi tapşırdı. Buyruğu alan kimi İbrahim Kamil ustanı götürüb yola çixdılar. Yol boyu Kamil ustanın ətrafa heyranlığını görən İbrahim qonağa ehtiram olaraq bu yerlər haqqında geniş məlumat

vermək istədi. İbrahim özü də el- obasının, torpağının aşiqi idi. Burda yaşayıb buranı sevməmək, onu əzizləməmək hər adamın işi deyildi.

- Ağsaqqal, deyəsən, bu tərəflərdə birinci dəfədi olursan, - deyə İbrahim sözə başladı.

- Elədi, əzizim, - deyə Kamil usta təsdiqlədi.

- Bu yerlərin tarixi çox qədimdi. Üzərliktəpə, Leylatəpə deyilən ərazilərdə ən qədim insanlar yaşayıb. Hətta deyirlər, Üçoğlan təpə deyilən ərazidə səkkiz min il bundan əvvəl yaşayış olub. Qədim Türk tayfalarının dilində "Kiçik qala" mənasını verən Ağdam adı həmçinin günəş şüaları ilə nurlanmış, işıqlı, ağ ev deməkdi Amma tarix ordan başlamır. Burda qədim Qarqarlar tayfası olub, bizim Qarqar çayı boyunca məskunlasıblar. Bunun da tarixi Albaniya quldarlıq dövrünə qədər gedib çıxır. Bizlər həmin bu Türk Azəri tayfalarının balalarıyıq. Buralarda o qədər qədim türbə var, saymaqla qurtamaz. Elə bizim Salahlı-Kəngərli kəndindəki türbənin 500 - dən çox yaşı var. Hələ 200 il əvvəl Qarabağ xanı Pənahəli xan burada özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət tikiləndən sonra uzun müddət ətraf kəndlərin camaatı üçün bir növ nişangaha çevrilib.

İbrahim söhbət edə - edə bəyin nəzərdə tutduğu torpaqları Kamil ustaya göstərirdi. Kamil usta ona göstərilən torpaqlara çox diqqət ayırıb arxayın baxdıqlarından onlar geri qayıdanda artıq axşam idi. Bu vaxt Hüseynalı bəy dərsdə olurdu. Onun elmə, maariflənməyə marağı, istəyi təkcə istək səviyyəsində deyildi. O bu yolda əməli iş görürdü. Öz vəsaiti hesabına tikdirdiyi kürsülü tikilidə məktəb açmışdı, yəni tikili elə bunun üçün tikilmişdi. Dərsləri günün ikinci yarısına salmışdı ki, həm təsərrüfat işlərindən qalmasın, həm də əsas məqsədi axşam dərslərində uşaqlarla bərabər həvəsi olan böyüklərin təhsil

almasını planlaşdırmışdı. Həmişə söz düşəndə deyirdi: "Dünyanın gəliş-gedişindən, gərdişindən baş çıxarmaq üçün əsas məsələlərdən biri, bəlkədə, birincisi, elmdən xəbəri olmaqdı". Bu dediyinə yetərincə vaxt ayırır, el-obasının maariflənməsi yolunda birbaşa iştirak edirdi.

Sinifdə usaqlara və böyüklərə Yazı, Hesab, Ana dili, Quran, rus dili və s. dərslər təşkiıl etmişdi. Dərs dediyi şagirdlər arasında oğlu Xanlar və qızı Dürrə də var idi. Bunu biləndə təbrizli usta təəccübünü saxlaya bilmədi.

- Afərin bu qədər mal - mülk, təsərrüfat idarəsi, camaatın iş-gücü içində vaxt tapanda gedib istirahət etmək əvəzinə onların uşaqlarına dərs vermək, onlara elm öyrətmək ... Nümunəvi, adammış.

- Hələ bu harasıdı, hal-hazırda Bəy öz hesabına iki nəfəri Bakıda, bir nəfəri Qoridə oxudur.

- Şükür edin belə ağsaqqalınız var. Yaşına baxırsan azdı, ancaq yetmiş yaşlı adamın dünyagörüşü ilə hərəkət edir.

Dərs bitənə qədər Kamil usta nahar edərək bəylə görüşməyə hazır oldu. Bəy ustanı yaxşı dinləmək üçün çay süfrəsinə əyləşdilər. Ətraflı söhbətdən sonra ustanın danışığından satılan yerlər içərisində Çullu dağından Qaramanlı bulağına qədər olan ərazinin ən əlverişli olduğu qənaətinə gəldi. Bura satılan ərazilər işərisində ən böyüyü idi. 400 hektardan çox olan ərazi Kalvalı bəyə məxsus idi. Uzun illər istifadəsiz qalan bu ərazi o vaxtkı qiymətlətlə müqaisədə baha qiymətə deyilsə də, Hüseynalı bəy halallıq olsun deyə aldığı adamla deyilən qiymətə razılaşdı. Həmin ərazi üçün bəy bir sərnic (16 kq) qızıl ödədi və həmin ərazini aldı. Alış-verişdən, xeyirləşmədən sonra bəy biruzə verməsə də, işindən çox fərəhlənirdi. Onun fərəhinin əsas səbəbi mülk, torpaq sahibi olması deyildi, yox. Çünki o, əlindəki

torpaq üşün ödədiyi qiymətə bundan daha böyük bağ-bağat, bundan daha gözəl imarət ala bilərdi. Onun fərəhinin əsas səbəbi həmin ərazıdən bolsulu kəhrizi qazdlra biləcəyi ilə əlaqədardır. Əgər qismət olsa, bununla kəndin, el-obanın şirin suya ehtiyacı ödənmiş olacaqdı. Kənd o qədər də kiçik sayılmazdı, burda 280 dən artıq təsərrüfat vardı. Qanun - qaydaya uyğun olaraq alınmış ərazinin ətraf sərhəddi boyunca gəzərək yerlərə kömür və yazı basdırıldı. Sonra bəy kömək üçün lazımi qədər adamları ayırıb Kamil ustanın yanına göndərdi. Kəhrizın qazılmasına başlamağı ondan xahiş etdi. Bismillahla kəhriz qazılmağa başladı.

Belə xeyirli işlərin qismət olduğu vaxtda İbrahim Nicatın məsələsinin bəyə deyilməsinin məqamı olduğunu qərar verərək ona yaxınlaşdı. Məsələni ətraflı, özündə olan məlumatlarla bəyə nağıl etdi.

- Əsas məsələ Nicat və qızdı. Bunlar bir-birilərini çox istiyillər? - deyə bəy dəqiqləşdirmək istədi.

- Bəy, məsləhət bilsəniz Nicatı çağırım, özünüz danışdırın.

- Ehtiyac yoxdu, elə dediklərin bəs elədi. Ancaq ləngimə, məsələnin əslini bilmək və səbəbini aradan qaldırmaq lazımdı. Böyüklərin fikrini dinləməmək, xeyir-duasını almamaq olmaz, - deyib bu məsələ ilə məşğul olacağını bildirdi.

OOO

Huseynalı bəy Rəşid bəylə Bəhram kişinin arasındakı soyuqluğu, bir birilərini sevmədiklərini bilirdi. Ancaq bu istəklilərin işinin 3 ildən bəri uzandığını biləndə məsələdə nəsə məkirli bir fitnənin olduğunu düşündü. Cünki bu kişilərin hər ikisi layiqli, özlərinə hörmət qoyan adamlar idi. Hardasa ilyarım bundan qabaq Bəhram kişinin Kötəl arxının üstündəki su

dəyirmanının üstündə mübahisələri düşmüşdü. Rəşid bəy dəyirmanı ucuz qiymətə almaq fikrinə düşmüşdü. Bu barədə Bəhram kişinin üstünə gedəndə dəyirmanın satılmadığını, onlara dədə-babadan miras qaldığını demişdilər. Bu sənətin onlara ata-babadan qaldığını və heç vəclə buranı satmaq fikrində olmayacaqlarını bildirmişdilər. Nicatın başqa qardaşları atalarının yanında bu sənətə yiyələnib işləyirdilər. Rəşid bəy əl çəkməyib bir az da irəli duranda aralarında əməlli-başlı mübahisə düşmüşdü. Məsələyə ağsaqqallar qarışandan sonra mübahisə yatmışdı. Ancaq məsələnin dibinə getməyi heç kəs düşünməmişdi. Bu işi Nicatın məsələsi ilə birlikdə düşünəndə, həqiqətən də, burda bir fitnənin olması qənaətinə gəldi. Yaşayış vaxtı incikliklər, xırda mübahisələr qaçılmazdı. Ancaq işə fitnə qarışdığını hiss etdiyinə görə bu kişiləri barışdırmağı özünə bir vəzifə bildi. Ustəlik bu işin başında iki sevdalının qovuşması dururdu. O bunu İlahinin insanlara bəxş etdiyi ən gözəl nemət olduğuna inanırdı.

Hər işin özünə görə həlli yolu var. Bəy ədəb-ərkan bilən adamıdı. Axşamüstü evdə bəy xanımını yanına çağırıb sözə belə başladı.

- Bu Bəhram kişinin oğlu Nicat Rəşid bəyin qızı Səadəti istəyir. Məsələ uzanır, dediklərinə görə çox uzanır. Hər işi görməyin öz yolu yorğanı var. Xanım, sən bir məsələnin əslini öyrənməyə çalış. Lazım gəlsə, evlərinə get. Burda nəsə var. Hiss eləyirəm ortada araqarışdıran var.

Son sözü deyəndə  bəy erməni arvadını nəzərdə tuturdu. Ancaq ədəb qaydalarına görə bəy qadının adını dilinə gətirmədi. Xanım ana haldan anlayan, işarədən qanan idi, belə məsələlərdə çox qabiliyyətli idi.

- Narahat olma, bəy, -deyə bəyin sözünü bitirdiyini hiss edib

sözə başladı. Yaradanın köməyi ilə biz əlimizdən gələni edərik ki, bu gənclər nakam qalmasın.

Bu söhbətdən keçən bir həftə içində Xanım ana üsulu ilə Səadətgilə getmiş və məsələni Səadətin anasından öyrənmişdi.

Bəyin təxmin etdiyi kimi Qəniş arvadın gəlib getməkdə, söz aparıb gətirməkdə marağı var imiş. Özünün verdiyi məlumata görə İrəvan tərəfdən Kəlbəcərin alt tərəfində bir yerə köçürülüb yaşayan qardaşı oğlu üçün guya qız istəyirmiş. Bilinənə görə İrəvanda olduqları yerə şimaldan köçürülüblərmiş. Dedikləri, bu adamın yaşı o qədər gənc deyilmiş. Arsen adlı bu adamın sorağı daha çox mübahisəli məsələlərdə hallanırmış. Qızın könlü Nicatda imiş. Ancaq bu erməni arvadı heç əl çəkmirmiş. Elə hər vəclə olandan olmazdan qurub quraşdırdığından danışaraq ara vurub münasibəti pozurmuş.

Hüseynalı bəy Xanım ananı diqqətlə dinlədikdən sonra bu məsələnin - Qəniş arvadın gəlib getməyinin qız istəmək mövzusu olmadığı, burda daha böyük fitnənin, marağın olduğunu başa düşdü. Axı ömrü boyu "ermənilərə qız vermək" bütün Azərbaycanda, xüsusən Ağdamda belə şey olmamışdı və olada bilməzdi. Bəy məsələni daha dərindən öyrənmək lazım olduğunu hesab edirdi. Narahatçılıq olmasın deyə bu barədə Xanım ana ilə danışmamışdı.

## KƏHRİZ VƏ NİCATIN YARALANMASI

Havaların isti keçməsinə baxmayaraq, dağların üstü yamyaşıl kollarla örtülmüş, Çullu dağından başlayan meşə Fərrux dağının üstünə qədər qalınlaşa-qalınlaşa gedirdi. Füsunkar görünüşə malik olan bu təbiətə adam valeh olmaya bilmirdi. Uzun illər boyu bu yerlər məkanına, əvəzsiz təbiətinə görə həmişə nəinki sadə insanların həmçinin tarixi şəxslərin və böyük imperiyaların diqqət mərkəzində olub. Bunlardan hər biri bu yerlərə öz təbinə uyğun münasibət edirdi. Yerli camaat bu yerləri açıq xasiyyətlə, çılğın məhəbbətlə sevdiyi halda, səyahət edən dahi yazarlar bu yerləri öz xatirələrində böyük heyranləqla təsvir edirdilər. Böyük imperiyalarsa hər biri öz quruluşuna görə min cür yolla bu torpaqlara sahib çıxmaq istəyirlər. Bəziləri birbaşa qoşun çəkib işğal etmək yolunu seçir, bəziləri isə el-oba arasında müxtəlif yollarla fitnə-fəsad salmaqla, hörmətli kişiləri bir-birinə qarşı qoymaqla, camaat arasında birliyi sarsıldaraq məqsədlərinə nail olmağa çalışırdılar. Bu yolu tutanlar Qarabağ camaatının min illərdən bəri formalaşmış qonaqpərvərlik, xoşgörülük xüsusiyyətindən böyük məharətlə istifadə etməyə çalışırdılar. Dərin düşüncəyə və dünyagörüşünə malik olan insanlar bunu yaxşı başa düşürdü. Buna görə Hüseynalı bəy öz camaatının maariflənməsini, elmlənməsini istəyirdi və bu yola inanırdı. İnanmaqla yanaşı bu yöndə əməli fəaliyyətdə idi. Həmişə el-oba içində barışdırıcı mövqedə olan bəy Nizami Gəncəvinin vurğunu olduğundan belə məqamlarda ondan beytlər deyirdi. Camaat bir yerdə olanda, yaxud bir məclisdə olanda o Şeyx Nizaminin:

Nifaq olan yerdə fəlakət də var,  
Səadət günəşi birlikdən doğar

beytini dilə gətirirdi.


**Nizami Gəncəvi**

Usta Kamil bəyin bu cür poetik ruhuna heyranlığını gizlətmirdi. Məmnun olduğunu bildirir və daha çox bəyin birlik haqqında Nizamidən dediyi beytlərdən:

Bir olsa yoldaşın dostun əməli
Daşdan su çıxarar onların əli.

beytini xoşladığını deyirdi, sonra zarafat edərək: yəqin bu beyt bizim sənətimizlə birbaşa əlaqədar olduğundan mənim xoşuma gəlir, - deyirdi. Axı bizim sənətimiz dağdan, daşdan su cıxartmaqdı.

Kamil usta Ağdamın, Qarabağın təbiətinə heyranlığını gizlətməyərək deyirdi:

- Mən Təbrizdən başqa Ərdəbil, Xoy, Zəncan, Rəşt, Qəzvin və Həmədanı görmüşəm. Bəzilərində işləmişəm. Kəhriz qazıb su çıxartmışam. Ancaq Qarabağın təbiəti, havası, suyu kimi gözəlliyə heç bir yerdə rast gəlməmişəm. Təbriz gözəl yerdi. Ora Eynalı, Səhənd, Surxab və Yanıq adlı dağlarla əhatə olunub. Deyilənə görə, şəhərin 5000 yaşı var və şəhərin adı burdan yaranıb Tav və Riz, yəni dağarası deməkdi. Ancaq Təbrizin də Ağdam kimi nur saçan, işıq saçan mənası da var. Bu, yəqin ətraf dağların, xüsusən, Yanıq dağın davamlı vulkanlı oması idi. Havası gözəldi Ağdam kimi, amma burdakı qədər yaşıllıq yoxdu. Bir də Qarabağın ərazisində davamlı olaraq Murovdağ dediyiniz dağda il boyu qar olur. Bu da bura xüsusi gözəllik və saf hava verir. Biz tərəfdə ancaq Savalan dağında il boyu qar var, amma Savalan Təbrizdən bir az aralıdadı. Bu baxımdan Qarabağ daha

gözəldi.

OOO

Günün ikinci yarısı idi. Kəhrizin artıq üçüncü quyusu qazılırdı. Kamil usta və köməkciləri bir yerdə işləyirdilər. Nicat isə yuxarıda birinci quyunun yanında, hər tərəf görünən yerdə silahla oturmuşdu. Hələlik şər qarışmamışdı yuxarıdan hənirti gəldi. Kamil usta yuxarı baxanda Nicatın yanında üç nəfər gördü. Onlardan ikisi bədəncə Nicatdan daha canlı idi. Çox kecmədi, aralarındakı danışıq mübahisəyə çevrildi. Aşağıda Nicatın səsi eşidilirdi:

- A namərdlər, nəyə, kimə güvənib gəlmisiniz. Bilmirsiniz silahsız üçünüzün də boynunu qıraram?- deyəndə bunlardan biri irəli durdu.

Nicat ani bir yumruqla onu yerə sərdi. Yerə yıxılan o yıxılan oldu, daha tərpənmədi. Qalan ikisi bir yerdə Nicatın üstünə cumdular. Qapışdılar. Nicat bunların hərəsinə bir necə yumruq vurub yerə yıxanda gələnlərin balaca tayı gördü ki, əlbəyaxa Nicatla bacarmayacaqlar bir az geri çəkilib silaha əl atdı. Nicat o biri ilə döyüşəndə onun kürəyinə atəş açdı. Üçüncü quyu ilə məsafə aralı və yoxuş olduğuna görə mübahisə başlayanda Kamil usta və yanındakılar yaxınlaşmaq istəsələr də köməyə çata bilmədilər. Bunlar çatana qədər gələnlər birinci quyuya bir bağlama atdılar, yerə yıxılanı götürüb yaxınlıqdakı meşəyə girərək gözdən itdilər.

Kamil usta və köməkçiləri gəlib çatanda Nicat qan içində idi. Gələnləri tanıyıb bir kəlmə "Arsen" deyib özündən getdi. Güllə kürəyini sağ tərəfdən bir az yuxarıdan dəlib keçmişdi. Qan onu

aparmasın deyə yaralarını bərk sıxaraq hamısı onu dağdan aşağı endirməyə çalışdı. Nicat ağrıdan ilan kimi qıvrılırdı. Onu ölümdən qurtarmaq həyəcanına qapılaraq namərdlərin quyuya nə tulladığı barədə heç kəs duşunmədi. Onlar gəlib dağin ətayinə çatanda yuxarıda birinci quyudan bərk partlayış səsi eşidildi. Partlayış səsi kənddə hiss olunduğundan İbrahim Hüseynalı bəyin tapşırığı ilə tez atlanıb kəhrizə tərəf sürdülər. Kəndin çıxacağında Nicatı gətirənlərlə rastlaşdılar. Nicatı evə gətirmək üçün onlara kömək lazım olmadığından, məlumat alıb partlayışın nə olduğunu öyrənmək üçün atları kəhrizə tərəf sürdülər. Yaralını birbaş bəyin malikanəsinə gətirdilər.

Bu belə olmalı idi. Çünki işlə əlaqədar olmaqdan başqa, Hüseynalı bəy Qori seminariyasında aldığı ilk yardım dərslərindən və oxuduğu tibb kitablarından müəyyən qədər həkimlik təcrübəsi toplamış və bacardığı işlərdən bu sahədə də lazım gəldikcə camaata köməklik edirdi.

Bəy hər şeydən əvvəl Nicata ilk tibbi yardım etdi. Yarasını təmizləyərək bərk sarğı qoydu, özünə gəlməsini təmin etdi. Öldürmək məqsədi ilə atılmış güllə onun sağ kürək sümüyünün aşağısını sındırmışdı. Ona görə yara bərk ağrı vermışdi. Məsələnin necə baş verdiyini bəyə danişdılar. Arsen adını eşidəndə bəy məsələnin təkcə qız istəmək üstə gənclərin mübahisəsi kimi olmadığını hiss etdi. Üstəlik bu partlayışın nə olduğu barədə məlumat hələ gəlib çatmamışdı. Hadisə barədə danışılanda hələ bağlama barədə dəqiq məlumat verilməmişdi. Elə bu dəmdə İbrahim xəbər gətirdi.

- Bəy partlayan bomba imiş. Namərdlər kəhrizin birinci quyusuna partlayıçı atıblarmış. Birinci quyu tamamilə uçulub tökülüb içinə. İbrahimin çox təlaşla danişdığını görən bəy onun sözünü kəsdi.

- Çox həyəcana girməyə gərək yoxdu, əsas odu Nicat təhlükəni adlatdı. Bu partlayışda ancaq kəhriz məsələsi deyıl. Çox təşvişə düşməyin, hirsli başda ağıl olmaz. Ancaq bütün işlərinizdə daha diqqətli olun. Təhlükəsizliyə nəzarət artırılsin. Mən bu işin əslini dəqiqləşdirənə qədər hələlik qəti addım atılmasın. Məsələ siz düşündüyünüz qədər sadə deyil. İbrahim, Səfəri yanıma göndər, - deyib evə qalxdı.

Çox keçmədi Səfər gəlib bəyin yanına qalxdı.

- Səfər, hazırlaş, həmən yola düş. Əvvəl gedərsən İrəvana tərəf. Arsen adlı erməni namərdini yaxşıca öyrənərsən. Bütün obalardakı dostlarım olan bəyləri sən tanıyırsan. Xəbərin ardınca gedərsən. Məqsədin kimlərlə əlaqədar olduğunu, haralardan tapşırıq aldığını öyrənməkdi. Bəri başdan sənə deyim özünü qohumu kimi göstərən Qəniş arvad guya gətirib onu bura calamaq istəyir. Ancaq məsələ qohum olmaq deyil, işi ona görə öyrən. Burda nəsə başqa oyun var. Son vaxtlar bunlar yaman canlanıblar. Di haydı, tərpən.

Səfər çıxandan sonra Hüseynalı bəy Xanım ananı yanına çağırdı.

- Xanım, bu hadısələr, dava, partlayış qız istəmək üstə gənclərin davası deyil. Burda daha böyük işlər var. Hesab edirəm bu yaxınlarda guya xeyir iş üçün bu ermənilər Rəşid bəyin qapısını döyəcəklər. Mən xəbər gözləyirəm. Nicat sağalana qədər heç olmasa xəbər gələnə qədər bu məsələni ləngitmək məsləhətdi. Sənin xanımlar arasında danışıb məsələni anlatmağını istəyirəm. Mən uyğun bir dildə Rəşid bəylə danışasıyam.

Səhəri gün bəy kəhrizin durumu barədə Kamil usta ilə görüşdü.

- Usta, necə bilirsən işimiz cox izandı? - deyə soruşdu.

- Bəy, siz heç onun fikrin eləməyin. Böyük iş deyil, bir az vaxt lazımdı. Belə vəziyyətlərdə partlayış görməsəm də, bəzən quyularda torpaq uçurdu. Biz quyuya içəridən hörgü hörürdük. Elə içazə versəniz birinci quyunu içəridən tikərdik. Hörəndə daha möhkəm olacaq.

Hüseynalı bəyin ustaya hazırladığı bir təklifi vardı:

- Usta, bir şey məsləhət edim, yəqin hörgü üçün köməkçılər partlayışdan və silkələnmədən tökülmüş daş-torpağı təmizləməlidilər ki, sən oranı hörə biləsən. Bu bir az vaxt aparacaq. Mənim gördüyümə görə aşağı quyuda da köməkçilərinə tapşırıq versən işləyə biləcəklər. Məsləhətim odu, coxdan gəlmisən. İstiyirəm, bir az istirahət verəm sənə. Göndərəm, gedəsən ailəni görüb sonra qayıdasan.

Bəy qonağı təlaşlandırmamaq üçün özünə deməsə də, bu tədbiri təhlükəsizlik məqsədi ilə edirdi. Cünki bu ərəfələrdə hər tərəfdə, həqiqətən, vəziyyət çox gərgin idi. Dünyagörmüş Kamil usta haldan anlayan idi. Ona görə heç bir israr gözləmədən:

- Bəy, siz necə məsləhət bilsəniz, elə o cür edəcəyik.

Növbəti gün bəy iki nəfərin müşayəti ilə ustanı Təbrizə göndərdi. Getməzdən qabaq usta köməkçilərinə lazımi tapşırıqları vermişdi. Beləliklə, kəhrizdə iş dayanmadı.

## ERMƏNİ MƏSƏLƏSİ

Aradan bir həftə keçməmiş bəyin təxmin etdiyi kimi, Qəniş arvad Rəşid bəyin xanımı Nazlı xanıma Səadətlə əlaqədar xəbər yollamışdı. Bundan qabaq Hüseynalı bəyin ismarıcnı Xanım ana Nazlı xanıma bildirmişdi. Buna görə qız evindən onlara hər hansı bir söz verilməmişdi.

Bu xəbərin səhərsi günü Nicatın halı pisləşdi. Coxlu qızdırması və rəngində saralma var idi. Canı bərk ağrıyırdı. Bu xəbər bəyə çatanda özü gedib Nicata baş çəkməyi qərara aldı. Evlərinə gələndə Bəhram kişi onu qarşıladı.

- Bəy, başına dönüm, nə zəhmət çəkmisən, - deyə Bəhram kişi sözə başladı Cavandı, canı möhkəmdi. Allahın köməyi ilə bu bəlanı adladar. Yarası elə sağalan kimi idi, amma birdən gecə başladı qızdırması qalxmağa. Səhər baxırıq ki, rəngində dəyişiklik var.

- Əşi, nə zəhməti var, sənin balan mənim balam, nə fərqi var. Bir də Nicat kimi igid, qeyrətli oğul və onu yetişdirən ailə hər hörmətə layiqdi. Biri Nicat boyda, ikisi bundan canlı üç adamın qabağına çıxır, dərslərini verir, silaha əl atmağı heç ağlına gətirmir. Ancaq nə edəsən, qarşıdakılar namərddilər. Adamı arxadan vururlar. Tezliklə sağalar, ayağa durar. Bizim el-obaya Nicat kimi igid oğullar, elə sənin kimi belə oğul yetişdirən atalar da lazımdı. Qoy Allah anasından da razı olsun, belə igid oğullar, ismətli qızlar dünyaya gətirirlər, onların min bir nazını çəkə-çəkə böyüdürlər, tərbiyə edirlər.

Hal-əhval tutandan sonra bəy Nicatın yanına keçdi.

- Necəsən igid?

- Yaxşıyam, bəy. Nə zəhmət çəkmisiniz bir heylə işinizin

arasında durub gəlmisiniz.

Nicat qalxıb oturmaq istəyirdi, ancaq səsindəki halsızlıq onun yarasının ciddi olduğunu bildirirdi.

- Yastığın yüngün olsun bala, mənim işim elə səninlə maraqlanmaqdı.

Təhsili ilə əlaqədar olaraq bəy üstəlik xalq təbabətindən geniş məlumatlı idi. Digər yandan son zamanların qacaq-quldur, silah, atışma hadisələrindən törənən yaralar və bu yaraların fəsadları ilə daha tez-tez rast gəlinməsi onda müəyyən bir təcrübə formalaşdırmışdı. Nicatın yarası fəsad vermişdi. Görünür güllə yarasından qana zəhər keçmişdi. Ancaq bəy bu barədə Nicata, və atasına bir söz demədi. Bəy Nicatın yanından ayrılıb o biri otaqda Bəhram kişi ilə çay süfrəsinə əyləşdi.

- Bəhram kişi, yanına məsləhətə gəlmişəm.

- Nə məsləhət?Bəy, başına dönüm.

- Elə Bakıya getmək istəyirəm, işlərim var. İcazən olsa, Nicatı müalicə üçün, yaxşı həkimə göstərib tez sağaltmaq üçün Bakıya aparmaq istəyirəm. Dedim, elə getmişkən igidi özümlə apararam. Orda daha tez sağalar.

Hüseynalı bəy söhbəti belə quraraq bu işin xərcini özü çəkəcəyinə işarə edirdi. Onun Bakıya səfəri və orda işləri var idi. Ancaq indi yox, bir neçə gün sonra gedəcəkdi. Nicatı isə indidən göndərməyi planlaşdırırdı.

- Nə deyim, bəy, mənim oğlum sənin oğlun, nə fərqi var. Bu evin də, bu elin də ağsaqqalı sənsən. Sən belə məsləhət eliyirsənsə, demək, belə məsləhətdi.

- İnşallah gedək qayıdaq bu igidin xeyir işini də məsləhətləşib həll edərik. Namərd ermənilərdən xəbər gəlmədiyinə və bu mövzuya həmən girməməyin məsləhət olduğunu düşünərək Rəşid bəylə Bəhram kişinin arasındakı məsələyə bu gün ancaq

işarə etməklə kifayətləndi. Fikirləşdi, qoy Bəhram kişi bu məsələnin də bəyin nəzərində olduğunu bilsin. Nicatı hazırlaşdırın İbrahim indi gəlib onu götürəcək. Ləngimədən yola düşmələri lazımdı-deyib ev əhli ilə xüdafizləşəndən sonra oranı tərk elədi. Adam yolladı ki, İbrahim tez yanıma gəlsin. Xıdırlı kəndinin alt tərəfindəki əkin sahəsində. "Qozlu bağ"ın yanında olacam. Çox keçməmiş İbrahim artıq Hüseynalı bəyin yanında idi!

- Bəli, bəy məni çağırmısız? -deyə İbrahim yaxınlaşdı.

- Nicatı təcili Bakıya çatdırmaq lazımdı. Nicatı hazırlayırlar. Sən Bakıdakı evin açarını götürərsən. Sonra yaxşı sovqat hazırladırsan, Hacının (Hacı Zeynalabdin Tağıyev) evinə çatdıracaqsan. Sovqatı keçən dəfə necə hazırlamışdı elə - Qarabağın təzə meyvələrindən və məhsullarından olsun. Özün bilirsən. Əvvəlcə Bakıya, evə çatan kimi gəldiyini dostum Mirzə Rəhimə xəbər verəcəksən. O, lazım olan həkimi gətirəcək. Mən burdan teleqram vurdurub məsələni bildirəcəyəm. Sonra sovqatı çatdıranda evə məlumat verki, Hacı ilə görüşə gələcəm. Burda bir vacib işim var, onu görüb özümdə çıxacam Bakıya.

OOO

Hüseynalı bəy iş deyəndə Səfəri nəzərdə tuturdu. Səfərin Arsen barədə gətirəcəyi xəbərlər bəy üçün çox vacib idi. Çünki son zamanlarda hər tərəfdən çaxnaşma xəbərləri gəlirdi. Yəni bu gərgin vəziyyətin miqyasının böyük olduğunu bəy hiss edirdi. Böyük düşüncə və böyük məhəbbətə əsaslanaraq hərəkət edən insanların əməlləri daha mənalı olar və doğrusuda budur, düşüncəsi ilə yaşayırdı. Hüseynalı bəy həmişə ətrafında olan söz sahibi kişilərlə söhbət edən zaman deyirdi: "Böyük dostların,

böyük dediyimiz əlaqələrin, sənə ümid yeri kimi baxan insanlara bir faydası dəymirsə, onda bu dostluq lovğalıq və təkəbbür hissindən başqa bir şey deyildir”.

İki gün keçməmiş Səfər qayıtdı. Bir baş bəyin yanına yaxınlaşaraq məsələni danışmağa başladı.

- Bəy, təxmin etdiyin kimi Arsenin bu murdar fəaliyyəti İrəvandan, başlayır əsli-nəcabəti bilinməyən bu namərdin günü, güzəranı elə bu çaxnaşma, dava, münaqişələrlə keçir. Gördüyü hər nəsə qaçaq-quldur işi deyil, əməlli-başlı təşkil edilmiş, quraşdırılmış işlərdi. Öyrəndimki, bunların bir xəlvət idarələri var. Bu idarəyə çox yekə güclər, adı-sanı bilinməyənlər nəzarət eyləyir. Pullarının sayı-hesabı yoxdu. Bu yerə mən bizim Nicatın işindən və bundan əvvəlki işlər barədə xəbərlərin dalınca gedib çıxdım.

- Hələ bir sadala görüm hansı hadisələri eşitdin? - deyə bəy Səfəri yönləndirdi.

- Kəhrizin üstə olan hadisədən 1 həftə əvvəl olmuş. Fərrux meşəsinin yuxarısindakı iki nəfərin qətli. Gülablıda Zahid bəyin at damının yandırılması. Bu yayın əvvəlində Əsgəranın altından keçən Şuşa yolunda erməniləri qızışdırıb camaatın yaylaq yolunun kəsilməsi. Bu ərəfədə baş verən atışmalarda 10-a qədər adam öldü. Zəngəzurda iki kəndin yandırılmasında bunun əli olub. Keçən ilkiŞuşa davasında da bu namərdin adı hallanır. Elə İrəvanın özündə də, nə qədər adamın qanına bais olub. Bunların məqsədi deyəsən buradakı camaatı qırmaqdı.

- Aydındır, bəs ailə, uşaq bunlar barədə nə aydınlaşdıra bildin?

- Bəy, xəbər tutdum, ailəsi və iki balası var. İrəvanda-hardasa xəlvət yerdə saxlanılır. Ancaq ailəsi olması dəqiqdi.

- Çəyirtkə, siçan balası bir tərəfdən əziyyət verir bu camaata.

Bunlarda bir dərd olub baş qaldırıblar,-deyə bəy səsli düşündü. Səfər hamıya tapşır çox diqqətli olsunlar. Mən Bakıya yola düşürəm. İbrahim yoxdu burda, ona görə hərəkət elə. Aydındı sənə nə deyirəm?

Bəy çox ciddi görkəm aldı.

- Aydındı, bəy, baş üstə, nigaran olma,-deyə Səfər tez cavab verdi.

Bəy təsərrüfat işləri ilə əlaqədar evə gələnə qədər yolda Səfərə lazım olan tapşırıqlari verdi. Evdən yubanmadan çıxdı, Yevlaxa ordanda qatarla Bakıya getdi.

## AĞSAQQAL MƏSLƏHƏTİ

Bakıya çatanda səhər erkən idi.Havanın bərk bürkülü olmasına baxmayaraq, arabir əsən xəzri buranın havasının bir başqa özünəməxsusluğunu göstərirdi. Elə bəyin evi dəniz kənarına yaxın, Qız Qalasının yanından Bibiheybət Məscidinə gedən yolun üstündə idi. Əlbəttə bəy Nicatdan nigaran olduğuna görə birinci evə baş çəkəsi idi. Tez faytonla birbaş evə gəldi. İlk dəfə Nicatı görən kimi vəziyyətində dəyişiklik görmədiyindən daha çox narahat oldu. İbrahimə çönərək:

- Tez danış görüm nə oldu?

- Bəy, narahat olma. Mirzə Rəhim lazım olan hər şeyi təşkil edibdi. Bir ingilis həkim gətirdi. Həkimin dediyinə görə güllədən qanına çirk düşüb.

- Bəs dava-dərmanı, - deyə Hüseynalıbəy soruşdu

- Lazım olan dava-dərmanları tapmışıq. İnşallah yaxşı olasıdı.

Bunları eşidəndən sonra bəy bir az sakitləşdi.

- De görüm, Sovqatı evə çatdırdınmı?

- Bəli, bəy, birbaş şəhərdəki evinə verdim.

- Xəbər tuta bildinmi? Burdadımı?

- Bəli, bəy, Bakıdadı. İsti olsada, işlə əlaqədar axşamlar buradakı evində olur.

- Gələcəyimi kiməsə bildirdinmi?

- Bəli bəy, Evdə eşikağasına bildirdim. O dedi ki, mən Hacıya bildirəcəm. Mütləq bəylə görüşmək istəyəcək. Qarabağ tərəfdən gələn xəbərlərdən o da narahatdı. Siz gələndə Hacıya xəbər verməyimi istədi.

- Di dayanma, çıx xəbər çatdır, xəbər gətir. Məni kömürçü

bazarında taparsan. Baxım görüm siçan dərmanı, çəyirtkə dərmanı tapa bilirəmmi?

Günorta İbrahim Hacıdan xəbər gətirdi.

- Bəy, Hacının işində idim. Orda yox idi. Köməkçisi məsləhət bildi, ki orda gözləyim.

Hacı buruqlardadı. Getsən tapıb görüşə bilməzsən. Yaxşısı budur ki burda gözlə, gələsidi. Görüşüb sənə xəbər verərəm, - dedi. Mən oturub gözlədim. Hacı gələndən sonra köməkçisi yanına girdi qayıtdıb bedi:

- Hacının xaricdən gələn qonaqlarla görüşü təyin olunub deyə onlarla görüşür. Bəyə söylə, axşam evə gəlsin.

OOO



**Hacı Zeynalabdin Tağıyev**
*(1823-1924)*

Həmin axşam Hüseynalı bəy Hacı Zeynalabdin Tağıyevin evində görüşdülər. Mehriban qarşılanmadan sonra çay süfrəsinə əyləşdilər.

- Xoş gəlmisən, bəy. Mən sənin atan Həsənalı bəylə dost idim. İsti münasibətimiz var idi Sənin nəslinə, kökünə, əsil-nəcabətinə bələdəm. Elə sən də çox fərasətlisən. Sorağınızı alıram. Camaat üçün etdiklərindən, az yaşın olsa da, obaya böyüklük etməyindən xəbərim var. Məsciddən xəbərim var. Alqışlayıram, əhsən. Xalqa edilən təmənnasız kömək bu dünyada ən qiymətli şeydi.

- Hacı bizi nə qədər böyük adlandırsanız da, sizin kimi ağsaqqalların məsləhətlərinə həmişə hava su kimi ehtiyacımız

var. Bəzən işlər müşkülə düşəndə, hansısa duruma izahat verə bilməyəndə, hansısa suala cavab verə bilməyəndə elə hey arzulayırsan keşkə Hacının yanında olaydım. Axı sizin yaşın, təcrübənin, gördüyünüz işlərin yanında biz nə edə bilmişik ki? Bir tərəfdən də bu son vaxtlardakı çaxnaşmalar. Bilə bilmirsən bu namərd ermənilər kimdən, hardan belə cəsarət alırlar.

Hacı diqqətlə dinləyirdi.

- Hacı, dərdimi danışmağa yox, ağsaqaldan dərs almağa gəlmişəm.

Bəyin bu son sözü Hacının çox xoşuna gəldi.

- Əvvəla bu ədəbinə maşallah- deyə Hacı sözünə başladı. Bax bu mədəniyyət, bu alicənablıq hələ çox millətdə yoxdu. Sən heç uzağa getmə. Hacı əli ilə eyvandakı əl yumaq və dəstəmaz almaq üçün aftafanı göstərdi. Hələ onun gözəl naxışları bir yana, quruluşuna fikir ver. Necə gözəl, incə quruluşu var. Ondan irəli altındakı qaba fikir ver. Əvvəla aftafanı heç vaxt yerə qoymursan, iri boşqabın üstünə, içinə yox ha, fikir ver, boşqabın ortasını dərin etmişik ki, ora su yığılsın, həm çirkli su görünməsin və aftafa yerə qoyulmasın deyə həmin dərin yerin ağzına naxışlı dəmir işləmə qoyublar. Boşqabın yanını geniş ediblər ki, dəstəmaz alanda su yeri islatmasın. Sən gör adi əl yuma kimi sadə bir işdə nə böyük mədəniyyət var. Başqa bir missal: yenə məişətimizdən heç eşitmisən ki, hansısa bir millətdə "sərpuşa" oxşar məişət əşyası olsun. Ay kişi, təsəvvür elə yeməyi-



***Sərpuş***



***Dəstəmaz aftafası***

plovu çəkəcəksən qaba, süfrəyə gələnə qədər soyumasın, dəmi qaçmasın deyə üstünə "sərpüş" qoyursan. Bu məişət alətlərimizin 2000 ildən çox yaşı var. Bunu bütün ətraf millətlər bilir. Ona görə bizdən ehtiyat edirlər.Həmişə başımızdan basırlar. Məsələ bax budur.

Hüseynalı bəy diqqətlə qulaq asırdı.

- Sənə 1-2 misal çəkim. 10 ilə yaxındı ki, tikintisinin başa çatmasına az qalan 800 km uzunluğunda Bakı-Batumi möhtəşəm Neft kəməri çəkdirirəm. Üstəgəl burdakı işlərimizdən xəbərləri var. Indi Qafqazda ilk toxuculuq fabriki qurmaq, tikdirmək istəyirəm, imkan vermirlər. Rusiyanın toxuculuq şahı Sava Makarov başda olmaqla 28 iri fabrik sahibi məni ciddi rəqib gorürlər. İranda, Türkiyədə, Türküstanda, Zaqafqaziyada satış bazarının əldən cıxmasından qorxurlar. Bu gün artıq dünyanın bütün böyük pullu şirkətləri olan Royal, Şell, Nobel, Oil Stand və digərləri burda fəaliyyət göstərir.

Bizlərin də iş görməsi üçün gərək nəsə ağıl işlədəsən. Hesab eləsən ki, pulun gücünə nəsə etmək olur yox, yanılırsan. Məsələn mən gör qız məktəbini açmağın icazəsini almaq üçün nə fənd işlətdim. 10 il bundan qabaq idi. II Nikolayın tacqoyma mərasiminə çağırılmışdım. O günə qədər nə qədər əlləşirdim icazə, imkan vermirdilər bu məktəbi açam. Bu mərasimdə Çarın xanımı Aleksandra Feodorovnaya bir senator vasitəsi ilə qiymətli hədiyyələr göndərərək Bakıda açılan rus-müsəlman məktəbinə onun adının veriləcəyini bildirdim ki, İmperatora icazə alınmasını xahiş etsin. Beləliklə istəyim həyata keçdi. Bax işə belə yanaşmaq lazımdı. Hardasa keçən əsrin 90-cı illəri idi Con Daltmer adlı bir ingilis zadəganı qonağım olarkən mənim mesenatlıq işlərimlə maraqlandı, öyrəndi. O qədər bəyəndi ki, vətəninnə qayıdanda, Edinburq şəhərində mənim abidəmi

ucaltdığını eşitim. Beləliklə, sağlığında abidəsi qoyulan ilk azərbaycanlı oldum. İngilislər belə şeylərə cox fikir verirlər.

- Sizin sözünüzün qüvvəti, - deyərək bəy ağsaqqalı dalbadal çox danışdırıb yormamaq üçün söbətə söykək verdi. Bu yaxınlarda Qafqazı səyahətə çıxmış bir ingilis qonağım oldu. Soruşdum ondan ki, bu qədər uzaq ölkəni tək gəzməkdən qorxmursan? Cavabında nə desə yaxşıdı: - Mənim arxamda bütün millətim durub. Əgər bilsələr hansısa ölkədə bir ingilis öldürülüb həmin ölkənin başına odələyərlər.

- Bax nə gözəl dedin. Bu cür ağız birliyinə nail olmaq lazımdı, - deyə Hacı sözünə davam etdi. Ağız birliyinə nail olmaq üçün mütləq maariflənmə yolunu seçmək lazımdı. Yoxsa camaat səni düz başa düşməz. Məsələn, kəndin adını deməyim, Gürcüstan tərəfə bir məscid tikintisinə 200 manat pul yollamışam ki, məndən ianə istəmişdilər. Gör kənd camaatı nə etdi. Pulu geri qaytarıb rusdilli "Kaspi" qəzetində təşəkkür və etiraz çap etdiriblər: "Bu pul bizə azdı". Mən də elə həmin qəzetdə açıqlama verməyə məcbur qaldım. Əvvəla bu ianədi. İanənin çoxu-azı olmaz. İkincisi də, gəlib özünüz mənim bu ilki mühasibəmə baxsanız, ancaq Rusiya ərazisində tikilən məscidlərə 18900 manat, Azərbaycan ərazisində tikilən məscidlərə 14700 manat pul xərcləmişəm. Üçüncüsü də, bu məsələni başqa millətin dilində olan qəzetdə niyə bildirirsiz.

- Doğrudan da, - deyə bəy söhbətə təsdiq verdi. Bizim yerli Həmidə Xanımın da (Həmidə xanım Cavanşir) başına belə bir iş gəlmişdi. Mirzə Cəlilin (Cəlil Məmmədüluzadə - Molla Nəsrəddin) həyat yoldaşı. Siz onu tanıyırsınız. Bir dəfə xəstəliyə qarşı Tiflisdən peyvənd alıb gətirdi ki, xəstələrə vursun. Qorxudan, bilməməzlikdən əvvəlcə heç kəs peyvəndi vurdurmağa razı olmadı.



1907-ci il rəhmətlik Hacı Zeynəlabdin Tağıyevin açdırdığı ilk Bakı Müsəlman Qız məktəbində ana dili dərsi. Lövhədə "Ya Əli" yazılıb...

- Elə buna görə maariflənmə şərtdir, - deyə Hacı davam etdi. Millətin nümayəndəsi harda olursa - olsun, oxumağa, təhsilə düşünülmüş rəğbət yaratmaq və yol açmaq lazımdı. Millətin nümayəndəsi nə qədər uzaqda olsa da, fərq etməz. Gərək təhsil alması üçün mən ona kömək göndərəm və göndərirəm də. Məsələn,bu yaxınlarda mənə təbrizli Seyid Həsən Tağızadə Tiflisdən teleqram göndərdi ki, o, Beyrutdakı Amerika məktəbində təhsil almaq istəyir. Dərhal onun təhsil xərcini göndərdim. Ancaq bu işləri görəndə bir əsas məsələ var. Mən onu hec vaxt yaddan çıxartmıram. Bu əxlaq məsələsidi. Əxlaqı qorumaq üçün gəncləri xaricə göndərməklə yanaşı onların dilindən iltizam alıram ki, mütləq vətənə qayıdacaq və müsəlman qızı ilə ailə quracaq.Elə müsəlman qızlarının da statusunu qaldırmaq üçün məktəb - pansionlar açıram.

Deyəcəyim budur Oğul! İndi daha çox ağıl işlətmək lazımdır. Necə ki, millətin, camaatın qəhrini çəkirsən, elə də çək. Necə ki-elm verilməsi yolunda çalışırsan, məktəb açırsan, məscid tikintisinə yardım edirsən elə də davam elə. Nəyin bahasına olursa - olsun genişləndir, gücləndir. Xalqın əxlaqını qoru. Unutma xalqın namusu, qeyrəti onu çəkən, çəkə bilən kişilərin çiynindədi. Bu vəzifəni daşımaq borcumuzdu. Bu borcu yerinə yetirməyə dəyər. Bu yolda edilən əməllər heç vaxt unudulmur. İnsan həyatı-

nın mənası elə budu.

Hacının bu sözdən sonra söhbətə ara verdiyini bəy hiss etdi.

- Hacı, ömürün uzun olsun. Vaxt ayırdığına və qiymətli məsləhətlərinə görə çox sağ ol, ağsaqqal, - deyərək qonaq ədəbinə görə getmək istədiyinə işarə etdi. Mehriban xudahafizləşib evdən ayrıldı.

## QEYBDƏN GƏLƏN BƏLA

***Dərd-bəla qeybdən gələndə,***
***kəfəndə Hüseynalı bəydən gələr.***
***``Qarabağ Zərb Məsəli``***
(“Atalar sözü” kitabından Azərnəşr 1985)

- Ana mənim başım ağrıyır,- deyə balaca Nərgiz anasının yanına gəldi. O, bayaqdan bayırda oynayırdı.

- Yaxına gəl görüm, ay bala, sənin rəngin ağarıb,- deyə anası əlini onun alnına qoydu. Can bala qızdırman var! Sənə nə oldu belə bala. Tez keç içəri əynini dəyiş, bəsdi oynadın. Əllərini üzünü yu, indi yemək verəcəm sənə. Yəqin çox oynamısan günün altında.

Nərgiz son günlərdə iştahsız olsa da, anası ona yemək verdi. Ancaq axşama doğru Nərgiz daha da halsızlaşdı. Nərgizin atası Tahir axşam çöldən əkin sahəsindən gəldi. Tahir kəndin təklifçisi idi. Kəndin adətinə görə ərazi çox böyük olduğundan bu kənddə nə zaman xeyir iş, toy, nişan, sünnət olanda, yaxud yas yeri, dəfn, üç, yeddi, qırx, il məclisi olanda məclis sahibi Tahir kişini çağırar, ondan xahiş edərdi ki, bu xəbəri kənd camaatına bildirsin. Camaatı məclisə dəvət etsin. Tahir kişi bu işi at belində həyata keçirirdi. Onun öz sənətindən irəli gələn bir adəti vardı. Nə zaman yas yeri barədə camaata xəbər duyuranda atının yəhərinə heç bir döşək qoymazdı. Nə zaman xeyir işi barədə təklif yayanda yəhər üstünə qırmızı üzlü döşək qoyardı. Beləliklə, Tahir kişini kənd arasında atla görəndə, uzaqdan bilmək olurdu təklifçi Tahirin bu günkü xəbəri xeyirdi, yoxsa

nədi. Həmişə o, doqqaza yaxınlaşanda, həyətdə adam görməyəndə əlindəki şallağın qulpu ilə giriş qapısını döyür, və ``Ay ev yiyəsi`` deyə çağırardı. Evdən cavab verən ev sakinləri ona gətirdiyi təklifə görə ``Xeyirli olsun`` yaxud ``Allah rəhmət eləsin`` deyə cavab verərdilər. Ancaq son zamanlar, kənd məscidinin axundu Molla Mürsəl kişi bir yas məclisində camaatla məsləhətləşərək ümumi qərara gəlmişdilər ki, yas məclislərinin təklifi olmasın.

Tahir kişi həyətə girəndə evi, ailəni kefsiz gördü.

- Nə olub ay bala? Qara buluda dönmüsüz.

- Nə olacaq Nərgiz naxoşlayıb, başım ağrıyır deyə evə gəldi. Baxdım qızdırması da var. Yemək bir təhər yedirtdim, amma günortadan yatağa girəni indiyə kimi halsız uzanıb qalır.

- Qızdırması yenə var?- deyə Tahir kişi təşvişlə sözə davam etdi. Bu sözü deyəndə təşvişin gizlətmək istəyirdi, ancaq alınmırdı.

Tahirin təşvişinin səbəbi, dünən orta yaşlı kənd sakininin elə bu əlamətlərlə rəhmətə getməsi idi. Üstəlik dünən kənd arasında gəzən zaman kəndin hər məhləsində azı bir adamın bu əlamətlə naxoş oluğunu görmüşdü. Həmin xəstələrdə səpişik və qarınağrısı da var imiş.

Tahir kişi nə qədər təşvişini gizlətməyə çalışsa da, Nərgizin anası onu hiss elədi.

- Bu gün çöldə işlərin necə getdi? - deyə ana sözünə astaca davam etdi.

- Hələlik çöldə yaxşılıqdı. Çəyirtkənin ağzından qurtaranları qoruya bilsək, bir az məhsulumuz olacaq.

- Siçan yoxdu ki?

- Var. Ancaq azdı hələlik.

- Torpaqda yuvaları necə? Çoxdu?

- Bir az var dana, Əsas odur ki, son günlər yuvaların sayı artmayıb.
- Bə niyə tıncıxmış halın var?
- Heç qadan alım.
- Nooluf denən dana, kəndə çıxmışdın, gec, yorğun qayıtdin. Soruşammadım, kənddə nə var nə yox? O biri obalardan təzə xəbər var?

Tahir kişi gördü ki, təşvişini xanım başa düşüb. Daha gizlətməyin yeri yoxdu.

- Xanım, başına dönüm, uşaqdan muğayat ol.
- Nooluf ey axı, danış görüm dana
- A bala, heş zad olmuyuf. Amma, dəsən, kənddə xəstəlik var.
- Nə xəstəlik? Bu hardan çıxdı?
- Bilmirəm ha. Nəsə xəstəlik xəbəri yaman çoxalıb kənddə.

OOO

Həmin ərəfədə kəndin mərkəzində -Əzimlər təpəsinin yanında Hüseynalı bəy kənd məscidinin tikintisini davam etdirirdi. Əzimlər təpəsi qədim qəbiristanlıq yeri idi. Bu dövrdə əhali çoxaldıqca evlərinin sayı artmışdı. Qəbiristanlıq kənd evlərinin mərkəzində qalmışdı, Qəbristanlığa ən yaxın təpənin yamacında tikilən ev kənd sakini Əzim kişiyə, sonralar isə onun övladlarına məxsus olduğundan bura Əzimlər təpəsi deyirdilər. Kəndin ərazisi çox böyük olduğundan, məscidi təpənin elə yanındakı yamacda tikməyə qərar vermişdilər. Bu qərar hələ Hüseynalı bəydən əvvəl verilmiş və tikintiyə başlanmışdı. Yerin seçilməsi təpənin kənd ərazisinin mərkəzində olması ilə əlaqədar idi. Bu da azan səsinin eşidilməsinə, camaatın ibadətə gəlməsinə və ilaxır məsciddən istifadə etməsinə rahatlıq

yaradırdı. Məscidin quruluşu Ağdam bölgəsinın mərkəzində yerləşən ən böyük iki minarəli məsciddən götürülmüşdü. Məscidin hündür 3 tağlı girişi böyük kümbəzin altına açılırdı. Şahbulaq qalası olan Beşik dağın yaxınlığından gətirilən ağ qaya daşları ilə tikilən məscidin sağ tərəfində xanımların daxil olması üçün ayrıca giriş qoyulmuşdu. Bu giriş ibadətə gələn xanımların ikinci mərtəbəyə pilləkənlərlə qalxa bilmələrinə şərait yaradacaqdı. Tikinti işləri kümbəzlərin tamamlandığı yerdə idi. Daha doğrusu, kümbəzlər tamamlanmış, onların yanından məscidin qabaq künclərindən minarələr qaldırmağa başlamışdılar. Kümbəzlər tikildikdən sonra içəridə ikinci mərtəbə quraşdırılacaqdı. Bütün bu tikintilərdən əvvəl məscidin həyətində yuyat yeri və dəstəmazxana tikilib hazırlanmış və işlək hala salınmışdı Artıq bir neçə il idi fəaliyyət göstərirdi, camaata xidmət edirdi. İl yarım olardı məscidin hazır olan hissəsində namaz qılınırdı, Cümə xudbələri oxunurdu. Məhərrəm aylarında isə təziyə məclisləri təşkil olunur, Quran oxunur, ehsan paylanırdı. Xüsusilə qətl sınan gün demək olar bütün kənd camaatı bura toplaşırdı. Tikinti başa çatmasa da Hüseynalı bəy pul göndərərək Məkkədən, Mədinədən, Məşhəddən, Nəcəfdən Quran risalələri, Şəriət məsələləri, ərəb dili dərslikləri və s. kitablar gətirtdirmişdi. Bu kitablar məsciddə camaatın istifadəsində idi.

Artıq yayın son günləri idi. Hüseynalı bəy Nicatı tam sağalması üçün onu Bakıda qoyub gəlmişdi. Onun yanında indi Səfərlə Nicatın böyük qardaşı Möhlət qalırdı. Sonra Səfər bəyin tapşırığı ilə sifariş edilmiş dava-dərman, məktəbə yeni başlayanlar üçün kitab, bir neçə tibbi kitab götürüb Ağdama - Qiyaslıya gəldi. Çulluda Qaramanlı bulağındakı Kəhrizin işi davam edirdi. Əkin sahələrində son yığım işləri gedirdi. Bir

tərəfdəndə kəndin bütün məhəllələrində naxoş adamlar barədə xəbərlər yayılırdı. Bəy səhərlər bütün işlərə nəzarət etmək üçün Kəhrizdən və əkin sahələrindən tutmuş, məscidə qədər baş çəkirdi. Camaatla görüşür, axşamlar isə məktəbdə dərs deyirdi. Xəstəlikdən əziyyət çəkənlər çoxaldıqca, yavaş-yavaş rəhmətə gedənlərin sayı artdı. Bəy İbrahimi yanına çağırdı:

- Bala, adətən qış aylarında rəhmətə gedənlərin sayı çox olardı. Xəstə olan, qoca olan, zəif olanlar havanın sərtliyindən rəhmətə gedərdilər. Amma bu qədər yox. Sən elə belə gedirsən kəndin bütün məhəllələrinə, ən ucqar məhəllələrə gir. Xəstə olan evlərdə xəstələrin vəziyyətini öyrənərsən.

- Baş üstə bəy.

- Sonra təcili yanıma qayıt.

- Oldu bəy. Bu saat qayıdıram.

Bəy İbrahimi yollayan kimi Səfərin Bakıdan gətirdiyi kitabların arasından təbabət kitabını tapıb vərəqləməyə başladı. O, qızdırma ilə bağlı olan xəstəliklər barədə məlumat toplamaq istəyirdi. Qori seminariyasında oxuyan zaman təbabətlə bağlı ilk yardım və bir neçə xəstəlik barədə tədrisdə öz marağı ilə iştirak etmişdi. Ancaq indiki kimi insanı qısa zamanda ölümə aparan xəstəlik bu qədər nə baş vermişdi, nə də bu barədə yetərincə məlumat var idi. Hüseynalı bəy rəhmətə gedənlərin xəstəliklərinin əlamətləri barədə artıq məlumatlı idi. İbrahimi göndərməkdə məqsədi-kəndin hər məhləsində xəstələrin vəziyyətinin eyni olmasından əmin olmaq istəyirdi. İbrahim qayıdıb gələn kimi bəyin yanına yaxınlaşdı. Bəy dərsdə idi. Dərsdən sonra:

- Danış görüm nə gördün?

- Bəy, qadan alım, xəstələrin sayı yaman çoxalıb. Bütün məhəllələrdə xəstəliyin əlamətləri eyni kimidi.

- Eynidi, yoxsa eyni kimidi?

- Görünüşcə eyni deyil, ancaq birində qızdırma var, birində ürəkbulanma, halsızlıq o birində səpişik, ya da nə bilim ağrılar. Amma bu xəstələrin hamısında xəstəlik eyni başlayır, sonra haldan-hala düşürlərmiş. Bəy, deyəsən, bundan qabaq rəhmətə gedənlər elə belə olublar

- Hər şey aydındı.

Bəy məsələni anlamışdı. Əvvəlki illərdə olmuş qarın yatalağı xəstəliyinə oxşayan bu Tif xəstəliyi adətən yaz, yay və payız aylarında gözə görünmürdü. Hüseynalı bəyin az da olsa, tibb təhsili olduğundan, bu xəstəliyin çox təhlükəli olduğunu, adamların bu xəstəlikdən öldüyünü bilirdi. Həmin xəstəlik nəfəslə bir adamdan obirinə keçdiyini bilsə də, İbrahimin dediklərini özü görmək istədi. Çox təhlükəli olmasına baxmayaraq, səhərsi gün xəstələrə baş çəkməyə özü getdi.

Hüseynalı bəy İbrahimin gətirdiyi xəbərlə xəstələnmiş adamların evlərinin yol ardıcıllığını ilə yoxlaya-yoxlaya gəzəndə Təklifçi Tahir kişini həyətyanı sahəsində işləyən gördü. Bura qədər o artıq bir neçə xəstəyə baş çəkmişdi. Tahir kişinin həyətində işləməsi onun diqqətini çəkdi. Çünki həyətdə olan xırda dırrık, yaxud göyərtilərlə adətən evdə olan qadınlar, uşaqlar məşğul olardılar. Hüseynalı bəy burda nəsə narahatçılıq olduğunu hiss edib həyətin qapısına yaxınlaşdı. Atdan enməmiş Tahiri səslədi.

- Ay Tahir kişi!

Tahir kişi fikirli, yuxusuz olduğundan onu çağırdıqlarını eşitmədi. Bəy yenə çağırdı.

- Ay Tahir kişi!

Bu dəfə Tahir kişi səs gələn tərəfə dönəndə bəyin onu çağırdığını gördü. Hövlnak girişə tərəf gələndə bəy onun üzündəki böyük təlaşı hiss etdi. Buna görə ev yiyəsi ona yaxınlaşana qədər

atdan endi.

- Salam əleyküm Tahir kişi!

- Əleyküm Salam, bəy qadan alım, xoş gördük. Buyur, bəy.

- Burdan keçirdim, səni həyətdə gördüm. Nigaran oldum, adətən səni həyətdə görməzdim. Bu vaxtlar sən ya təklifdə yada çöldəki dirriyində olardın. Səni bir ağız çağırdım eşitmədin, bir azda narahat oldum.

- Bağışla, bəysəsini eşitmədim.

- Nə əcəb evdəsən? Həyətdə belə nə vacib işin var ki?

- Bəy, həyətdə bir işim yoxdu e, eləcə yalandan dümələnirəm. Deməyə utanıram. Mənim bu balaca qızım Nərgiz yaman naxoşdu. Gecə qızdırmadan yatmayıb. Biz yaman narahatıq. Qoyub çölə gedəmmədim.

- Burda utanmalı bir şey yoxdu, ay kişi. Elə mən bu səbəbdən çıxmışam xəstələrə baş çəkməyə. İbrahimi yollamışdım xəbər gətirsin. Sonra özüm çıxdım ki, vəziyyəti gözlərimlə görüm. İstəyirəm uşağı görüm.

- Buyur,bəy. Allah heç bir el-obanı ağsaqqalsız eləməsin. Bəyin uşağı görmək istəməsi Tahir kişini qəhərləndirmişdi.

- Bəy, üzüm ayağının altına, deyirlər bu keçən xəstəlikdi ey, ona görə bayaqdan evə dəvət eləmirəm. Tahir bu sözləri evə gedə-gedə bəyə deyirdi.

Onun yerdən kürsüsüz evi balaca ancaq, səliqəli idi. Evin giriş qapısının iki yanındakı şüşə pəncərələri balaca olsa da, gündöyən tərəfə olduğundan evin içi quru və işıqlı idi.Evin içərsinə girəndə yerə döşənmiş həsir və palazdan tutmuş otağın başındakı sandığın üzərinə yığılmış mir-mitilin üstünün örtüyünə qədər təmizlik və səliqəlilik gözə görünürdü. Hüseynalı bəylə Tahir kişi evə daxil olanda Nərgiz evin baş tərəfində onun üçün salınmış yerdə halsız uzanmışdı. Anası isə onun yanında ayaq

üstə dayanmış, yaşmaqlanaraq içəri girənlərə tərəf baxırdı. O da nigaran və halı pərişan idi. Hüseynalı bəy evə girəndə salam verdi, bu salam ev əhlinə və evə idi. Çünki adətdir deyirlər hətta ev boş olsada, ora daxil olanda gərək salam verəsən.

Nərgizin anası bəyə xoş gəlmisiniz deyib, bəyin Nərgizə diqqətlə baxdığını görərək yataqdan kənara çəkildi. Bəy yaxınlaşıb Nərgizin yanında oturdu. Nəbzini yoxlayıb əlini şəfqətlə uşağın alnına qoydu. Nərgizin qızdırması var idi. Qarnı da şişmişdi.

- İndi mənə danış, naxoşluğun başlayan gündən bu günə qədər necə olub? Əvvəlcə deyin görüm uşağın azarı nə zaman başlayıb?

- Bəy, başına dönüm, bir həftədən çoxdu, 10 günə az qalıb. Anası mənə danışdı uşaq az-az halsız olurdu, zəiflik eləyirdi. Sonra gəldi ki, başım ağrıyır. Onsuz da az yemək yeyirdi, iştahasız uşaqdı. Bəy biraz da iştahdan kəsildi, dalınca üşütmə, qızdırma gəldi. Əvvəl gündə iki dəfə qızdırması qalxırdı. Günlər keşdikcə tez-tez üşütmə, qızdırma olmağa başladı. Uşaq get-gedədə zəiflədi. Sonra dilinin üstündə ərp, bəlgəm olur.

- Ağzını aç görüm, mənim balam dayı dilinə baxsın-deyə bəy Nərgizə tərəf çevrilib, onun gözlərinə baxdı.

Bayaqdan böyüklərin söhbətlərinə ümidlə qulaq asan Nərgiz heysiz vəziyyətdə ağzını açdı, bəy uşağın dilinə baxandan sonra Tahir kişiyə tərəf dönüb davam etməsini işarə etdi.

- Son günlərdi ki qızdırması enmir. Bəy, başına dönüm bir də qarnında şiş var.

Tahir kişi bunu deyəndən sonra xanımının üzünə baxdı.Bu baxmaqla xanımından nəyisə demiyib yadından çıxardığı bir şey oldumu deyə sual edirdi. Xanım anlayaraq üzü Tahir kişiyə tərəf dilləndi.

- Bu səhərdən bədənində səpişiklər əmələ gəlib.
- Aydındı.
- Bəy, qadan alım. Kənddə eşıtdim, o biri xəstələrdə qarının pozulması, dodaqların qurumasıda olur, amma bunda belə şeylər yoxdu.
- Xəbərim var. Hələlik çalışın uşaq iştahsızlıqdan üzülməsin. Mən görüm haradan həkim tapıram.

Bu sözdən sonra bəy xüdahafizləşib evi tərk etdi. Tahir kişi onu həyət çıxışına qədər ötürdü.

## MƏŞVƏRƏT

Kəndarası yola çıxandan sonra Hüseynalı bəy Rəşid bəyin öz məhlələri tərəfdə - Yavaşallıda olduğu sorağını aldı. Yolunu o tərəfdən saldı ki, Nicatla Səadətin məsələsini də danışsın. Bəyin fikrində təkcə iki gəncin qovuşması deyildi. O bu məsələyə daha dərindən fikir verirdi. Yəni o,Rəşid bəylə təkcə iki gəncin izdivacını danışmayacaqdı. Burda söhbət el birliyinə, ağız birliyinə nail olub elə azərbaycanlı olduğumuza görə bizə düşmən kəsilən erməni və onun arxasında duranlar barədə və bu səbəbi bilinməyən xəstəliyin qarşısını necə almaq barədə danışacaqdı. Hüseynalı bəy məsələyə ruhanı kimi yanaşırdı. O deyirdi, insanin öldürülməsi, insanların həyatına son qoyan ancaq şeytan əməli ola bilər. Quran da bunu deyir şeytan sizin açıq-aydın düşməninizdir.

Rəşid bəy Hüseynalı bəy qədər imkanlı olmasada özünə görə dövlətli adam idi, el işlərində yaxından iştirak etməsə də, öz işlərinə çox tələbkar, çılğın xasiyyətli, öz qohum əqrəbaları arasında sözü keçən adam idi. Hüseynalı bəy Yavaşallıya çatanda Rəşid bəylə onun evinin yaxınlığında rastlaşdı

- Salamın əleyküm - deyə Hüseynalı bəy sözə başladı. Onlar at belindəydilər.

- Əleyküməssalam bəy. Xoş gördük- deyərək salamlaşdı. O, əhval-ruhiyyəsizdi, ancaq biruzə vermək istəmirdi.

- Xeyirdi bəy? Günün bu vaxtında kənd arası kimi axtarırsan?

- Son günlər azar-bezar camaat arasında çoxalıb, uşaqları göndərdim xəbər gətirdilər. Amma arxayın olmadım dedim, qoy özüm çıxım görüm vəziyyət nə yerdədi.

-Hə, nə gördün?-deyə Rəşid bəy söhbətə söykək verdi və

yenə nigaran olduğunu göstərməmə yəçalışdı.

- Gördüyüm budu ki, vəziyyət ciddidi, deyəsən. Əvvəllərdə xəstəlik olardı, lakin bu dəfə çox təsirlidi. Rəhmətə gedənlərin sayı get-gedə artır.

- Bəs sən nə əcəb günün bu vaxtı buralardasan? - deyərək Hüseynalı bəy Rəşid bəyin təkcə burda olmasını yox, onun nigarançılığını aydınlaşdırmaq istəyirdi. Çünki Rəşid bəy nə qədər çılğın, dikbaş, yovuşmaz xasiyyəti olsa da, Hüseynalı bəy üçün fərq etməzdi. Hər kəslə öz dilində, yatımında danışmağı bacarırdı. Bu cürə həyata münasibətini məqsədyönlü edirdi. O deyərdi: "Qardaşın nə qədər çətin xasiyyətli adam olsada, yenə sənin qardaşındı. Hər kəs nə xasiyyətdə olursa-olsun, hər bir insanla münasibət etməyi, öz el-obasıyla bir olmağı bacarmalıdı". Hər insanla bu mövzuda söhbət düşəndə bu, bizim dinimizdə var, deyər və Peyğəmbərimiz Məhəmməd səlləllahu aleyhi vəali vəs-səllamin sözlərini misal gətirirdi. Peyğəmbərimiz deyib ki: "Ömrünün uzun olmasını istəyirsənsə, qohumluq əlaqələrini gücləndir" Rəşid bəy sualın onun nigarançılığına işarə edildiyini və xəstəlik mövzusunun açıldığını görüb daha gizlətməyə lüzum görməyərək. Səadətin dünəndən bəri halsız olduğunu və yatağa düçar olmasından narahat olduğunu bildirdi. Hüseynalı bəy Rəşid bəyin sözünün dayandığını görüb söhbətə davam etdi.

- Elə mən səninlə hər iki mövzu barədə danışmaq üçün görüşmək istəyirdim. Səadət elə mənimdə balamdı. Ancaq bu erməni Arseni mən araşdırdım. Mənə gələn məlumatlar bunun məqsədinin xeyir olduğunu demir. Bəlkədə öz özlüyündə fərasətli, öz camaatı üçün xeyirli adamdı. Ancaq bizim camaata qarşı, onun məhv olunmasına qarşı və ilaxır fəaliyyətdə olanı və onun havadarlarından mən özümü qorumalıyam. Onlara inanmamalıyam. Məlumatın olsun bu adam bizim kəhrizin

üstündəki namərdlikdən tutmuş düz İrəvana qədər nəki erməni-müsəlman davası, müsəlman qırğını var, hamısında adı hallanır. Daha çox danışmayım. Sən özün anladın nə demək istədiyimi. Bir az səbirli olmağını məsləhət görərdim.

Rəşid bəy diqqətlə dinləyirdi.

- Üstəlik bu xəstəlik bir tərəfdən bəla olub. Məsələ, məncə, çox ciddidir.Təklif edirəm, yolumuzu Məsciddən salaq. Gedək Molla Mürsəl kişini görək. Bu aralar Məscidə daha çox diqqət ayırmalıyıq, məncə. Rəhmətə gedənlərin sayı bir az da çoxalsa, molla indiki köməklə camaatın yuyatını, dəfnini çatdırmayacaq.

Yol gələ-gələ bəy kəndin cavanları ilə obiri bəylərə məscidə gəlmələri xahişini göndərirdi.

OOO

Molla Mürsəl ortayaşlı, ağır təbiətli, yanımcıl, el dərdini öz dərdi kimi hesab edənlərdən idi. Özünün əsli, nəsli buradan idi, Qiyaslıda doğulmuş, böyüyüb boya başa çatmışdı. Çox abırlı adam idi. El söhbətlərində, cümə moizələrində mövzu gəldikcə deyərdi ki: “İsmət qadınlara, abır kişilərə aiddir, birinci elə kişilər abırlı olmalıdır” Daxilən ruhani olan Mürsəl kişi gəncliyindən dini kitablara maraq göstərirmiş. Bu həvəs onu İraqa aparır. Nəcəf şəhərində ali ruhani təhsil aldıqdan sonra öz elinə qayıdır. Kənddə Molla kimi fəaliyyət göstərir. Dinimizin xurafatdan ibarət olmadığını təbliğ edirdi. İslamın şəriət məsələlərini, Quranımızı elmi tərəfdən izah etməyə çalışardı. Onunda camaat arasında sözü eşidilir, şəxsiyyətinə hörmət qoyulur. Ancaq el işlərini Hüseynalı bəy başda olmaqla camaatın sayılan kişiləri ilə məsləhətləşmədən etməzdi. Belə məsləhətləşmələrdə hər dəfə təkrar edərdi “Allahsız yerdə otur,

böyüksüz yerdə oturma". Üstəlik Hüseynalı bəyə deyərdi: "Sən ki, bu Allahın evini ucaldırsan, Allah da sənin adını ucaldacaq və yaşadacaq".

"Elin gözü tərəzidir" deyiblər. Belə bir adam olduğuna görə el məsləhəti ilə Molla Mürsəl yeni kənd məscidinə baş molla təyin edilmişdi.

Hüseynalı bəylə Rəşid bəy məscidə çatanda gün əyilmişdi. Həyətin girişinə çatıb atdan endilər.

Bu vaxt Molla Mürsəl kişi həyətdə yuyatın qarşısında idi.

- Salamun əleyküm, Mürsəl kişi.

- Əleykum Salam, bəylər. Çox yaxşı edib gəldiniz. Sizi görmək üçün fürsət axtarırdım.

Hüseynalı bəy Mollanın "fürsət" kəlməsini vəziyyətin gərgin olduğuna işarə etdiyini anladı.

- Elə görüşməyə gəlmişik.

- Camaat çox, ərazi böyük. Son günlər hər gün 2-3 xəstəmiz rəhmətə gedir.

- Bu gün necədi vəziyyət? - deyə bəy soruşanda Mürsəl kişi başını buladı.

- Necə olacaq. Qeybdən gələn dərd bəla qırır bu yazıq camaatı. Bu gün artıq 4 nəfər dəfn etmişik. Hüseynalı bəy, başına dönüm, bu qədər xərc çəkirsən deyə sənə deməyə utandım. Fikirləşdim Ağdam məscidindən kömək istəyərəm. Həm buna görə, həm də xəbər tutmaq istədim görüm xəstəliklə əlaqədar orada vəziyyət necədi.

- Nə xəbər oldu? - deyə Rəşid bəy səbirsiz sual elədi.

- Nə xəbər olacaq, vəziyyət eynidi. Orda da hər tərəfdə xəstəlik baş alıb gedir. Molla Mürsəl son cümləsin deyəndə qəhərləndi. Söhbət əsnasında kəndin bəyləri Bəşir Bəy, Kalvalı Bəy, Nəcəf bəy, İmran bəy və Həbib bəy, Kərbəlayi İsmayil kişi

gəlib çıxdılar. Hamı toplaşdıqdan sonra Hüseynalı bəy sözə başladı. Əvvəlcə həmsöhbətlərinin diqqətini edəcəyim söhbətə tam cəlb etmək üçün onlara:

- Bəylər, ağalar, - deyə müraciət etdi və bir anlıq sükut etdi. İndi sizinlə söhbət etməyə başlayana qədər vəziyyəti yaxşıca araşdırdım. Sizdən bura yığışmağınızı ona görə xahiş elədim ki, bu barədə məsləhətləşək.

- Buyur bəy - deyə həmsöhbətləri arasında ondan yaşca böyükləri olsa da, ona diqqətlə qulaq asdıqlarını bildirdilər.

- Vəziyyət biz düşündüklərimizdən, gördüklərimizdən çox ciddidi. Əvvəla olan durumumuzdan ruh düşkünlüyünə düşməməliyik.Mən bu bəlanı bir sınaq kimi qiymətlənirirəm. Məsəl var deyərlər:"insanın başına gələn ya sınaqdı, ya mükafatdı, ya da cəzadı". Bu o demək deyil biz boynumuzu büküb heç bir şey etməməliyik. Yox, hər bir sınaqdan ağılla çıxmağı özümüzə borc bilməliyik.

Dinləyənlər Hüseynalı bəyin indi danışdıqlarına xüsusi olaraq hazırlaşdığını, dediyi hər sözə həmişəkindən daha çox xüsusi fikir verdiyini anlayaraq ona diqqətlə qulaq asırdılar.

- Mən başımıza gələn hadisələri içi xəstəlik qarışıq götür-qoy elədim. Gəldiyim nəticə bu oldu ki, bəla, dediyimiz bu xəstəlik əslində bir kənddə, bir obada yox, bütün Azərbaycan camaatına qarşı onu məhv etməyə, buralardan - öz neçə min illər boyu sahib olduğu torpaqlarından yox etmək istəyinin bir hissəsidir. Bu barədə başbilən ağsaqqallarla məsləhətləşmişəm.

Hüseynalı bəy burada Hacı Zeynalabdin Tağıyevlə söhbəti nəzərdə tuturdu.

- Özüdə bu işi məkrlə, namərdcəsinə həyata keçirildiyini görürəm .

- Söhbət nədən gedir?-deyə Hüseynalı bəyin bu qədər gendən

danışacağını gözləməyən çılğın xasiyyətli Rəşid bəy qeyri - ixtiyari sual elədi.

- Söhbət bundan gedir ki, düşmən olanda da keçmişdən belə bilirik, adam mərd olar, düşməni ilə qabaq-qabağa dayanar, iddiasını deyər. Ancaq daha bizim bir vaxtlar qonaq bilib içimizə buraxdığımız ermənilər kimi yox, yaxud nə bilim başqa qonşularımız. Bunlar guya qız almaq adı ilə içimizə girib el-obanın sayılan kişilərinin arasına fitnə salmaqdan tutmuş camaatın canına xəlvət qəsd etməyə qədər nəki ağlımıza gələn, gəlməyən namərdlər var həyata keçirirlər.

Hüseynalı bəy guya qız almaq adı ilə ifadəsini deyəndə Səadətə, erməni arvadının guya öz qohumu Arsen üçün istəməsi mövzusuna işarə edirdi. O, bu kəlmələri deyəndə o Rəşid bəyin üzünə baxaraq dedi. Rəşid bəy mövzunu anlayaraq Hüseynalı bəyin çox diqqəti olmasına bir daha şahid olduğuna görə heyrətlə onun üzünə baxırdı. Bu barədə Hüseynalı bəyin onunla danışacağını gözləyirdi, amma bu qədər yatımında, yəni həm üstüörtülü, həm də üstüaçıq, üstəlik bu məqamda deyilməsi onu yaxşı mənada heyrətləndirmişdı.

- Vəziyyətimizi belə izah etməkdə məqsədim var, -deyə Hüseynalı bəy sözə davam etdi. Məqsədim odur başımıza gələn bu bəladan el birliyi ilə çıxaq. Arada bir anlıq sükut olduğunu görərək: - Təklifin nədir, bəy? -deyə Nəcəf bəy sual elədi.

- Ay yaşa, elə mən fikrimi ona cəmləyirdim. Ən əvvəl rəhmətə gedənlərin doğru, dürüst müsəlman qaydası ilə məscidə gətirilməsinə, kəfənlənib basdırılmasına fikir verilməlidi. Dünən dəfn olunanlardan birini, Mürsəl kişi deməyə utansada mən bilirəm, Keşdiazdı məhləsindən bura qədər olan uzaq yolu araba tapa bilmədiklərindən məscidə gətirə bilməyiblər. Üstəlik təzə ağ olmadığından işlənmiş ağla dəfn ediblər. Buna təklifim budu

ki, mən camaatı çöl əkininə aparmaq üçün işlətdiyim arabanı məscidin təhkiminə verəcəm. Ola bilər bir araba azlıq etsin. Birini də siz hazır edin, lazım olanda çağırıb işlətməyə. Bir də kəfən məsələsi. Bəylər nə qədər Azərbaycanda toxuculuq maşınlarının gətirilməsində çətinlik var, zavod açmağa imkan vermirlər, bizdə parça qıtlığı olacaq. Bu dəqiqə zavod açmaqdan söhbət getmir. İndi nəinki zavod heç dükan-bazarda satın almağa ağ bez yoxdu. Ona görə təklif edirəm imkanlı olanlar hamı evində, simsarında kimdə nə var gətirək məscidə verək görək başımıza nə gəlir. Əgər rəhmətə gedənlərin sayı çoxalsa, heç bu da çatmayacaq. Belə olsa gərək gedib Tiflisdən alıb gətirəm.

Bəylər diqqətlə qulaq asırdılar.

- Sonrakı təklifim budur ki, mən xəstəliklə maraqlandım, xəstəlik olan və olmayan evlərdə mal-heyvan saxlanan yerlərdə təmizlik işinə qədərindən artıq fikir verilməlidi. Bizlərdən hər kəsin öz əqrabalarına bunu bir iş kimi tapşırmasını istəyirəm. Bu barədə Molla Mürsəl məqam düşdükcə - Cümə moizələrində, günorta namazları arası söhbətlərdə, yas yerlərində camaata yatımında anlatsın. Bu təmizlik işinə siçan ola biləcək yerlərin tapılıb təmizlənməsi də daxildi. Ola bilər bu xəstəliyi yayan siçanlardı. Ancaq mən buna az ehtimal edirəm. Hesab edirəm Əjdərin ailəsini bu işə cəlb eləmək lazımdı. Dədə babadan ticarətlə məşğul olsalar da xalq təbabətini çox yaxşı bilirlər! Əgər ümacaqsa məvacib düzəldək bu kişi hələlik bu işlə məşğul olsun. Ummasa belə evinin günlük məsrəfini qarşılamaq, onun görəcəyi öz təsərrüfat işlərinə kömək etmək üçün adam ayırmalıyıq.

Növbəti sözümün canı budu ki, bu xəstəliyi törədən səbəblər var. İnanıram onun hardasa mənbəyi var. Onu tapmalıyıq. Təklifim belədi, mən dördatlı adam ayıracam, ancaq bu azdı. Siz

gücünüz çatan qədər bir ya iki atlı adam ayırın. İstəyirəm bu adamlar Ağdam ərazisində Gülablı, Seyidli, Novruzlu , Qalayçılar, Cinni, Tərneft, Sarıhacılı, Şelli, Qiyamadınnı , Əfətli yəni bütün kəndlərdə harda kəhriz köhnə dəyirman və bu kimi yerlər varsa baxsınlar. Ancaq nizamlı şəkildə, yəni baxılan yerə ikinci dəfə baxılmasın və baxılmamış yer qalmasın. Çox güman hardasa insan cəsədi var. Öldürüb xəlvət atıflar ki, mikrob yaysınlar.

Bu son təklif bəyin ağlına Nicatın namərdcəsinə vurulması məsələsindən gəlmişdi.

- Bu işi dərhal yerinə yetirmək lazımdı. Xəstəliyin qarşısının alınmasinin ən birinci yolu onun mənbəyini yox etməkdi.

Bu təkliflər deyiləndən sonra Rəşid bəy Əjdər kişi ilə görüşməyi, ehtiyac gəldiyi təqdirdə onun məsrəf və qayğılarını öz üzərinə götürəcəyini bildirdi. Sonra bəylər dəyirman və kəhrizləri yoxlayacaq adamları və gedəcəkləri yerləri planlaşdırdılar.

Qurulmuş plana görə seçilmiş adamlar, nizamlı şəkildə kəndin arxlarının üstü ilə su üzüyuxarı getməli idilər. Kəndin Kötəl, Qaraçava, Misirxanlı, Qiyaslı adlı arxlarının hamısı suyunu Qarqar çayından götürürdü. Su birləşmələri Əsgəran bölgəsinin aşağı hissəsində, Ağdamın yuxarı kəndləri Əhmədavar və Şelli kəndləri ərazisində idi. Arxlara üstəlik burada işləyən kəhrizlərin artıq qalan suları tökülürdü.

Hüseynalı bəyin bu təklifi ilə bərabər, verdiyi bütün təkliflər həyata keçirilirdi.

## SEVDALILAR

Bu günlər Nicat kənddə idi. Yarası get gedə sağalırdı. Ancaq özü hələ zəif idi. Durub az-az hərlənsə də, Bakıdakı İngilis həkiminin tövsiyəsinə görə özünü tam yaxşı hiss etməyənə qədər at minmək, yaxud başqa iş görmək olmazdı. Bədəni güclənməli idi. Yorğun düşdükdə qanındakı tam təmizlənməmiş zəhər onu yenidən məhv edə bilərdi. Belə durum isə Nicatı darıxdırırdı. Onu daha çox narahat edən məsələ isə Səadətlə görüşə bilməməsi idi. Daha dəqiq desək, Səadətin xəstələnməsi idi. Son günlər Nicat Səadətdən ancaq qonşunun uşağı vasitəsilə xəbər tuturdu. Yenə nə olursa-olsun onunla görüşmək istəyirdi.

Axşamüstü idi, yarını görmək istəyi Nicatı görüş yerinə gətirmişdi. Sakit bir yerdə oturub ürəyindən aşağıdakı misraları kecirirdi:

**Həsrətin bağrımı dəldi, yarım, hardasan,**
**Gözlərim yolda qaldı, yarım, hardasan?**

**Nə müddətdir həsrətindən yandığım yar,**
**Qəlbimin bəxşi nuru, yarım, hardasan?**

**Çöhrəsi ay, qəmzəsi pay, ayrilığı acı**
**Bəxti vüsalı şirin, yarım, hardasan?**

Nicat çönüb evə tərəf baxanda Səadətin gəldiyini gördü. Sevincinin həddi - hüdudu yox idi. Havanın isti olmasına baxmayaraq, Səadət qalın geyinmiş, ağız - burnunu sarımışdı. Qızdırmalı halsızlıq ondan əl çəkmirdi. Nıcatı görünçə onun

gözləri parladı. Onu sağ-salamat gördüyü üçün şükür edirdi. Uzun ayrılıqdan sonra Səadət Nicata yaxınlaşıb heç vaxt etmədiyini - boynunu qucaqlamaq istədi. Ancaq Səadət Nicatdan bir az aralıda ayaq saxladı. Nicat Səadətin bilərəkdən dayandığını anladı. Elə o da yerindən tərpənmirdi. Sevdalılar nəmli gözlərlə bir-birilərinə baxırdılar. Sanki Nicatın bayaqdan bəri düşündüyü misraları indi hər ikisi bir-birinə deyirdi. Xeyli sükutdan sonra Nicat dilləndi.

- Dayanma gözümün Nuru, yaxın gəl!

- Yox, yox, belə yaxşıdı.

- Mən bilirəm, sən niyə dayandın, qorxma yaxına gəl, -deyə Nicat təkid etdi.

Bu sözləri eşidəndə Səadətin gözləri doldu. İki addım qabağa gedərək başını aşağı saldı və astadan:

- Onsuz da sənin yaralanmaq xəbərini eşidəndə o dünyanı görüb qayıtdım. Ay imansız, görmədin adamlar səndən çoxdu və silahlıdılar?

- Elədi, Səadət, amma neynək, olan oldu, qalsın qulluğunda.

- Üstəlik bunların namərd olduğu beyninə gəlmədi, axı bunlar mərdi arxadan vurandılar.

Səadət sanki Nicata sitəm edirdi.

- Səadət, ürəyini üzmə. Şükürlər olsun. Görürsən ki, adlatdım, de görüm sən necəsən?

- Necə olacam. Qorxuram.

- Niyə qorxursan, ay canım-gözüm?

- Bəs neyləyim, ay zalım. Əvvəl sən ölümcül yaralandın. İndi mən xəstələnmişəm. Bilmirəm, sabahnə olacaq. Bu dərd əlindən camaat qırılır. Üstəlik qorxuram sənə də düşə.

Səadət bu sözləri deyə-deyə qəhərlənir və əsəbləşirdi. Bunu hiss edərək Nicat onun sözünü kəsdi:

- Gözümün nuru, sevdalı ürəyim mənim. Özü xəstələnib, canını unudan, qayğıma qalanım mənim-deyərək onu ovutdu. Qəlbini sıxma. Mənə görə nigaran olma! Sən öz qayğına qal. Yeməyinə fikir ver. Birdə ölümdən - zaddan danışma. Deyirlər sevənləri Allah qoruyur. Yaxşımı!

- Yaxşı, nə deyirəm, qoy sən deyən olsun.

## HACI HƏSƏN HƏKİM

Daha beş gün keçmiş Səfər Kirs dağına qədər getdiyini və qayıdan baş Xankəndi və Əsgaranda 3 meydin Kəhrizlərdən tapıldığı xəbərini gətirdi. Bu onun qayıdana qədər olan xəbər idi. Yəqin ki, Şuşada və ondan da yuxarıda belə tapıntılar olmuşdu. Ancaq Səfər xəbər gözləməyərək oradan qayıdıb gəlmişdi.

Bütün xəstəlik mənbələrinin tapılmasına baxmayaraq-, əvvəlcədən xəstəliyə yoluxanları çox olduğuna görə Ağdamda hər gün ölənlərin sayı hələ azalmırdı. Artıq kənddə gündə 6 - 8 nəfər dünyasını dəyişirdi. Camaat böyük hüzn içində idi. Hüseynalı bəy vəziyyətə yaxında vaqif olmaq üçün məscidin həyətində idi, Molla Mürsəl kişi ilə camaatın durumunu müzakirə edirdilər.

- Hər şey bir yana, deyərək Molla Mürsəl heyranlıqla bütün bədəni ilə Hüseynalı bəyə tərəf yenidən döndü və diqqətlə onun üzünə baxdı. Mollanın sözünə ara verdiyini görüb sükütunu anlamadı.

- Nə deyirdin Mürsəl kişi?

- Bəy, elə üzünə baxmaq istədim.

- Axı niyə?

- Niyə olacaq, Tanrı səni saxlasın, həmişə bəd nəzərdən uzaq olasan!

- Niyə bunları demək istədin ki?

- Nə bilim, bəy, demək belə bir cür çıxır, üzünə demək olmasın. Axı belə vəziyyətdə Ailəni götürüb Təbrizə, Tiflisə getməyə imkanın var amma getmirsən. Mən bilirəm ki, bunları yerin - göyün sahibi görür və bu işlərinə hərəkətlərinə görə səni qiymətləndirəcək. İstədim biləsən bunu mən də camaat da görür və

qiymətləndiririk.

- Ay Mürsəl kişi bu sözlər nəyə lazımdı axı? Atalar deyib: "Elnən gələn qada- bəla toy bayram olar". Birdə xalqın camaatın yolunda gördüyümüz bir xidmətə görə başımıza bir iş gələrsə biz yəqin şəhid sayılmış oluruq. Keşkə İmam Hüseynin şəhidlik məktəbindən bir dərs almış olsaq. Nə xoş bizim halımıza, şəhidlik zirvəsi bizə qismət ola!

Bəy bu sözləri deyəndə Mürsəl kişi heyrət və minnətdarlıqla onun üzünə baxmağa davam edirdi.

- Yeri gəlmişkən, dinimizdə şəhidlik barədə nə deyilir?

Mürsəl kişibəyin bu sualında özünü yaxud kimisə yox məhz camaat içində xəstəlikdən rəhmətə gedənləri nəzərdə tutduğunu anladı. Suala hədislə cavab verərək Mürsəl kişi sözə başladı.

- Günlərin bir günü Peyğəmbərimiz Məhəmmədinül Mustafa sallalahu əleyh və ali vəs-sələm səhabələrinə sual edir:

- Kim bilir kimlər şəhid sayılır?

Səhabələrdən biri cavab verir ki:

- Vətənini qorumaq uğrunda döyüşlərdə dünyasını dəyişənlər şəhid sayılır.

- Doğrudur, - deyə, Peyğəmbərimiz bildirir və sözünə belə davam edir. Bundan başqa İnsanların rifahı naminə olan elm yolunda dünyasını dəyişənlər, ailəsini dolandırmaq üçün çalışdığı işdə dünyasını dəyişən möminlər, suda boğulanlar, uçqun altında qalanlar şəhid sayılırlar.

Molla Mürsəl Peyğəmbərimizdən hədisi bitirdi. Ancaq sözünə davam edərək:

- Bəzi alimlərin yazılarında xəstəlikdən ölənlər şəhid sayılır. Bu barədə olan hədislər səhih olmadığına görə bir şey demək çətindi.Bəy, başına dönüm, mən fikrimi deyim ki, hətta şəhid sayılsalar belə el birliyi ilə imkan daxilində rəhmətliklərin müsəlman

qaydası ilə kəfənlənib basdırılması məsləhətdi.

- Əlbəttə, elədi, hamı istəyər ölüsünü üsul-ərkanla dəfn eləsin, - deyə bəy təsdiq etdi. Bəlkə mən Tiflisə kəfən dalınca gedim?

- Bəy, el-obanın ağırlığı həmişə onun qeyrətli oğullarının çiynində olub. Allah yolunu açıq eləsin.

OOO

Həmin axşam Hüseynalı bəy işlərini səhmana salaraq səhər tezdən daha uç köməkçisi ilə Tifləsə yola düşdü.

Bu səfərdə bəy həkim də soraqlayırdı. Bu bəlanın sağalması yolunu bilən bir təbib tapmaq məqsədi ilə yolunu Gəncədən saldı. Baha olsa da, Gəncədən bir at yükü qədər kəfənlik bez alıb köməkçilərin biri ilə Ağdama yolladı. Daha çöx bez almaq üçün Tiflisə gedəcəkdi. Amma alış-veriş zamanı soraq aldı ki, bu xəstəliklə mübarizə aparan və bir neçə nəfəri sağaldan həkim var. Şəkidə yaşayan Hacı həkimin sorağı ilə Hüseynalı bəy birbaşa Gəncədən Şəkiyə gəlir. Bəy Şəkiyə çatanda axşam idi. Başqa heç nəyi düşünmədən Hacı həkimin yerini soraqladı. Bildirdilər ki, camaatın xahişi ilə iş yeri kimi Şəkinin karvansarayında Hacı həkim üçün yer ayrilib. Gündüzlər xəstələrin yanında olur, axşamlar isə dava-dərman hazırlamaq üçün bura gəlir. Gecənin yarısına qədər burda işləyir. Bəzən heç evə gedə bilməyib burda qalır. Bəy karvansaraya gələndə Hacı həkim orda yox idi. Soruşanda karvansaranı işlədən bildirdi ki, həkim burada - Şəkidədi, indilərdə gələr. Artıq gecə idi. Həkimi gözləmək və gecələmək üçün bəy karvansaraydan yer götürdü. Az keçmiş köməkçisi həkimin gəldiyini bildirəndə bəy Səfəri görüşmək istədiyini bildirmək üçün göndərdi. Bir az sonra Səfər

qayıtdı ki, görüşmək olar. Bəy gələndə otağın qapısı açıq idi. İçəri girib salam verəndə həkim ayaq üstə onu gözləyirdi.

- Salam əleyküm, ey təbib - deyə bəy böyük hörmətlə həkimi salamladı.

- Vəəleyküm Salam, bəy, - deyə həkim eyni ehtiramla onu salamladı.



**Hacı Həsən Həkim**
***(1862-1918)***

Hacı həkim üz quruluşundan və xarici görkəmindən elə Hüseynalı bəyi xatırladırdı. Qamətli bədəni, nurlu üzü olan Hacı həkimin alnı açıq, dik baxışı, vüqarlı duruşu elə ilk baxışdan alicənab insan təəsüratı yaradırdı. Səliqəli geyimi və davranışı da bu mənzərəni tamamlayırdı. Bəyin xarici görünüşündə yeganə fərq həkimin geri daradığı saçlarının rənginin açıq-şabalıdıya çalan yox, qara rəngdə olması idi. Ancaq oxşarlıq o qədər idi, sanki axşam vaxtı qarşılaşsan, dəyişik salardın. Hər şey insanın daxilindən gələr deyərlər. Xarici oxşar olanların çox vaxt daxili də eyni olur. Bu baxımdan bəylə həkimin söhbətinin yaxşı alınması elə ilk salam əleykümdən hiss olunurdu. Həkim əli ilə otaqdakı ən rahat yeri göstərərək, mehriban səslə

- Buyurun - dedi.

Qonaq qarşılama ərkanına görə bu o demək idi ki, o, əli ilə bəyin oturmasına işarə edir, dili ilə isə “buyurun” deyərək danışmaq üçün sözü ona verirdi. Əsl ədəb-ərkan qaydalarını bilən, sevən və bütün həyat tərzində bu cürə olan Hüseynalı bəy əyləşdikdən sonra sözə başladı.

- Hacı Həkim, Ağdamdan gəlirəm. Ağdama bitişik Qyaslı kəndi var, orda doğulmuşam, elə orda yaşayıram. İndi bizim camaat çox böyük sınaqdan keçir. Hər gün xəstəlikdən 6 - 8 nəfər dünyasını dəyişir. Vəziyyət o həddə çatıb ki, camaat ölənlərini xəstəlik yayılmasın deyə bəzən kəfənsiz basdırır. Mənim inandığıma, bildiyimə görə xəstəlikdən - həmdə kütləvi xəstəlikdən ölənlər dinimizdə şəhid sayılırlar. Şəhidlərə kəfən vacib olmaz. Ancaq, Hacı, doğrusunu siz bilərsiz. Hacı həkim adınız Hacıdı, yoxsa Mübarək Məkkə ziyarətində olmusunuz? - deyə Hüseynalı bəy həkimin fikrə getdiyini görərək söhbət mədəniyyətinə görə -bir dəfəyə uzun-uzadı danışmamaq üçün həmsöhbətinə sual verərək söhbəti onun davam etməsini istədi. Həkim sanki yuxudan ayıldı. Elə bil həkim bəyin nədən danışdığından çox bu qədər vacib mövzunu bu cürə təvazökar formada anlatmasına fikir verirdi. Ancaq özünü o yerə qoymayıb söhbətə adi qaydada davam etməyi qərara alaraq cavab verdi.

- Adım Həsəndi, bəy, özüm Ərəbistanda anadan olmuşam, Yəni Osmanli imperiyasında millətim ərəbdi. Mədrəsədə dərs almışam. Hacc ziyarəti də mənə qismət olub. Bacardığım qədər dini kitablar, risalələr oxumağa çalışıram. Dinimizdə şəhidlik zirvəsi çox uca tutulur. Bir çox alimlərin dini kitablarında nəinki xəstəlikdən ölənlər, hətta əgər bir mömin müsəlman şəhid olmaq arzulasa və zirvəyə çatmaq istəsə, bu istəklə ömür sürən zaman adi əcəldən ölsə belə şəhid sayılır. Tanrı bizi bu səviyyədə olan möminlərdən eləsin İnşallah.

- Amin, - deyərək Hüseynalı bəy həkimin fikirlərinə şərik olduğunu bildirdi.

- Ancaq ayrı-ayrı məsələlərə münasibət və inanclar təriqətlərə görə dəyişə bilir. Məsələ: bəy, sizin təriqət haqqında düşüncələriniz necədi? -deyə həkim eyni ilə söhbət mədəniyyə-

tinə uyğun sual verdi.

- Mənim oxuduğum kitablarda və dünya görüşümdən formalaşan fikir budur həkim, necə insan mədəsi onun doğulduğu, böyüyüb boya başa çatdığı, yaşadığı ərazidə müəyyən məsafəyə qədər uzaqlıqda yetişən meyvə-tərəvəz və ondan hazırlanan ərzaqları daha yaxşı həzm edir. Burasını təbib olduğunuza görə siz daha yaxşı bilərsiz. Uzaqda yetişənləri isə nə adamın ürəyi istiyir, nə də yeyəndə mədəsi yaxşı həzm edir. Doğrudurmu, həkim,-deyə bəy xitab etdi.

- Tamamilə doğrudur, bunu tibb elmi təsdiqləyir-deyə Hacı həkim cavab verdi.

- Mənim fikrimcə, insanın düşüncə və qavrama qabiliyyəti də belədi, - deyərək bəy sözünə davam etdi. Baxın Allahımız bir, Quranımız bir, Peyğəmbərimiz birdir. Elə Qibləmizdə birdir. Bizə baxanda isə dünyamız böyükdür. Bu böyük dünyanın ayrı-ayrı yerlərində az-az adamlar yetişirki, dini alim, müşteid səviyyəsinə qalxır və bir olan Quranımızın açıqlamasını yazır. Yəni risalələr və ya şəriət məsələlərinin izahını yazır. Yazılan kitabları oxuyaraq həmin bu alimə yaxın ərazilərdə yaşayan əhali onun yozumladığı formada Quranımızı anlamağa, başa düşməyə çalışır. Başa düşdüyü, inanıb qəbul etdiyi formadada öz ruhani həyatını yaşamağa çalışır. Beləliklə, təriqətlər yaranır və bu təbiidir və doğrudur. Quranımızın Əl-Hücurat (Otaqlar) surəsinin 13-cü ayəsində belə buyurur: “Ey insanlar, biz size bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlar və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdir (pis əməldən ən cox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır”. Yəni anladığınız alimlər fərqli ərazilərdə yaşadığı üçün onların

düşüncə tərzinin də, yazılarının da fərqli olmasını, onları Allahımız belə yaratdığını Peyğəmbərimiz və Quran vasitəsi ilə bizə bildirir. Bizə düşən bunu belə qəbul etməkdir.

Həkim bəyin bu cür savadlı və həqiqi inancla məntiqli danışmasına valeh olmuşdu elə istəyirdi bəy söhbətə davam etsin. Çünki onun da bir savadlı, dünyagörüşlü insan kimi inancı və yozumu bəyin dedikləri ilə üst-üstə düşürdü. Həkim söhbəti bir az davam etdirmək istədiyindən belə sual etdi:

- Bəs bəy bu təriqətlər arasında bəzən soyuqluq və mübahisələr olur, bu nədəndi?

- Nədən olacaq elə dediyim məsələdən. Daha doğrusu, bu soyuqluq və mübahisələrin məncə iki səbəbi var. Ayənin birinci hissəsinə fikir verirsiz: "Ey insanlar, biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq" - Yəni insanlar bir biri ilə qardaşdır. Allah bunu bizə deyir, ancaq insanlar bunu unudur. Birinci səbəb budur.

İndi ayənin ikinci hissəsinə fikir verək: - "Sonra bir-birinizi tanıyasınız deyə sizi xalqlara və qəbilələrə ayırdiq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır. Allah biləndir, xəbərdardır" Baxın, uca Allahımız birimizi doğru yola, o birimizi isə yanlış yola göndərməyib. Bu cümləni təkrar demək istəyirəm - Allahımız birimizi doğru yola o birimizi isə yanlış yola göndərməyib. İndi fikrimi açıqlamaq üçün bir misal deyim sizə: Bir azərbaycanlı mömin, məsələn mən, bir misirli mömin, bir də pakistanlı mömin müsəlman düşünün. Həcc ziyarəti zamanı Məkkə ziyarətinə gedəsiyik. Biz nə edirik, hər birimiz yaşadığımız yerdən halallaşıb Məkkəyə, Məscidül Hərama yola düşürük. İndi mən durub yolumu Misirdən, Pakistadan salmıram ki, Məkkəyə getmək üçün. Heç buna məcbur deyiləm. Çünki belə vacibat yoxdur. Mən necə deyə

biləraəm - Ay Pakistanlı mömin qardaşım sənin yolun yanlışdı. Sən mütləq Məkkəyə getmək üçün gəlib Azərbaycandan getməlisən. Pakistannan Məkkəyə gedən yol ayrıdı, Misirdən gedən yol ayrıdı, Azərbaycandan gedən yol ayrıdı. Ancaq bütün yollar hamısı aparıb Məkkəyə çıxarır. Məkkəyə girəndən sonra isə hardan gəlməyindən asılı olmayaraq, mənzərə eynidir. İndi misaldan əvvəlki sözü bir daha deyirəm - uca Allahımız birimizi doğru yola o birimizi isə yanlış yola göndərməyib. Sadəcə bir-birimizi tanıyaq deyə az bir fərq qoyub aramızda. Bəs biz nə edirik, digərimizə deyirik: "Sən yanlış yoldasan, mən düz yoldayam". Qarşımızdakı eyni sözü bizə deyəndə mübahisə düşür. Elə bu məqamda Allahımızın dediyindən çıxıb şeytanın yoluna düşürük - Qardaşımızla mübahisə edirik. Doğru yol isə budur ki, az olan fərqin nədən ötrü olduğunu bilərək, çox olan eyniliyimizi daha çox qabardaraq ön plana çəkək və daha çox bir olaq. Əvvəla bu Allah yoludur, sonrası isə ayrı-ayrı durmaq yalnız və yalnız düşmənlərə, bizi istəməyənlərə sərf edir. Məsələn heç uzağa getmə "Parçala hökm sür" siyasəti yeridənlər artıq 105 ildir (1802-1907) Azərbaycanımızı parçalayıb hökm sürür .

Hacı həkim çox diqqətlə qulaq asırdı.

- Demək istəyirəm biz Allahın qoyduğu yolla getməliyik, bir olmalı, bir birimizin dərdinə şərik olmalıyıq. Hər kəs bacarığı işdən elinə, obasına kömək etməlidi. Bizim onsuz da pis qonşumuz ermənilərədən və onların arxasında duranlardan, xəstəliklərdən dolayı çətinliklərimiz çox olur. Məsələn, mən bu gün, həkim, sizə xahişə gəlmişəm. Elin dar günündə sənin xidmətinə ehtiyacımız var. Biz hər yerə soraq saldıq. İndi mən bilirəm bütün Azərbaycanda yeganə adamsan bu xəstəliklə mübarizə aparmağı bacarırsan və aparırsan. Mən niyə ən dərində

olan inancımı dilə gətirdim? Cünki inanıram ki, siz də belə düşünürsünüz. Mümkün olsa, əgər burda sizdən birbaşa asılı olan təcili işlər, xəstələr yoxdusa, mənimlə Ağdama getməyi sizdən xahiş edirəm. Hə, nə deyirsən həkim?

- Nə deyəcəm, bəy, Allah sizin kimi adamları bu millətə, bu camaata çox görməsin deyə həkim cavab verdi.

Hüseynalı bəy onun sözünə ara verərək fikrə getdiyini görüb sözünə belə davam etdi.

- Hələ gör Nizami Gəncəvi Allah yoluna ilahi eşqə dair nələr deyib:

Göyün mehrabıdır eşq adlı nemət,
Yer eşqin torpağından tapdı qiymət
Sən eşqə bəndə ol məslək budur, bu
Bütün hal əhlinə istək budur, bu
Kim eşqə yaddirsa, artıq solubdur,
Onun yüz canı olsa da ölübdür.
Bu gövhərlər ki, var düşsən izinə
Hərə meyl eləyir öz mərkəzinə.
Cahanda cəzbən qeyri nə iş var?
Həkimlər bu işə eşq ad qoyublar.
Bu dastana girdim eşq ilə mən
Cahan doldu eşqin səsindən.

Həkim bu misraları bəyin dilindən eşidəndə heyranlığını gizlətmədi.

- Bəy demək siz Hizami Gəncəvi vurğunusunuz?

- Əlbəttə burda nə var ki?

- Necə nə var, mən sizə valeh oldum. Deməli, siz sadəcə imkanlı və savadlı adam deyilsiniz. Siz öz xalqını ilahi eşq səviyyəsində sevən, hətta bu yolda ölməyi gözə alan bir zatsınız.

- Çox böyütməyin, həkim. Biz sadəcə həyatımızın mənasını

bunda görürük. Mən inanıram ki, həkim, elə siz də bu fikirdəsiniz. Yer üzündə bu qədər xəstəlik, mövzular ola-ola bu tif xəstəliyi ilə yalnız sizin kimi həkim məşğul ola bilər.

- Yəqin belədir - deyə Hacı həkim eyni təvazökarlıqla cavab verdi. Siz Nizamidən beyt deməzdən öncə getmək qərarını vermişdim və burda məni gözləyən xəstələr haqqında fikrə getmişdim. Hesab edirəm, gedə bilərik. Burdakı xəstələrimin müalicəsi gedir. Üstəlik burada Şəkidə Ağdama nisbətən xəstəliklər çox-çox azdı. Artıq xəstələr və camaat arasında lazimi maarifləndirmə işi aparmışıq. Bəy bu sözləri eşitdikdə sanki uşaq kimi sevindi.

Sabah səhər lazımı tapşırıqları vermək və ağır bir xəstəyə baş çəkməli olduğuna görə həkim bəydən vaxt istədi.

- Təbii ki, həkim, siz necə məsləhət bilirsiz, elə olsun. Köməkçilərimi kəfən almaq üçün Tiflisə göndərəcəm. Onunla əlaqədar mənə də vaxt lazımdı.

Artıq gecə keçirdi bəy xüdafizləşib həkimin otağından çıxıb öz otağına getdi.

Səhər bəy Səfəri Tiflisə göndərmək üçün yanına çağırdı.

- Tez hazırlaşıb çıxırsınız Tiflisə. Bir başa gedirsiz mərkəzə. Dmitri Uznadze küçəsi, ev 17-də mənim dostum yaşayır. Adı İraklı Mukhiqulidi, Qori seminariyasında bir yerdə oxumuşuq. Tanışlıq verib salamımı yetirərsiniz. Tiflisə nə üçün getdiyinizi və bu işdə sizə yardım etmək xahişimi çatdırarsınız. Qoy sizə çoxlu miqdarda kəfənlik tapmaqda köməklik etsin. Amma malın pulunu siz ödəyərsiz.

- Baş üstə, deyib Səfər dərhal atlanıb yanında da bir nəfər Tiflisə yola düşdü.

Həmin gün çox yubanmadan Həkimlə bəy Şəkidən Ağdama yola düşdülər. Onlar Ağdama, Qiyaslıya yetişdikdən dörd gün sonra Səfər uç böyük furqon at arabası yükü qədər kəfənlə gəlib çıxdı.

- Bəy, Allah sənin dostlarının canını sağ eləsin, -deyə Səfər bəyin yanına çatan kimi məlumat verdi.

- Hə… necə gedib gəldiniz?

- Necə olacaq, elə sənin ismarıcını İrakli qardaşa deyən kimi heç bizə buyruq vermədi. Tapşıdığınız kimi tapa bildiyi qədər kəfən hazır edib gətirdi Qatar ayağına. Malı yüklətdirdi, bizi mindirdi, heç bir xərc çəkməyə qoymadı. Malın pulunu zorla ödədik. Yoxsa, buna da icazə vermirdi.

- Əlbəttə yaxşı dost belə olmalıdı. İnsan gərək dostunun hörmətini həmişə saxlasın. Nizami deyir:

Çox işlər var ki, dost ilə düzəlmiş,
Gərəkdir dost, əgər üz versə bir iş.

Gətirilən kəfənliklərin hamısı bəyin tapşırığı ilə məscidə təhvil verildi. "Pis günün ömrü az olar" deyiblər. Xəstəliyin mənbəyinin tapılmasından və Hacı Həsən həkimin gəlməsindən bir aydan bir az artıq vaxt keçmişdi. Belə qısa vaxtda xəstəliyin demək olar öhdəsindən gəlinmişdi. Kənddə ölənlərin sayı azalmışdı. Artıq gün aşırı, bəzən isə üç gündə bir nəfər bu xəstəlikdən dünyasını dəyişirdi. Neçə vaxtdır camaatın üstünü almış qara bulud çəkilmişə bənzəyirdi. Get-gedə xəstəlik camaatdan uzaqlaşdı.

Qeybdən gələn bu bəlanın gücü sevənləri ayırmağa yetməmişdi. Həkimin birbaşa köməyi və onun vasitəsi ilə camaatın maarifləndirilməsi hesabına Səadət də xəstəliyə qalib

gəlmişdi. Söz düşəndə Nicat deyərdi, “Göydə Allahın, yerdə yaxşı adamların köməyi ilə sevənlər ayrılmadı. Qovuşmağımıza az qalıb”. Ancaq xəstəlik zamanı Səadətin nənəsi, Nicatın da dayısı dünyasını dəyişmişdi. Buna görə hələlik bu mövzunun üzərinə gəlinmirdi. Üstəlik Nicat hələlik özünü yaxşı hiss etmirdi. Həmin yay xəstəlik olmasına baxmayaraq Allah siçan və çəyiritkə kimi ziyanvericilərdən camaatı qorumuşdu.

## GƏNCLƏRİN SÖHBƏTİ

Axşam üstü idi. Hüseynalı bəy məktəbdə dərsini bitirib çıxanda köməkçisi İbrahim ona yaxınlaşdı.

- Nə xəbər? -deyə birinci bəy sözə başladı.

- Bu günə şükür, salamatçılıqdı, xəstəlikdən rəhmətə gedən yoxdu.

- Əkin-biçində vəziyyət necədi?

- Kötəl, Qaraçava, Misirxanlı və sizin çəkdirdiyiniz Qiyaslı arxlarının altına düşən ərazilərdə məhsul lap yaxşıdı.

- Bax görürsən, Allah qoruyanda qoruyur,-deyə hər şeyə yaxşı tərəfdən baxmağı bacaran və bunu həmişə tövsiyə edən bəy sözünə davam etdi. Təsəvvür elə camaatın bu ölüm-itim vaxtında əkin-biçini siçan, çəyirtkə bəlası tutaydı, onda bu camaat heç cür mübarizə apara bilməyəcəkdi. Di gəl qışda aclıqla mübarizə apar. Bax bu bəladan Allah bizi qorudu. Daha nə xəbər, İbrahim?

- Təbrizdən Kamil ustanın kəhrizdə davam edən işlərdə iştirak etmək üçün onun böyük oğlu Əziz gəlib. Deyir, Kamil usta gələn həftə gələcək.

- Çox yaxşı, oğlunu tanıyıram. Sənəti tamam atasından öyrənib, çox işi Təbrizdə elə oğlu Əziz görür. Bəs indi hardadı?

- Gələr-gəlməz oğlum Elşadla dostlaşıblar. Tapşırmışdım bu vaxtı burda olsunlar. Bildim ki, görüşmək istəyəcəksiniz.

Elə bu dəm Əzizlə Elşad həyətdə göründülər. İbrahim kişi onları səslədi ki, yaxınlaşsınlar.

- Xoş gəlmisiniz, bala,-deyə bəy gəncləri salamladı.

- Xoş gününüz olsun, bəy.

- Maşallah, bığıburma gənc olmusan.

- Ömrünüz uzun olsun,bəy.

- Əlhəmdulillah tərbiyən yerindədi, mən bilirəm artıq kişinin sənətini əlindən almağa az qalıb, -deyə bəy gənclərlə bir az dodaqqaçdı elədi.

- Elə atamla bir yerdə gələsi idik, rəhmətə gedənimiz oldu. Atam dedi bala, sən get iş dayanmasın, mən rəhmətə gedənin 7-si çıxannan sonra gələcəm.

- Allah rəhmət eləsin, bala, işiniz avand olsun, daha sən özün sənətkarsan.

Gənc olmasına baxmayaraq, diqqətli olan Əziz bəyin sözünü bitirdiyini hiss edərək:

- Böyüklükdən əskik olmayasınız, bəy, -deyə İbrahimə tərəf baxdı, İbrahim işarə etdikdən sonra Əziz onlardan ayrıldı.

Səhəri gün tezdən Elşad Əzizi götürüb atla kəhrizə getdilər. Kəhrizdə işləyən daha dörd nəfər hələ birazdan gələsi idilər. Tezdən durub getməyi Əziz istəmişdi. Qarabağda, Ağdamda, ümumiyyətlə bu tayda birinci dəfə olduğundan buraları görməyə çox həvəslənirdi. Elşadla olan mehribanlığı bu həvəsi daha da artırırdı. Bunlar mehribandı demək az olardı. Sanki əkiz qardaşdılar, özləridə doğulandan heç ayrı düşməyiblər. Elşadın Təbrizə,- o taya olan marağı Əzizin bu taya olan sevgisindən, marağından az deyildi.

- Qaqa! maa bir az Təbrizdən danışdana, - deyə buralar haqqında Əzizə geniş məlumat verəndən sonra söhbət arası onun danışmasını istədi.

- Qaqa? Qaqa nəmənə? Yəni nə mənada? Siz burda kimlərə qaqa deyirsiniz? -deyə Əziz maraqla ilk dəfə eşitdiyi söz olduğundan mənasını öyrənmək istədi.

- Buralarda qaqa ən əziz, mehriban adamına müraciət edəndə deyirik daha dəqiq, qan qohumlarına məsələn: qardaş qardaşa, bacı qardaşa, dayıoğluya, bibioğluya, əmioğluya nəbilim, belə

qohumlar arasında müraciət edəndə dediyimiz sözdü. Bunu mehriban dostlar, bir yerdə böyümüş el oğulları, hətta, yaşlı vaxtlarında da işlədirlər. Mehriban adamlar arasında bu normal müraciətdi. Ancaq tanımadığın adama belə müraciət etsən, qarşındakı bunu istehza, yaxud məzəmmət kimi qəbul edər. Amma mən sənə qaqa deyəndə heç bunları fikirləşmirdim. Saa qanım elə qaynıyıf elə bil bir evdə böyümüşük.

- Vallah mən də həminki kimi hiss edirəm. Gəl məndə sənə biraz Təbrizdən danışım. Təbriz anadı, ana beşiyidi. İşimizə görə Təbrizin kənarında çox oluruq. Hər tərəfdən dağlar olduğuna görə uzaqdan baxırsan elə bil beşikdə uşaq yatıb. Nə qədər böyük olsada, beşikdə uzanmış uşaq kimi əzizləmək istiyirsən. Təbriz yanında Surxab, Yanıq, Səhənd dağlarının ətəklərində o qədər oluruq ki. Amma buranın dağları daha yaşıllıqdı. Hələ yamaclarında meşə olanları var.

- Kişinin sənətini də öyrənmisən, deyəsən, qaqa.

- Hə, onu deyim sənəti öyrənməyim daha çox kişinin fərasətidi

- Nətər yanı?

- Nətər olacaq, iş öyrətməyə öyrədir, öyrənməyəndə yenə öyrədir. Dalınca deyir:“bala sənəti öyrənəndə elə öyrənin ki, asılı qalmayasınız. Yəni nəyi öyrənirsinizsə, onu mənimsəyin. Daha siz ölüncə yanınızda qalası deyiləm ha…”.

- Doğrudan da, elədi.

- Əsası odur bizi zəhmətə öyrədib. Həmişə deyir:“bekar dayanma, heç vaxt bekar dayanmayın, dayandın batdın”. Biz nətəhər öyrənmişiksə, bayramlarda və ya işdən sonra vaxt qalanda boş dayana bilmirik. Uşaqlar, cavanlar yığışıb cürəbəcürə oyunlar oynayırıq.

- Elə bizdə də eyni ilə oradakı kimidi.

Dostlar mehriban söhbət edə-edə dağın ətəyinə yaxınlaşırdılar. Ancaq kəhrizə çatmağa xeyli vardı.

- Bəs burda siz gənclər hansı qədim oyunları oynuyursunuz?- deyə Əziz sual elədi.

- Bizdə ən çox Dirə döymə, Mətə qoruma, Cilingağac, sonra Sürdüm ağac oyunları oynuyuruq.

- Bayram vaxtı Dirə döymə və sürdüm ağac oyunları orada var. Hələ qoy deyim görüm eynidimi-deyə Əziz dəqiqləşdirmək istədi. Dirə döymə oynuyanlar iki komandaya bölünürlər. Sonra yerdə böyük dairə çəkib bir komanda olan oyunçuların sayına dəri kəmərləri qoyurlar dairənin içinə. Sonra komandalar çəkişirlər, kimuduzsa, dairədə olur. Çöldəki komanda da kəmərləri götürməyə çalışır. Kəməri götürə bilsələr, götürdükləri kəmərlə çöldəki kamanda içəridəkiləri vurub qorxudaraq o biri kəmərləri götürmək istiyir.

- Dairədəki komandanın çölə çıxması üçün içərilərdən bir nəfər ayağı ilə çöldəkilərdən bir nəfərin ayağına toxunmalıdı-deyə Elşad oyunun qaydasına davam etdi.

- İçəridəki adamın bir ayağı dairənin içində olmalıdı. Düzdü?

- Tamamilə doğrudur eyni cürə oynuyuruq - deyə Elşad təsdiqlədi.

- Sonra sürdüm ağac oynu hansıdı? O əl ağacları ilə 7 dənəsini bir yerə kom yığırsan, sonra birini götürüb yerdəki ağacların üstünə köndələn vurub sürüşdürürsən o oyundu?

- Hə, hə, həminkidi, sonra yerdə qalan ağacları ataraq qabaqdakı ağacı vurmağa çalışırsan. Vura bildinsə ağacın hara qədər getdisə əsas ağacı aparıb onun yerinə qoyursan, atdığın ağacları da yığıb gətirirlər təzdən atırsan.

- Əsas ağacı kim çox uzağa aparıbdısa, o udur heləmi? Uduzanda həmin yerdən qalibi belində daşıyıb gətirir ağacların

kom yığılıb qoyulduğu yerə kimi. Doğrudurmu?

- Tamamilə doğrudur.

- Bəs Mətəqoruma oyunu nə təhər oynuyursunuz? - deyə Əziz sual elədi.

- Əvvəlcə yerdə dairəsi bir qarış yekəlikdə mətə - çala qazılır. Tutalım bu oyunda beş nəfər oynuyursa, bu mətədən eyni uzaqlıqda dörd balaca mətə qazılır. Hər oyunçunun öz ağacı olur əlində. Bir dənə çovqan topu düzəldilir, qoyulur böyük-orta mətənin qırağına. Oyunçular mətədən hardasa 10 metr uzaqlıqda növbə ilə durub topa salvay atırdılar ki, vursunlar. Növbə püşk atmaqnan sıralanır. Topu salvayla hər vuran bir balaca mətə tutur. Salvay atandan o biri oyunçular mütləq salvay atandan geridə durmalıdılar, çünki əgər salvay topu yavaş tərpədib böyük mətəyə salsa, oyunçular özlərinə tez qaçıb mətə tutmalıdı. Topu vura bilməyən, yaxud özünə mətə tutmağa gecikən oyunçu mətəsiz qaldığına görə məcbur qalıb işləməli olur. Mətə tutanların məqsədi topu ağacla daha uzağa vurmaq olur. İşləyən topu getdiyi yerdən böyük mətəyə salmağa çalışır! O topu bir baş mətəyə də ata bilər, yaxud yavaş atıb mətəyə yaxın gələ bilər. Hərəkət edən topu mətədəkilər öz ağacı ilə vurub uzaqlaşdırmasın deyə işləyən topu öz ağacı ilə qoruya bilər, yaxud ayağını topun üzərinə qoyaraq topu öz əlinə götürə bilər. Məsələ bundadır ki, top böyük mətəyə girəndə hər mətədə olan oyunçu öz mətəsindən çıxmalı, özünə başqa mətə tutmalıdı. Həmin məqamda işləyən özünə mətə tuta bilər. Bəzən olur uzaqdan atılmış topa oyunçular toxuna bilmir. Top gəlib düşür böyük mətəyə. Ancaq işləyən gəlib çatana qədər mətədəkilər yerlərini dəyişir amma işləyən yer tuta bilmədiyinə görə işləməyə davam edir. Belə olur ki, işləyən topu böyük mətənin bir addımlığında götürə bilir. Topu götürdüyü yerə bir ayağını qoyaraq yaxınlaşır əli ilə topu mətəyə qoya bilir. Top

əldə olduğuna görə oyunçular topa ağac vura bilmir. Topa yalnız əldən çıxandan sonra vurmaq olar. Oyunda belə həyəcanlı anlar olur ki, işləyən topu mətənin içinə əlini topdan buraxmamış vurur. Oyunçulardan hansı tələsib mətəsini tərk etsə işləyən onun yerini tutur. Digərləri belə vəziyyətdə yerlərində qalır. İşləyən topu qol gücüilə uzağa ata bilir. Artıq topun dalınca mətəsini itirmiş gedərək işləməyə başlayır.

- Çox maraqlı oyun imiş-deyə bayaqdan sakit qulaq asan Əziz dilləndi.

- Hələ bizdə uşaqlar Muxça-mıxça, Ənzəli, Artırmada oynuyur - deyə Elşad sözə davam etdi.

- Muxça-mıxça bizdə də var bəs ənzəli hansıdı? - O uşaxlardan biri əyilərək əllərini dizdən aşağı dayayıb, başınıaşağı salır, o birilər gəlib:

Ənzzəli xan, ənzəli,
İkilər dəstə rəhbəri,
Üçdə bir yan vurarlar,
Dörddə yanbız əzəllər,
Beşdə qulunc qırarlar (əllərini yumruq qoyurlar)
Altıda təkəlli
Yeddidə əl dəysin, ətək dəyməsin

Belə- belə deyib əyilənin belinə əl qoyaraq üstündən tullanırlar, o oyundu?

- Tamamilə doğrudur

- Bəs artırma hansıdı?-deyə Əziz soruşdu

- Artırma ənzəliyə oxşayır. Amma burda daha çox çeviklik, yüngüllük lazımdı.

- Necə yəni?

- Qoy deyim də: Əvvəlcə yerdə bir qol uzunnuğunda xətt çəkilir. Sonra püşk atılır. Axıra qalan ənzəlidəki kimi əyilir, yəni "yatır". Püşkdə birinci olan artıran olur. Əvvəldən artıran yatanın belinə əl qoyaraq onun üstündən tullanır. Tullanıb düşdüyü yeri göstərir, yatan isə onun düşdüyü yerdə gəlib əyilərək yatır. Sonrakı oyunçular uzaqdan gələrək ayaqlarını xəttini üstünə qoyur və sıçrayır, əlini yatanın belinə qoyub onun üstündən tullanır. Bu məsafədən hamı tullandıqdan sonra yeni dövrə başlayır. Artıran yenə tullanır, düşdüyü yerə yatan gəlib yatır. Artıq məsafə uzandığından iştirakçılar üçün tullanmaq çətinləşir. Kim həmin məsafəni qaydaya uyğun tullana bilməsə, o, yatan olur. Məsafə artdıqca artıranın qərarına görə iki təkana yaxud üç təkana tullanmalar olur. Bəzən olur artıran özü uzatdığı məsafəni tullana bilmir ya büdrəyir yaxud xətti keçərək təkan verib tullanır. Belə olanda həmin tullanan yatmalıdı. Belə olur ki, yatan iddiaya qoşulur. Yəni artıran deyir bu məsafəni iki təkana tullansınlar, yatan durub deyə bilər ki, mən bu məsafəni bir təkana tullana bilərəm ona cəhd etmək imkanı verilir. Əgər tullana bilirsə, bu zaman artıran yatır, yatan isə oynayaraq artıran olur.

- Doğrudan maraqlı oyun imiş - deyərək bayaqdan deyilənləri başında canlandıran Əziz mehribanlıqla dilləndi.

Dostlar söhbət edə-edə gəlib kəhrizin üstünə çıxdılar. Bu vaxt dağın ətəyində o biri dörd nəfər görsəndilər.

## MƏKTƏB

Həmin gün hamısı axşama qədər kəhrizdə idilər. Həvəs və maraqla işlədiklərinə görə axşam olmasına baxmayaraq yorğunluq hiss etmədilər. Axşam kəndə qayıdanda:

- Sən bilirsənmi Hüseynalı bəymüəllimlik edir - deyərək Elşad Əzizə məlumat verdi.

- Necə yəni bəydərs deyir?

- Bəli, Hüseynalı bəy təhsilli, savadlı adamdı.

- Bəs bir belə iş-gücün içində necə vaxt tapır? Harda dərs deyir? -deyərək Əziz təəcübündən iki sual ard-arda soruşdu.

- Budey ha, elə evinin yaxınlığında özü tikdirdiyi bir neçə sinifli məktəbdə kəndin uşaqlarına, gənclərinə, hətta bir neçə yaşlı adamlara oxuyub yazmadan tutmuş bu yana hər şeydən dərs keçir.

Əzizin bu məsələyə marağını görüb Elşad təklif elədi ki:

- Gə gedək birbaş məktəbə. Bəy həmişə axırıncı dərsdə burda oxumuyanların məktəbə, dərsdə oturmasın istəyir. Gələnlərin sayı çox olanda o çox sevinir. O deyir:"hətta bir adam oxumaq, savadlanmaq yolunu seçməsə belə, oxumağa, maariflənməyə rəğbəti olmalıdır. Hər kəs çalışmalıdır ki, heç olmasa ən azı yazmaq, oxumaq öyrənsin".

- Siz necə bəxti gətirmiş camaatsınız belə həmyerliniz var.

- Hə nə deyirsən, gedəkmi məktəbə?

- Əllbəttə, gedək!

- Gənclər günorta naharını gec yediklərinə görə axşam yeməyindən öncə birbaşa məktəbə gəldilər. Əzizlə Elşad sinfə çatanda sonuncu dərs başlamaq üzrə idi. Bu dərsdə məktəbin

uşaqlarından başqa, xeyli gənclər,yaşlılar toplaşmışdı. Çox keçmədi dərs başladı. Hamı bəyin vəsaiti ilə caamatın düzəltdiyi partalarda oturmuşdu. Bəy isə qarşıda ayaq üstə idi.

OOO

- Əziz uşaqlar, sevimli gənclər, hörmətli yaşlılar.

Keçən dəfəki dərsimizdə maariflənmənin, elm almanın vacibliyindən danışdıq. Bu barədə kiminsə sualı var?-deyə sual etdi. Heç bir sual olmadığına görə müəllim sözünə davam etdi.

- Bu gün isə elmin özündən yox ona necə sahib olmaqdan danışacağam sizə. Elm öyrənməyin, maariflənməyin sirlərindən danışacam. İndi hamı fikirləşir bunu kim bilmir ki: "bilənlərdən dərs alırsan, oturub oxuyursan öyrənirsən, burda nə varkı?" Elədirmi?-deyə o, xitab etdi.

Sinifdəkilər çox diqqətlə qulaq asırdılar. Bir çoxu bəyin son cümləsini başını tərpədərək təsdiqlədi.

- Tamamilə doğrudur!-deyə bəy sözünə davam etdi.

- Bax mən bu gün bundan yox, yəni oxumaqdan, öyrənməkdən danışmayacağam! Danışmaq istədiyim oxumağa, öyrənməyə başladıqdan sonra bir daha deyirəm "başladıqdan sonra" necə davam etməyin sirrini sizə açmağa çalışacağam.

Belə deyək əgər elmin, maariflənmənin vacibliyini bilənlərin əksəriyyəti onu öyrənməyə başlayır, ancaq çox az hissəsi davam edir. Çünki başlamaq bir işdisə - qərar verib başladığın kimi bunu davam etdirmən tamam başqa işdir. Mən deyərdim, daha vacib və daha çətin işdir. İndi sizə məhz bu çətin işin necə həyata keçirilməsi yolundan danışacam. Qabaqca qısa deyəcəm, sonra bu qısa deyimdə olan ayrı-ayrı sözləri izah edəcəyəm ki, fikrim sizə tam aydın olsun:

Əvvəla insan özünü tanımalı, ikincisi, ətrafını, üçüncüsü, bunlar arasında əlaqə qurmalıdı. Sonra zəhmətlə elm öyrənərək bu üç addımı zamanla inkişaf etdirməlidir ki, özünün çox istədiyini, məqsəd qoyduğu uğuru qazansın. Yaxşı mənada məqsəd qoyulmuş uğuru qazanmaq işini məhəbbət və eşqlə həyata keçirməlidi. Bax bunları bacarmaq üçün zamanla və səbirlə inkişaf etməyinin doğru yol olmağına inanmalıdı. Özüdə çox inanmalıdı.Bu, mənim sizə deyəcəklərimin qısa formasıdı. İndi istəyirəm, bunu bir balaca geniş formada izah edim. Birincisi başlayım insanın özünü tanımasından. İnsanın özünə qiymət qoyması üçün mütləq özünü tanımalıdı. Özünə qiymət deyəndə pulla satılıq mal kimi düşünməyin. Belə düşünün biz kimsə haqqında danışanda deyirik "filankəs hörmətli adamdı", yaxud əksinə, -bax bu caamatın bir adama verdiyi qiymətdi. İnsan gərək həmişə öz qiymətini yaxşı mənada "qaldırsın". Qiyməti qaldırmaq üçünsə gərək özünün bu günkü qiymətini biləsən. Belə deyək camaat səni görüb qiymət qoyduğu kimi gərək sən özün-özünə kənardan baxıb qiymət verməyi bacarasan ki, sən kimsən, hansı vəziyyətdə özünü nəcür aparırsan. Sadə bir misal deyim: Qaranlıq küçəyə, yaxud tanımadığınız meşəyə girəndə nə edirik? Əlimizə ağac götürürük ki, quduz, hirsli itdən, vəhşi heyvandan özümüzü qoruyaq. Ancaq həmin məqamda bizə elə gəlir biz bu hərəkətləri qeyri-ixtiyari edirik. Adi vəziyyətdə özü haqda düşünməyən insan, həqiqətən etdiyi hərəkətləri qeyri-ixtiyari, yəni qabaqcadan düşünülməmiş, planlaşdırılmamış hərəkətlər edir. Yəni həmin məqamda ağlına nə gəlirsə, onu edir. Özünü tanıyan adam isə hər bir vəziyyətə öz qabiliyyəti daxilində qabaqcadan hazır olur.

İkincisi, insan ətrafını tanımalıdı. Ətraf deyəndə sizdən başqa nə varsa sizin ətrafınız sayılır. Bunların bir neçəsini sadalasaq:

hava, od, su, torpaq, insanlar və ilaxır hamısı ətrafınızdı. Hələlik sadədən danışsaq, bunları deyə bilərik. Məsələn: bu sadaladıqlarımızın hansı vəziyyətdə nəcür özünü aparacağını bilməyimiz üçün onlar haqqında olan məlumatları bilməliyik, bilmədiklərimizi öyrənməliyik. Məsələn biz hamımız bilirik fəsildən asılı olaraq hava qızır soyuyur. Elədirmi? - Bəs yaxşı soruşsam fəsillərin dəyişməsi nəyin nəticəsində baş verir? Əksəriyyətiniz izah edə bilməyəcək. Bir daha deyim bu gün burda bunların necə baş verdiyindən danışmırıq. Bu gün ancaq bu baş verən hadisələrin öyrənilməsinin vacibliyindən danışırıq!

Öyrənməyin vacibliyi ona görədir ki, olanlar bizim ətrafımızda baş verir və bizə yaxşı yaxud pis mənada təsiri var. Bu təsirlərdən baş çıxartmaq üçün ətrafında baş verən hadisələrə qiymət qoya bilməliyik. Əks halda ona uyğun hərəkət edə bilmərik. Belə olan vəziyyətdə ətrafımız bizi idarə edəcək. Başqa sözlə desək, həyat bizi hansı çuxura yuvarlayıb salsa, elə həmin çuxurda qalarıq. Heç vaxt həmin çuxurdan çıxa bilmərik.

Bəy bütün bunları aram-aram danışırdı. Dərsdə iştirak edənlər isə diqqətlə ona qulaq asırdılar.

- Üçüncüsü özünlə ətraf mühit arasında əlaqə qurmaqdı. Bu çox vacib məsələdi. Ona görə ki, ətrafın sənli yaxud sənsiz yaşayır. Sən özünü göstərsən ətrafında səni görəcək, göstərməsən sən olmadığına görə dünya dağılmayacaq. Ətrafında yaşayanlar öz həyatlarını dayandırmayacaq. Yəni sənsizdə yağış yağır, gün çıxır, insanlar yaşayır, ağaclar böyüyür və sairə. Ancaq sən özünü göstərsən məsələn götürüb ağac əksən deyəcəklər bu bağı filankəs salıb. Camaat sənin var olduğunu görəcək. Zəhmət çəkib ev tiksən üstün örtüb içinə girib yaşasan. Yağan yağış hər yerə yağsa da sənin evinin içinə, evin içində olanda sənin başına, balalarının başına yağa

bilməyəcək. Bu misalları uzatmaq olar. Məncə, fikrim sizə aydın oldu. Əsas fikri isə indi deyirəm, sən bu işləri görən zaman mütləq ətrafını nəzərə almalısan. Nəzərə almaq belədi ki, onun qaydalarını, hərəkət istiqamətini bilməlisən, ancaq özünün daxilindəkiləri nəzərə alaraq hərəkət etməlisən və yaşamalısan. Bax bu nəzərə almaq ağlın məhsuludu. Məhz elmlə yox, ağılla düşünərək doğru yolu görə bilərik. Bir anlıq bunun tərsini düşünək. Əgər biz ancaq ətrafın istədiyi kimi yaşamalı olsaq, onda bizim yaşayışımız bizim istədiyimiz kimi yox, ətrafın istədiyi kimi olacaq və belə biz heç cür "rahat"ola bilmərik. Yaxud yaşayan zaman ətrafımızı nəzərə almasaq o zaman həyatımız ruhi xəstənin həyatından fərqlənməz. Yəni doğru yol budu ki, yaşayış zamanı daxilinlə ətrafın arasında tarazlaşdırılmış münasibət qurmalısan. Bax bu münasibəti qurmaqda ağıl bizə kömək olur. İndi dediklərimizi ümumiləşdirək.

"İnsanın ağlı onun daxili ilə ətrafı arasında olan münasıbətin səviyyəsi ilə ölçülür". Bu tezisi mənim oxuduğum kitabların alimləri təsdiqləyir. Başqa sözlə desək: "Ağıl insanın iç dünyası ilə ətraf dünyası arasında əlaqə qurmaq bacarığıdır."

Bura qədər, məncə, hər şey aydındır. Amma dərsin əvvəlində haqqında danışdığım sirri hələ deməmişəm. Onu deyənə qədər istəyirəm bir neçə kəlmə bu "üç addımı" zamanla inkişaf etdirmək üçün zəhmət çəkərək elm öyrənmək barədə deyim. Elm öyrənməyin vacibliyi barədə ötən dərsimizdə danışdığımızdan bu barədə danışmayacağam. Burda yalnız bir məsələ qalır, elm öyrənməyə görəcəyin çox vacib iş kimi baxasan, iş görmək üçünsə çalışmalı, zəhmət çəkməlisən. Bağ əkməsən onu becərməsən sənə heç bar verərmi? Allah da tənbəl insanları sevməz. Böyük mütəfəkirimiz Nizami deyir ki:

Gecə zülmətdə belə daşı zəhmət yükünü
Yalnız zəhmətkeş bilir vacib işin zövqünü.

Bir neçə kəlmə də məqsəd barədə sizə deyim. Məqsəd çox vacib məsələdi. Əgər sən bir iş görməyi qarşına məqsəd qoymasan həmin işi görmək həvəsi səndə yaranmayacaq. İnsan qarşısına mütləq məqsəd qoymalıdı. Çünki qarşına hansı məqsədi qoyursansa, məhz ona nail olursan. Sadə dillə desək: bazara getməyi məqsəd qoyub çıxmısansa, gəlib bazara çıxacaqsan. Daha gedib əkin sahəsinə çıxası deyilsən. Yəni insan qarşısına hara getməyi məqsəd qoyursa, ora gedib çıxır. Başqa sözlə, qarşısına heç bir məqsəd qoymayan insan heç bir yerə gedə bilmir. Dolayısı ilə heç nəyə nail olmur. Uğur qazanmağı məqsəd qoyan insan isə gec-tez uğur qazanır. Son cümlədəki gec-tez sözü zamana işarədi. Hər bir məqsədin həyata keçməsi üçün mütləq zaman, vaxt lazımdır. Hər kəsin elmi biliyi ona agah etməlidi ki, qoyduğu məqsədin həyata keçməsi üçün təxminən nə qədər vaxt lazımdı. Belə deyək, buğda becərmək üçün torpağa dən səpmisənsə sən bilməlisən bunun yetişməsi üçün mütləq vaxt keçməlidiki, toxum boy atıb sünbül olsun, sonra yetişib sənə buğda versin. Bax bu məqamda səbir etməyi bacarmalısan.

Bura qədər fikrimi sizə aydın edə bildimmi? - deyə bəy əyləşənlərə bir də xitab etdi.

- Aydındır, aydındır, - deyə bir neçə yerdən yavaşca səslər gəldi.

- Bəs sirr nədədi?-deyə orta yaşlılardan bir nəfər hörmətlə sual etdi.

- Təşəkkür edirəm suala görə. Burda sirr ondadır ki, bütün bunları çox istəyəsən və bu çox istəyərək həyata keçirəcəyin işin

ən doğru yol olduğuna çox inanasan. İstək o qədər yüksək səviyyədə olmalıdır ki, inanc səviyyəsinə gəlib çıxsın. Bir işi görməyə istəyin o qədər olmalıdır ki, heç kəs, heç bir şey səni o yoldan döndərməsin. Çox vaxt belə olur getdiyimiz yolun doğruluğuna inancımızın azlığından zaman keçdikcə məqsədimizdən dönürük, başqa-başqa işlərə həvəs göstərməyə başlayırıq və yolumuzu azırıq. Nəticədə gəlib çıxdığımız yer bizim məqsəd qoyduğumuz yer yox, hansısa başqa yer olur.

Gəlin sizə bu istək barədə bir hədis danışım: Günlərin bir günü mömin bir insan din xadiminə yaxınlaşaraq sual edir.

- Mən Peyğəmbərimiz Məhəmməd səllalahu əleyhi və ali və s-səlləmi yuxuda görmək istəyirəm, ancaq görə bilmirəm. Nə edim onu yuxuda görüm?

Din xadimi cavabında deyir

- Sən onu görməyi çox istəməlisən, istəyini artırmaq üçün yatmazdan qabaq Ərafat duası oxuyarsan.

Səhərisi gün mömin gəlir deyir ki,

- Dediyini etdim, ancaq yuxuda mübarək Peyğəmbərimizi görə bilmədim.

Din xadimi yenə ona bu yuxunu görməyi çox istəməsini bildirir, bu dəfə yatanda Mucir duasını oxuyub yatmasını istəyir. Mömin belə də edir, ancaq yuxuda yenə Peyğəmbərimizi görə bilmədiyini deyəndə bu dəfə din xadimi ona belə məsləhət verir:

- Bir tövsiyəm var, onu elə bu dəfə yuxu görəcəksən

- Buyur - deyərək yuxu görməyi qarşısına məsəd qoyan mömin diqqətlə qulaq asır

- Bu axşam üçün yaxşı yağlı bir balıq alarsan, onu yaxşı qızartdırarsan, ancaq qızartmaqdan əvvəl una yox duza batırarsan. Sonra bu qızarmış balığı soğanla yeyib yatarsan.

Bu adam onun dediyi kimi edir. Səhərisi gün din xadimi

mömindən soruşur.

- İndi de görüm yuxuda nə gördün?

Mömin astaca...

- Peyğəmbərimizi yenə görmədim-deyir.

- Onu bilirəm. İstəyirəm nə gördüyünü mənə danışasan.

- Bu gecə yuxuda çaylar, şəlalələr, bulaqlar, hətta dənizdə çimdiyimi gördüm, ancaq elə hey gördüm şəlaləyə cumub çoxlu su içirəm.

- İndi məni diqqətlə dinlə, - deyərək alim sözə davam etdi.Bax bu su ilə əlaqədar yuxu görməyə səni vadar edən axşam yediyin duzlu balıq qızartması idi. Bunu unutma. Peyğəmbərimiz Məhəmməd səllalahu əleyhi və ali və s-səlləmi yuxuda görmək üçün onu o qədər istəməlisən ki, bu istək sənin içində bir eşq yaratsın. Onu yuxuda görmək sənə nəsib olsun.

Hüseynalı bəy hədisi bitirəndən sonra yaşlıların gözündə nəm var idi.

- Bax sirr bundadır. Qoyduğun məqsədin həyata keçməsi üçün səndə çoxlu istək və inam olmalıdır ki, uğur qazana biləsən.

Sonda qoy burasını sizə deyim. Bayaq qısa halda deyəndə dedik yaxşı mənada məqsəd qoyulmuş uğuru qazanma işi məhəbbət və eşqlə həyata keçməlidir. İşi ailənə, böyüklərinə, camaatına, xalqına, torpağına, vətəninə və nəhayət Yaradana olan eşqlə həyata keçirəsən. Həyata keçirmək budur ki, açılmış bəsirətinlə görə bildiyin məqsədinə doğru özünün bayaq sadaladıqlarımız ətrafdakıların - Böyüklərinin, xalqının və nəhayətdə Allahın razılığı ilə addım-addım hərəkət etməkdir. Bu məncə ən böyük hərəkətdi. Ən sonda yaxşı əməl barədə deyim.

Yaxşı əməllər nədi? -siz bilirsiniz. Məsələn: biz ötən dərsimizdə elm öyrənməyin, maariflənmənin vacibliyindən danışdıq və s. Yenə qoy inancımı deyim Tanrının

qiymətləndirdiyi ən yaxşı, ən yüksəkdə duran əməllərdən biri ellə ağzıbir yaşamaq, onun dərdinə şərik olmaq, onun işinə yaramaqdı. Baxın dərd bəladan çıxmışıq. Gördünüz xəstəlik heç kəsi tanımır, seçmir. Qonşunuzun başına gələn sizin də başınıza gələ bilər. Bəsirəti açıq adamlar bunu başa düşməlidir.

Dərsin çox uzanmasına baxmayaraq bəy o qədər maraqlı danışırdı ki, vaxtın necə keçməsini heç kəs hiss etmədi. Artıq gec olduğundan:

- Hər şeyin öz vaxtı var. Elə gələn sərbəst mövzulu ümumi dərsdə vaxt və səbir barədə sizə danışacam,-deyərək dərsin bitdiyini elan etdi.

## AXŞAM YEMƏYİ

On gün keçmiş Kamil usta Təbrizdən gəldi. Günün ikinci yarısı olsada axşama biraz vardı. Kəhrizin son vəziyyətini tez görmək istədiyindən birbaşa kəhrizə getdi. Əziz, Elşad, Səlim və o biri işləyənlər hamısı orda idi. Quyulara düşməzdən qabaq Əzizi dinləmək istədiyindən onu yanına çağırdı. Ustanın gəldiyini eşidən kimi hamı toplandı. Kamil usta hamı ilə görüşəndən sonra:

- Yorulmuyasız, işiniz avand olsun. Deyin görüm, aşağıda vəziyyət necədi?-deyə sual edəndə aralarında bu işdə ən təcrübəli Əziz olduğundan o dilləndi.

- Usta,- deyə iş üstü olduğuna görə atası olmasına baxmayaraq ona "usta" deyə müraciət etdi. Aşağıda vəziyyət yaxşıdı, su boldu, işlər yekunlaşmaq üzrədi.

- Sizcə, nə qədər iş qalıb?

- Usta, hər halda siz bilən doğru olar. Bizcə, iki həftəyə tamam bitər.

- Qollarınıza qüvvət! Gördüyünüz iş bərəkətli olsun.

Sonra Kamil usta bir-bir bütün görülən işləri, quyuları, axarları yoxladı. Su bol idi. İşlər çox səliqə ilə görülmüşdü. Başları işə qarışanlar ayıldılar ki, axşamdır. Ordan ayrılıb kəndə çatanda İbrahim Kamil ustaya bəyin onunla görüşmək istədiyini bildirdi.

- Hardadı bəy, evdədirmi?-deyərək Kamil usta görüşün vaxtını, yerini dəqiqləşdirmək istədi.

- Gəlin gedəyin. Hamı gəlsin. Bəy axşam yeməyi süfrəsi açıb hamınızı çağırır.

- Hamımızı?

- Hə. Bəy bu axşam yeməyini sizinlə yeyəcək, burda nə var ki?

- Nə deyirəm ki. Kamil usta təəcübünü gizlətdi.

Hamı hazırlaşıb gələndə Hüseynalı bəy məktəbdə sonuncu dərsi bitirib gəldi. Mehriban görüşdən sonra bəy hamını həyətdə açılmış yemək süfrəsinə dəvət etdi.

Evin quzey tərəfindəki tut ağacının altında açılmış süfrə adi axşam süfrəsindən daha çox çeşidinə görə fərqlənirdi. Duru yemək kimi dovğa hazırlanmış, ət soyutma edilmiş, xeyli toyuq qızardılmışdır. Payız tərəvəzlərindən hazırlanmış salatların qoxusu yeməyin ətrinə qarışmışdı. Ağartı, pendir, göyərti ilə isti təndir çörəyi də öz yerində. Yemək adətinə görə yarım saat öncə hamı su içdiyindən süfrəyə su qoyulmamışdı. Süfrənin dörd yanında ağacın budaqlarından asılmış lampların işiqlandırdığı və mövsümi meyvələrlə tamamlanan bu süfrə aralıdan baxanda çox istedadlı rəssamın rəsm əsərini xatırladırdı.Hüseynalı bəy başda Kamil usta olmaqla hamı ilə mehriban görüşəndən sonra.

- Buyurun, - deyərək hamını süfrəyə dəvət etdi.

- Yeməkdən əvvəl hal-əhvaldan sonra yemək yeyilən zaman söhbət edilmədi. Bu ərəfədə süfrədən kənarda samovar qaynayır. Qara çaydan dəmə qoyulmuşdu. Yemək bitdikdən sonra süfrədən çörək yığışdırılıb çay verildi.

- Ay usta, de görüm, Təbrizdə vəziyyət necədi?

- Şükürlər olsun,bəy. Allah camaatınızı sağ eləsin.

- Allah bütün camaatımızın canını sağ eləsin. Burda biz yaman sınaqdan keçdik. Canımızdan, evimizdən, elimizdən uzaq olsun. Ummadığımız yerdən çox pis bəla gəldi, çox can apardı.

- Hə, bəy, duydum.

- Allah pis qonşunuözü bildiyi kimi eləsin. Bu ermənilərlə, bunların dalında duranlarla başımız bəladadı. Bizimlə"yersiz

gəldi, yerli qaç" - davası eləyirlər. Bu camaatı elə azərbaycanlı olduqlarına görə, başqa heç bir məsələ yoxdu e, - "burunnuyurlar". Hər əllərinə düşən fürsətdə qırğın törətməyə çalışırlar. Fürsət nədir, planlar qururlar.

- Allah sizin kimi böyüklərin, camaatı sevən, özünü ondan ayrı tutmayan kişilərin sayını çox eləsin. Mən bilirəm, bəy, siz böyüklük etməklə yanaşı, gələcəyi qurmağa çalışırsınız. Bir belə işin, qayğının arasında üstəlik vaxt tapıb məktəbinizdə dərs keçirsiz, elm öyrədirsiniz.

- Məhz belə olmalıdı. Əgər qonşunun niyyəti sənə görə pis olsa da, sənə güc gəlirsə deməli, elmi, yada onun dalında duranın elmi hünəri daha çoxdu. Nizami deyir:

Elmlə, hünərlə!- başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!

- Tamamilə doğrudur. Usta təsdiqlədi.

- Elm, hünər bazarda satılmaz gedib alasan, gərək elmli adamlar ətrafını mütləq öyrətsin. Zaman keçdikcə camaat hünərli, ağzı bir olsun ki, bizi istəmiyənlərə layiqli cavab verə bilsin. Bir tərəfdən də camaatın vəziyyətini yaxşılaşdırmaq üçün çalışmalıyıq. Bax məsələn; Kəhrizin suyu kəndin içməli suya olan tələbat məsələsinə çox yaxşı təsir edəcək. İşiniz kəhrizdə necə gedir, usta?

Kamil usta bəyin işin nə vaxt qurtaracağını soruşduğunu başa düşdü.

- Allah deyən olsun. On günə bitəsidi. Su çox şirin və boldu, bir baş su çıxasıdı.

- Çox sağ ol usta Kamil. Camaatın vəziyyəti çox yaxşılaşacaq. Sizə təşəkkür edirəm.

- Bəy, çox sağ olun. Məncə, təşəkkür sizə düşür, bu fərasət sizə aiddi.

- Yenə olsun, Peyğəmbərimiz deyir: “Hər kəs bəndəyə təşəkür etməyi bacarmırsa, onda, Allaha şükür etməmiş kimidir”-deyərək bəy söhbətdə Peyğəmbəri yada saldı.

- Tez bitməyi yaxşı oldu,-deyə bəy sözünə davam etdi. Bu yaxınlarda mal-qara yaylaqdan qayıdır.

- İstiyirəm, Kəhrizdən Şah bulağa tərəf iki dağ arası yataq düzəldim. Orada bir neçə dənə dam tikilməlidi.

- Xeyirli olsun, bəy, -deyərək usta getmək üçün izin istədi.

- Buyurun, - deyərək bəy bütün oturanlarla görüşüb evə qalxdı.

OOO

Səhəri gün Nicat, Səfər, Kamil usta və köməkçiləri kəhrizin üstünə gedirdilər. Səfərlə Nicat bir az erkən çıxmışdılar və atla gedə-gedə söhbət edirdilər.

- Şükür, daha yaxşısan. Bəlanı adlatdın-deyə Səfər Nicatın sağalmağına şükür elədi.

- Şükür, yaxşıyam, həmişə şükür içində olasan. Amma adlatmağa heç nə adlamayıb.

Araya sükut çökdü.

- Mən elə demək istəmirdim Nicat

- Bilirəm!

- Nəyi, bilirsən, qaqa?

- Mən billəmsən adlatdın deyəndə ölümü adlatdın deyirsən.

- Bilginən sən “heç nə adlatmayıb” deyəndə nəyi nəzərdə tutduğunu mən bilirəm. Amma səbir elə.

- Nəyi səbir eliyim e? Mən özümə söz vermişəm, o namərdi

tapıb qanın tökmüyüncə toy etməyəcəm. Sən deyirsən səbir elə.

Səfər Nicatın həddən artıq hirsli olduğunu görüb açıqlama vermək istədi.

- Ə bircə dəyqə dayan, gör nə deyirəm sa! Mən səbir elə deyəndə o demək döyül ha heş zad eləmə inan özüm hərləşdirirəm onu tutam, əlin - qolun bağlıyıb atam sənin qabağına qurbanlıq qoyun kimi.

- Bə səbir elə nəyi deyirdin ki?

- Nəyi deyəcəm, diqqətnən qulaq as. Mən bildim ki sən belə hirsli olassan. Sağalan kimi onu axtarassan, fərqi yoxdu nə təhər olur olsun -"Arseni tapıb qisasımı alım"- deyəssən. Ona görə bu barədə bəylə məsləhətləşdim.

- Hə? Nə dedi?

- Əvvəla, dedi hirsnən hərəkət etməsin. Hirsli başda ağıl olmaz. Sonrası öz aramızda qalsın, bəy dedi ki, Çar hökuməti bu ermənilərin arxasında durub. Etdikləri şəxsi hərəkət deyil. Nə edirlərsə, ümumi camaata qarşı edirlər və hirslə, həvəslə yox, düşünülmüş, plannaşdırılmış formada. Yoxsa erməni namərdinin şəxsi, yaxud öz milləti adından çıxış edib iş görməyə mərdlikləri çatmaz. Onlar elə qapı iti kimi kiminsə mənafeyini qorumaq üçün buraya köçürülüb yerləşdirilmiş nakəslərdi. Bax ona görə hər nə edəndə çox ehtiyatlı olmaq lazımdı, ağılnan hərəkət etmək lazımdı, - dedi.

Nicat diqqətlə qulaq asırdı. Səfər söhbətə davam etdi.

- Bax bunlar bu mövqedən ancaq ayrı-ayrı adamlara hücüm edirlər. Vəziyyəti yetişdirib sonra kəndlərə hücum edib qırğın törədirlər. Əsgərandakı yaylaxda düşən dəva yadındadı? Nə qədər azərbaycanlı öldü. Ondan başqa, Şuşa qırğını yadındadı. İki kəndi camaatı ilə yandırdılar. Şuşanın özündə nə qədər adam öldü. Bəyin dediyi odu çox diqqətli olmaq lazımdı. Namərdlərin

əlinnən hər iş gəlir. Arxalarıda möhkəmdir. Bir az səbirli ol. "Ovu bərədə vurarlar" deyiblər. Bu itin peşəsi budu, əvvəl-axır əlimizə düşəcək, darıxma. Sorağını harda alsaq başının üstün kəsdirəciyik.

- Onda mən bilirəm ona nə eliyəcəm - deyərək Nicat söhbətə yekun vurdu.

- Hə, bu başqa məsələ, belə səbirli olsan, hər muradına çatarsan. "Allah səbir edənlərin dostudu", - deyə Səfər Nicatın son fikrini təsdiqlədiyini bildirdi.

Dostların söhbəti bitəndə artıq onlar kəhrizə çatmışdılar. Ətrafa göz gəzdirincə Kamil usta köməkçiləri ilə gəlib çatdılar. Nicat kəhrizin birinci quyusunun başında erməni namərdləri ilə bağlı hadisənin olduğu yerdə dayanmışdı. Yaralanandan sonra bura birinci dəfə gəldiyinə görə həmin anlar yaddaşında canlanırdı. Səfər Nicatın nə hisslər keçirdiyini anlayaraq:

- Ə qaqa, nə bərk fikrə getmisəne, bu məsələni danışdıxdana. Sənə bir şey deyim, unutma. Tarix boyu mübarizə olub, olacaq. Amma erməni kimi namərdlik edib qaçanlar çox uzağa getmiyif. Bu dəfə də uzağa getməyəcəklər. Əvvəl-axır tutub nəfəsini kəsəciyik.

Bunu deyəndə Nicat çönüb Səfərin üzünə baxdı. Sanki baxışlarında hirs dolu sual var idi. Haldan anlayan Səfər mövzuya belə yekun vurdu:

- Bir şey də deyim-indi fikirrəşirsən hal-hazırda, səni vuranlar yaşayır. Yox, üç nəfər bir yerdə bir nəfərlə bacarmayıb, onu arxadan namərdcəsinə vurub qaçanlar kişi yox, insan yox, miskin bir xəstə it ola bilər. Bilginən onların yaşayışı miskin xəstə itin yaşayışından başqa bir şey deyil. Onlar bu torpağa yad olan, başqa yerdən gətirilən sort heyvan timsalından başqa bir şey

deyillər. Ona görə çox fikrə getmə. Əvvəl-axır onların qanını tökəciyik. Ustalar gəldilər, di gəl gedək Şahbulaq tərəfə. Mal-qara beş - on günə Alaqayadan qayıdacaq. Gedək yataq üçün yerlərə baxax. Bəy qərar verəndən sora bir iki dənə dam (Dam- O zamanlar dağ yamacında qazma formada düzəldilib üstü ağac dirəkləri üzərində dam qoyularaq torpaqlanan bir tikili formasıdı) tikilməlidi. Dam tikməyə bizə tuvulqu, tir, şax zad lazım olacaq. Elə olların da yerini bələdliyərik.

## KƏHRİZİN HALALLIĞI

Bu gündən kəhriz tikintisinin bitməsinə qədər olan son on gündə kəndin camaatı işə daha çox maraq göstərdilər. Quyuların başında, suyun çıxacağında və ətrafda təmizlik, bərkitmə, səliqə-səhman yaratma işində Kamil ustanın nəzarəti altında yaxından iştirak etdilər. İşlərin bitən günü isti payız axşamı idi. Hüseynalı bəy gördüyü işləri camaata görk etməyi (Görk etmək - Görülən işi gözə soxmaq) doğru hesab etməzdi. Həmişə deyərdi: "Gördüyün işi kimin üçünsə yox, yalnız Allah üçün gör. Allah hər şeyi görəndir, biləndir. Allah yolunda doğru iş görənlərin həmişə mükafatı var". Elə bu axşamkənd üçün, camaat üçün qazdırıb tikdirdiyi kəhrizin suyunun halallığını vermək üçün kəndin ağsaqqallarını buraya dəvət etmişdi. Böyüklərlə bərabər, kəndin xeyli gəncləri, uşaqlarıbura yığışmışdı. Bəyin çox hay-küyü sevməsədə yeri gələndə şadlanmağı bacardığını bilən gənclər qaval, tar, kaman, zurna gətirmişdilər. Gün batana yaxın xeyli adam yığışdı. Bəy camaatı suyun çıxacağına dəvət edərək söz demək istədiyini bildirdi. Ancaq özünü bir tərəfdə camaatı digər tərəfə yığışmağı yox, hamının suyun ətrafına yığışmağını xahiş etdi. Özü isə olların arasında dayandı. Camaat qarşısında çıxış edirmiş kimi yox, onlarla söhbət edirmiş kimi yer tutdu və sözə başladı:

- Əvvəla verdiyi hər neymətə görə Tanrıya sonsuz sayda şükürlər olsun!

Bəy sözə başlayan kimi ortaya sükut çökdü. Gələn səs ancaq kəhrizdən axan bullur kimi saf təmiz suyun səsi idi.

- Nə verirsə,O verir, -deyə bəy sözünə davam etdi. Bizim bu

işdə bir vəsiləmiz, zəhmətimiz varsada, onu halal etməyimi sizlərə bildirmək istiyirəm. Görün böyük mütəfəkkimiz Nizami halallıq barədə nə deyir:

Halal ye ovçu tərlan tək müdam sən
Çəkin quzğun kimi murdar yeməkdən

Səbəb şükr etməyə zənn etmə maldır,
O üzdəndir nə aldımsa halaldır.

Bir də deyərlər halallıq verəndə gərək üç dəfə "halal olsun" deyəsən. Birincisi alan adamın eşitməsi üçün, ikincisi ətrafdakı adamların eşitməsi üçün, üçüncüsü, ən əsası Allah rızasi üçün verdiyini bildirmək üçün Allahın adına deyilir. Mən ona görə deyirəm bu sudan hər kimsə, nə zamansa istifadə edəcəksə, Halal olsun, Halal olsun, Halal olsun!

- "Allah səni həmişə var eləsin", - nidası ilə bir neçə yaşlıdan səslər gəldi.

- Bir də bu kəhrizin tikintisində iştirak edənlərə Kamil usta başda olmaqla hamıya təşəkkür edrəm. Sağ olun, zəhmətinizi bu camaata halal eləyin.

- Üç min kərə halal olsun - deyə Kamil usta həyəcanla dilləndi.

- Di biz çəkilək qoy bu gənclər şənlənsinlər. Aradan bir az keçmədi qara zurnanın səsi ucalmağa başladı. Səs Ağdama qədər gedib çıxırdı. Bu səs sanki uzun zamandı xəstəlikdən əziyyət çəkən camaatın bəla üzərində qələbəsinin səsi idi.

Şər qovuşana qədər Hüseynalı bəy kəhrizdən Şahbulağa tərəf keçərək İbrahimə mal-qaranın yataq yerlərini və damların harda tikiləcəyi yerləri göstərdikdən sonra evə qayıtdı. Evə

qayıdan yolda kəhriz suyunun təmiz halda kəndin mərkəzinə axıdılması üçün hansı arxla keçəcəyini planlaşdıraraq İbrahımə tapşırdı ki:

- Bala, şükür xəstəlik bəlasını adlatdıq. Bu iş üçün ayırdığımız at arabalarını və uşaqları yönləndir bura. Yəni kəhrizin ağzından kəndin mərkəzinə qədər cəkiləcək arxin tikintisinə.

- Baş üstə, bəy.

- Dediyim bu işləri təşkil elə, başlasınlar, sonra mal-qaranı gətirmək üçün dağa gedəcəksən. Orda xəbər bildirərsən ki, qışda heyvan satışı yaxşı olsa, bəy Sarı yerin satın alınması üçün özü gələcək.

- Qədərin deyim, bəy.

- Yox, sən dediyim qaydada de, qalanını gəlib özüm həll edəcəm.

OOO

Aradan 10 gün keçmiş köç dağdan qayıtmağa başladı. Kecən günlər ərzində Kamil usta və oğlu Əziz Təbrizə qayıtmışdılar. Getməzdən əvvəl, kəhrizin açılışından sonra daha iki gün qalıb arxın tikintisi qaydasını başda Elşad və Səlim olmaqla gənclərə öyrətmişdilər. Hüseynalı bəy Kamil ustanı gördüyü işlərə xüsusi məhəbbətlə yanaşdığını nəzərə alaraq ona ayrıca təşəkkür etmişdi. Ayrılanda isə nəzərdə tutulan məbləğdən təxminən ikiqatı qədər zəhmət haqqı ödənişindən əlavə olaraq Xanım ananın Kamil ustanın xanımı üçün hazırladığı zinət əşyası və məxmər yaylıq və sairədən hazırlanmış sovqatı ona verərək yola salmışdı.

## TƏBABƏT DƏRSİ

Keçən illərin qışı o qədər də sərt keçməmişdi. Havaların yaxşı keçməsi kəhriz arxının kəndin mərkəzinə çəkilməsinə və kəhrizlə Şahbulaq arasında salınmış yataqda damların tikilməsinə yaxşı şərait yaratmışdı. Kənd məscidinin tikintisi də davam edirdi. Bu işlərlə yanaşı Hüseynalı bəymal-qaranın yetişmiş hissəsinin satışı və özünün tibbi biliklərini artırılması ilə məşğul olurdu. Təsərrüfat və ticarət işlərinə özü nəzarət eməklə işlərin görülməsini İbrahimlə Səfərə tapşırırdı. Öz vaxtının çoxunu isə Tiflisdən, Petroqraddan (indiki Sankt Peterburq), Təbrizdən və Bakıdan gətirtdirdiyi tibbi kitabların öyrənilməsinə sərf edirdi. Bəy bu mövzunu təkcə öyrənməklə kifayətlənmirdi. O, bir yandan Hacı Həsən həkimdən, kitablardan və əvvəlcədən bildiyi xalq təbabətindən istifadə edərək həkim kimi xalqın müalicəsi ilə məşğul olur, digər yandan isə bildiklərini məktəbdəki şagirdlərinə və dinləyicilərə öyrədirdi.

Sərin qış axşamlarından biri idi. Bəy sonuncu dərsi yenə tibbi sağlamlığa aid mövzuda keçiməyi qərarlaşdırmışdı. Dərsi başlamaq üçün həyətdən keçib məktəbə yaxınlaşanda məhlənin ayağındakı küz yeri ilə (bura küzdək də deyirdilər) xeyli gəncin və orta yaşlı kənd sakinlərinin gəldiyini gördü. Bunlar hamısı kəndin çöllərində Narlı Şüədə (Narlı Şüə- Bura nar bağı da deyirdilər və burda Qarabağ üzrə ən gözəl bəhməz torpağı var idi), Nəlbənd burnunda, Əmikişi dərəsi tərəfə işləyənlər idi. Adətən işdən sonra kəndə qayıdanda yollarını burdan salırdılar ki, bəyin verdiyi ümumi dərsdə iştirak etsinlər. Artıq şər qovuşurdu, Hüseynalı bəy məktəbin giriş qapısında bir az

gözlədi və gələnlər ona yaxınlaşdılar. Bəy hamı ilə görüşdü.

- Xoş gəlmisiniz - deyə bəy salamlaşır

- Axşamınız xeyir, bəy, - deyə gələnlər hörmətlə onunla görüşdülər.

- Çox yaxşı edib gəlmisiniz. Bu axşama dərsdə gözəl mövzumuz var. Buyurun içəri yerləşin başlayaq.

Hamı yerləşdikdən sonra bəy adəti üzrə qarşıda dayanıb dərsə başladı.

OOO

- Əziz uşaqlar, sevimli gənclər, hörmətli yaşlılar.

Bu gün sizinlə tibb mövzusunu davam etdirmək istəyirəm. Əvvəlcə bəzi ümumi faktları nəzərinizə catdırım. Mən niyə ümumi mövzuda məlumat verməklə başlayıram deyə sual edə bilərsiniz. Cavabında sizə deyim insan düşüncəsində məlumatı olmadığı bir şeylə rastlaşanda, onun beynindən keçən ilk fikir belə olur: “Mən bu məsələni öyrənib başa çatdıra bilmərəm”. Bəzən bu hal fikir, təəssürat səviyyəsində qalmayıb, elə yerindəcə qərara çevrilir. Bir şeyi öyrənə bilən, onu öyrənmək bacarığında olan insan birdən - birə “Bu mənlik deyil” qərarı verərək həmin mövzuya qeyri-ixtiyari olaraq həvəs və marağını öz içində öldürür. Bu isə hansısa hissin sadəcə ölməsi deyil. Belə ki, bu qərar həmin insanın qabağında elə sədd yaradır ki, sonrakı yaşlarında nələrisə öyrənməyə cəhd etsə də, onda alınmır. Nəticədə insanın həyatında onun öyrəndikləri yalnız yaşayış vaxtı məcbur qalıb öyrəndikləri qədər olur. Belə vəziyyətdə həyat insanı məcbur edib hara aparırsa, insan o qədər gedə bilir.

Bir də var insan erkən yaşlarından öz qərarı və inancı ilə yaxşı bilinən yolu tuta, çoxlu elm öyrənə, maariflənə və

gələcəkdə gəlmək istədiyi yerə gələ bilə. Elə buna görə mən hər dəfə sizləri inandırmağa çalışıram ki, siz bu danışılanları öyrənə bilər və gələcək həyatınızda bundan istifadə edə bilərsiniz. Biləsiniz mən özüm buna inanıram. Gəlin sizə bu inancımın hardan qaynaqlandığını göstərmək üçün bu tərəflərdə yəni müsəlman şərqində nələr baş verdiyindən bir necə misal çəkim.

Dərsdə hamı diqqətlə bəyi dinləyirdi.

- Müsəlman alımləri bir sıra ixtira və elmi kəşfləri ilə dünya alimlərini bir neçə illər qabaqlamışlar. Məsələn: Avropa elmlə düsmənçilik etdiyi, elm adamlarının öldürülüb yandırıldığı dövrdə müsəlman alimlər tərəfindən həyata keçirilən bir çox elmi axtarış və kəşflər diqqətəlayiqdir. Unutmayın, günəş şərqdə çıxır qərbdə batır.

Beləliklə, ilk kağız fabriki 794-cü ildə İraqda - Bağdadda Harun ər-Rəşidin vəzirinin oğlu İbn Fəzl tərəfindən qurulmuşdur. Avropada isə uzun illər, yəni 434 il sonra 1228-ci ildə Almaniyada, 515 il sonra, yəni 1309-cu ildə İngiltərədə ilk kağız fabriki fəaliyyətə başladı. Bildiyiniz kimi kağız kitab hazırlanması üçün xammaldı. İslam dünyasında kağız fabriklərinin qurulması elmin burada sürətlə yayılmasını göstərir.

Şagirdlər deyilən tarixləri dəftərlərinə qeyd edirdilər.

- Həkimlərin sultanı kimi tanınan İbn Sinanın - o 980-ci ildə anadan olub 1037-ci ildə dünyasını dəyişib - tibb aləminə çox yeniliklər gətirən "Əl-Qanun" əsəri nəinki ancaq İslam dünyasında, hətta bütün dünyada əsas tibb kitabı sayılmışdır. Kitabın "Tibbin İncili" adnı qazanması, 600 il ərzində Avropa universitetlərində dərs vəsaiti kimi tədris olunması buna ən böyük sübutdur. İbn Sina tibb daxil olmaqla 29 müxtəlif elm sahəsindəki ixtiraları ilə avropalılara nümunə olmuşdur. Hələ

bundan əvvəl İbn Sina kimi qüdrətli həkim sayılan Razi - o 864-cü ildə doğulub 925-ci ildə vəfat edib - Çiçək və qızdırma xəstəliklərini kəşf etmiş və bu barədə ilk dəfə əsər yazmışdır. Sonra Fatih Sultan Məhmədin tərbiyəçisi və müəllimi Ağaşəmsəddin - o 1389-cu ildə doğulub 1459-cu ildə dünyasını dəyişib - mikrobu kəşf etmişdi. Bildiyiniz kimi bir neçə ay əvvəl bizim kənddə çoxlu adamların həyatına son qoyan xəstəlik mikrob xəstəliyi idi. Sonra deyim sizə: - Əmmar adlı müsəlman alimi 8 əsr bundan əvvəl özünəməxsus üsulla göz üzərində uğurlu cərrahiyyə əməliyyatı aparmışdır.

İlk xəstəxana 707-ci ildə Əməvi xəlifəsi Valid ibn Əbdülməlik zamanında təsis olunmuşdur. Həmin xəstəxananın bütün xərcləri dövlət tərəfindən ödənilirdi.

Dərsdə iştirak edənlər diqqətlə qulaq asır və deyilən adları və tarixləri qeyd edirdilər.

- Əziz uşaqlar, sevimli gənclər, hörmətli yaşlılar. Bu siyahını uzatmaq olar. İstəyirəm sizin inanc və həvəsinizi artırmaq üçün bir neçə kəlmə də məhz bizim Azərbaycanın yetişdirdiyi alimlər barədə deyim. Məsələn: 13-cü əsrdə yaşamış körkəmli Azərbaycan mütəfəkkiri Nəcməddin Naxçıvani. O, özünün tibb, məntiq, fəlsəfə və təbiət elmlərinə dair əsərləri yaxın və orta şərq ölkələrində şöhrət tapmışdır. Onun yazdığı bir neçə kitabı, Məsələn: “Şəfa və Nicat (Göstərişlərdəki qaydaların pozulması, Şəfa və Nicat üzərindən pərdələrin götürülməsi)”, “Məntiqin mahiyyəti və fəlsəfənin xülasəsi” (“Lübəb əl məntiq və Xülasət əl hikmət”) uzun illər şərq universitetlərində dərslik kimi istifadə edilmişdir. Bundan sonra bizim tibb alimlərindən Mahmud Şirvaninin adını çəkmək olar. Mahmud ibn İlyas Şirvani Azərbaycan xalqının yetişdirdiyi ən böyük tibb alimlərindən biridir. Onun 13-cü əsrdə yazdığı “Elmi Təbabət”

kitabı zəmanəmizə qədər gəlib çatmış və 18-ci əsrə qədər geniş istifadə edilmişdir. Mahmud Şirvanini təcrübi fəaliyyəti də Azərbaycan təbabəti tarixində elmi fəaliyyət kimi iz qoymuşdur. Beləki, Elxani hökmdarı Qazan xanın vəziri Azərbaycanın görkəmli tarixçisi və islahatçısı həmçinin həkimi Rəşid əl-Dinin təşəbbüsü və Mahmud Şirvaninin yaxından iştirakı ilə çağdaş klinik xəstəxana mənasına gələn "Sağlamlıq evləri" - "Dar-üs-Şəfa"lar yaradıldığı məlumdur. Təkcə Azərbaycanda 67 belə mərkəzlər vardı. Mərkəzi sağlamlıq evi və onun içində yaranmış tibb məktəbi Təbrizdə idi. Burada Hindistandan, Misirdən, Çindən , Ərəb ölkələrindən və başqa yerlərdən gələn, bütün elm sahələrini əhatə eləyən 500 alim və müəllim çalışır və 6000 tələbə təhsil alırdı.

Dərsdə iştirak edənlər sanki məlumat bolluğuna düşmüşdü. Eşitdikləri onlarda ruh yüksəkliyi yaradırdı.

- Marağınızı nəzərə alaraq daha bir tibb alimimizin adını çəkmək istəyirəm - deyə Hüseynalı bəy sözünə davam etdi. 16-cı əsrdə yaşamış Yusif ibn Məhəmmədcan Qarabaği öz dövrünün tanınmış alimlərindən biri idi. O, Qarabağda anadan olmuş sonralar Səmərqənd şəhərində yaşamışdır və orada mədrəsədə dərs deyirdi. O İbn Sinanın "Qanun" əsərinə şərhlər və haşiyyələr yazmışdır. Səmərqənd əhalisi ona hörmət əlaməti olaraq "Böyük Axund" deyirdi. Sonda izninizlə İbn Sinanın tələbəsi Bəhmənyar əl Azərbaycaninin adnı çəkim. 11-ci əsrdə yaşamış bu alimimiz fəlsəfəyə aid "Əl-Təhsil (İdrak)" əsərində bir sıra tibbi mövzulara toxunur.

Mənə elə gəlir bunları deməklə sizdə maraq, həvəs və ən əsası bu sahəni öyrənə bilmək inancınızı artıra bildim.

Hamı yerdən baş hərəkətləri ilə bəyin son sözlərini təsdiqlədi.

- Bundan belə mən çalışacam sizə adlarını çəkdiyim və çəkmədiyim daha müasir alimlərin təlimləri barədə, onların insan sağlamlığını əldə saxlamaq barədə tövsiyyələri ilə tanış edəm. Fikir versəniz mən sizə təkcə müalicə üsulları yox, insan sağlamlığını əldə saxlamaq-kəlmələrini işlətdim. Bu kəlmələri belə işlətməkdə mənim məqsədim var. Uzatmadan deyim hamımızda belə bir təəssürat var tibb deyəndə, həkimlik deyəndə elə bilirik bunların vəzifəsi adamlar xəstələnəndən sonra onları müalicə etməkdi.

Bu kəlməni deyəndən sonra Hüseynalı bəy sözünə ara verdi. Dərsdə iştirak edənlər hamı sual dolu baxışlarla bəyə baxırdı. Çünki təbiblik, həkimlik barədə hamının fikri bəyin dediyi kimi idi.

- Deməkdə məqsədim budu, biləsiniz həkimliyin məqsədi, vəzifəsi müalicə ilə yanaşı insanlara sağlamlığı necə əldə saxlamağın yollarını göstərməkdi.  Bu çox vacib məsələdir. Bu məsələnin vacibliyini başa düşmək o qədər çətin deyil. Yəni sizə deyim qəza, təbii fəlakət, mikrob epidemiyasi kimi şeylərdən əmələ gələn xəstəliklərdən başqa bütün xəstəliklər adamın bilərəkdən yaxud bilməyərəkdən öz sağlamlığını qorumaması nəticəsində baş verir. İlk baxışda dediyim son cümlə sizə mənasız gələ bilər. Ancaq bilin bu həqiqətdi.  Həqiqət olduğunu anlamaq üçün heç özümüzü çətinə salmayaq. Elə bir-iki misal deyəcəm sizə. Məsələn: adi geyimə baxaq. Biləsiniz çox əksəriyyət və çox rastlanan xəstəliklər soyuqdəymədən yaranır. Yəni biz mövsümün havasına uyğun geyinməsək, xəstələnirik. Yəni geydiyimiz geyim təkcə bizim abrımız deyil, həmçinin sağlamlığımızdı.

Dərsdə iştirak edənlərin bir hissəsi başını tərpədərək, o biri hissəsi yavaşca "bəli" deyərək bəyin sözünü təsdiqlədi.

- Bundan başqa yeməyimizə baxaq. Əgər qədərindən az yesək bədənimiz get-gedə zəifləyəcək və tez xəstəlik tapacaq. Yaxud ərik qurusunu bir ovuc yeyib həmən üstündən bir stəkan soyuq su içsək, mütləq qarnımız ağrıyacaq. Yəni nəyi nə ilə yeməyimizə, nə vaxt yeməyimizə mütləq fikir verməliyik. Yaxud qədərindən çox yemək həddən çox xəstəliklərə, özü də sağalmaz xəstəliklərə yol açır. Bu barədə Nizami Gəncəvinin sözlərini xatırladım sizə:

Sən də olma çox yeyən gücsüz o qurd tək
Qarışqa misli ol, az ye beli çək.
Çıxar isə məcazın öz yönündən,
Çətin sağlamlığı əldə edəsən.
Yeyib çox gündə yüz insan ölürsə,
Yeyib az tapmadı qızdırma kimsə.

Mən bu misraları yenə genişləndirə bilərəm, ancaq istəyirəm dərsimizi bu sahənin alimlərinin tövsiyələri ilə davam etdirək. Yəni bu gün sadəcə İbn Sinanın sağlamlığı qorumaq haqqında tövsiyələrini sizə deyib bu günkü dərsimizi yekunlaşdıracam. Sonrakı dərslərimizdə bu tövsiyələri və digərlərinin açıqlamasını sizlərə öyrətməyə çalışacam ki, sağlamlığımızı qoruya bilək.

Xahiş edirəm, bunlar qeyd edin. İbn Sina yazır:

"İnsan öz sağlamlığını qorumaq üçün aşağıdakı mövzulara uyğunlaşmalıdır.

Qidaya,
Geyimə,
Burun vasitəsi ilə düzgün nəfəs almağa,
Bədən quruluşunu həmişə düzgün saxlamağa,

Xasiyyətini tarazlamağa,
Bədənini lazımsız tullantılardan təmizləməyə,
Fiziki və əqli fəallığa".

Gələn dərsimizdə bunları əzbər soruşacağam. Ondan sonra bunların və digərlərinin açıqlaması ilə dərslərimizi davam etdirəcəyik.

OOO

Bu ilki qışda yetişmiş mal-qaranın satışı normal olsa da, xəstəlik zamanı çəkilən xərclər, ondan sonra ehtiyacı olan ailələrə edilən köməklər, məscidin və kəhriz arxının tikintisi kimi qayğılar böyük xərc aparırdı. Bunlarla əlaqədar olaraq bəyin yaylaq ərazisi üçün torpaq almaq işi ləngiyirdi. Üstəlik məktəbdə tibb və sağlamlıqla bağlı artırdığı dərslər bəyin xeyli vaxtını alırdı. Elə hey arzulayırdı məktəbdə dərs deyə biləcək müəllimlərin sayını artıra bilsəydim. Ərazi almaq məqsədi ilə torpaq sahibi ilə görüşməyə ilin istənilən vaxtı getmək mümkün olsa da, bəy ora yayda getmək istəyirdi. Çünki bu vaxt oranın füsünkar təbiəti xüsusi bir hal alırdı. İndi ilin həmin vaxtı olmasına baxmayaraq, deyəsən, bu dəfə də bəy ora gedə bilməyəcəkdi. Yaz aylarında Ağdamın təbiəti Kəlbəcər yaylağının gözəlliyindən geri qalmırdı. Elə burda da dağ yamaclarında, bəyin kəhrizinin yanlarından "Xarı bülbül" çiçəyi tapmaq olurdu. Üstəlik Ağdam



**"Xarı bülbül"**

ərazisi Kəlbəcər yaylağından fərqli olaraq dağətəyi ərazi olduğuna görə burda yaz, yay fəsilləri daha tez gəlirdi. Belə gül-çiçək təravəti içinə sübh tezdən bağlarda bülbül və sığırçınların oxuması əlavə olanda insan valeh olmaya bilmirdi. Ürək məhəbbətlə dolur, hər şeyi xoşlamaq gəlir insanın içindən. Elə hey sevmək, sevilmək istəyirsən. Bu cür gözəl yaz günlərinin bir axşamı idi. Nicat Səadəti görmək üçün görüş yerinə gəlmişdi. Görüşdüklərinə görə Allaha şükr edərək nə qədər əhval ruhiyyələri yüksək olsa da, sevinsələr də, Səadət xəstəlikdən sonra xeyli arıqlamış, zəif düşmüşdü. Nicat isə elə hey fikirli idi.

- Başına dönüm- deyə Nicat sözə başladı. Niyə belə arıqladın ey sən?

- Nə bilim? - deyə Səadət Nicatın gözlərinə baxa-baxa cavab verdi.

- Yemək zad yemirsən? Quzu kəsim.

- Nə bilim, iştaham yoxdu.

- İştahan olmasa da, yeməyinə fikir ver dana.

- Sən danış görüm. Xeyli fikirli görürəm səni. Elə bil özün burdasan, ruhun uçub eee… kim bilir hara.

- Əşi yoox, Sən nə danışırsan, - deyə Nicat mövzudan qaçmaq istəyirdi.

- Daha burda nə qalıb, toydu dana edərsən! - deyə Səadət zarafat edib Nicatın fikrini dağıtmaq və qəlbindən nə keçdiyini bilmək istədi.

Səadətin çox az-az zarafat etdiyini bilən Nicat onun narahatcılığını başa düşürdü.

- Quzu kəsim, heç zad yoxdu, nə olajax ki? Ancaq Nicat fikrini gizlətməyə çalışırdı.

- Bə o günləri niyə yenə itmişdin? Hara getmişdin?

- A heç hara getməmişdim. Bəy yollamışdı, Yevlaxda iş vardı.

Nicat yenə həqiqəti demirdi. Çünki deyə bilmirdi. Ehtiyat edirdi ki, Səadət qorxar, xiffət edər, daha nə bilim nə edər. Əslində isə Nicat imkan tapan kimi, xəlvətcə yəni çox üstü açılmadan bir neçə dəfə soraqla Arsenin dalınca getmişdi. İstədiyi o idi ki, hərləyib onu tutsun qısasını alsın. Hər gedişində bir həftəyə qədər axtarsa da, pusquda dursa da tutmağa hələlik müyəssər olmamışdı. Bu işi nəinki Səadətdən hətta hamıdan gizlədirdi. Bir tək Səfərlə İbrahim onun niyyətindən xəbərdar idi.

- Sən heç nəyə fikir vermə, quzu kəsim - deyə Nicat sözə davam elədi. Bilirsən nəyə fikir ver? Belə məzəli məsəl var ha…

Ayağını isti saxla, başını sərin,
Yeməyinə fikir ver, düşünmə dərin.

Bax sən buna fikir ver, Yaxşımı!

Beləcə sevdalılar xeyli mehriban söhbətləşdilər.

## II Hissə

## ÇƏYİRTKƏ BƏLASI

Bu dəfəki yay xeyli isti keçirdi. Keçirdi deyəndə yay yeni başlayırdı. Çöllərdə, əkin sahələrində demək olar yaxşı məhsul var idi. Ancaq bu il, deyəsən bu yaxşı məhsulun bir də yaxşı "şərikləri" var idi. Şərik dediyimiz bu idi ki, çəyiritkə epidemiyası olacaqdı. Artıq Qubadlı və Zəngilan bölgələri tərəfdə bir neçə tarlanın, taxıl sahələrinin çəyiritkə sürüləri tərəfindən tamamilə yeyilib məhv edilməsi sorağı gəlirdi. Həşəratların belə çox olması qışin çox mülayim keçməsi ilə əlaqələndirilirdi. Elə bu məsələyə görə Hüseynalı bəy İbrahimi yanına çağırmışdı.

- Əkin-dirriklərdə vəziyyət necədir? - deyə bəy sual elədi.

- Uşaqlar xəbər gətiriblər, - deyə İbrahim cavab verdi. Çünki o bilirdi bəy dildə deyilən kimi sahədəki bitkiləri yox, çəyiritkə məsələsini soruşurdu.

- De görüm nə xəbər gətiriblər?

- Xəbər belədir bəy, Paprəvənd, Boyəhmədli tərəfdə əməlli-başlı çətinlik var.

- Sonra?

- Güllücə kəndində çəyiritkə iki dəfə sahələrə hücum edib.

- Bəs Quzanlı, Xındırıstan?

- Elə o tərəfdə də var.

- Bəs üzü hansı tərəfə uçurlar bilmədin?

- Necə yəni, bəy?

- Hansı tərəf deyəndə ki, sən mənə de görüm Maqsudlu kəndinin əkinində vəziyyət necədi?

- Hə indi anladım. İbrahim bəyin “üzü hansı tərəfə uçurlar?” sualını indi başa düşdü. Bəy düz deyirsən, xəbər gəldi Maqsudlu kəndinin Paprəvənd tərəfdəki torpaqlarını çəyiritkə vurub.

- Ay sağol! Maqsudlu Paprəvəndlə Qiyaslı arasındadı. Deməli, çəyiritkə bizə tərəf gəlir.

- Allah köməyin olsun bəy. Özüdə bu ilki keçən illərdə olandan bəlkə 100 dəfə çoxdu.

- Elə ona görə mütləq plan qurulmalı, qarşısı alınmalıdı. Sən belə edirsən. Kəhriz qazılan vaxtı orada işləyən bütün uşaqları yönəldirsən çölə. Camaatın əkinini qorumaq lazımdı. Məhsul olmasa, camaat kəhriz suyu ilə dolananmaz ha!!!

- Neyləsinlər? - deyə İbrahim ilk öncə anlamayaraq bəyin tapşırığını dəqiqləşdirmək istədi.

- Əvvəlcə sahələrin kənarı ilə gedən bütün arxların əkinə açılan bütün ağızları bağlansın. Sonra bütün arxlar su ilə doldurulsun. Həmin yekə arxların təmizlənəsi, genişləndiriləsi yerləri varsa təmizləndirilsin, genişləndirilsin. Bu birinci iş. İkinci iş odur ki, düşərsən kəndə, camaatı səfərbər edərsən biyara (Biyar -çəyiritkə sürüsü ilə mübarizə). Denən bəyin xahişidi. Elə hərə öz sahəsini qorusa, böyük işdir. Yoxsa min əziyyətlə becərdikləri məhsulu həşəratlar basıb yeyəcək. Qışda aclıq olacaq. Bunu mütləq etməliyik. Hal-hazırda bunun qarşısını alacaq başqa yolumuz yoxdu.

- Anladım, bəy.

- Camaatın içində biyar səfərbərliyində özün yaxından iştirak elə ha! Eləcə deyib keçmə.

- Neyləməyimi istəyirsənbəy?

- Bax biyara səfərbərlik belə olacaq. Hər böyük sahəyə bir atlı

təhkim olunacaq. Arxlara su buraxılmaqla bərabər, həmin atlı sahənin yanı ilə at çapacaq. Çəyiritkə sürüsünün gəlməyini bilirsən. Bəzən göylə uçsalarda, çox vaxt yerlə gəlirlər. Elədimi?

- Düzdü, düzdü, bəy.

- Bax bu atlı çəyiritkə sürüsünün sahəyə hansı tərəfdən girdiyini xəbər verəcək. Atlı sahəni gəzən zaman səfərbər olunmuş camaat - hərənin əlində bir çalğı (Çalğı - əsasən nar ağacının budağından düzəldilmiş böyük süpürgə. Bəzən buna həyət süpürgəsi yaxud bağ süpürgəsi deyirlər) sahənin orta yerində dayanıb atlıdan xəbər gözləyirlər. Bu vaxt artıq arxlarda su olmuş olacaq. Atlı xəbər verərək camaatı çağıran kimi, onlar sahənin çəyiritkə gələn tərəfinə gedib uçan, yaxud gəzərək gələn çəyiritkə sürüsünü çalğı ilə döyüb, süpürüb arx suyunun içinə tökəcəklər.

- Hə, indi başa düşdüm.

- Bunu camaata dəqiq anlat və çalışdıqca çoxlu adam səfərbər elə. Yoxsa çəyiritkə bütün məhsulu basıb yeyəcək. Qışa dən qalmayacaq. Bu ilki epidemiya çox böyükdü.

Elə həmin gün kəhriz arxında işləyən gənclər axşama doğru sahələrin bütün arxlarını su ilə doldurmuşdular. İbrahim isə gün ərzində bütün kənd camaatını səfərbər etmişdi. Səhərisi gün biyara gedəcək bütün adamların çalğıları hazırlanmışdı.

Ertəsi gün səhər tezdən planlaşdırıldığı kimi hamı sahələrdə idi. Səhər və günün birinci yarısı heç bir şey baş vermədi. Çölə gələn camaat əkin sahələrinin arası ilə gəzişir, becərilmiş, boy atmış taxıl və s dirriklərə baxaraq şükür edirdilər. Günün ikinci yarısında atlıların harayı bütün sahələri götürdü. Camaat başını qaldırdı ki, kəndin sahələrinin üstünə Paprəvənd tərəfdən sanki qara bulud gəlir. Gözlənildiyi kimi çəyiritkələr həmin istiqamətdən gəlmişdi. Ancaq miqyası o qədər böyük idi göydə

uçan çəyiritkə buludu günəşin qabağını kəsirdi. Adamda elə təəssürat yaradırdı elə bil bu dəqiqə göydə elə bildiyimiz qara buluddu və indi yağış leysanı, yaxud dolu yağacaq. Ancaq dolu yağsa idi bu qədər ziyan vurmazdı. Bu buluddan yağan çəyiritkə isə bütün məhsulu yeyir və məhv edirdi. Biyara çıxmış camaatın hamısı çəyiritkə sürüləri gələn istiqamətə qaçdı. Qara bulud taxıl sahəsinə oturmaq üçün aşağı enəndə artıq camaat sahələrin qırağında əllərində çalğı gözləyirdi. Beləliklə, "döyüş" başladı. Bir anın içındə arxlardakı suyun üstü ölu ziyanvericilərlə o qədər doldu su görünməz hala gəldi. Ölmüş cəyirtkələrin üstünə qonan çəyiritkələr islanmadığından arxın üstündən quru yer kimi keçməyə başladılar. Bunu görən İbrahim üstü dolmuş arxları yerindəcə təmizləmək üçün gənclərə ayrıca tapşırıq verdi. Yerlə, göylə gələn çəyiritkələrin ardı-arası kəsilmirdi. Gecə yarıya qədər, daha doğrusu şeh düşənə qədər biyara gələnlər sahələrdə növbə çəkdilər. Şehli havada həşəratlar hərəkət etmədiyindən hamı evlərinə qayıdırdı. Səhərin sübh şəfəqinə yenə hərə öz yerində olurdu. Gərgin mübarizə uzun müddət davam etdi. Məhsulların yetişməsinə az qalmış çəyirtkə sürüləri yox olmağa başladı. Qurulmuş planın məhsulun qorunmasında çox böyük rolu olmuşdu.

İbrahim bütün olanlar barədə bəyə məlumat verərək:

\- Bəy, Allah sizdən razı olsun.

\- Allah camaatımızdan razı olsun, sizdən razı olsun.

\- Bəy, deyirəm bəxtimiz onda gətirdi bu il siçan demək olar olmadı. Yoxsa hər iki ziynavericilərlə birdən mübarizə aparmaq çox çətin olardı.

\- Allah böyükdü. Bunu heç vaxt unutma.

## QAÇAQ MÜƏLLİM

Növbəti ilin yayın əvvəli idi. Havalar Ağdamda isti keçsə də, biçin, yığım işi hələ başlamamışdı. Məhsul bol, azar-xəstəlik yox idi. Vəziyyətin yaxşı olmasından istifadə edərək Hüseynalı bəy Kəlbəcərə icarə kimi istifadə etdiyi yeri satın almağa getmək istəyirdi. Bu vəsilə ilə axşam İbrahimi yanına çağırmışdı.

- Atımı hazırlatdır. Səfərgilləri götürüb səhər dağa gedəcəm.
- Uğurunuz xeyirli olsun, bəy.
- Amin, gedim Sərdar bəylə görüşüm. Neçə vaxtdı yer barədə ismarıc göndəririk amma gedə bilmirik. Qismət olsa sabah gedim, bu məsələ də həll olsun.
- Xeyirli olsun, bəy.
- Bir həftəyə dönərəm İnşallah,
- Qalıf bir az istirahət etsəydiniz. İndi oranın sərin, gül-çiçəkli vaxtıdı.
- Bir həftə bəsdi. Bir azdan biçin-yığım işi başlayacaq. Başlayana qədər görüləsi işləri bilirsən. Elə et işlər axsamasın.
- Baş üstə bəy.
- Ola bilər, işim çıxa ləngiyəm, təsərrüfat işini, tarlanı gözlətmək olmaz. Biçinə başlayın. Orda nə etmək lazım olduğunu bilirsən. İşləri mənə görə ləngitmiyin. İşlərin ləngiməsi məhsula pis təsir edir. Çalışacam tez gəlim.
- Nigaran qalma bəy.
- Di get, gecən xeyrə qalsın.

Səhər erkəndən bəyin köhlən atı səfərə hazırlanmışdı. Bəyin at həvəskarı olduğunu Kəlbəcərdə də bilirdilər. Yüz illər boyu yetişdirilərək dünyanın ən gözəl cins atları sırasında özünə layiqli yer tutan Qarabağ atına hər adam sahib olmurdu. Nəinki sahib

olmaq, hətta bir çox insanlar onun sorağını eşidir və heç olmasa bir dəfə görmək arzusu ilə yaşayırdı. Çünki sözü gedən təmiz cins Qarabağ atını hər gün küçə-bazarda istədiyin vaxt görə bilməzdin. Bu atlar yalnız xüsusi tövlədə saxlanılır. Çox nadir hallarda baş verən alqı-satqı işləri həyətlərdə, yəni öz aralarında həyata keçirilərdi. Satan alanla heç vaxt bazarda, şəhərdə alış-veriş etməzdi. Elə qiyməti də hədsiz dərəcədə yüksək və fərqli idi. Heç kəs deyə bilməzdi bu cins atların bazarda, yaxud hardasa qiyməti neçədi.

Bəy çox ləngimədən Səfəri Azəri və Mahiri götürüb birlikdə yola düşdülər. Kəlbəcərin ərazisi Ağdamın ərazisinə bitişikdi. Bəy elyolu ilə üzü İstisuya doğru yol aldı. Çoban dağının sol hissəsindən Qaramanlı bulağı tərəfdən Xaçın dərəsinə endilər. Xaçındərbənd kəndinin yanından və Sırxəvənd kəndinin içərisindən davam edərək Ulubab və Ballıqaya silsilə yüksəkliklərinin əhatəsindən keçdilər. Xaçın çayının üstü ilə kedib Səbətkeçməz cığırı ilə Kəlbəcər ərazisinə keçdilər. Elin Kəlbəcər ərazisində yaylaq yolu Dovşanlı, Bazarkənd, Narışdar, Təzəkənd, Taxtabaşı, Qazıxanlı, Qaraxançallı, Tirkəşəvənd, Xallanlı istiqamətində uzanaraq İstisu yaylağına gedib çıxır. Yol davam etdikcə hava get-gedə sərinləşirdi. Yaz, yay fəsilləri yaylağa Ağdama nisbətən gec gəlir. Burada isti yay günləri olanda yaylaqda yenicə yaz başlayır. Əvvəlcə çoxlu göygurultuları ilə xeyli yağış yağır. Çaylarda suyun rəngi bulanaraq həcmi artır. Ara-sıra sellər olur. Hüseynalı bəyin obasının yeri elə hündür yerdə idi bəzən buludlar gəlib alaçıqlardan aşağıda oturur elə həmin buludda şimşək çaxır, göy guruldayır və yağış yağırdı. Təsəvvür edin alaçıq qabağında durmusunuz, sizin üzərinizə günəş şüaları düşür və ətrafda gözəl hava var. Ancaq sizdən aşağıda bulud dayanıb, içində şimşək çaxır, göy guruldayır və sizdən aşağıya yağış yağır.

Həmişə buludu başı üzərində və çox hündürdə görən insan üçün bu mənzərə inanılmaz təəssüratlar yaradır. Hüseynalı bəy obaya çatanda belə gözəl təbiət hadisəsi baş verdi. Bu yerdə olan adama elə gəlir o həmin anda göylərə ucalıb və onun bədəninin heç bir çəkisi yoxdur. Bu bir az da həmişə Tanrının göylərdə, ucalıqda olduğunu düşünən insanlar üçün, ona yaxınlaşma kimi başa düşülürdü. Bəyin obası yerləşən Sarı yer adlanan ərazi coğrafi olaraq ətrafda ən hündür və ən səfalı yerlərdən biri, bəlkə də, birincisi idi. Alaqaya deyilən dağın zirvəsi, doğrudan da, qayalıq idi. Həmin qayanın dibində, dağın ən hündür yerində böyuk hamar meydan əmələ gəlirdi. Obanın alaçıqları həmin meydanda qurulurdu. Alaçıq içində üzü qapıya tərəf oturanda sol tərəfdə dağ zirvəsi Alaqaya durur, alaçığın arxa hissəsində dağ yalı idi. Bu yalın üzərində və qayaya çıxıb baxanda ətrafda burdan hündür dağ görünməzdi. Sağ tərəfdə üzü aşağı Xaçın çayı axan dərəyə yol uzanırdı. Alaçığın qapısından düz baxanda isə həmən qarşıda torpaqdan süzülüb gələn Sarı bulaq var idi. Sarı bulağın üstü isə “Qaranlıq” deyilən meşə obaya füsünkar gözəllik verirdi. Sarı bulağın qəribə xüsusiyyəti var idi. Torpaqdan süzülməsi ilə əlaqədar idi, nə ilə əlaqədar idisə, sudan nə qədər çox içsən, heç vaxt adama köp verməz, heç bir ağrı-ağırlıq yaratmazdı. Elə məhz bu xüsusiyyətinə görə Sarı bulaq çox məşhur idi. Belə şəfalı və rahat suyu olduğuna görə ətraf kəndlərdə, obalarda yaşayanlar bura su içməyə gəlirdilər. Bu bulaq Hüseynalı bulağı adı ilə də tanınırdı. Elə bulağın ətrafı suyu qədər gözəl idi. Bulağın başında baldırğan, qantəpər, zirə, kəklikotu və sair çoxlu dərman bitkilərindən tutmuş adını bilmədiyimiz min cür bitki qalxardı. Bəy obaya gələn günün səhərisi hava tamamilə açılmışdı. Ağzıaşağı baxdıqca yamaclarda gül-çıcək rənginin sayı-hesabı yox idi. Elə bil yerə açıq rənglərdən toxunmuş böyük xalça sərilmişdi.

Çökəklərdən qalxan gərməşov ağacları bu mənzərəyə ayrı yaraşıq verirdi. Ağzı aşağıda dərədən axan Xaçın çayının səsi külək bəri əsəndə Alaqayaya qədər gəlib çıxırdı. Çayın o tərəfində isə Xallanlı kəndinə doğru hamar kəklikotu təpələri uzanıb gedirdi. Sərdar bəy həmin kənddə yaşayırdı. Burda ən hündür təpənin yalında olan "İnək" qayanın ətrafında isə kəklikotu daha çox və ətirli olur. Qaya ətrafında gəzəndə adamın ayağı altında qalan kəklikotunun əzilmiş yarpaqlarının və çiçəklərinin ətri elə qalxırdı ki, həmin anda adamın burnuna kəklikotu iyindən başqa heçnə gəlmirdi.

Hüseynalı bəy obaya çatan kimi Xallanlı kəndinə sabah görüşməyə gedəcəyi barədə ismarıc yollamışdı. Təbii ki, bəy Xallanlıya adətə görə günorta gedəcəkdi. Buna baxmayaraq, səhər tezdən duran bəy alaçıqdan çölə çıxanda onun üçün səhər yeməyi hazırlanmışdı. Alaqaranlıqdan qoyunları yaylıma çıxartmış çobanların ailələri onlarla oyanmışdılar. Çobanlar davarı (davar-qoyun quzu sürüsü) otlaqlara ötürüncə onlar ocaq qalamış sac asmışlar. Bir tərəfdən isti yuxa hazır olunca o biri yandan samovara od salınmışdı. Hava yağmursuz, çiskinsiz olduğundan səhər süfrəsi elə açıq havada açılmışdı. Bulaq başında yuyunub dəstəmaz aldıqdan və alaçıqda sübh namazı qıldıqdan sonra bəy bayıra çıxdı. Bu zaman samovar qaynamış, isti yuxa hazırlanmış süfrəyə qoyulmuşdu. Hüseynalı bəy süfrəyə yaxınlaşaraq bütün çoban ailələrinin başçılarını və oğullarını başına yığıb süfrəyə əyləşdilər. Süfrə ətrafında söhbət zamanı bəy adəti üzrə bütün çobanların fikri ilə tanış olur, onlar üçün görüləsi işləri nəzərə alaraq arabir Səfərə tapşırıqlar verirdi. Söhbət əsnasında danışılan təsərrüfatın vəziyyəti və çoban ailələrinin özlərinin qayğılarından başqa, erməni mövzusu da vardı.  Bu mövzuda söhbət açan çobanlar içində ən yaşlısı çobanbaşı Bahadur kişi sözə başladı.

- Bəy, ömrün uzun olsun. Hər işin xeyirə calansın. Vallah sizin işiniz bir böyük kimi çox çətindi. Bunu başa düşən düşür.

- Bəsirətin açıq olsun həmişə.

- Deyirəm işimiz keşkə təsərrüfat və ailə qayğıları ilə bitsəydi nə yaxşı olardı.

- Ağsaqqal, danış görüm nə olub ki?

- O günləri öz gözlərimin şahidi oldum. Çöldəyik, gördüm bizim bu qarşıdakı dağın o tərəfindəki Alaqaya obası yoxdu? Ondan bəri tərəfdə köhnə, çox köhnə qəbiristanlıq yeri var ha. Siz oranı görmüsünüz.

- Bəli, yaxşı yadımdadı.

- Gördük axşam şər qarışanda əlində bel iki nəfər nəsə qazır. Uşağın birini göndərdim ki, bala, get gör kimlərdi, nağayrırlar orda. Uşaq getdi, mən uzaqdayam, amma bunlara baxıram, gördüm uşağa nəinki cavab verdilər, əksinə, uşağı qovdular. Səslərin eşitmirəm, amma görürəmdana. Uşaq bir az dirəşəndə görürəm bunu tutmaq istəyirlər. Uşaq əllərindən qaçdı. Qaça-qaça gəlib xəbər gətirdi bəs iki dənə ermənidi, oranı qazıb nəsə basdırırlar. Nə olduğunu öyrənmək istəyəndə məni tutub döymək istədilər, əllərindən qaçdım.

Bəy ağsaqqalı diqqətlə dinləyirdi.

Bunlar məni görmədiyindən işlərini yarımçıq qoymadılar, ancaq bir az tələsməyə başladılar. Uşaq xəbər gətirən kimi cavanlardan ikisini göndərdim alçaqları tutub gətirsinlər görək bunlar burda nə edirlər. Gənclər tərpəndilər. Mən də bunların dalınca. Bizi görcək onlar qaşmağa başladılar. Gənclərimiz də bunların dalınca. Çox keçmədi erməniləri ağız-burunları qanın içində döyə-döyə gətirdilər torpağı qazdıqları yerə. Bu dəmdə mən çatdım ora. İndi bu qorxaq ermənilər yalvarırlar ki, onları buraxaq, amma burda nə etdiklərini, burda nə basdırdıqlarını demirlər. Əl-

qərəz, gənclər bunları döyə-döyə basdırdıqları şeyi çıxartdırdılar.

- Bəs nəiymiş basdıdıqları? - deyə bəy sual etdi.

- Baxaq görək üstündə xaç şəkli yonulmuş qucaq boyda ağ daş parçasıdı. Bayaqdan danışmayan bu alçaqların məqsədini aydınlaşdırmaq üçün bizim gənclər başladılar onları daha çox döyməyə ki, aydınnaşdıraq görək bu nə oyundu.

Hüseynalı bəy artıq məsələni anladı.

- Sonra? Arxalarında kimlərin durduğunu anlaya bildinizmi?

- Axırı, "Bu dəqiqə sizi öldürəciyik, qazdığınız yerdə basdıracıyıq" deyib qorxuzandan sonra dedilər “biz kəndli adamıq, bizə pul verib dedilər ki, gedin harda ərəb əlifbası ilə yazılan qəbirdaşları az olan köhnə qavirsannıxlar (qavisannıx - erməni ləhcəsində qəbristanlıq) var bu daşları orada basdıraq. Amma niyəsini bilmirik”.

Bu nakəslərin bundan artıq heç nə bilmədikləri qənaətinəgələndən sonra həmin daşları özlərinə qırdırıb cilik-cilik edib yüklətdirdik öz bellərinə, buraxdıq. Dedik, gedin dədənizi tanıyıyırsınızsa, o öləndə bu daş qırıqlarıyla onu basdırarsınız.

Son cümləni deyəndən sonra yaşlı, nurani qoca sual dolu baxışlarla Hüseynalı bəyin üzünə baxdı.

- Gəlin mən sizə deyim, bunların məqsədi nədir?-Bunların məqsədi min illər boyu yaşadığımız bu gözəl torpaqlara sahib çıxmaqdır. Burada təəccüblü bir şey yoxdu,- deyə Heseynalı bəy söhbətə davam etdi. Təəccüblü olan şey odur ki, yer üzü bunlar qədər namərd, nakəs varlıq görməyib. Əşi mal-qara saxlayarsan, var-dövlət sahibi olarsan, - nəfsini saxlaya bilməyənlər xəlvət bir az götürüb apararlar, adlarına “oğru” deyərsən. Bəziləri qoşun çəkər, sənə ultimatum göndərər, səninlə döyüşə gəlmişəm deyər, adına “düşmən” deyərsən. Bunlara isə heç bir ad vermək

olmur. Ağsaqqal, bu bilirsən nəyə oxşayır? Elə bil bir pis çəpər qonşun var. Hər gün səhər durub görürsən aranızdakı çəpəri az-az basır sənin həyətinə tərəf. Sən ayıb edib dillənmirsən ki, ay "qonşu" nə edirsən? Amma dillənmək lazımdı. Lap yaxşı edib dərslərini vermisiniz. Ağdam tərəfdə də dinc oturmurlar. Diqqətli olmaq lazımdır. Bu torpağa - öz malımıza yaxşı sahib çıxmasaq, başqaları yiyə durasıdı. Hələ bunlardan əlavə torpağımız başqa ölkələrdən gələn qaçaq-quldur, didərginlərlə doludu. Gərək bunları nəzarətdə saxlayaq. Hərəkətlərinə nəzarət edək. Məqsədlərini, planlarını, güclərini bilək ki, onlara qarşı necə hərəkət edəcəyimizi bilək. Çox diqqətli və ayıq olmaq lazımdı. Fikrimi tutdunmu Bahadur kişi?

- Lap qəşəng tutdum bəy, başına dönüm. Oxumuş, elmli adamın bəsirəti açıq olar. Gözü daha çox uzağı görər. Üstəlik içində el-oba sevgisi var haa, elə ona görə dünya durduqca adın yaşayacaq.

- Allah sənə də, hamımıza da uzun ömür versin, Bahadur kişi,- deyə bəy bütün süfrədəkilərə mürüciət etdi.

Yemək və söhbət bitəndən sonra bəy alınacaq yerin sahibi ilə görüşməzdən əvvəl bu səfalı ərazini bir daha gəzib, nəzərdən keçirmək istədi. Süfrədən qalxan kimi, atına minib Səfərlə alaçığın arxasındakı yalı aşaraq zirvədəki Alaqayanın arxasına tərəf keçdi. Qaya dibində və alaçıqların ərazisində olan meşənin ətrafında artıq qurşağa qədər qalxan moruq kolları bu il qırmızı moruq və dağ çiyələyinin bol olacağından xəbər verirdi. Bəy bütün dağ üstü biçənək və otlaq əraziləri gəzərək aşağıya - Xaçın çayının keçdiyi “Qarı dəyirmanı”-na düşdü. Qarı dəyirmanı bildiyimiz dəyirman deyildi. Bu yerdə Xaçın çayı iki kilometr uzunluğunda və altmış metrə qədər dərinliyində olan qayalıq dərə içindən keçirdi. Bu dərənin hər iki tərəfi qayalıq idi. Onların ara-

sındakı məsafə beş-altı metr olardı. Yuxarıdan baxanda dərənin dibi görünmürdü. Dərənin içi sıldırımlarla dolu olduğundan burda iki dənə şəlalə var idi. Bu gözəlliyi görmək üçün mütləq kanyonun içinə girmək lazım idi. Kənardan ancaq çayın gözəl musiqiyə oxşar şırıltısını eşitmək olardı. Kənardan içəri görünmədiyi üçün ətraf obalar buranı təyin edilmiş vaxtlarda hamam kimi istifadə edirdilər. Xallanlı kəndinə gedən yol burdan keçirdi. Dərə bitdikdən xeyli sonra Xallanlı kəndinin ərazisi başlamamış çayla yolun arasında daha bir təbiət möcüzəsi vardı. Daha doğrusu iki təbiət möcüzəsi vardı. Biri bu idi ki, "Turş su" deyilən bulaq bütöv bir dik qaya üzərindən çıxırdı. Yəni su daşı deşib çıxmışdı. Elə bil dik dayanmış divardan əllə, insan əli ilə deşilmiş dəlikdən bulaq axırdı. Üstəlik su təbii olaraq qazla çıxırdı, dadı adi sulardan fərqlənirdi. Bu suyu çoxlu içmək mümün deyildi. Mütləq adamı gəyirdirdi. Deyilənlərə görə bu bütün mədə-bağırsaq xəstəliklərinin dərmanıdır.

İkinci dediyimiz möcüzə də bir bulaq idi. Elə həmin qayanın üzərində bir metr aralıda bir az yuxarıda eyni cürə başqa bir dəlikdən "Qotur su" deyilən daha bir bulaq çıxırdı. Bu bulağın suyunda heç bir qazdan əlamət yox idi. Suyun dadı isə tamamilə o biri bulaqdan fərqlidir. Günəş şüasından və s. yaranmış dəri soyulmaları, yaxud hər hansı səpişik və yarası olan adamın bu bulaqda bircə dəfə yuyunması kifayət idi ki, bütün yaralardan birdəfəlik canını qurtarmış olsun. Bulaqların çıxıb axdığı yerlər eyni daş üzərində olsa da, Turşsuyun axdığı yer sarı ərplə, Qotursuyun axdığı yer qara ərplə örtülürdü. Bu iki möcüzəli şəfalı bulağın bir qaya üzərindən çıxmasına baxmayaq bu qədər fərqli tərkibdə olması özü bir ayrıca möcüzə idi.

- Bax bu Allahın qüdrətini göstərən əlamətlərdən biridir desək yanılmarıq. Hüseynalı bəy Turş sudan içib, Qotur suda üzü-

nü yuyandan sonra Səfərə dedi: Necə ki Quranın Əl-Furqan (Fərqləndirmə) surəsi 53-cü ayəsində buyurulur: "Birinin suyu şirin, xoşagələn, digərininki şor, acı iki dənizi bir-birinə salan və aralarında bir maneə, aşılmaz bir sədd qoyan odur".

Yəqin Quranımızda deyilən bir-birinə qarışmayan sular bunlardı. Doğrudan da, Allahın belə möcüzələrini görəndə fikirləşirsən ki, bir gün hamımız bu dünyadan axirətə köçüb gedəcəyik. Bizi yaradan heç bir yaratdığının hansısa mükafatına, hansısa vəzifəsinə, malına, mülkünə baxmayacaq. Ancaq "sənə göndərdiyim sonuncu ismarıcı necə dərk edib icra etdin ey bəndəm!" deyə soruşacaq.

Hüseynalı bəy möcüzəli bulaqların başından ayrılıb birbaşa Xallanlı kəndinə getdi. Sərdar bəyin malikanəsinə çatanda vədələnmiş vaxt olduğundan həyətin giriş qapısı açıq idi. Köməkçisi burada duraraq Hüseynalı bəyə atını içəri sürməsini xahiş etdi. Sərdar bəy özü isə eyvanda ayaq üstə durub gözləyirdi. Qonaq qarşılama ədəbinə görə Sərdar bəyin köməkçisi qonaqlar həyətə girəndən sonra yaxınlaşıb atların, birinci bəyin atının yüyənindən tutdu və bəy atdan endi. Qonaq atdan enəndən sonra Sərdar bəy eyvandan həyətə gəlib bəyi və köməkçisini salamladı.

- Xoş gəlmisən, bəy, - deyə Sərdar bəy sözə başladı.
- Xoş gününə gəldik, bəy. Görüşümüz bu günə qismətmiş.
- Həmişə siz gələsiniz. Bəy, buyurun keçəyin evə.

Bəylər evə keçəndə artıq süfrə açılmışdı. Hüseynalı bəyin gəlişinə Sərdar bəy iki toğlu (toğlu -çəkisi 18-22kq olan 5-6 aylıq erkək quzu) kəsdirmişdi. Birini kabab, o birini bu yerlərin ən məşhur yeməyi olan buğlama elətdirmişdi. Buğlama yeməyinin dadının məşhur olması, əvvəla, kök, gözəl yaylaq toğlusunun ətindən hazırlanması və qəribə hazırlanma qaydasından yaranan gözəl dada görə idi. Hazırlanma, yəni toğlunun bişirilməsində

qəribəlik onda idi ki, bütün heyvan cəmi bir stəkan su ilə bişirilirdi. Yəni heyvanın bütün əzaları böyük tikələrə doğrandıqdan sonra ətə duz, istiot və s. ədviyyatlar vurulur və mütləq böyük, bütün ətin yerləşə biləcəyi altı böyük, boğazı dar, yaxşı qalaylanmış mis qazana yığılır. Ondan sonra bütün ətin üstünə cəmi bir stəkan su əlavə edilib qoyulur çox iti olmayan, qalın közün üstünə. Qazanın ağzı çox kip bağlanır yeməyin buğu bayıra çıxmır. Elə sirr də bundadır. O bir stəkan suya heyvanın ətinin suyu qarışır və buğa çevrilərək qazanın içini bütün alır. Ət buğun istisinə elə bişir ki, yeməyin dadından doymaq olmur. Özü də süfrəyə kababdan öncə verilir.

Bəylər çay-çörək süfrəsində mehriban söhbət edə-edə əvvəlcədən təxminən nəzərdə tutulan ərazi üzrə Alaqaya, Sarı yerdən İnək qayanın arxasındakı iki təpəyə qədər. Turş su, Qotur su bulağından Narışdar meşəsinin bəri başı Şır-şır bulağının o biri tərəfinə qədər olan 600 hektar otlaq və biçin ərazisini bir sərnic qızıl qiymətinə xeyirləşdilər.

- Allah xeyir versin, bəy - deyə Sərdar bəy xeyir-dua verdi.

- Verdiyim pul halal, halal, halal olsun - deyərək Hüseynalı bəy sözünə davam etdi. Qazandığımız, daha doğrusu, Allahın bizə verdiyi pulun halal olmasına fikir veririk. İndi nə qədər halal olduğunu Allah özü bilir.

- Bəy, sizin halal adam olduğunuza hamımız inanırıq. Elə biz də sənin kimi. Aldığın bu ərazi bir daha deyirəm xeyirli olsun, halalın, halalın, halalın olsun, sağlığına qismət olsun. Qoy onu deyim sizin bizdən bir üstünlüyünüz var o da sizin savadlı, təhsilli olmağınızdı. Mən savad, təhsil deyəndə təkcə sizin təhsil almağınızı nəzərdə tutmuram. Mən daha çox təqdir edirəm sizin aldığınız savadın camaat üçün xərcləməyinizi. Biz burda Ağdamda olan xəstəlik zamanı sizin fədakarcasına fəaliyyət

göstərməyinizdən xəbər tutduq.

- Allah özü kömək oldu deyərək Hüseynalı bəy astadan dilləndi.

- Sonra mən sizin məktəbinizdən, orda dərs deməyinizdən çox təsirlənirəm.

Söhbətin bu yerində bəylər artıq eyvanda samovar çayı süfrəsində əyləşmişdilər.

- Xahiş edirəm, mənə məktəbdən danışın. Gələcəyimiz maariflənmədə, elmdədir elə deyilmi?!

- Tamamilə doğrudur. Sizin bu sözünüzün təsdiqi müqəddəs Quranımızda var. Bəqərə (İnək) surəsi 269-cu ayədə deyilir: Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Onu ancaq ağıllı adamlar dərk edə bilərlər.

Demək istəyirəm, Quranda deyildiyi kimi siz ağıllı adamlardansınız ki, bunu dərk edirsiniz. İndi biz bir tərəfdən çalışırıq millətin balaları elmli və mərifət sahibi olsun. Gələcəkdə həm ayrılıqda özlərinin, həm də ümumilikdə millətin həyatı, yaşayışı müdriklərin təqdir etdiyi yaşayış olsun. Məktəbdə əsas hədəflədiyimiz məsələ budur. Son zamanlar bu xəbəriniz olan xəstəlikdən sonra məktəbdə bütün fənlərlə yanaşı məcbur olaraq tibb dərsi də açmışam. Amma çatdıra biçmirəm. Məktəbə mütləq müəllim lazımdı. Heç cürə tapa bilmirəm. Bəlkə Sərdar bəy sizin ağlınıza bir şey gələ. Mənə bir tövsiyə verəsiniz.

Sərdar bəy bu müraciəti gözləmədiyinə görə bir az duruxdu. Xeyli fikrə gedəndən sonra:

- Bəy, ağlıma bir adam gəlmir, ancaq bir məsələ var. Bir-iki il bundan əvvəl Rusiyada nə olubsa, nə bilim inqilab eləmək, çevriliş eləmək istəyiblər, nədisə bilmirəm, baş tutmayub. İndi

işdə əli olanlar hamısı Çar hökümətindən qaçaq düşüb, belə ucqar dağlarda qaçıb gizlənirlər. Daha doğrusu, sağ qalmağa çalışırlar.

Hüseynalı bəy Sərdar bəyin sözünə ara verdiyini görüb:

- Nə deyim, məni dərs deyəcək müəllimin, birinci növbədə bizim camaata verəcəyi elm, ziya maraqlandırır. Hələ danış görüm harada görmüsən bu adamı?

- Mənim Kəlbəcər bölgəsinin mərkəzində yaşayan qardaşım Cəsur bəyi tanıyırsan?

- Tanıyıram.

- Ötən həftə Kəlbəcərdəydim. Cəsurbəy işi ilə əlaqədar evini bir az avropasayağı təmir etdirirdi. Onun evinə işlə əlaqədar çoxlu qonaqlar gəlir. Evinə baxıb təmiri, naxış-boyanı mən bəyənəndə Cəsurbəy:

- Bunu Denis Kliçko işləyib. Dalınca əlavə etdi ki, oxumuş adamın əl qabiliyyəti bir başqa cür olur.

- Görəsən onun nə üzrə savadı var?

- İstəyirsən sən bir bu adamla görüş.

- Məncə, görüşmək yaxşı olar - deyib Hüseynalı bəy Sərdar bəyin üzünə baxdı.

- Heç bir çətinliyi yoxdu, istəyirsən lap indi duraq gedək Kəlbəcərə. Təmir işi bu günlərdə bitmiş olar. Orada olmasa da harda olsa tapıb danışarıq.

Axşamüstü qaranlıq düşməmiş bəylər artıq Kəlbəcərdə idilər. Verilən sorağa görə Cəsur bəy bazarın yanındakı karvansarada idi. Bəylər birbaşa ora yollandılar. Mehriban görüşdən sonra Sərdar bəy gəlişinin səbəbini anlatdı. Cəsur bəy məlumat verdi ki, evdəki təmir işi yenicə bitibdi və Denis Kliçko təmir haqqını almaq üçün onunla burada görüşəcək. Çox keçmədi D. Kliçko karvansaranın girişində göründü. Ortaboylu, dolu bədənli

olan Denis əyninə düz şalvar və dörd düyməli pencək geyinmişdi. Onun qara saçlarının quruluşu və işıqlı siması elə ilk baxışda təhsilli insan təəssüratı yaradırdı. O, girişdən içəri kecmək istəyəndə karvansaranın gözətçi otağından iki nəfər əli silahlı hökumət qorodovoyu (qorodovoy - 1862-1917 ci illər arasında Çar hokumətində şəhər polis nəfəri) çıxıb onun qabağını kəsdi. Vəziyyəti belə görən kimi Kliçko heç nə demədən geriyə dönüb qaçmaq istəyəndə girişdə daha canlı üçüncü qorodovoyu gördü. Sən demə, bayaqdan bunun dalınca gəlirmiş. Sayıqlığı itirməyərək arxasınca düşən canlı qorodovoyun üzünə sol əli ilə yumruq vurdu. Ancaq bu dəmdə onun qabağını kəsənlərdən biri əlindəki tüfəngin qundağı ilə onun kürəyindən sərt vuraraq yerə yıxdı. Beləcə Kliçkonu yerdə əllərini arxadan bir-birinə bağlayıb ayağa durğuzdular. Qabaqlarına salıb apardılar.

Hadisəni uzaqdan seyr edən Cəsur bəy yanındakılara yavaşca:

- Öldürmədilər. Aparırlar idarəyə. Yəqin ordan aparacaqlar Şuşa qazamatına.

- Bəs sonra? - deyə Hüseynalı bəy sual etdi.

- Sonra yəqin orada silist edib (Silis - İstintaq) oldürərlər, yaxud göndərərlər Mokvaya, oradan da sürgünə.

Hüseynalı bəy fikrə getmişdi. Ancaq nə düşündüyünü biruzə verməyərək elə Cəsur bəyin danışdığı tonda astadan:

- Heyif - deyib mövzunu dəyişmək istədi.

Sonra bəylər bir yerdə bir az söhbət etdikdən sonra Hüseynalı bəy yaylağa qayıdacağını bildirərək onlardan ayrıldı.

Hüseyinalı bəy karvansaradan çıxanda tamam qaranlıq idi. Səfər və iki köməkçisi arxasınca qapıdan çıxandan sonra bəy ayaq saxlayıb Səfərə tərəf döndü. Bəyin baxışlarından bir şey anlamayan Səfər qeyri-ixtiyari:

- Bəy, yaylağa qayıdırıq yoxsa, birbaşa Ağdama gedək?
- Hələlik heç bir yerə getmirik.

Səfər sual dolu nəzərlərlə bəyin üzünə baxırdı.

- Bir işimiz var...
- Nə iş, bəy? - deyərək bu işin adi işlərdən olmadığını hiss elədi.
- Karvansaranın girişində bayaq qorodovoylar hökumətdən qaçaq düşmüş adam tutdular gördünmü?
- Bəli.
- Həmin adam bizə lazımdı.
- Nə etməyimizi istəyirsən, bəy?
- Ola bilsin, bu adamı sabah Şuşa qazarmasına aparsınlar, yaxud elə burdaca qərar verib güllələsinlər.
- Aydındı. Bəy, izn versəniz apardıqları idarənin ərazisini kəşfiyyat edərdim.
- İkimiz bir yerdə gedək.

Kliçkonu aparıb saldıqları binanı yoxladıqdan sonra səhərə yaxın basqın edib adamı ordan qaçırtmaq qərarı alındı və bu işdə bəyin özünün də iştirak edəcəyi planlaşdırıldı. Kazarmanı gözətləmək üçün ordan bir az aralıda Kəlbəcərin mərkəzinin yuxarı məhlələrinin birinə xəlvətə çəkilib nəzərdə tutulan vaxtı gözləməyə başladılar. Gecəyarıdan xeyli keçmiş kazarmanın həyətində canlanma oldu. Kazarmanın giriş qapısı açıldı və dörd nəfər atlı, bir nəfər at belində əlləri bağlı dustaq həyətdən bayıra çıxaraq üzü Şuşaya doğru yol aldılar. Anlaşılan bu idi ki, tutulan adamı elə gecə vaxtı Şuşaya aparırdılar. Vəziyyəti belə görən Hüseyinalı bəy tez Şuşa - Kəlbəcər yolu üstündə pusqu qurmağı qərara alaraq hərəkətə başladı. Onların dustağı aparan əsgərlərdən qabaqda olmaları yol üstündə, meşənin dərin yerində pusqu qurmağa şərait yaratdı.Yolun çökəkdən keçən yerində yolqirağı dik

yerdə yenicə yer tutmuşdular ki, gözlənən adamlar gəlib yetişdi. Bir anın içındə Azər dikin üstündən özünü qabaqda qoşa gedən atlıların üstünə ataraq ikisini də atdan yerə saldı. Elə həmin anda Mahir ən arxada tək gedən atlını dikdən tullanaraq tutub yerə saldı. Qəfil hücumdan çaşıb qalan dördüncü əsgər özünə gəlib əlini silaha atmaq istəyəndə Hüseynalı bəylə Səfər artıq silahı ona tuşlamışdı. Gecə qaranlığı və meşənin dərinliyi olduğundan heç kəsin üzü tanınmırdı. Dördüncü atlını da atdan endirilib hamısı tərkislah edilərək əlləri bağlandı. Bundan sonra bəy və göməkçiləri D. Kliçkonu götürüb meşənin qaranlığında gözdən itdilər.

Üzü Ağdama tərəf yol alıb gələndə artıq səhər açılırdı. Gecəki hadisənin həyəcanı tamamilə keçmişdi.

- Mən sizə təşəkkür etmək istəyirəm - deyən Denis Osmanlı türkcəsini xatırladan bir ləhcədə azərbaycanca danışmağa başladı.

- Boş şeydi.

- Elə deməyin, mən hesab edirəm həyatımı qurtardınız. Bildiyimə görə məni Şuşada qarnizon rəhbərinin qərarı ilə edam edəcəkdilər.

- Xahiş edirəm, özünüzü mənimlə tanış edin. Necə oldu bizim dili öyrəndiniz,- deyərək Hüseynalı bəy söhbətə lap əvvəldən başlaması istəyini bildirdi.

- Mən bu dili uşaqlıqdan, lap körpəlikdən bilirəm. Yəni bu dil mənim də ana dilimdi.

- Necə yəni ana dilimdi? - deyə Hüseynalı bəy diqqət kəsildi.

- Mənim anam Krım tatarlarındandı, atamsa poltavalıdı. Mən ukraynalıyam. Valideynlərimin hər ikisi ziyalı adamlardı. Elə uşaqlıqdan mən tatar və xaxol dilləri ilə yanaşı, rus dilini də öyrənmişdim. Öyrənmişdim deyəndə valideyinlərim öyrətmişdi-

lər.

- Bəs özünüzün təhsiliniz?

- Dəqiq elmlərə olan marağım məni Moskvaya gətirdi. Mən burada Moskva Dövlət Universitetinin riyaziyyat-fizika fakültəsinə daxil oldum.

- Əhsən, xahiş edirəm deyin. Elm, elm öyrənmə, elm öyrətmə sözləri sizin üçün nə ifadə edir? Hüseynalı bəy verdiyi suala cavabın nə qədər səmimi olduğuna əmin olmaq üçün müsahibinin üzünə baxaraq cavaba qulaq asmaq istədi. Cavabında Denis sözə belə davam etdi.

- Bizim universitetin belə bir devizi var: "Nauka yest yasnoye poznaniye istinı, prosveşeniye razuma".

Bu türk dilinə təxminən belə tərcümə olunur:"Elm həqiqəti aydın görən, şüuru maarifləndirəndir". Bu elə mənim də devizimdi.

Həmsöhbətinin cavabı Hüseynalı bəyi çox qane etmişdi. Ancaq üzə vurmadan söhbəti davam etdirərək.

- Bəs necə oldu buralara qədər qaçaq düşdün?

- Ötən illərdə Mokvada baş verən inqilab hərəkatında bizim təhsil ocağının tələbələri yaxından iştirak edirdilər. Mən özüm yaxından iştirak etməsəm də, məsləyə biganə deyildim. Baş tutmayan inqilabı Çar hökuməti yatırtdıqdan sonra bütün bu işə rəğbəti olan adamları təqib etməyə, başladı. Axtarıb tapmasınlar deyə nə Poltavaya, nə də Krıma gedə bildim. İndi burdayam. Təhsilli insan olsam da, təmir işləri əlimdən gəlir. Bir təhər dolanırdım.

- Aydındı. Mənim sənə bir təklifim var. Təklif budu ki, mənim Ağdamda böyük malikanəm və məktəbim var. İstiyirəm, mənim yanımda Ağdamda, Qiyaslıda qalasan. Məktəbdə dərs deyəsən, qarşılığını alasan. Orda yaşamaq üçün də yer ayırtdır-

cağam.

Denis diqqətlə qulaq asırdı.

- Nə qədər inqilabdan, təbliğatdan uzaq olacaqsan, can güvənliyin mənim borcumdu.

Bəyin nəyə işarə vurduğunu Denis yaxşı başa düşürdü və fikrə getmişdi.

- Fikrimi bir azda açıq deyim ki, məni maraqlandıran məktəbdə yalnız elmdən, maariflənmədən söhbətin getməsidi. Bundan başqa heç nə. Yəni dövlət quruluşudu, inqilabdı, sonra nə bilim kimlərləsə xəlvət görüşməkdi və s. belə şeyləri qətiyyən istəmirəm. Bu şeylər olmadıqca qonağımsan, əmanətimsən. Yəqin bilirsən bizlərdə qonağa, əmanətə olan münasibəti.

- Bilirəm,bəy, - deyə Denis tez cavab verdi. Mən razıyam, ümidvaram siz mənim məktəbdə verdiyim dərslərin keyfiyyətindən razı qalacaqsınız.

OOO

Bəy və yanındakılar axşamüstünə Qiyaslıya çatdılar. İbrahimlə görüşəndən sonra İbrahim ona fəxarət hissi ilə:

- Bəy, qadan alım, saallah (Saallah - sən Allah sözüdü) noolmuşdu, qalıf bir az istitahət eləmədin. Hara belə tələsirsən?

Hüseynalı bəy müəllimə işarə edərək:

- Yaxşı iş görməyə həmişə tələsmək lazımdı. 100 il sonra yaşayacağını düşünərək yaxşılıq etmək, 100 saniyə sonra öləcəyini düşünərək ibadət etmək lazımdı. Bax nə yaxşı müəllim gətirmişəm. Bundan belə camaatın balalarına məktəbdə hesab dərsi ilə yanaşı fizika, kimya və s. dərslər vermək imkanımız olacaq. Müəllim qonağımızdı. Onun qalması üçün otaq hazırla.

- Baş üstə bəy.

Sonra təklikdə Hüseyialı bəy İbrahimə müəllimlə əlaqədar təbliğat və təhlükəsizlik barədə gərəkən tapşırıqları verdi.

- İbrahim, bu adam hökümətdən qaçaqdı. Bil ki, onu istənilən vaxt öldürməyə, yaxud tutub aparmağa adam gələ bilər. Özünə tapşırmışam, siz də nəzarət edin, burda ancaq elmlə, təhsillə məşğul olsun. Daha onun içində nə fikirləri var, təbliğatları var onun öz ölkəsinə aiddi. Buralarda bu barədə hər hansı təbliğatın, danışığın olmasını istəmirəm. Belə mövzuda bir kəlmə danışıq olsa, xəbərim olsun.

- Aydındı. Bəy, başa düşdüm.

- Güvənlik işini Nicata tapşır. İstəyirəm Nicat onun yanında həm təhsil alsın, həm də onu qorusun.

- Baş üstə, bəy.

- De görüm əkin - biçində vəziyyət necədi?

- Vəziyyət yaxşıdı, bəy. Elə bildiyiniz kimi. Heç dağda çox qalmadınız ha. Siz gedənnən tapşırdığınız kimi camaatı biçinə təşkilatlandırmışıq. İki günə biçinə başlayasıyıq.

- Biçin qabağı əsas iki şeyə fikir verməyiniz lazımdı. Axşamdan Səfərgillərə tapşır diqqəti bir az da artırsınlar. Birinci yuxarı tərəfdən gələn arxların qabağı yaxşı bağlanmalıdı. Çünki məhsulu batırmaq üçün erməni dığaları suyu açıb buraxa bilərlər. Bir də yanğın məsələsi. Sahələri gün boyu qorumaq lazımdı ki, yanğın törətməsinlər. Pis qonşudan nə desən gözləmək olar.

- Bəs başqa nə var nə yox, Ağdamda. Nəsə hiss edirmiş kimi Hüseynalı bəy sual etdi.

İbrahim bir az fikrə gedəndən sonra:

- Əbdürrəhim bəy gəlib Ağdama.

- Əbdürrəhimbəy Haqverdiyev?

- Bəli, bəy.

- Həə, bax bu maraqlı xəbərdi. Sabah gedərsən Ağdama. Özü

ilə görüşərsən. Mənim adımdan xoş gəldin deyərsən. Əsas onu de ki, yerləşmə ilə əlaqədar bizdən bir istəyi varsa, xahiş edirik bildirsin. Özünün uyğun bildiyi vaxtda, ən qısa zamanda qonaq çağırdığımızı bildirərsən.

- Baş üstə, bəy.

OOO

Aradan bir gün keçmiş xəbər gəldi ki, Quzanlı kəndinin böyük taxıl sahəsində yanğın törədilib. Camaat özünü çatdırınca sahələrin xeyli hissəsi yandı. Ancaq yer sahibləri ayıq tərpənib yanğın törədən ermənilərdən birini tuta bilmişdilər. Niyə yandırmısan? -deyə cavab alana qədər namərdi o qədər döymüşdülər o, axırda təşkilatlanmış dəstə üzvü olduğunu və dəstə başçısının Arsen olduğunu etiraf etmişdi. Etiraf edənə qədər aldığı zərbələr səbəbindən ölmüşdü. Beləliklə, vurduğu ziyanlara görə namərd Arsen çox adam tərəfindən axtarılırdı. Bu adamlar içində onu ən çox axtaran isə Nicat idi. Ona görə ki, Nicatın onunla haqq-hesabı mal, pul, zəhmət ziyanlığından daha ötə idi.

İsti aydınlıq yay gecəsi idi. Hündür dağdağan ağacının altında oturub iki sevdalı bir-biri ilə şirin-şirin söhbət edirdi.

Şuri-eşqin başıma axırı sevda gətirir,
Bu müşəxəssdi ki, eşq aşiqə qovğa gətirir.

Hicran ilə kim, daməni-qəm dəstərəsindir
Şadəm ki, gözəlim, həmnəfəsimdir.

Rəqib töhmət etdi məni cuda, ey dust,
Bu zülmü gördü rəva görməsin səfa, ey dust.

Könül, qanın gözümdən navəki-qəmzən rəvan eylər

Məsəldir mərdum içrə “Məst olan, əlbəttə, qan eylər.

Qəzəldən xoşhal olan Səadət birdən dilləndi:

- Vallah elə şeir deyirsən, adamın ömrü boyu dinləməyi gəlir. Ancaq sən “Rəqib”, “Qan” deyincə içimə qorxu düşür.

- Sən yenə qorxudan danışırsan, Səadət?

- Neynim?

- Neyniyəssən, saa demişəm mən nə qədər varam, sağam, sən bir olan Allahdan başqa heç nədən qorxma.

- Nə bilim! Sən dinc oturan döyülsən.

- Noolub e axı?

- Noolajaq, hiss eliyirəm toyumuzu ləngidirsən.

Nicat dinmədi.

- Özü də erməniyə görə. Mən bilirəm sən onu tutmaq, hayıfını almaq istiyirsən.

Nicat yenə dinmədi.

- Bax görürsən?! Mən də qorxuram.

- Sən heç nədən qorxma, başına dönüm.

Səadət yenə söhbəti davam etdirib Nicatı fikrindən daşındırmaq istədi.

- Bilirsən? Deyirlər arxası böyük yerdəndi. Adam öz başına hərəkət etmir. Elədiyi işlərin şəxsi ilə heç bir əlaqəsi yoxdu. Sən tək o boyda güc - qüvvənin qabağında neyniyəssən ki?

- Ay gözəlim, tək niyə oluram?! Sən belə işlərə görə fikir eləmə. Mən özüm bayaqdan sənə demək istəyirəm, imkan vermirsən.

Səadət nəsə xeyir xəbər alacağını düşünərək Nicatın gözlərinə baxdı.

- Evdə danışmışıq. İndi məhərrəmlik təzə girif. Çıxsın, anamgil elçilik üçün xəbər yollayacaq. Deyirəm, məsələni rəsmiləşdirək. Evdəkilərə xəbərdarlıq elə.

Səadət elə bil həyatının ən şad xəbərini almış kimi dilləndi:

- Şükür sənə İlahi!

- Amma xahiş edirəm, bir halda ki, bu axşam Allahın şahidliyi ilə öz aramızda "rəsmiləşdirdik", istəmirəm aramızda örtülü iş qalsın. Biləsən mən and içmişəm. Hayıfımı almayınca toydan danışmayacağıq.

Səadət Nicatın gözlərinə baxdı.

- Mən inanıram ki, onu tutmağıma az qalıb. Niyə belə əmin danışıram? Çünki bu artıq mənim həm də vəzifə borcumdu. Bilirəmqoruduğum müəllimin dalınca gələcəklər, özü də o gələcək.

Səadət heç nə demirdi.

- Sənlik olan dua etməkdi - deyə Nicat söhbəti bitirdi.

OOO

Səhər şehi qurumamış artıq biçin işinə başlanmışdı. Demək olar bütün camaat hamı kömək edirdi. Kişilər oraqla taxıl biçib yerə qoyur, arxadan gələn xanımlar dərz[1] bağlayıb kotman[2] düzəldirdilər. Sahədə işləyən at arabaları ilə kotmanları xırmana[3] daşıyırdılar. Elə biçinlə eyni vaxtda xırmanda vəl[4] sürürdülər. Dəni sünbüldən tez ayırsın deyə vəl üzərinə üstəlik on yaşa qədər olan uşaq otuzdururdular. Vəl qoşulmuş at sanki insan kimi işi bilirdi. Xırmanda dairəvi şəkildə cilovundan[5] tutmadan yol gedərək dəni sünbüldən ayırmaq üçün vəli dalınca sürüyürdü. Bu zaman atın yəhərini[6] və yüyənini[7] çıxarırdılar. Dən sünbüldən ayrılandan sonra sovurma işi başlayırdı. Meh əsməyə başlayan kimi iri kürəklərlə vəl işləmiş məhsulu yerdən götürüb havaya atırdılar. Samanla[8] qarışıq havaya qalxan məhsulu külək vuraraq samanı kənara aparır, yerə isə ancaq buğda dənələri tökülürdü. Beləcə dən sünbüldən ayrılırdı.

Ayrılmış buğdanı isə gecə şehi vurmasın deyə hamı torba və xarallara [9] yığıb anbarlara daşıyırdılar.

1 Dərz- sünbül dəstəsi.
2 Kotman - təxminən adam boyu hündürlükdə dərzlərin bir yerə toplanması.
3 Xırman - əkin sahələrinin içində yerləşən sərt düz torpaq yer. Burda dəni sünbüldən ayırırdılar.
4 Vəl - Yastı ağır enli taxtadan xizək formada alət. Onu ata iplə qoşub yerə sərilmiş sünbüllər üzəri ilə aparırdılar ki, dən sünbüldən ayrılsın.
5 Cilov- Yüyənin əllə tutulan hissəsi.
6 Yəhər - atı minmək üçün onun üstünə qoyulan oturacaq.
7 Yüyən (yaxud Noxta) - Atın başına keçirilən kəm və cilovdan ibarət qoşqu ləvazimatı.
8 Saman - buğda sünbülünün gövdəsi.
9 Xaral - böyük torba.

Özü taxıl əkə bilməyənlərə bu sahədə işlərinə görə ədalətlə, hətta artıqlaması ilə buğda payı ayrılırdı. Bundan başqa, Hüseynalı bəyin tapşırığı ilə işçi qüvvəsi olmayan, ehtiyacı olan ailələrin hamısına ehtiyacları qədər buğda payı ayrılırdı və evlərinə çatdırılırdı. Bütün bu işlərə Hüseynalı bəyin nəzarəti altında onun köməkçisi İbrahim başçılıq edirdi.

Bəy axşam həyətdə oturub çay içəndə bir atlı Əbdürrəhimbəyin sabah uyğundursa, görüşə gəlmək istəməsi xəbərini gətirdi. Hüseynalı bəy "Əbdürrəhim bəy nə zaman istərsə, gəlsin. Bu evin qapıları onun üzünə həmişə açıqdı" xəbərini göndərdi.

## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVLƏ SÖHBƏT

Səhərisi gün ən hörmətli qonaq qəbulu hazırlığı görülmüşdü. Vədələşdiyi vaxt Əbdürrəhim bəy kirayələdiyi faytonla Qiyaslıya gəldi. Hüseynalı bəy onu darvazada qarşıladı.

- Salamün əleyküm əziz dost, - deyə Əbdürrəhim bəy salamlaşdı.

- Və əleyküm salam, əziz qardaş. Nə yaxşı edib gəldin, ey xalqımın böyük oğlu! Sən öz gəlişinlə bu el-obanı, məni şərəfləndirdin.

Əbdürrəhim bəy Hüseynalı bəylə həmyaşıd bir elli idilər. Hər ikisi Qarabağlı olduğundan Tiflisdə müxtəlif məktəblərdə təhsil alsalar da, bir-biri ilə tanış olandan sonra tanışlığın dostluğa çevrilməsi çox qısa zamanda olmuşdu. Hüseynalı bəy Qori seminariyasında təhsil alanda Əbdürrəhim bəy Tiflis Realnı məktəbi təhsilini bitirmək üzərə idi. Bu məktəbində bitirəndən sonra Əbdürrəhim bəy ali təhsil almışdı. Bəlkədə, buna görə Hüseynalı bəy onu xalqımızın böyük oğlu adlandırmışdı.

- Bəy, belə deyib məni utandırmayın. Bu şərəfdən mənə də düşər, əziz dostum, - deyərək Əbdürrəhim bəy təvazökarlıqla cavab verdi.

Bəylər söhbətin sonrasına çay süfrəsi arxasında davam etdilər.

- Mən sənin ziyarətinə gələcəkdim, fikirləşdim, qoy bəy yerləşsin, rahatlaşsın sonra gəlib görərəm. Ancaq bizə bir buyruq eləmədiniz. Necə oldu, rahat yerləşə bildinizmi?

- Yerləşmişəm. Ağdam mənə uzaq yer deyil ki, ya Şuşa, ya Ağdam, nə fərqi var. Özün bilirsən, Şuşada, - Ağbulaqda

doğulsam da, uşaqlığımın yarısı Ağdamda keçib.

- Biliram.

- Səni bu biçin-yığım vaxtı təsərrüfatdan və məktəbdə verdiyin təhsildən ayırmaq istəmədim.

- Diqqətinə görə çox sağ ol. Ancaq sənin gördüyün ictimai işlərin yanında bu işlər çox balaca işlərdi.

- Niyə belə deyirsən, bəy? - deyərək Əbdürrəhim bəy Hüseynalı bəyin təkrar-təkrar onu öyməsini ədəbdən artıq olduğunu hiss edərək səbəbini onun dilindən eşitmək istədi.

- Niyə belə deməyim? Mənim nəzərimdə sizin bu xalqın maariflənməsi, savadlanması yolunda tutduğunuz mövqe məni çox valeh edir.

- Hüseynalı bəy, maşallah siz də boş dayanmamısınız. Məktəb tikdirmisiniz, bu məktəbdə dərs deyirsiniz, bir belə camaata nümunəsiniz.

- Dediklərin iz doğrudur. Ancaq miqyas baxımından mən hesab edirəm sizin fəaliyyətiniz çox təqdirəlayiqdir.

Hüseynalı bəy Əbdürrəhim bəyin diqqət kəsildiyini görüb fikrini dəqiqləşdirmək istədi.

- Mən sizin yaradıcılıq işlərinizi, yazdığınız əsərləri nəzərdə tuturam.

Əbdürrəhimbəy başını aşağı- yuxarı tərpədərək deyilən mövzu ilə həmfikir olduğunu göstərdi.

- Mən sizin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəricadu", əsərlərinizi oxumuşam. Öncədən deyim mənim çox xoşuma gəldi. Əsər yazıb yaratmaq, onu nəşr etdirmək, onun şəxsən tanımadığın adamlar tərəfindən oxunması, üstəlik səndən sonra gələcək nəsillərin oxuyub bəhrələnməsi çox böyük hadisədir. Bundan başqa, şifahi xalq ədəbiyyatı ilə yanaşı yazılı əsərlər millətin, xalqın varlığını təstiq edən sənədlərdir. Ana dilimizdə

yazılmış hər bir əsər bizim dünya xalqları arasında tutduğumuz yerin vəsiqəsidir.

- Tamamilə doğrudur, - deyə Əbdürrəhim bəy təsdiqlədi.

Sonra söhbət yemək süfrəsi ətrafında davam etdi. Həmişəki kimi ən hörmətli qonaq süfrəsi açılmışdı. Əbdürrəhim bəy söhbətə davam etdi:

- Bir dost kimi, bir böyük kimi yox, məni tanımayan bir oxucu kimi əsərlər barədə fikrinizi soruşsam, nə deyərdiniz?

- Əvvəla, verdiyiniz suala görə təşəkkür etmək istəyirəm. İstəyirdim bu sualı verəsiniz mən də öz fikrimi bildirim. Məncə, faciə janrı oxuculara yazıçının nəzərdə turduğu təsiri etmir. Fikrimi dəqiqləşdirim: Mən hesab edirəm yazıçı faciə əsəri yazan zaman nəzərində tutduğu odur: "Ey oxucum, yanlış tutduğunuz yollar sizi faciəyə aparır. Bundan nəticə çıxarın!" Deyilən fikir tamamilə həqiqətdir. Bu qayədə yazılan əsər, həqiqətən, böyük məna daşıyır. Bu belə olsa da, faciəni oxuyanların çox az hissəsi bunu belə başa düşür. Başa düşənlər o adamlardır kı, artıq bu tezisin bir həyat qaydası olduğunu bilirlər. Oxucuların qalan daha böyük qismi isə faciəni oxuyanda elə təəssürat yaranır ki, hər nə iş görsə, hansı yolu tutub yaşasa, sonu faciə olacaq. Bu təəssürat onlara ümidsizlik gətirir. Həyat eşqini azaldır. Əlbəttə yazıçı həyat həqiqətlərindən yazır. Həqiqətən, yanlış tutulmuş yol insanı faciəyə aparır. Ancaq bu bir həqiqətdir belə əsərlər onu oxuyan oxucuların böyük əksəriyyətində yazıçının nəzərdə tutduğu təəssüratı yaratmır.

Əbdürrəhim bəy diqqətlə qulaq asırdı. Hüseynalı bəy sözünə ara versə də, həmsöhbətinin ona bu mövzuda yenə qulaq asmaq istəyini hiss edərək davam etdi.

- Hər halda bir daha demək istəyirəm əsər yazmaq hər adamın işi deyil. Əsər yazanlar Quranımızın "Vaqiə" surəsinin

ayələrində deyildiyi kimi:

Siz (ey insanlar) üç zümrəyə ayrılacaqsınız.

Sağ tətəf sahibləri (əməl dəftəri sağ əllərinə verilənlər). Kimdir o sağ tərəf sahibləri? (nə uğurludur onlar)

Sol tərəf sahibləri (əməl dəftəri sol əllərinə verilənlər). Kimdir o sol tərəf sahibləri? (nə uğursuzdur onlar)

Və öndə olanlar. Onlar (dünyada, Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də öndədirlər (Nə xoşbəxtdir onlar)

Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir.

- Bu baxımdan sizi öndə gedənlərdən hesab etdiyim üçün mənim sizə necə əsər yazmaq lazım olduğunu desəm, həddimi aşmış olaram. Əgər mənim nə zamansa övladlarımdan, nəvələrimdən, hətta nəticələrimdən hansısa biri əsər yazmaq istəsə, ona tövsiyə edərdim ki, faciəyə aparan yollardan başqa daha çox rifaha aparan, inkişafa aparan yollardan yazsın. Yəni yanlış yollar faciəyə aparır. Bəs doğru yollar, rifaha aparan yollar hansılardı? Həyatda necə yaşamaq lazımdı ki, yaşadığı zaman el-oba gözündə, ölümündən sonra zamanın gözündə "Nümunəvi insan" olsun. Sağlığında ətrafının böyük əksəriyyəti, ölümündən sonra xalqı, camaatı ona rəğbət bəsləsin, xatirəsini hörmətlə ansınlar.

- Əlbəttə, Əlbəttə - deyə Əbdürrəhim bəy həmsöhbətini fikrini təstiqlədi.

Bəylər artıq yeməkdən sonra hazırlanmış çay süfrəsi ətrafında əyləşmişdilər.

- Sizdə olan bütün insani keyfiyyətlərlə yanaşı bu qədər yüksək ədəb - əxlaqınıza və insana bu formada yanaşmağınıza

görə əminəm ki, elə sizin haqqınızda da xalq, camaat, gələcək nəsillər rəğbətlə danışacaqlar.

- Əbdürrəhim bəy, siz daha çox müxtəlif yerlərdə çalışırsınız. Xahiş edirəm, məni agah edin son zamanlar nə baş verir?

- Dəqiq nəyi nəzərdə tutursunuz?

- Ən əsası bu erməni məsələsini. Son illər bunlar özlərinə oxşamırlar. Hər oyundan çıxmaqları bir yana, daha çox cəsarətləniblər. Kimlərdənsə dəstək almaqdan artıq, elə bil dəstək verən bunların iş görmək, təxribat yaratmaqdan çox, cəsarətli olmalarını istəyir. Bakıdan cürbəcür xəbərlər gəlir. Axı bu məsələdə olan böyük maraq nədən ibarətdi, sizcə?

- Hüseynalı bəy lap düz başa düşmüsünuz. Bunların arxasında duran Çar hökuməti ermənilərin burada cəsarətli olmasını, bir millət kimi formalaşmasını istəyir. Əsas məqsədi deməmişdən qabaq, adı xatırımdan çıxdı. Bir xristian yazıçı sosioloq alimin dediyi sözləri qoy sənə deyim. O, belə deyir ki: "Ermənilər sağ qalmaları üçün öz qadınlarını digər xalqlara satan ilk millətdir". Bilirsən, bu, doğrudan da, belədir. Yəni belə dəyərsiz, keyfiyyətsiz olduqlarına görə təxribatlar törətməkdən çox bir millət kimi formalaşmaqda cəsarətlənmək lazımdı. Daha dəqiq desək, arxasında duranlara bunların bir millət kimi formalaşması lazımdı. İndi mən sənə deyim, niyə belə lazımdı. Bir təxribatı, adam öldürməni, tarla yandırmanı hər hansı axmaq adam, yaxud bir cinayətkar adam törədə bilər. Ancaq bu təxribatları hansısa millət edəndə məsələnin məğzi tamamilə dəyişir. Yəni törədilən cinayət bir məişət səviyyəsindən millət səviyyəsinə qalxır. Erməniləri idarə edənlərə bu lazımdı. Daha dərinə getsək - hökumət ucqarları idarə edə bilmir və münaqışələr yaranır. Bu səbəbdən olan münaqişələrə erməni-müsəlman münaqişəsi donu geyindirməyə çalışır. Mən deyərdim buna müəyyən dərəcədə

nail olaraq diqqəti hakimiyyətdən yayındıra bilir. Hesab edirəm, bu proses get-gedə daha çox dərinləşəcək.

Hüseynalı bəy "daha da dərinləşəcək" fikrini eşidən kimi Əbdürrəhim bəyin üzünə baxaraq ona daha çox diqqət kəsildi. Bu baxışlarla mövzuya sona qədər dinləmək arzusunu bildirdi.

- Əlbəttə dərinləşəcək, -deyə Əbdürrəhim bəy sözunə davam etdi. Məncə, bu bir həyat qanunauyğunluğudu. Fikrimi belə ifadə etməyə çalışım ki, Azərbaycanı bir çox dövlət işğal etmək, ona bir ərazi kimi nəzarət etmək istəyir. Bu, Azərbaycanımızın coğrafi mövqeyinə görə ola bilər. Üstəlik Azərbaycanımızda coğrafi mövqe faktorundan, bəlkə də, daha üstün olan bir faktor da var. Bu buranın "Neft və milyonlar səltənəti" olmasıdı. Bu baxımdan ehtimal edirəm məsələ dərinləşəcək.

- Bəs nə etməli, necə yol tutmalıyıq?

- Vəziyyət belə olduqda öz vətənimizə sahib çıxmaq üçün sadəcə onu sevmək bəs etmir. Bütün dövlətlər kimi Azərbaycanın gücü onun vətəndaşlarının gücüdü. Vətənimiz dünyanın əhəmiyyətsiz ucqarlarında, şoran torpaqlardan ibarət bir düzəngah ərazidə yerləşsə idi, məsələ başqa cür olardı. Ancaq biz belə yerdə olmadığımıza və torpağımızın altı da,üstü də qızıl olduğundan ona sahib çıxmaq üçün, onu idarə etmək üçün - onu həqiqətən sevən vətəndaşların, tutarlı elmi də olmalıdı. Gərəkli sahədə elmə sahib olmadan, mən xalqımızı, camaatımızı nəzərdə tuturam. Bu qədər böyük maliyyə dövriyyəsini xalqın xeyrinə necə işlətmək olar? Ətrafda olan bu qədər böyük dövlətlərin marağını necə tarazlaşdırmaq olar? Buna nail olmaq üçün camaatımız arasında elmə, kitaba marağı artırmaq lazımdı. Elmli, savadlı, vətənini sevən insanların sayını çoxaltmağa nail olmaq lazımdı ki, bu insanlar içərisində vacib sahələri idarə edə biləcək adamlar yetişsin - maliyyədən,

siyasətdən tutmuş hərb sahələrinə qədər.

Hüseynalı bəy başını aşağı-yuxarı tərpədərək deyilənlərlə tamamilə razı olduğunu bildirirdi.

- Elə özüm məhz buna görə bu gün Qarabağdayam. Mən bilirəm siz də bu yola inanır və əməli fəaliyyətdəsiniz. Məktəb tikdirərək xalqın övladlarına elm öyrətmək işində birbaşa iştirak edirsiniz.

- Doğrudanda elmin, elm adamlarının qiyməti Quranımızda dəqiq bildirilib, - deyərək Hüseynalı bəy söhbəti davam etdirdi və ayağa qalxıb rəfdən müqəddəs Quranı götürüb yenidən yerində əyləşdi. Kitabı açmağa başladı. “Ali İmran” surəsi 7-ci ayədə çox gözəl aydın deyilir. Geniş olduğu üçün istədim üzündən oxuyum daha dəqiq olsun.

Bəy sözünü bitirincə artıq həmin ayənin olduğu səhifəni açmışdı və oxumağa başladı.

- (Ya Rəsulum) Sənə kitabı (Quranı) nazil edən odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih ( çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi mə’na vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahda və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: “Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır”, - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər.

Bəylər gecəyarıya qədər söhbətlərini davam etdirdilər.

Əbdürrəhim bəyin Ağdama gəlib yerləşməsindən və görüş zamanı onun söhbətlərindən Hüseynalı bəy bir daha əmin oldu

ki, bu erməni namərdlərinin baş qaldırması kənd, qəza, hətta vilayət səviyyəsində olan iş deyil. Bu, ölkə, bəlkə də, dünya miqyaslı bir hərəkatdı. Çünki həmin dövrlərdə İtaliya kimi böyük dövlətlər bir-birilərinə müharibə notaları göndərməsi xəbərləri eşidilirdi. Texniki tərəqqinin, məlumatlanmanın bu vaxtkı dövründə taxıl sahələrinin yandırılması, adam öldürülməsi, quldurluq edib yol kəsilməsi kimi və sair cinayətlərin dünya miqyasında olmasını camaata anladıb qəbul edilməsi, yaxud Rusiya Avstriya-Macarıstan, Almaniya dövlətlərinin marağına camaat tərəfdən düzgün qiymət qoyulması o qədər də asan iş deyildi. Bu təlatümlü hadisələrə rəğmən xalq öz həyatını yaşamalı idi.

OOO

Məhz belə günlərin birində sevdalılar Nicatla Səadət vüsala bir az yaxınlaşmışdılar. Artıq elçilik edilmiş, sonra ağsaqqalların iştirakı ilə "Hə" alınmışdı. Bu gün isə nişan günü idi. Qədimdən milli adətimizə görə qız evində- Rəşid bəyin həyətində mağar qurulmuş, heyvanlar kəsilmiş və 100 nəfərdən çox qonaq üçün süfrə açılmışdı. Məclisdə, əsasən, xanımlar iştirak edirdi, çünki adət belə idi. Gəlinin adına bağlanmış xonçaları bəyin qohumu olan qızlar götürərək qonaqlarla birgə qız evinə gətirirlər. Beləliklə, nişan məclisi başlayır. Xonçaların içində şirniyyat və geyim hədiyyələri olur. Geyimlər gəlin, gəlinin anası, bacısı və digər yaxın xanım ailə üzvlərinə gətirilir. Xonçaların arasında ən kiçiyi əsas olur, çünki bu xonçada nişan üzükləri olur. Hədiyyələr təqdim olunur. Sonra gənclərin təşkil etdiyi xanım musiqiçilərin müşaiəti ilə şənlik başlayır. Həmişəki kimi nişan məclisi xanımların və gənclərin iştirak etdiyi el şənliyinə

çevrilir.

Həmin günün ən xoşbəxt gəncləri isə Nicatla Səadət idi. Onların özləri yerdə, ruhları isə göydə idi. Səadət Nicatın qisasını almayınca toy etməyəcəyi barədə fikrini bilsə də, artıq onun üçün toyun vaxtının az əhəmiyyəti vardı. Deyirdi: - "məsələ rəsmiləşəndən sonra lap ölüncə mən Nicatı gözləyərəm. Əsl kişi sözünün üstündə duran kişidi. Qoy Allah nəyi məsləhət bilirsə, onu qismət etsin"

## DÜNYA MÜHARİBƏSİ və AZƏRBAYCAN

Nişandan təxminən iki həftə sonra yaylaqdakı mal-qara hissə-hissə gəlməyə başladı. Sürüləri təhlükəsiz gətirmək üçün dağa yollanmış Səfər özü ilə xəbər gətirmişdi.

- Söylə görüm nə xəbərdi, vəziyyət necədi? - deyə Hüseynalı bəy Səfərlə salamlaşandan sonra soruşdu.

- Bəy, vəziyyət ayrı cürdü. Biz orda olanda xəbər gəldi ki, "Zülfüqarlı istisuyu" yaylağında ermənilər bir sürüyə əməlli başlı silahlı basqın ediblər. Çobanlardan birini öldürüblər, ikisini ağır yaralayıblar. Sürünün üçdə ikisini, iribuynuzlu heyvanların hamısını aparıblar.

- Aparan adamlar neçə nəfər olublar?

- Elə onu demək istəyirdim. Heyvan aparanlar o qədər təşkil edilmiş və sayları o qədər çox imiş ki, bu bildiyimiz heyvan oğurluğu üçün basqın deyilmiş, sanki bir "otryad" (Otryad - Rus ordusunda konkret tapşırıqları həyata keçirmək üçün yaradılmış hərbi birləşmə) adam hərbi əməliyyat keçirir. Gələndə ehtiyatımızı əldən vermədik. Hücum gözləyirmiş kimi əlimiz tətikdə idi.

- Hmm... Di dayanmayın, sabah səhər tezdən tərpənirsiniz Əsgərana, ordan Xankəndinə, ordan da Şuşaya. Vəziyyətlə bağlı mənə məlumat gətirirsiniz.

OOO

Üç gün keçmiş Səfər qayıdıb gəldi. Qiyaslıya çatanda bəy məktəbdə dərsdə idi. Dərs qurtaran kimi Səfəri yanına çağırıb

soruşdu.

- Danış görüm, bala.

- Bəy, yuxarıda - Qarabağda vəziyyət lap betərdi. Ermənilər göz-görəti ayaqlanıblar. Xankəndində bir kəndi, Şuşada iki kəndi evləri ilə birlikdə yandırıblar, camaatı qırıblar.

- Dava necə başlayıb, bəhanələri nə olub?

- Hər iki hadisədə eyni qurama qurublar. Əvvəlcə həmin kəndlərə köçüb gələn ermənilərdən xəlvətcə öldürüblər. Sonra adını qoyuflar ki, guya müsəlmanlar erməniləri qırırlar.

- Bəs hökumət nə mövqedədi?

- Hökumət qorodovoyları qırğın törədən, kəndi yandıranları yox, əvvəl "öldürülən erməniləri siz öldürmüsünüz" deyib bir neçə azərbaycanlı gənci tutub salıblar qazamata. Şahidliyə məsələyə dəxli olmayan, aidiyyəti olmayan ermənilər çağrılır. Bizim camaatı heç dinləyən, adam yerinə qoyan yoxdu.

- Aydındı. Burda uşaqların hamısına xəbər ver: Bəy tapşırdı ki, diqqəti artırsınlar. Buralarda hər hansı hadisənin baş verməsini istəmirəm. İbrahimə de gəlsin məni görsün.

- Baş üstə bəy, - deyib Səfər ayrıldı.

Hüseynalı bəy məktəbdən evə gələndən bir az keçmiş İbrahim gəlib çıxdı. Salamlaşdıqdan sonra:

- İbrahim, vəziyyət gərgindi, - deyə sözə başladı. İstəyirəm, sabah kənddə bəylərin hamısını görəsən. İsmarıcımı çatdırasan sabah günorta namazında hamı məsciddə olsun. Namazdan sonra görüşək, məsləhətləşək. Elə sən də orda olarsan.

- Baş üstə bəy, - deyərək İbrahim ordan ayrıldı.

Səhərisi gün Hüseynalı bəylə bərabər, digər bəylər də günorta namazında idilər. Namazdan sonra onlar məscidin həyətində toplaşdılar. Molla Mürsəl, Kərbəlayi İsmayil və başqa kənd ağsaqqalları da burda idi.

- Hörmətli ağsaqqallar, bəylər sizinlə görüşməkdə məqsədim bu erməni məsələsini danışmaqdı. İstədim sizlərlə olanlar barədə danışaq. Vəziyyətə qiymət verək.

Hüseynalı bəyin sözünə ara verdiyini düşünərək Rəşid bəy həmişəki xasiyyətinə uyğun olaraq çılğınlıqla sözə başladı.

- Əşi sən Allah ermənilər nə vaxtdan adam olublar, hələ onların məsələsini danışaq?! Biqeyrət, binamusların özləri nədi gücləri nə ola?

- Rəşid bəy, nəyi nəzərdə tutduğunuzu yaxşı başa düşürəm, - deyə Hüseynalı bəy sözünə davam etdi. Bəylər, ağsaqqallar içərinizdə Rəşid bəy kimi düşünənlərə və ümumiyyətlə, hamıya fikrimi bildirmək istəyirəm ki, bu nakəslərin qüvvəsi elə biqeyrətliyində, binamusluğundadı və son vaxtlar bu qüvvəni bütün camaatımıza qarşı nümayiş etdirirlər. Gələn xəbərlərdən siz halısınız.

Hamı diqqətlə qulaq asırdı.

- Onlar heç özlərinə oxşamırlar. Açıq-aydın görünür nə göstərdikləri cəsarət bunlara xas deyil, nə də qurduqları planlar bunların ağıllarının məhsulu deyil. Fakt budur ki, bunlar fəaliyyətdədirlər. Fikrimcə, camaat təhlükədədi.

Təklifim və sözüm ondan ibarətdir ki, bu vəziyyətə hamılıqla çox ciddi yanaşaq. Ağzıbir olub camaatı qoruyaq. Hamımız eşidirik, cürbəcür xəbərlər gəlir. Dünyada, ümumiyyətlə, vəziyyət qarışıqdı. Sözümün qısası budu el misalı var deyirlər: “İşini etibarlı tut ki, qonşunu oğru bilməyəsən”.

Hüseynalı bəy fikrini tamamladıqdan sonra söhbətdə iştirak edənlərin əksəriyyəti deyilən mülahizələrlə tamamilə razı olduqlarını bildirdilər. Bəzi həmsöhbətlər isə əvvəlki fikirlərində qalaraq ermənilərin hərəkətlərinin o qədər ciddiyə almağı doğru hesab etmədilər. Fikir müxtəlifliyinə baxmayaraq,

Hüseynalı bəyin rica etməsilə təhlükəsizlik baxımından bir neçə işlərin görülməsi qərarlaşdırıldı.

OOO

Qiyaslıda, Ağdamda, Qarabağda bu hadisələr, qayğılar olan günlərdə Avropada dünya miqyasında bütün insanlığın tarixinə təsir edəcək hadisələr baş verirdi. XIII əsrin sonunda yaranmış və XV əsrin əvvəllərində imperiyaya çevrilmiş Böyük Osmanlı İmperiyasına İtalya dövləti tərəfindən 1911 ci ildə müharibə elan edildi. Qısa vaxt ərzində Tripoloni və Dotekanis adalarını işğal etdilər. Başverən hadisələrin xəbərini əhali o vaxtlar məşhur olan qəzetlərdən alırdılar. XX əsrin əvvəllərində daha dəqiq desək, 1898-ci ildə Qafqazda nəşr olunan 40-dan çox dövri nəşrdən cəmi 5-i Bakının payına düşürdü. Bu vaxtlar belə vəziyyət idi ki, əgər gürcü və erməni dillərində 13 mətbuat orqanı çıxırdısa, Azərbaycan dilində milli ziyalıların bu istiqamətdə çalışmalarına baxmayaraq, heç bir mətbuat orqanı yox idi. Yalnız 1903-cü ildə Tiflis şəhərində Qafqazda yeganə qəzet -“Şərqi-Rus” çıxmağa başladı.

1905-1907-ci illər inqilabı mətbuatın inkişafı sahəsində çarizmi müəyyən güzəştlərə getməyə məcbur etdi. Həmin illərdə Bakıda, Azəebaycanda 11 yeni mətbuat orqanı meydana çəxdı Onların əksəriyyəti Bakıda qalanları isə Gəncə və Şuşada nəşr edilirdi. Bu nəşrlərdən aparıcı mətbuat orqanları “Yeni Həyat”, “Tərəqqi”, İttifaq”, “Həqiqət”, “İqbal” və başqa qəzetlər idi.

Az bir vaxtda qəsetlər avropada daha bir müharibənin başlanması barədə xəbərlər yaydılar. Gələn xəbərlərə görə Bolqarıstan, Serbiya və Yunanıstan Osmanlı İmperiyasına qarşı

oz qüvvələrini birləşdirmişlər. Onlar Osmanlı ərazisindəki bəzi əraziləri işğal etməyə umid edirdilər. Müharibə (Birinci Balkan müharibəsi) Azərbaycandan kənarda olsa da, hansısa kiçik bir ərazi üstündə iki tərəfin münaqişəsinə bənzəmirdi. Bəlkədə bu müharibədə iştirak edən tərəflərdən birinin Böyük Osmanlı İmperiyası olması ilə əlaqədar idi. Belə ki, bu ərəfədə dünyaca böyük dövlətlərdə - İngiltərədə, Fransada, Almaniyada və o cümlədən Azərbaycanın tərkibində olduğu Car Rusiyasında böyük miqyasda səfərbərliyə bənzər hazırlıqlar gedirdi. Belə hazırlıqlarsa dövlətin Azəerbaycan kimi ucqarlarında nəzarət və asayişin zəifləməsi, başda erməni özbaşınalığı və təxribatları olmaqla oğurluq və quldurluq hadisələrinin artması ilə müşahidə olunurdu. Elə həmin günlərdə Hüseynalı bəy İbrahimlə bu xəbərləri müzakirə edərək təhlükəsizlik barədə diqqətin artırılmasını bir daha tapşıranda Səfər onlara yaxınlaşıb xəbər gətirdiyini bildirdi.

- Gəl Səfər, - deyərək Hüseynalı bəy məktəbin yanındakı tut ağacının dibində durduqları yerə Səfərin yaxınlaşmasını istədi.

- Salamun Əleyküm bəy.

- Əleykum Salam Səfər

İbrahim başını yellədərək Səfərlə salamlaşdı.

- Danış görüm nə xəbər var səhər-səhər?

- Bəy, Gecə səhərə yaxın Sarallıqolda oğurluq eləmək istəyiblər. İstəyiblər deyəndə ki, oğurluq eləyiblər.

- Səfər, bir danış görüm aparmaq istədikləri şeyi aparıblar, yoxsa aparmayıblar.

- Bəy aparıblar da, qaytarıblar da.

Bəylə İbrahim Səfərə diqqət kəsildilər ki, bu nə danışır

- Ə bir dəqiq danış görək hadisə nə təhər olub? - deyə İbrahim sual elədi.

- Gecə səhərə yaxın Sarallı məhləsində Kərbəlayi İsmailin həyətinə oğru girib. Hənirtiyə kişinin gənc oğlu Səlim durub. Qulaq asanda görür tövlədə adam var. Əvvəlcə istəyib səs-küy edib camaatı qaldırsın, sonra fikrindən daşınıb.

- Bə nağayrıbə... bu? - deyə İbrahim yenə dilləndi.

- Nağayrajax. Onun qeyrətli, mərd başına dönüm. Qərara alıb ki, səs eləsəm, oğrular qaçacaq, biz də bilməyəcəyik bunlar kimdi. Eləmə tənbəllik, oğruları heyvanlarla buraxıb, özü də düşüb bunların dalınca. Xəlvətcə güdə-güdə dallarınca gedib görsün bunlar kimdi və heyvanları hara, hansı həyətə salacaqlar.

- Hə, kimlər imiş, hara aparıblar heyvanları, xəbər gətirə bilib? - deyə İbrahim özünü maraqdan saxlaya bilməyib soruşdu.

- Əşi nəinki xəbər, gözünə döndüyüm məsələni yerində özü həll eləyib. Xəbər də gətirib, heyvanları da. Heyvanları aparan iki erməni dığası imiş. Heyvanları Kolanıda həyətdəki tövləyə salanda gözünə döndüyüm Səlim çıxıb ki, "Ə bəri gəlin görum siz kimsiniz? Nə cəsarətlə Qiyasdıya oğurluğa gəlmisiniz?" deyəndə namərdlər ikisi də xəncər çəkiblər Səlimin üstünə ki, cavandı, qorxuzsunlar. Nə qorxmaq, Səlimin də əlində gödərək əl ağacı. Birinci Səlim cumub yaxında duranın üstünə. Ağacı qaldırıb göyə. Ağaca baxaraq fikri yayınan ermənininin qarnına bir təpik. Bu erməni "bu il ömüsən, bildir ölmüsən" tirtap uzanıb yerdə qıvrılmış qalanda, o birisi xəncər çalıb. Səlim qolunu qabağa verəndə xəncər sol qolunu yaralıyıb. Səlim özünü itirməyib, tərsinə fırlanıb bu biri ermənininin topuğuna bir ağac. Bu da öldüm deyib topuğunu tutub yerə səriləndə, Səlim "nə yemisən turşulu aş" əlindəki ağacla bunların ikisini də yaxşıca "buduyub" (buduyub - yəni el dilində yaxşıca döyüb). Sonra qollarını, qılçalarını heyvanın bağazına bağladıqları kəndirlə sarıyıb, aparıb tullayıb onların tövlələsinə. Heyvanları qatıb

qabağına gətirib.

- Əhsən sənin başına dönüm - deyərək İbrahim yenə özünü saxlaya bilmədi.

- Yarası necədi? Hüseynalı bəy təmkinlə soruşdu.

- Şükür, bəy, yarası dirsəyindən aşağı hissədədi. Xəncər dirsək sümüyünə dəyib, yara o qədər dərin, qorxulu deyilmiş.

- Bəs bunlar - adamlar deməyə dilim gəlmir, kimlər imiş?

- Bəy, evin səmtinə görə soruşdurdum dedilər iki - üç il bundan qabaq yazıq sifəti ilə kəndə köçən ermənilər imiş.

- Aydındı. Əhsən olsun! Gəncimiz lazım olan mərdliyi göstərib, maşallah. İbrahim ancaq iş bitməyib. Təhlükəsizlik məsələsinə daha çox diqqət ayırmalıyıq deyəndə mən bu vəziyyəti düşünüb deyirdim. Bax görürsən, bu günə qədərki tədbirlərimizə görə bizim obada bir hadisə baş vermirdi. İndi oğurluqla başlayıb bizi yoxlayırlar, necə deyərlər? “dişlərinə vururlar”. Ona görə də diqqəti, sayıqlığı bir az da artırmalıyıq.

Ustəlik bu məsələilə əlaqədar durub gedərsən Kolanıya. Həm bu hadisəni anladarsan, qoy bilsinləryazıq bilib yerləşdirdikləri ermənilər nə yuvanın quşudu, Belə məsələlərin miqyasının daha böyük olduğunu kəndin ağsaqqallarına anladarsan.

OOO

Həmin günlərdən az vaxt keçmiş qəsetlər daha bir müharibənin başlanması barədə xəbər yaydılar. Bundan əvvəlki birinci Balkan müharibəsində Osmanlı İmperiyası məğlub edilmişdi. Lakin Serbiyanın güzəştə getməsinə ümid edən bolqarlar Makedoniyanı ələ keçirməyi iddia edirdilər. Bu səbəbdən Balkan müharibəsindən sonra 1913 - cü ildə ikinci

Balkan müharibəsi baş verdi. Bu dəfə Serbiya, Yunanıstan, Rumıniya və Osmanlı İmperiyası birlik yaradıb Bolqarıstan üzərinə hücuma başladılar. Bu müharibənin ilk günlərindən birlik dövlətləri Bolqarıstanı sıxışdırmağa başlamışdılar. İkinci Balkan müharibəsinin bu cür inkişafıdigər böyük imperiya dövlətlərini daha çox hazırlıq vəziyyətinə gətirdi. Çar Rusiyasında bu hazırlıq 1905-1907-ci illər inqilabı ilə əlaqədar olaraq hərbi hazırlıqlarla bərabər, öz daxilində potensial inqilabçı hesab etdiyi adamların təmizlənməsi istiqamətində də gedirdi. Hökumət bir tərəfdən silah istehsal edən zavodları gücləndirir, digər tərəfdən xüsusi idarələrə 1905-1907-ci illər inqilabında adları hallanan adamların tutulması yaxud məhv edilməsi tapşırığı verilmişdi. Bu minvalla buralardakı ermənilər öz hörmətlərini qaldırmaq məqsədi ilə bu istiqamətdə çox canfəşanlıq etməyə başlamışdılar. Hörmət və vəzifə eşqinə susamış ermənilər burda təhlükısizlik tədbirlərinin artırıldığını bilə- bilə riskə gedirdilər.

## QİSAS ALINDI İNDİ TOY ETMƏK OLAR.

Gecə səhərə yaxın idi, İbrahim Nicatı yoxlamaq üçün onun yanına - müəllimin qaldığı evi gözətlədiyi yerə gəldi. O, bura çatanda Nicat İbrahim kişinin gəldiyi tərəfdən əks istiqaməti dinşəyirdi. Nicat onu görən kimi sol əlinin baş barmağını öz dodaqlarının üstünə qoyaraq - səs çıxarmamağı işarə elədi. Həmin istiqamətə İbrahim də sakitcə diqqət kəsildi. Müəllim D.Kliçkonun olduğu evin ətrafında bir hənirti, hərəkət olduğunu o da duydu. Hər ikisi dayanıb səs gələn tərəfi dinləməyə başladılar. Əllərindəki silahları ayağa vermişdilər. Hənirti get-gedə yaxınlaşırdı. Evin lap yaxınlığında yarpaqların çox yavaş xışıltısını eşidən kimi Nicat səsləndi:

- Kimsən ayə?

Ətraf bütün sakitliyə büründü. Bir anlıq sükut ən güclü səs kimi adamın qulaqlarında uğuldadı. Nicat bu dəfə daha hirslə və amiranə səsləndi:

- Ə bura gəl demirəm saa?!

Həyətə girənlər Hüseynalı bəyin saxlatdığı böyük itləri xəlvət adlaya biləcək qədər peşəkar çölçü olsalar da, burda olanların özlərindən daha fərasətli olduğunu görüb uz tutdular qaçmağa. Həyətin hənirti gələn tərəfdən xışıltı səsi daha çox gəlməyə başladı. Bu dəmdə itlər hurüşməyə başladı. Səs get-gedə uzaqlaşırdı. Nicat səs gələn tərəfə bir atəş açdı.

- Ə qaranlıqda görmədiyin şeyə niyə güllə atırsan?-deyə İbrahim Nicatın hərəkətini anlamaq istədi.

- Mən bildim onlar kimdi. Qəsdən yaylım atəşi açdım qoy elə bilsinlər dallarınca gəlmiyəcəklər. Bu yüz faiz erməni Arsen əclafdı. Gedirəm onları qabaqlayam.

- Gəl bir yerdə gedək, bala, onlar, deyəsən, çoxdular. Güllə səsinə artıq Səfər gəlib buranı tutar. Di tez tərpən gedək.

İbrahimlə Nicat kəndin ayağında Alışan təpəsinin yanından keçən dərənin çıxacağında pusquya durdular. Artıq səhər yavaş-yavaş açılmağa başlayırdı. Basqıya gələnlərin üçü də arxalarınca gələnin olmadığına əmin idilər. Dərənin içinə girəndən atlarını asta, arxayın sürürdülər. Nicat təxminində aldanmamışdı. Bunlar biri Arsen olmaqla hər üçü kəhrizin başında Nicata güllə atanlar idi. Yaxınlaşanda Nicat gizləndiyi yerdən tək çıxıb gələnlərin qabağını kəsdi. Əvvəlcə İbrahimə elə gəldi Nicat həyəcanlıdı və emosiya ilə hərəkət edir. Ancaq baxanda gördü əksinə, Nicat tamamilə soyuqqanlıdı və nə etdiyini bilir. Atlilar Nicatı görən kimi dayandılar. Nicat bu dəfə də silahı əlinə almamışdı.

- Düşün atdan görüm ə... -deyə soyuqanlıqla əmr etdi.

Nicatın cəsarətlə qabağa tək çıxması bunları çaşdırmışdı. Heç bir şey demirdilər. Çaşqınlıqla bərabər, qorxu içində olan ermənilərdən biri yavaşca əlini silaha atmaq istəyəndə İbrahim kişi pusquda dirduğu yerdə tüfəngini ayağa verdi. Şaqqıltı səsi səhərin çöl sükutunda ətrafa yayıldı. Bu səsi eşidəndən sonra onsuzda qorxan və Nicatın hərəkətindən özünü itirən ermənilər tez əmrə tabe olaraq atdan endilər.

- Bura gəlin görüm ə...- deyə Nicat yenə əmr etdi.

Öldürüləcəklərindən qorxaraq tez bütün silahlarını heç bir söz demədən yerə atdılar. Bunların nə hərəkət etmələrindən asili olmayaraq, Nicat əvvəlcədən nəzərində nə tutmuşdusa, onu elədi. Əvvəlcə bunların hər üçünü yaxşıca döydü. Döyəndən sonra əvvəl bir-bir ayrılıqda əllərini bağladı sonra üçünündə əllərinin hamısını bir yerə bağladı xəncəri çıxartdı. Bir belə döyülməyinə baxmayaraq, Nicatın hirsinin yatmadığını görən Arsen zarıyaraq yalvarmağa başladı.

- Ara bizi öldürmə qulun, kölən olum.

- Ə sən nə adamsan ki, səni oldürməyi layiq görüm?! Namərd, arxadan vuran it kopək uşağı! Sən olsan-olsan kiminsə qapısının iti olabilərsən. Bizlərdə iti oldürmək yoxdu. Qulağını kəsmək var. Deyib üçünün də qulağını kəsdi. Sizləri bir də bu həndəvərdə görsəm, harda olmağınızdan asılı olmayaraq, tutub sizi bundan betər günə salacam, binamusun törəmələri.

Nicat erməniləri zarıya-zarıya qoyub atlarını və silahlarını götürüb dərədən çıxdı.

Səhərisi gün gecə kənddə olan atışma səsi ilə maraqlanaraq hamı Nicatın qisasi barədə xəbər tutdu. Xəbər tezliklə bütün el-obaya yayıldı. Hamı onu qəhrəman hesab edirdi. Kim olsa, belə edərdi, yaxud belə etməlidir deyilməsinə baxmayaraq, hamı Nicatın fərasətinə, cəsarətinə və səbirinə heyran qalmışdı.

Nicat toyun dəqiq vaxtını boynuna almasa da, başa düşənlər bilirdi ki, nişandan keçən xeyli vaxt ərzində toyu ancaq almaq istədiyi intiqama görə ləngidir. Məlum hadisədən sonra Nicatın toy hazırlığına başladılar.

Çox keçmədi kənddə toy büsatı quruldu. Kəmləşmə (Kəmləşmə - toy xərci barədə qudalar arasında razılaşma) yığıncağından başlayan toy hərəkatı cehizin gətirilməsi ilə davam etdi. El adətinə uyğun bütün toy ənənəsi həyata keçirildikdən sonra Uç gün toy çalındı. Bu toy sanki həmişəki toylardan daha şurlu keçirdi. Nicatın toyuna Hüseynalı bəyin hədiyyəsi olaraq



***Cabbar Qaryağdıoğlu, Qurban Pirimov və Saşa Aqanazaşvili üçlüyü***

nəinki Qarabağda, hətta bütün Azərbaycanda ən məşhur muğam xanəndəsi Cabbar Qaryağdıoğlu öz dəstəsi ilə usta tarzən Qurban Pirimov və kamançaçı Saşa Aqanazaşvili dəvət olunmuşdu. Bu böyük muğam üçlüyünü dinləmək üçün Hüseynalı bəyin və Rəşid bəyin dostları Ağdamdan və Qarabağın başqa obalarından təşrif buyurmuşdular.

Toydan xeyli keçməsinə baxmayaraq, məşhur üçlüyün iştirak etdiyi bu məclisin səsi-sorağı bütün Qarabağa yayılmışdı. Sədanın belə çox yayılmasının səbəbi daha çox Nicatın intiqamını aldıqdan sonra toy etməsi idi. Xalq həmişə belə oğullarını təqdir edib. Bu soraq istər-istəməz ermənilərə gedib çatmışdı. Yəni Nicat onların Qarabağda fəallıq edən adamlarının qulaqlarını kəsmişdi. Elə hökumət də məsələdən xəbərdar idi. Ancaq belə bir iş üstündə rəsmən cinayət işi açıb həbs qərarı çıxartmaq istəmirdilər. Buna baxmayaraq, nəinki Qarabağda bütün Azərbaycanda gərginlik idi.

OOO

İsti yay günləri keçirdi. Huseynali bəy dərsə başlamaq üçün məktəbə daxil olmaq istəyində İbrahim kişi əlində qəzet həyətə daxil oldu.

- O nə qəzetdi elə, İbrahim? -deyərək səsləndi, İbrahimin qəzet gətirməsi bəyin diqqətindən qaçmadı.

- Bəy, qəzetdə Cabbar əminin şəkli çıxıb, yanında da Qurban Pirimiv və Saşa Aqanazaşvili deyərək qəzeti Hüseynalı bəyə uzatdı. Uşaqlar indi gətirdi, heç oxuya bilmədim, görüm Qiyaslı toyu barədə yazıblar?

- Qoy baxım görüm, - deyib Hüseynalı bəy qəzeti açıb

səhifələrinə baxdı. Yaxşı ki, gətirdin nəsə baş verəcək deyə içimdə bir hiss var idi. Məktəbə çatana qədər bəy qəzetdəki xəbərlərə baxdı və bir ara heç nə demədi. Oxuduğu xəbərlər onu bərk narahat etmişdi. Elə bil dünyanın bütün qayğıları onun çiyninə yükləndi.

- Bəy saa nooldu?

Hüseynalı bəy ağır-ağır başını döndərib İbrahimin üzünə baxdı. Bir az daha sükut etdikdən sonra dilləndi.

- Vəziyyət pisdi.

- Axı nə olub, bəy, qadan alım?

- Müharibə başlayıb.

- Nə müharibə?, Kim mührıbə edir? Harada başlayıb müharibə?

- Səbirli ol. Təmkinini pozma ...

- Bağışla, bəy. Birdən həyəcanlandım.

- Avropada Avstria - Macarıstan Serbiyaya müharibə elan edib.

- Barı heç olmasa bizdən uzaqdadı, - deyə İbrahim səbirsizlik etdi.

-Heç də uzaq deyil. Çünki iki gün sonra Almaniya Rusiyaya müharibə elan edib və döyüşlərə başlayıb.

- Hə, bax bu qorxuludu. Rusiya müharibə etdiyinə görə döyüşlər uzaxda olsa da, bir ucu bizi tutacaq

- Hələ daha qorxulu ola bilər.

- Niyə ki?

- Almaniya Rusiya ilə bərabər Fransa və Belçikaya müharibə elan edib. İngiltərə də bunun ardınca Almaniyaya qarşı müharibəyə başlayıb.

- Hə məsələ yekədi, amma yenə uzaxdadı dana.

- Yox, İbrahim, məsələnin qorxulu tərəfini anlamadın.





İbrahim diqqətlə bəyə qulaq asırdı.

- Anlamalı məsələ budu ki, bu miqyasda olan müharibəyə mütləq Osmanlı İmperiyasın da qatacaqlar, yaxud özü qatılacaq. Bax o zaman müharibə bizim yanımızda olacaq. Bax bu isə cox qorxulu məsələdi. Qoy Tanrı özü xalqımızın köməyi olsun!

- Bəylərə xəbər elə, bu barədə görüşüb danışmaq istədiyimi çatdır. Uyğun bir vaxtda məsələ, vəziyyət birlikdə müzakirə

olunmalıdı.

- Baş üstə bəy.

Sonrakı günün axşamı kəndin ağsaqqalları və bəylər müzakirə üçün məscidin həyətinə yığışmışdılar. Danışılan mövzu cox ağır olduğundan hər kəs növbə ilə öz münasibətini bildirirdi. Hamının ortaq olduğu bir fikir var idi. Müharibə olduğuna görə həyat şəraiti hər mövzuda çətinliyə doğru dəyişəcək.

- Bəs görən səfərbərlik məsələsi necə olacaq? Nə əcəb müharibə artıq başlıyıb, amma bu barədə hələ bir söhbət yoxdu? -deyə Kərbəlayi İsmail kişi sual elədi.

- Belə getsə, bu yaxınlarda edərlər. Çətinlik və qıtlıq bir tərəfdən, gənclərimizin qırılması o biri tərəfdən camaatımıza böyük dərd olacaq, - deyə Rəşid bəy cavab verdi.

- Bəs sən necə düşünürsən, bəy, - deyə Kərbəlayi İsmail sual verib Hüseynalı bəyə baxdı.

- Nizami deyir:

Aləm əzəldən alver evinə bənzər
O dünyanı alarlar, bu dünyanı verərlər.

Əgər düşüncəmi soruşursunuzsa, Allahdan gizli deyil, sizdən nə gizlədim, insanı məhv edəcək hər bir şeyə mən xəstəlik kimi baxıram. Yaradan insanı kamil yaradıb, üstəlik secim hüququ verib. İnsan canı üçün xəstəlik qaçılmaz bir fakt olduğu kimi, onunla mübarizə aparmaq bir vacibatdı. Elə müharibə insanlıq adına xəstəlikdi. Həmişə onunla mübarizə aparmaq düşüncəsindəyəm. Fikrimi sizə vurğulamaq istəyirəm. Müharibədə mübarizə aparmaqdan danışmıram, hələ müharibənin özü ilə mübarizə aparmaqdan danışıram. Sizə açıq fikrimi demək istəyirəm ki, mən camaatımızı, xalqımızı,

insanlığı qorumağın tərəfindəyəm. Mənim dediyim müharibədən qaçmaq deyil. Bəzən müharibədən qaçmaq bir xalqın məhvinə səbəb olur. Dediyim budu ki, hər halda Nizaminin dediyi bu sonu ölümlü dünyada şərəflə yaşamaq lazımdı. Ən şərəfli iş insanı, insanlığı qorumaqdı. Bunu Quranda bizə belə deyir, sızə əzbərdən deməyə çalışacam. Qoy səhvim olsa, Molla Mürsəl kişi səhvimi düzəltsin, - deyərək bəy mollanın üzünə baxdı.

Quranda insanlığı qorumaq adına Ən-Nəhl (Bal arısı) surəsində belə buyurur: Allah yaratdığı şeylərdən (ağaclardan, evlərdən, dağlardan və buludlardan) sizin üçün (günəşin hərarətindən qorunmaq məqsədi ilə) kölgələr əmələ gətirdi. Sizdən ötrü dağlarda sığınacaqlar (mağaralar, kahalar) sizi istidən (yaxud soyuqdan) saxlayacaq (yun, kətan, pambıq) köynəklər, (sizi müharibədə qorumaq üçün zirehli geyimlər düzəltdi. Allah nemətini sizə belə tamamlayıb verdi ki, bəlkə, Ona itaət edəsiniz (müsəlman olasınız).

Hüseynalı bəy ayəni bitirib Molla Mürsəlin üzünə baxdı.

- Tamamilə doğrudur 81 ci ayə, -deyərək molla təsdiqlədi.

- Qoy Tanrı camaatımızı qorusun.

OOO

Bu görüşmədən iki gün keçmişdi. İbrahim oğlu Elşadı Əhmədavar kəndindəki hökümətin taxıl anbarında baş verən yanğın barədə xəbər gətirmək üçün göndərmişdi. Elşadın xahişi ilə Kərbəlayi İsmailin oğlu Səlim onunla gedirdi. İki dost at belində həyəcanla söhbət edirdi.

- Belə getsə, əsgərliyimizi muharıbədə edəjiyik, Səlim.

- Bu əladı, Qaqa. Döyüş sənətini birbaş müharibədə

öyrənərik.

- Dur hələ! görək. Hələ nəinki əsgərlik, heç səfərbərlik barədə heçnə danışmırlar. Atam deyir burda nəsə var. Əslində müharibəyə görə əli silah tutan kişiləri səfərbərlik edib, orduya yığmalıdırlar, özü də bu boyda müharibəyə.

- Bunlar başlayıblar camaatın mal-mülkünü, taxıl-qızılını səfərbərlik etməyə.

- Hələ baxaq görək bu taxıl anbarının yanğını nə məsələdi?

Gənclər Əhmədavar kəndindən xəbəri öyrənib birbaşa Ibrahim kişinin yanına qayıtdılar.

- Ata, məsələ bir az başqa cür imiş, - deyə Elşad sözə başladı.

- Danış görüm, bala.

- Anbarda yanğınla bərabər oğurluq olub. Daha doğrusu, basqın edib taxılın böyuk bir hissəsini anbardan aparıbdılar. Odu anbarda yox, oranı qoruyan əsgərlərin oturduğu yerə vurublar. Ölüm olmayıb.

- Aydındı, balalar, gedin dincəlin. Gözdə-qulaqda olun, bizim obada belə hadisələr olmamış xəbər tutaq. Gedin, Səfər əmini gör, Nicatı götürüb bura gəlsinlər.

Baş üstə deyib, gənclər ordan ayrıldı.

- Səfər, Əhmədavarda anbarı yandırmayıblar, yanan gözətci otağıdı. Yandırıblar, taxılın böyük bir hissəsini aparıblar - deyə İbrahim Səfərlə Nicat gələn kimi sözə başladılar.

- Belə de.

- İndi öyrənmək lazımdı görək bu nə məsələdi, bu adi oğurluğa oxşamır.

Səhəri gün Səfər hadisədən xəbər gətirdi. İbrahimə yaxınlaşaraq:

- Məsələ aydın oldu.

- Bəy yaxındadı, gəl gedək elə bir yerdə danışaq. Onlar

yaxınlaşdılar.

İbrahimlə Səfər məhlənin ayağına çatanda bəy dərsdən çıxdı.

- Axşamınız xeyir.

- Axşamınız xeyir bəy.

- Nə xəbər?

- Taxıl anbarındakı yanğın məsələsinin əsli barədə məlumat gətirib Səfər, istədik sizin yanınızda danışsın.

- Camaat üçün taxıl oğurlandığını deyirsiz? Məsələdən xəbərim var.İbrahimlə Səfər bir birinin üzünə baxdılar. Hər halda danışın, görüm nə eşitmisiniz?

- Taxılı camaata paylamaq üçün oğurlayıbmışlar. Ötən gecə artıq Şelli və Əhmədavar kəndinin çətin vəziyyətdə və ehtiyacı olanlara taxıl paylayıblar. Dediklərinə görə bu işi hökümətin müharibəni bəhanə edərək həddən çox vergi-taxıl toplamasına etiraz olaraq etdiklərini bildiriblər.

Dinlədikcə Hüseynalı bəy başının işarəsi ilə məlumatı təstiqləyirdi.

- İşlərin başında Şellıdən Hafiz kişinin oğlu Qadir dururmuş. Hökumət Ağdamda olan o birisi - iki böyük anbarların mühafizəsini gücləndirif. Qadirin adına "qaçaq" deyib axtarırlar. Camaat öz növbəsində Qadirə "QOÇAQ" adı verib.

- İndi mənə diqqətlə qulaq asın. Bax mən camaatımızı qorumaq lazımdı deyəndə, belə işləri nəzərdə tuturdum. Hər bir vəziyyətdə elə mövqe tutmaq lazımdı ki, camaata zərbə dəyməsin. Bölgünü elə edilməlidi ortaya dava düşməsin. Bu hadısə barədə mənim geniş məlumatım var. Ancaq bir daş altdan, bir daş üstdən. Aydındı?

- Baş üstə bəy.

OOO

Avropada son üç ayda davam edən müharibə dövründə Azərbaycanda belə hadisələrin baş verməsinə baxmayaraq, hökumət xalqa təzyiqi daha da artırmış, üstəlik ermənilər daha çox fəallaşmışdı. Gözlənildiyi kimi noyabr ayının başlanğıcında əvvəl Rusiya, üç gün sonra isə Böyük Britaniya və Fransa Osmanlı imperiysına müharibə elan etdi. Artıq mühribədə ona qədər ölkə iştirak edirdı. Bu müharibəyə digər dövlətlərin qatışacağı gözlənsə də, əsas "Antanta" birliyinə daxil olan Böyük Britaniya, Fransa vəRusiya ilə "Üçlər" ittifaqına daxil olan Aımaniya, Avstriya-Macarıstan və Osmanlı İmperiyası dövlətləri başlıca rol oynayırdı.

Belə olduğuna görə indi Azərbaycan üçün xoşagəlməz, həm də heç xoşagəlməz vəziyyət yaranmışdı. Azərbaycan tərkibinə daxil olduğu Çar Rusiyası milləti türk, dini İslam olan Osmanlı imperiyasına müharibə elan etmişdi.

Hüseynalı bəyin xahişi ilə yenə bəylər və ağsaqqallar yığışmışdı. Məsələ barədə hər kəs öz fikrini bildirirdi.

- Demək, niyə səfərbərlik etmədikləri buna görə imiş. Bəşir bəy fikrini bildirdi. İndi bizlərdən hərbə adam aparsalar götürüf Avropaya aparası deyillər ki. Döyüşlərə cəlb etsələr, Osmanlı türklərinə qarşı elə burada, Qafqazda istifadə edə bilərlər. Buna da etibar etmirlər, çünki türk türkə, müsəlman müsəlmana gülləatmaz.

- Tamamilə doğrudur, - deyə Hüseynalı bəy sözə davam etdi. Üstəlik məsələ mən deyərdim, daha dərinə gedir. Yəni bu fakt təkcə bu müharibənin yox, bütün tarixin mövzusudur. Xəritəyə baxsaq, Azərbaycanın coğrafi mövqeyinin qədim "İpək Yolu" üzərində olması, bu yola nəzarət etmək istəyən böyük dövlətlər üçün həmişə baş hədəf olub. İndi də belədi, gələcəkdə də belə

olacaq. Bizim burda olmağımızı istəməyənlər bizi fiziki, bir daha deyirəm, fiziki cəhətdən yox etmək istəyir. Son illərdə ermənilərin canlanması və sair işlərin kökündə məhz bu məqsəd durur. Biz isə bir camaat olaraq başqasının yox, məhz öz torpağımıza sahib çıxmaq üçün mütləq ağzıbir və elmli olmalıyıq ki, fələyin işindən baş çıxaraq və camaatı qoruya bilək. Birdə Nizami Gəncəvi demişkən:

Sən fələklə vuruşda bir az fəndgir ol ki,
Bir gün yerə sürtəsən kürəyini ər təki.

Bir daha deyirəm, bu vəziyyətlə bağlı təqiblərimiz, əziyyətlərimiz daha da çoxala bilər. Bu vəziyyətlərdən ancaq ağzıbir olub əl-ələ verərək çıxa bilərik.

Aradan bir neçə gün keçmiş Qafqazda hərbi əməliyyatlar başladı. Türk qoşunları Ənvər Paşanın komandanlığı altında Qars - Batumi istiqamətində cənubi Qafqaza hücum etdi. Cənubi Qafqaza hücum etməklə yanaşı Cənubi Azərbaycan ərazisinə də girdilər. Hazırlanmış plana əsasən Qafqazda rus qoşunlarına əsas zərbə Sarıqamış döyüşündə endirilməli idi. Çətin döyüşlərdə ağir itki verən türk qoşunu məğlub oldu. Canlı qüvvə və texnikasının coxluğu rus ordusuna qələbə qazandırdı. Bu döyüşdən sonra Təbrizi tutan Rus qoşunu Türk ordusunu Azərbaycandan çıxartdı. Aradan bir il keçmiş ruslar Ərzurumu, sonra isə Trabzonu işğal etdi. Dünya üzrə bu qədər geniş ərazidə hərbi əməliyyatlar keçirdiyinə görə ordunu təmin etmək üçün Çar hökuməti bütün ölkədə sənaye və iqtisadiyyatı hərbi məqsədlərə yönəltmişdi. Bu işə mane olacaq insanların təqibini yaxud məhv edilməsini gücləndirmişdi. Bu vəziyyətdən məharətlə istifadə edən ermənilər başda Andranik Zanyan

olmaqla Rus-Qafqaz ordusunun baş komandanı Mislyayevski ilə görüşərək ilk erməni könüllü dəstəsini yaratmışdı.

Vəziyyətin belə gərginliyində camaatın yaşayış şəraiti çox ağırlaşırdı. Üstəlik təqiblər bir yandan.

İbrahim iki gün əvvəl Novruzlu kəndi tərəfdəki atışma barədə məlumat gətirmişdi.

- İbrahim, danış görək nə məsələ imiş?

- Nə olajax bəy, qadan alım Vallah, billah bizim camaatın qanına susuyublar.

- Elə ona görə bizim birlikdən başqa çarəmiz yoxdu.

- Vallah birlik barədə düz deyirsən. Təsəvvür elə həmin atışma olan gecə bizim iki davalı qardaşımız bir-birilərini ölümdən qurtarıblar.

- Kimləri deyirsən ki?

- Şellidəki Qadirnən Əhməavar taxıl anbarına basqın eləyən, Novruzludakı Kərəmi deyirəm. Bunlar artıq neçə ildi, qız üstə davalı idilər. O dəfə Ağdam bazarında atışıb bir birilərini yaralamışdılar. Qorodovoylar tökülüşdükdən sonra hərəsi bir tərəfə çəkilmişdilər. Qoy bu hadəsəni başdan danışım sizə.

- Buyur.

- Xəbər tutublar Qadir kənddə, Şellidədi. Gecə əli silahlı tökülüblər tutsunlar. Ayıqlıq eləyən Qadir qurulan mühasirədən çıxıb üzü Noruzdu kəndinə tərəf atışa-atışa qaçıb. Gecə yarıdan keçmiş qaranlıq olduğundan və oraları yaxşı tanımadığından Qadir özünü verir Kərəmin həyətinə. Kərəmin həyətdə tikdirdiyi birotaqlı evin pəncərəsinin altında sipər alanda Kərəm ayıq imiş. İgidlikdə Kərəm heç Qadirdən geri qalan deyil ha…

Bəy diqqətlə qulaq asırdı. Kərəm başını pəncərədən çıxardan kimi Qadiri tanıyır.

- Nədi Ə nooluf?...

- Nolajax, namərdlər məni yaman haxlıyıflar.

- Aydındı, sən belə elə. Arvad-uşaq yatıb, səs eləmə. Gəl sən xəlvətcə gir mənim yerimə evdə uzan, mən bir azdan gələjəm. Buraları səndən yaxşı tanıyıram. Mən indi onları azdıraram.

Qadir elə də edir. Kərəm məhlədən çıxır, atışa-atışa Qadirin dalınca düşənləri Əfətli kəndinə tərəf aparıf orda azdırır.

Gör sonra nə olub, bəy. Səhərəyaxın Kərəm qayıdır evə. Qadirə deyir bəs:

- Arxayın ol, dalınca gələnləri azdırmışam. Rahat gedə bilərsən.

Belə deyəndə  Qadir buna qayıdır ki:

- Balta varindı?

- Baltanı neynirsən Ə?

- Sən ma bir balta gətir.

- A kişi, baltanı neynirsən? Bu dey ha ala, burda dəhrə var, yarıyar?

- Yarıyar, ver bura.

Dəhrəni əlinə alıf Qadir sol əlinin baş barmağını odun yarılan kötüyün ustünə qoyur və gözləmədən dəhrə ilə barmağını kəsib salır. Qadirin bu hərəkətini ilk anda anlamayan Kərəm qayıdır ki:

- A kişi, bu nə hərəkətdi eləyirsən?

- Bu o deməkdi ki, sən mənimlə qanlı olsan da, məni xilas elədin. Üstəlik ailənin içində gizlətdin, Cox sağ ol.

- Bə bu nədi e? Bu cürə təşəkkür edirsən belə?

- Yox. Sən gedəndən sonra dediyin kimi, ailə bilməsin deyə yerinə uzandım. Sənin ailən yuxuda ola-ola bilmədən əlini mənim üstümə qoydu. Mən o kəsdiyim barmaxnan əli qaldırıb qırağa qoydum. Ona görə o barmağı kəsdim, Biləsən etibar etdiyin əmanətə toxunmamış gedirəm.

- Bəy, bundan sonra Qadir bir dəfə də təşəkkür edib qaranlıqda gözdən itib.

- Aydındı, bizim xalq bax belə mərd xalqdı. Ehtiyatlı olmaq lazımbı. Hiss edirəm bu yaxınlarda bizə də dəyib toxunacaqlar.

OOO

Bəy hissiyyatında yanılmamışdı. Ağdamda hökumətin xüsusi idarəsinin adamları qorodovoy yollayıb Nicatı axtartdılar.Əlbəttdə gələn adamlara Nicatın kənddə olmadığını deyib geri yollamışdılar. Bu barədə xəbəri Hüseynalı bəyə gətirəndə, o, məktəbdə müəllim Denis Kliçko ilə söhbət edirdi.

- Hörmətli Hüseynalı bəy, sizdə qonaq olduğum, işlədiyim bu bir neçə ildə sizdən ancaq hörmət gördüm, - deyə Denis müəllim sözə davam etdi.

- Niyə belə deyirsiniz, yoxsa bizdən ayrılmaq fikrinə düşmüsüz?

- Düz başa düşmüsünüz. Ancaq mən buna ayrılmaq yox, işi dayandirmaq deyərdim. Özüm isə sizə həmişəlik dost olaraq qalacam. Sizin mənə olan münasibətinizi ölüncə özümə şərəf biləcəm.

- Axı niyə belə fikrə gəldiniz?

- Son vəziyyətlət heç ürəkaçan deyil. Hesab edirəm mənim burada qalmağım həm sizə həm də mənə təhlükə yarada bilər. Söhbətin bu yerində Səfər yaxınlaşdı.

- Olarmı, bəy?

- Buyur, Səfər

- Bu gün gəlif Nicatı axtarıblar.

Hüseynalı bəy Denis müəllimin üzünə baxdı.

- Bax görürsüz məsələ yetişib.

- Bəs hara gedəcəksiniz?
- Bilmirəm.
- Mən sizi elə Nicatla birlikdə Təbrizə tərəf göndərə bilərəm.Ara sakitləşəndən sonra yenə geri dönərsiz.
- Hər şeyə görə təşəkkür edirəm.Etiraz etməsəz mən öz ölkəmə qayıtmaq istərdim.
- Necə məsləhət bilsəz, elə edin. Allah amanında.

Hüseynalı bəy müəllimlə xudahafizləşəndən sonra Səfərə tapşırdı ki, gecəyarıdan kecəndən sonra Nicatı götür yanıma gəl.

- Baş üstə bəy.

Gecədən xeyli keçmiş Səfər Nicatla birgə gəlib bəylə görüşdülər.

- Bala, atana xəbər yollamışam - deyərək bəy üzünü Nicata tutub danışmağa başladı. Səfər sizi yerləşdirənə qədər sizinlə gedəcək. İndi xəlvətcə gedirsən evə. Ehtiyatlı olun güdən eləyən olar. Nicat, Səadəti də, oğlun Azəri, qızın Baycanı götür. Elə bu gecə yola düşun. Çox şey götürməyə gərək yoxdu. Arazı keçəndən sonra üz tutarsınız Ənzəli, ya da Rəşt tərəfə. Orda Hacı Zeynalabdin Tağıyevin malıkanəsi, meşə sahələri var. Ora çatanda adımı verib salamımı yetirərsiniz. Məsələni bildirərsiniz. Hələlik orda olun, görək başımıza nə gəlir.
- Baş üstə bəy.

OOO

Etibarsızlıq üzündən Çar hökuməti ölkədə yaşayan müsəlmanlardan, o cümlədən Azərbaycandan orduya adamları rəsmən çağırmırdı, ancaq onlarin ali silkindən könullü olaraq Çar ordusu sıralarında 200 nəfər azərbaycanlı zabiti müharibədə iştirak edirdi. Artilleriya generalı Səməd bəy Mehmandarov, Əliağa şıxlins-



***İlk Azərbaycan təyyarəçisi Fərrux ağa Qayibov (1891-1916)***

ki, general Hüseynxan Naxcivanski, general İbrahim ağa Vəkilov ilk Azərbaycan təyyarəçisi Fərrux ağa Qayibov və digərləri bu qəbildən idilər. Bundan başqa azərbaycanlı gənclərdən ibarət Avropada cəbhəsində döyüşmək üçün "Tatar süvarı alayı" təşkil edilmışdi Qorxmaz döyüşçülərdən ibarət bu alayı ruslar həqarətlə "Vəhşi diviziya" adlandırırdılar. Bu diviziya öz döyüş fərasəti və bacarığı ilə çoxlu nəaliyyətlər qazansa da, əhali sayına görə müqayisədə faktiki olaraq, Azərbaycan şəxsi heyət kimi müharibədə iştirak etmirdi. Elə buna görə hökumət daha çöx onun iqtisadiyyatına yüklənmişdi. İmperiyanın müharibə siyasətinə uyğunlaşdırılmış iqtisadiyyat tənəzzül etmişdi. Rusiyanın əsas maye yanacaq bazası olan Bakıdan hər il 400 min puddan çox neft, 50 min puddan çox partlayıcı toluol, 90 min puta qədər benzin istehsal olunub göndərilirdi. Hacı Zeynalabdin Tağıyevin çox çətinliklə qura bildiyi toxuculuq fabriki cəbhəyə 400 milyon arşından çox bez və parusin göndərmişdi. Müharibə Azərbaycanın kənd təsərrüfstına da zərər vurmuşdu. Əkin sahələri müharibədən əvvəlki 910 min desyatindən 620 min desyatinə düşmüşdü (Desyatin- metrdən qabaq 1. 09 hektara bərabər ərazi ölçü vahidi). Taxıl sahələri 50% azalmışdı. Pambıq sahələri 105 min desyatindən 37 min desyatinə enmişdi. İribuynuzlu heyvanların sayı 480 min, davarların sayı 500 min baş azalmışdı. Arxa cəbhədə yararlanmaq





***Vəhşi diviziya***

üçün Azərbaycanda 50 min gənc səfərbərlik edilmişdi. Sosial vəziyyət pisləşmiş, ərzaq qıtlığı və bahaliq baş vermişdi. Müharibə dövrü ərzində ərzaq qiyməti 500 faizədək yüksəlmişdi, əhalinin vəziyyəti olmazın dərəcədə pisləşmişdi. Bütün bunlar əhali arasinda sosial gərginliyi artırırdı. Sosial gərginlik get-gedə Rusiyanın özünü də bürüyürdü. Hər tərəfdə fəhlə tətilləri, kəndli həyəcanları baş verirdi. Vəziyyətlə əlaqədar olaraq tez - tez kəndin ağsaqqalları və bəylər yığışıb vəziyyəti müzakirə edirdilər.

Mart ayının əvvəli, hələ novruz bayramına bir az var idi. Bu dəfə bəylər və ağsaqqallar Hüseynalı bəylə görüşmək üçün yığışıb məktəbə tərəf gəlirdilər. Bu axşam Kərbəlayi İsmail, Nəcəf bəy, Bəşir bəy və Rəşid bəy həyətdə çay süfrəsi arxasında əyləşib Hüseynalı bəyin dərsdən çıxmasını gözləyirdilər. Az keçmış bəy dərsi bitirib onların yanına gəldi. Salamlaşan kimi Rəşid bəy xasiyyətinə xas çılğınlıqla səbir etməyərək sözə başladı.

- Bəy, bu məsələlərin axırı noolajax axı?

- Hansı məsələni deyirsən, qardaş.

- Bəy, Ağdama getmişdim. Hərə bir söz danışır. Bu İtaliya da Rusiya tərəfdən müharıbəyə girif. İndi deyirlər Amerika Antan-

ta birliyinə (İngiltərə, Fransa, Rusiya birliyi) yaxşı dollar yardım edib.

Hüseynalı bəy gülümsündü.

- Eşitdiklərini düz eşıtmisən. Hələ belə getsə, Amerika öz pullarını qurtarmaq üçün yaxın aylarda gəlib özü də müharibədə iştirak edəcək. Artıq üç ildi bu müharibə başlıyıb. 35 dən çox ölkə bu müharibədə iştirak edir. Bildiyim odu ki, bu müharibədə dava təkcə ərazi davası deyil. Bu, hegemon dövlətlərin bir-birilərinin arasında dünyaya ağalıq davasıdı. Bunların marağının ucbatından bizim kimi "balacalar" olmazın zülümlərini cəkir. Olum ya ölüm mübarizəsi edir. Ona görə mən həmişə deyirəm: Ağzıbir olub camaatımızı bu bəlalardan az tələfatlarla qurtarmalıyıq.

Gələnlər diqqətlə qulaq asırdı.

- Gəlin mənə bu fikri tez-tez təkrarlamağa vadar edən məlumatları sizə danışım. Ondan sonra özünüz görəcəksiniz burda - Azərbaycanda xalqımızı qırmaqdan ötrü bəhanə axtarırlar.

- Buyur bəy, danış deyən Kərbəlayı İsmail xahiş etdi. Deyirlər Rusiyada inqilab olub, çevriliş olub nədi?

- Elədi. Müharıbəni hərə öz bacarığına görə aparır. Rusiya geniş ərazilərdə müharıbə apardığına görə ordunu təmin etmək üçün xalqı sıxır. Xalq da bundan narazı qalır. Almaniya isə bu narazılıqdan istifadə edir. Rusiya daxilində narazı ğüvvələri öz tərəfinə çəkib yardım edir. Bu yolla niyyətinə deyəsən çatır. Üstəlik də öz müttəfiqi Osmanlı İmpariyası vasitəsi ilə Azərbaycana, onun neftinə əl qoymaq istəyir. Görün qəzetlər nə yazır, - deyərək Hüseynalı bəy qəzeti əlinə aldı.

1917 -ci ilin fevralın ortalarında böhran daha da dərinləşdi. Fevralın 14-də Petroqradda (Petroqrad - İndiki Sank Peterburq) "Rədd olsun müharibə", "Rədd olsun Çar hökuməti", "Yaşasın ikinci rus inqilabı" şüarı altında böyük tətillər keçirilirdı. Bundan

on gün sonra fevralın 24-də tətillər kütləvi xarakter aldı. Həmin gün təkcə Petroqradda 200 mindən çox tətilçi var idi. Hətta fevralın 25-də birsıra müəssisələrdə fəhlələr Petroqrad sovetinə nümayəndələr seçiblər. Beləliklə, tətillər ümumsiyasi tətilə çevrildi. Bəzi yerlərdə hökumət quvvələri ilə toqquşmalar baş verdi.

Digər səhifədə yazır ki, eser və menşeviklərin rəhbərlik etdikləri Petroqrad soveti. Icraiyyə Komitəsinin razılığı ilə 1917-ci il martın 1-dən 2-nə keçən gecə dövlət dümasının müvəqqəti komitəsi Q. Y. Lvov başda olmaqla müvəqqəti hokuməti təşkil etdi. Bununla 1917-ci ildə matın 1-də Çar mütləqiyyatı devrildi. Martın 2-nə keçən gecə Romanovlar sülaləsindən olan axırıncı Çar II Nikolay taxt - tacından əl çəkmək haqqında olan akta imza etmək məcburiyyətində qaldı. Rusiyada Fevral inqilabı başverdi.

Hüseynalı bəy qəzeti qatlayıb kənara qoydu.



***Anton İvanoviç Denikin (1872-1947)***

- Qardaşlar, bu inqilabın baş verməsi bizim üçün həm yaxşı ola bilər, həm də pis.

- Necə yəni “pis” deyə yenə Rəşid bəy çılğınlıqla dilləndi.

- Pis o mənada ola bilər ki, inqilabın baş verməsi əvvəla cəbhələrdə başıpozuqluğa, fərariliyə səbəb olacaq. Eşitdiyimə görə artıq yeni hakimiyyətlə razılaşmayan bir neçə zabit fikir ayrılığına görə güllələnib. Üstəlik Denikin öz tərəfdarları ilə birlikdə inqilaba əks olduğunu açıq-aşkar bildirib. Bundan başqa, hakimiyyət uğrunda eserlər və menşeviklərldən

başda kadetlər və bolşeviklər olmaqla 30-a qədər partiya öz aralarında çəkişir. Bax belə vəziyyətdə o "Qurunun oduna yaş da yanar" məsələsi kimi bizim başımıza çox şey gələ bilər. Buna görə tədbirli olmalıyıq.

- Bəs yaxşı nə ola bilər? - deyə Nəcəf bəy sual etdi.

- Həə !!! Yaxşı o ola bilər ki, əgər yetərli sayda savadlı, bacarıqlı xalq nümayəndələrimiz olsa, Dövlət müstəqilliyimizi elan edər və onu yaşada bilərik.

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI

Çar hakimiyyəti devrildiyi dövrdə bir tərəfdən cəbhələrdə mübarizə, döyüş gedir, digər tərəfdən Bakı kimi önəmli şəhərlərdə “mübarizə, döyüş” gedirdi. Hər iki cəbhədə başıpozuqluq, qeyrimüəyyənlik hakim idi. 1918-ci ilin əvvəlində Bakıda bir çox silahlı dəstələr əmələ gəlmişdi. Bunların içərisində ən güclüləri kommunistlərin yaratdığı 3500 qvardiyaçıdan ibarət “Qızıl qvardiya” , 4500 atlı və piyadadan ibarət “erməni milli daşnak qvardiyası”, Rus slavyan tayfalarının silahlıları, eser və menşevik silahlı birləşmələr və Müsavat könüllülərinin diviziyası idi. Burda yaşayan azərbaycanlıların öz dogma torpaqlarında fiziki məhvını həyata geçirmək məqsədi ilə mart ayının sonunda bir daha soyqırım həyata keçirildi. 31 Mart - 2 Aprel Bakı şəhərində daşnak bolşevik birləşmələri 11 mindən artıq türk-müsəlman əhalini qətlə yetirdi.



**Azərbaycan soyqrımı**

Daşnak birləşmələr Bakının müsəlman əhalisinin 400 milyon manatlıq daş-qaşını və qiymətli şeylərini mənimsədilər. Bakının çoxlu tarixi abidələri, o cümlədən İsmailiyyə binasını, “Dağıstan” və “İskəndəriyyə” mehmanxanalarını, “Kaspi” qəzetinin redaksiyasını və Qurani Kərimin Azərbaycan dilinə çap olunan beş min nüsxəsini yandırdılar.

Dünya müharibəsinin başa çatması dövründə Azərbaycanın tarixi torpaqlarının hesabına öz dövlətini qurmaq istəyənlərin be-

lə qaniçən fəaliyyətlərinin əksinə olaraq Azərbaycan övladları tərəfindən siyasi fəallıq göstərildi. Azərbaycanın dövlətçilik tarixini əldə rəhbər tutaraq aparılan ardıcıl mübarizə nəticəsində Zaqafqaziya Federativ Respublikası süqut etdi. 1918-ci il Mayın 28 də Tiflis şəhərində tərkibində Hüseynalı bəyin yaxın dostu və müəllimi Firudin bəy Köçərlinin də olduğu Azərbaycan Milli Şurası Azərbaycanın istiqlaliyyəti haqqında Akt (əqdnamə) qəbul etdi.

Beləliklə, Azərbaycanın Dövlətçilik tarixindəilk dəfə Konstitutsiya Aktı - İstiqlal Aktının qəbulu ilə Azərbaycan dövləti dünyaya Xalq Cumhuriyyəti formasında elan olundu.

OOO

Qarabağda, Ağdamda ilin elə gözəl vaxtı idi ki, hər tərəfdə təbiət oyanmış, güllər, çiçəklər açmışdı. Havadan ancaq çıçək ətri gəlirdi. İctimai - siyasi vəziyyətin bu qədər gərgin vaxtında Azərbaycanın dövlət müstəqilliyinə elə bil Tanrı da sevinirmiş kimi insanda təəssürüt yaranırdı. Hüseynalı bəy İbrahimə xəbər verdi ki:

- İbrahim, axşama dövlətçilik mövzusunda ümumi dərs olacaq.

- Çöx gözəl. Elə camaat bu barədə sizi dinləmək istəyirdi.

- Lap yaxşı. Hamıya xəbər elə gəlsin. Şagirdlərdən əlavə nə qədər çox gəlsələr o qədər yaxşıdı.

- Baş üstə bəy. Böyüklükdən əskik olmuyasız.

Axşamüstü şagirdlərin dərsi bitməmiş əkin- tarla işlərinin çox olmasına baxmayaraq məktəbə elə çox adam gəlmişdi ki, az qala böyük həyət dolmuşdu. Dərs bitənə qədər xeyli adam gəldi. Gələnlər içərisində əksəriyyət yaşlılar, ağsaqqallar, bəylər idi.

Gələnlərin sayının çoxluğuna görə məcbur ümumi dərs elə acıq havada kecirilməyə başladı.

OOO

- Əziz şagirdlər, sevımli gənclər, hörmətli yaşlılar!

Hər şeydən əvvəl Dövlət müstəqilliyimizin elan olunması münasibətilə sizi böyük sevınc və fərəh hissi ilə ürəkdən təbrik edirəm. Dövlət qurmaq, onun müstəqilliyini elan etmək, onu yaşatmaq hər bir millət, xalq üçün o qədər vacib məsələdir ki, onun yaşamasını, var olmasını təmin edir. Bu o qədər böyük nemətdir ki, hər bir xalqa, millətə qismət olmur.

Dərsdə sükut idi.

- Bu axşamkı ümumi dərsimizdə mən istəyirəm, sizlər yaxından iştirak edəsiniz. Bu istək məndə ona görə yarandı ki, mən sizə dövlət, dövlətçilik barədə danışanda siz ancaq dinlədiniz. İçimdən bir hiss gəldi ki, dövlət, dövlətçilik kəlmələrinin mənasını hələlik bir insan timsalında sizinlə müzakirə edim.

- Sizə bir sual verəcəm. Xahiş edirəm cavab verməyə çalışın. Xahiş edirəm deyin, - Bir insanın yaşaması üçün ən vacib olan məsələ hansıdı?

Bir anlıq sükutdan sonra iştirakçılardan cavablar gəlməyə başladı.

- Ən birinci yemək - bir nəfər dilləndi. Sonra geymək, ev, minik, torpaq, pul, qızıl və sair olmaqla çoxlu cavablar gəldi və bəy səbirlə hamısını dinlədi.

- Əzizlərim, bu deyilən cavablar hamısı doğrudur. Ancaq mən sizdən yaşamaq üçün "ƏN" vacib məsələnin nə olduğunu eşitmədim. İcazə verin mən deyim:

Təsəvvür edin təklikdə bir adam axşamüstü tanımadığı qaranlıq meşəyə düşür. Lap elə təsəvvür edək qarnı acdı və əynində birşey yoxdu. Mən sizi inandırıram həmin vaxtı bu insan nə geyim, nə yemək, nə pul, nə də başqa bir şey haqqında düşünməyəcək. Onun düşündüyü yalnız bir şey olacaq - "Aman-aman bir azdan qaranlıq düşəcək və məni yırtıcı vəhşi heyvan məhv edəcək. Qoy özümə əvvəlcə sığınacaq bir yer tapım sabaha sağ çıxım. Sonra yemək geymək axtararam. Can güvənliyi olmasa, yeməyi, geyməyi neynirəm?!"

Bu sözdən sonra Hüseynalı bəy ara verib iştirakçılara göz gəzdirdi. Hamı bəyə və yanındakına baxaraq sözü təsdiqləyirdi.

- Bəli, əzizlərim, - deyə Hüseynalı bəy sözünə davam etdi. İnsan həyatında ən vacib, ən birinci məsələ güvənlik, təhlükəsizlik məsələsidi.

Gəlin indi həmin bu məsələni dövlət, dövlətçilik baxımından sizə izah etməyə çalışım. Biz bilirik insan sosial varlıqdı. Yəni daima toplumda yaşamağa çalışır. Əvvəl ailə sonra oba, el, xalq, millət, ümmət kimi toplumda onun adəti, ənənəsi toplaşır.

Unutmayaq çörəyi verən Allahdı. Biz şah da olsaq, dilənçi də olsaq, bizim bir qarın yeməyimizi O verir. Allah isə bir daha deyirəm, bizə seçim hüququ verib. Niyə Yaradanı xatırlatdım, indi sizə deyim. Zaman-zaman olur səni toplum olaraq, xalq olaraq ümumilikdə məhv etmək istəyirlər. Tək şəxsinə, xasiyyətinə yaxud etdiyin əmələ görə yox, məhz bu xalqa, bu millətə, bu ümmətə mənsub olduğuna görə səni məhv etmək istəyirlər. Sonra bu istəyini həyata keçirir. Necə ki, bu gün ermənilər və onların arxasında duranlar edirlər. Bax bu nə yemək, nə də geymək məsələsidi. Bu elə bayaqdan danışdığımız təhlükəsizlik, güvənlik məsələsidi, başqa bir şey deyil.

Bu vəziyyətdə Allahın bizə verdiyi seçim hüququndan

istifadə edərək yalnız döğru yol tutmalıyıq. Necə təhlükə birimizə, beşimizə yox, bütün camaata gəlib - doğru yol fikrimcə, budur ki, hamı ağzıbir olub düşmənə qarşı birgə mübarizə aparmalıyıq. Dövlət isə bu ağzıbirliyin ən yüksək formasıdı və bizə bu gün qismət olub. Buna görə şükür edib təhlükəsizlik, güvənliklə bərabər, sizin bayaq sadaladığınız vacib məsələlərin təminatı üçün Dövlətimizi sevməli və onun başcısının ətrafında ağzıbir birləşərək ona dəstək olmalıyıq. Hər bir fəaliyyətimizi onun varlığı üçün, yaşaması üçün qurmalıyıq.

Əzizlərim, deyin görüm fikrimi sizə aydın söyləyə bildimmi? Məntiqsiz nəsə bir şey demədim sizə?

İştirak edənlərin hamısı təsdiqlədi. Ağsaqqallardan biri: - hər şey gün kimi aydındı, - dedi.

- İndi gəlin sizə tariximizdə xalqımızın dövlətcilik ənənələri barədə qısa məlumat verərək sizi inandırım ki, biz ağzıbir olub dövətimiz ətrafında birləşə və onu yaşada bilərik.

- Buyur, buyur - deyə Rəşid bəy yerdən dilləndi.

- Heç çox keçmişə getmədən 12-ci əsrdə mövcud olmuş Azərbaycan Atabəylər (Eldəgizlər) dövləti 1136- 1225-ci illər. Atabəy Şəmsəddin Eldəgiz dövründə formalaşmış və onun oğlu Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti illərində çiçəklənmişdir. Sonra 14-cü əsrdə Qaraqoyunlu dövləti 1375-1468-ci illər, Ağqoyunlu dövləti 1468-1501-ci illər.

Sonra sizə məlumat verim 200 ildən cox ardıcıl yaşamış, müstəqil olmuş dövlətlərimiz barədə. Bunlar Şirvanşahlar dövləti 1206-1413-cü illər və Səfəvilər dövlətidi.

Səfəvilər dövləti və yaxud Dövləti Səfəviyyə 1501-ci ildən 1736-cı ilə qədər Azərbaycandan başlayaraq İran, İraq, Əfqanıstan, Qərbi Pakistan, cənubi Türkmənistan və Şərqi Türkiyə ərazilərini əhatə etmiş tarixi dövlətimizdi. Səfəvilər

tarixdə ilk dəfə Azərbaycan türkcəsini əsas rəsmi dil kimi qəbul etmiş dövlətimizdir.

Bu dövlətlərin adlarını sizə sadalamaqda məqsədim odur ki, biləsiniz biz dövlətçilik ənənəsi olan camaatlardanıq. Bunları bilmək və inanmaq lazımdı ki, biz sarsılmaz qüdrətli dövlətlər qurmuşuq. Və yenə qura bilərik. İnanın bu faktı bizim düşmənlər bilirlər. Ona görə bizi parçalamağa, ağızbirliyimizi pozmaq yolu ilə öz məqsədlərinə nail olurlar. Əyani sübut olaraq sizə Azərbaycan xanlıqlarını göstərə bilərəm. Azərbaycan xanlıqları 18-ci əsrin 40-cı illərində bütün Azərbaycan ərazisində yaranmış müstəqil feodal dövlətlərdi. Bir məqama fikir verin xahiş edirəm. Bizi bütöv dövlət kimi məhv etməyə gücləri çatmayanda onu siyasət və diplomatiya vasitəsilə parcalayıb xanlıqlar halına salırlar. Sonra isə asanlıqla məhv edir, yaxud asılı vıziyyətə salırlar. Mən fikrimi bununla yekunlaşdırmaq istəyirəm ki, əlbir olub dövlətimiz ətrafında birləşməliyik və yaşayacağına inanaraq bütün fəaliyyətimizi ona görə qurmalıyıq.

Əgər bura qədər bir sualı olan yoxdursa, sonda sizlərə bir-iki kəlmə demək istəyirəm.

- Buyurun, buyurun deyə yerlərdən səslər gəldi.

- Gənclərə, həmçinin hamıya sözümü müasirimiz vətənpərvər yazıçımız, şairimiz Abbas Səhhətin məşhur sözləri ilə demək istəyirəm. O deyir: “Bir xalqı çökdürmək üçün onu silahla, topla - tüfənglə qırmağa ehtiyac yoxdur. Daha rahat yol var - Savadsızlıq. Bütün addımlar cəmiyyətin savadsız olması üçün atılarsa, təhsil pula çevrilərsə, savadsızlıq çoxalar, mütaliə



***Abbas Səhhət (1874-1918)***

azalar, zəkalı, ziyalı insanlara hörmət və rəğbət azalar. Lazımsız və yersiz zarafatlara gülüş çoxalar və ehtiyac artar".

Bax bu sözlər mənim həmişə sizə təbliğ elədiyim maariflənmə yolunu gözəl ifadə edir. Unutmayın.

Elə bu mövzuda sizə bir şad xəbərim var. Bu günlərdə mənim Gürcüstanda bitirdiyim Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Qazaxda açılmasına nail olmuşuq. Bu tədris ocağının Qazax şəhərinə köçürülməsində mənim dostum, maarifçi, müəllim, xalqımızın böyük oğullarından biri Firudin bəy Köçərlinin çox böyük xidmətləri olmuşdur. Sizə məlumat vermək istəyirəm ki, seminarıyanın açılması üçün gətirilmiş kitablar burda Qiyaslıdadı. Biz bu kitablardan Qiyaslı məktəbinə lazım olan qədər saxlayəb, qalan böyük hissəsini Qazax qəzasına göndərəciyik. İş bununla bitmir. Biləsiniz burda yaxşı oxumağı ilə seçilənlərinizi öz vəsaitim hesabına seminariyada oxumağa göndərəcəm.

OOO

1918-ci ilin yayında Azərbaycan üçün beynəlxalq vəziyyət olduqca mürəkkəb idi. Burada böyük Britaniya, Almaniya və Rusiya kimi üç böyük dövlətin siyasi və iqtisadi maraqları toqquşurdu. Onların hər biri Bakı neftinə yiyələnmək istəyirdi və bir-biriləri ilə rəqabər aparırdılar. Davam edən dünya müharibəsi şəraitində mübarizə obyektlərindən biri də Azərbaycan o cümlədən onun ayrılmaz hissəsi olan neft Bakısı idi. Dünyanı yenidən bölüşdürmək istəyən böyük dövlətlər Xəzər dənizində hökmranlıq etmək istəklərini gizlətmirdilər.

Bakı şəhəri Şaumyanın başçılığı altında Andranik, Lalayan, Hamazasp, Dro, Amiryan və başqalarının başçılıq etdiyi

dəstələrin nəzarəti altında olduğu üçün Azərbaycan hökuməti müvəqqəti olaraq Gəncədə yerləşirdi. Ermənilərin Qafqaz müsəlmanlarına qarşı soyqirim həyata keçirməsi nəticəsində Azərbaycan xalqının mövcudiyyəti sual altında idi. Keçən son bir il ərzində ermənilərin əli ilə yarım miyon insan qətlə yetirildi. Belə bir dövrdə Nuru Paşanın başçılıq etdiyi Osmanlı ordusu azərbaycanlı qardaşlarının yardımına gəldi. Azərbaycanlılardan ibarət “Müsəlman Korpusu” ilə birləşən bu ordu “Qafqaz İslam Ordusu” adladırıldı. Ordunun yürüş istiqaməti Qazax, Tovuz, Gəncə, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi, Bakı idi. Qafqaz İslam Ordusu Gəncədəki erməniləri tərkislah edərək Stepan Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qüvvələrini Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi döyüşlərində məğlub edərək 1918-ci ilin sentyabrında Bakı şəhərini də düşmənlərdən azad etdi. Bu döyüşlərdə 1200-ə yaxın Türk əsgəri və zabiti şəhid oldu. Bakının azad olunması ilə Azərbaycan hökuməti Respublika hüdudlarında öz hakimiyyətini bərqərar etdi. Bundan sonra Nuru Paşanın başçılıq etdiyi ordu Bakıda qalmayıb Böyük Britaniya və Fransa birləşmələrini məhv etmək məqsədi ilə Təbriz, Bağdad, Suriya istiqamətində hərəkət etdi.

Həmin günlərdə müharibəyə yeni qoşulmuş Amerikanın köməyi ilə İngiltərə-Fransa qoşunları Almaniyanın silahlı qüvvələrini, Fələstində, türk ordusunu isə Suriyada məğlub etdikdən sonra Osmanlı İmperiyası təslim oldu. Sonra Avstriya-Macarıstan imperiyası komandanlığı Antantanın (İngiltərə, Fransa, Rusiya birliyi) diktə etdiyi barışığı imzaladı. Elə həmin gün Almaniyada inqilab başladı Xalq monarxiyanı devirdi. Ölkə respublika oldu. Yeni hökumət yarandı. 1918-ci ilin sübh çağı Kompyen meşəsində general Forsun mənzil qərərgahında

Almaniya ilə onun rəqibləri arasında sülh müqaviləsi imzalandı.

Dünya müharibəsi başa çatdı. İmzalanmış “Mudros” sülh müqaviləsinə əsasən Azərbaycan ərazisi İngilis qoşunlarının işğal zonasına daxil edilmişdi. İngilis komandanlığının buradakı dövlətin müstəqilliyi ideyasına necə yanaşacağı aydın deyildi. Azərbaycanda olduqları 10 ay ərzində, ilk əvvəl, bütün daxili işlərinə müdaxilə olunmasına baxmayaraq, başda Məmməd Əmin Rəsulzadə olmaqla ləyaqətli, savadlı, bacarıqlı Azərbaycan oğullarının sayəsində çox çətinliklə də olsa, bütün dövlət orqanları dövrə uyğun işlək vəziyyətə gətirildi. Bütün dövlət atributları: Milli Bayraq, Gerb, Himn təsis edildi. Milli pul təsis edildi və dövriyyəyə buraxıldı. Milli Şura Parlamentə çevrilərək yaxın şərqdə ilk parlamentli respublika, Türk və İslam



***Azərbaycan Respublikasının Dövlət gerbi***



***Azərbaycan Respublikasının Dövlət bayrağı***




***Azərbaycan pulu (1919-1920)***

dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi halına gəldi.

1919-cu ilin ortaları Azərbaycanda müxtəlif xarakterli daxili çətinliklərlə yanaşı, xarici müdaxilə təhlükəsi hələ də var idi. Qonşu Rusiyada burjua inqilabından sonra daha bir inqilab baş versə də, hər iki inqilaba əks olan könüllülərdən ibarət Denikin ordusu öz geniş fəaliyyətini davam etdirirdi. Briytaniya ordusu hər vəziyyətdə onu dəstəkləyir və yardım edirdi. Öz komandanlığını da Azərbaycandan Denikinin xeyrinə çəkmişdi. Bu ordu isə 1828-ci ildə Türkmənçay müqaviləsini əsas tutaraq Azərbaycana "burda müstəqil dövlət ola bilməz" notaları göndərirdi. Elə iqilab rəhbərlərindən də eyni tipli notalar gəlirdi. 1920-ci ilin əvvəllərində Rusiyada inqilabçılarla Denikin ordusu arasında yaşanan vətəndaş müharibəsi başa çatdı. Sovet Rusiyasının Azərbaycan Cümhuriyyətinə münasibətində göstərdiyi bu diplomatik fəallıq həm iqtisadi, həm də siyasi amillərlə izah olunurdu. Vətəndaş müharibəsindən sonra sovet hökuməti qarşısında dağılmış xalq təsərrüfatını bərpa etmək kimi çox çətin və mürəkkəb vəzifənin yerinə yetirilməsində neft amili mühüm əhəmiyyət kəsb edirdi. 1920-ci ilin yanvar - mart aylarında iki ölkə arasında baş vermiş diplomatik qarşıdurmanın əsasında məhz bu çətinlik dayanırdı. 1917-ci ilin martın 17-də V. İ. Lenin Qafqaz cəbhəsi inqilabi şura adından göndərdiyi teleqram - sovet hakimiyyətinin Azərbaycana münasibətindəki gizli niyyətlərindən xəbər verirdi. Teleqramda deyilirdi: "Bizim üçün Bakını ələ keçirmək son dərəcə vacibdir. Bütün səyləri bu istiqamətə yönəldin. Həm də bəyanatlar sırf diplomatik olmalıdır. Möhkəm yerli sovet hakimiyyətinin hazırlanmasında maksimum yəqinlik əldə edilməlidir".



***Fətəli xan İskəndər xan oğlu Xoyski (1875-1920)***

1920-ci il aprelin 15-də F. X. Xoyski Q. Çiçerinə sonuncu notasında göstərirdi "... Azərbaycanın sərhədləri yaxınlığında Dərbənd qəzasında Rusiya sovet hökumətinin xeyli hərbi qüvvələrinin cəmləşməsi müşahidə olunur. Sovet hökumətinin niyyətlərindən xəbərsiz olan Azərbaycan hökuməti göstərilən qəzalarda qoşunların cəmləşməsinin səbəb və məqsədləri haqqında təcili xəbər verməyinizi xahiş edir".

Öz müstəqilliyi uğrunda qərb dövlətləri ilə mübarizə aparan və sovet Rusiyasının hərbi və diplomatik yardımına ehtiyacı olan Türkiyə isə Şimal qonşusu ilə sıx əlaqə yaratmağa çalışırdı Ankara hökumətinin Rusiya hökumətinə ilk rəsmi müraciətində M. K. Atatürkün V. İ. Leninə məktubunda qeyd edilirdi ki, " ... Sovet qüvvələri Gürcüstana qarşı hərbi əməliyyata başlamaq və ya diplomatik yolla öz nüfuzu vasitəsilə Gürcüstanı ittifaqa daxil olmağa məcbur etsə, ingilisləri Zaqafqaziyadan qovmağa çalışsa, Türkiyə Qafqazdakı erməni qüvvələri ilə silahlı mücadilə etməyi və Azərbaycan Cumhuriyyətini Sovet dövləti dairəsinə girməyə məcbur etməyi öz üzərinə götürür".

Tərkibində keçmiş Türkiyə hərbi əsirlərindən ibarət XI Qırmızı ordunun Bakıdan yan keçməklə Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Qarabağ və Zəngəzurdan keçərək Anadoluya gəlməsi nəzərdə tutulurdu. Buna görə Azərbaycanın sovetləşməsi xəbəri Ankarada böyük razılıq hissi ilə qarşılandı.

## QİYASLI HADİSƏSİ

***"Bir insanın həyatını qurtarmaq bütün bəşəriyyəti qurtarmaq kimidir".***

Məhəmməd Peyğəmbər

1920-ci il aprelin 26-dan 27-nə keçən gecə içərisində Mikoyan da olan "III Beynəlmiləl" adlı zirehli qatarı Samur körpüsündən keçdi və yol boyu qəflətən yaxalanmış azsaylı və pərakəndə ordu hissələrinin müqavımətini qırmaqla Bakıya doğru hərəkət etdi. İki saatlıq qanlı vuruşmadan sonra zirehli qatar Yalama stansiyasını ələ keçirdi. Yalamada 30000 rus əsgəri yığışmışdı ki, Bakıya girsin. Belə də oldu. Gecə qatarla şəhərə gəldilər və şəhəri mühasirəyə aldılar. Qırğın olmasın deyə, Parlament təslim oldu. Bu zaman ordu Azərbaycanın qərb sərhəddində mənfur ermənilərlə itirilmiş mövqelərin alınması uğrunda döyüşlərdə idi. Yəni Sovet ordusu Bakını almaq üçün belə plan qurulmuşdu- İrəvan tərəfdən ermənilər aldadıcı hücum, həmlə edərək diqqəti yayındırıb Azərbaycan ordusunun silahlı qüvvələrini özünə tərəf yönəldəcək, Bakı isə müdafiəsiz qalacaq. Qurulmuş plan baş tutdu. Beləliklə, aprel çevrilişi xarici qüvvələrin "İldırım sürətli, öldürücü" yürüşü nəticəsində həyata keçdi.

Daxildə bu çevrilişin tərəfdarları kimi özünü göstərənlər olsa da, gəlmələr üçün bu çevriliş işğaldan başqa bir şey deyildi. Elə özlərini işğalçı kimi aparırdılar. Bu gəlmələr ermənilərə dəstək verərək uduzmuş və varyoxdan çıxmış dövlət adına və şəxsən özləri üçün talançılıq və cinayətlər edirdilər.

Həm bu talançılıq və cinayətlərə qarşı həm də ümumilikdə quruluşa qarşı etiraz edən Azərbaycan qüvvələri isə açıq müba-

rizə aparmağa başladı. Aparılan mübarizə Bakıda baş verən çevrilişdən heç bir ay keçməmiş Gəncədə üsyan, qiyam formasını aldı. Üsyanın başlıca səbəbi camaatın xarakterindən qaynaqlanırdı. Haqsızlıqlara dözüm onlara yad olduğundan Azərbaycanlılar öz etirazlarını ucaltdılar. Konkret desək Qızıl ordu Gəncəyə girərkən Azərbaycan ordusunun hissələrini tərkislah etməyə başladı. Üstəlik bunu alçaldıcı şərtlərlə etdi. Gələn ordu tör-töküntüdən ibarət idi. Onlar soyğunçuluqla məşğul olurdular. Buna görə Gəncədə yerləşən Azərbaycanın nizami ordusunun alayları mayın 25-də üsyançılarla birlikdə Qırmızı ordunun kazarmalarını mühasirəyə aldılar və əsir götürdülər. Bir həftə ərzində Cavad bəy Şıxlinski, Məmməd Mirzə Qacar və Cahangir bəy Kazımbəylinin başçılıq etdiyi üsyançılarla Gəncəyə daxil olmaq üçün gələn Qırmızı ordunun qalan hissəsi ilə qızğın müharibə baş verdi. Üsyanın idarə şurasında Gəncənin sayılan ağsaqqalları da iştirak edirdi. Gəncəni hər tərəfdən mühasirəyə alan ordu şəhəri top atəşinə tutmağa başladı. Atılan top atəşlərinin səsi Ağdama qədər gəlirdi.



***Məmməd Mirzə Qacar (1862-1928)***

Bu vaxt Şuşada və Ağdamda yerləşdirilmiş qoşun hissələri qiyamla əlaqədar Yevlax dəmiryol stansiyasına tərəf hərəkət etməyə başladı. Qarabağda addımbaşı rast gəlinən qoçaq,



***Gəncə qiyamı 25-31 may 1920***

quldur dəstələri Gəncəyə gedən kiçik hərbi hissələrə hücum edir, yalqız əsgərləri öldürüb silahlarını götürürdülər. Hər tərəfdən atışma və yaylım atəşləri gəlirdi.

Bolşeviklər üsyanı yatırtmaq üçün Gəncəyə böyük hərbi qüvvə və silah-sursat yeritdilər. Mayın 30-da Gəncədə XI Qırmızı ordunun 5 piyada, 6 süvari alayı, 7 əlahiddə hissəsi, 57 topu və 2 zirehli avtomobili vardı. Gəncə ermənilərі bu döyüşdə ruslara kömək edirdi. Mayın 31-də üsyan yatırıldı. Şəhər qan gölünə çevrildi. Bu döyüşdə bir həftə içində 12 min azərbaycanlı, bolşeviklər tərəfdən isə 8 min hərbiçi öldü.



***Azərbaycan milli ordu generalları və zabitləri***

Azərbaycanın başqa yerlərində də belə üsyanların baş verməməsi üçün kommunistlər dəhşətli kütləvi terrora əl atdılar. Üsyan qəhrəmanlarından Qacar Qəmbər, general Mayor Məmməd Mirzə Qacar, görkəmli iştimai-siyasi xadimlər İsmayil xan Ziyadxanlı, Abuzər bəy Rzayev , müəllim Mirzə Abbaszadə, böyük ziyalı Firudin bəy Köçərli və başqaları qətlə yetirildi. Eyni zamanda, Azərbaycan ordusunun 12 generalı, 27 polkovnik və podpolkovnik, 46 kapitan və ştabskapitan, paruççik və podpariççik, 146 praporşik və podpraporşik, 267 hərbi qulluqçu həmin terrorun qurbanı oldu. Təkcə Nargin adasında Gəncə valisi (general qubernatoru) Xudat bəy Rəfibəyovlabirlikdə 79 yüksək çinli zabit məhkəməsiz - sübutsuz güllələndi.

OOO

Bu xəbərləri bildiklərinə görə bütün əhali böyük çaşqınlıq içində idi. Bolşeviklər Gəncədən sonra Qarabağa gələsi olduğundan buranın əhalisi daha çox narahat idi. Narahatçılıq, təşviş və təlaş hamıya sirayət etmişdi.

İbrahım qorxu və təlaş içində ozünü Hüseyinalı bəyə yetirdi.

- Nə xəbər, İbrahim? - deyə bəy İbrahimin üzünə baxdı.

Bəyin baxışından İbrahim anladı ki, bəy bu sualla onun gətirdiyi xəbərə yox, onun təlaşına işarə edir. Ona görə bir anlıq susdu.

- Mən həmişə sənə deyirəm Əziz dostum, səbirli, soyuqqanlı olmaq lazımdı. Vəziyyətin təlaş yaradacaq qədər qorxulu olduğunu bilirəm. Ancaq bütün camaat içində bir neçə soyuqqanlı, ağılla hərəkət edən adam olmalıdır ki, vəziyyətə nəzarət etmək mümkün olsun. Bəladan daha az zərərlə çıxa bilsin. Bu adamlar isə həmin bu işi vəzifə bilməli, borc kimi baxmalıdı. Yoxsa, vəziyyətimiz daha betər olar.

- Anladım bəy. Allah sizi bu Qaiyaslı, Ağdam camaatına çox görməsin.

- Hə, indi danış görüm nə xəbərlə gəlmisən.

- Bəy, müxtəlif təxribatçı şayiələr gəzir. Deyirlər Gəncə üsyanını yatırmış qoşun qəzəb içində Qarabağa gəlir. Qarşılarına çıxan nə varsa, yandırıb qana boyayıb yerlə-yeksan edirlər. Hamı qaçmağa Arazın otayına keçməyə hazırlaşır. Çox qorxunc söhbətlər gəzir, danışırlar qoşunlar rast gəldikləri 5-7 yaşdan yuxarı bütün başı papaqlıları aman vermədən öldürürlər. Camaatın çoxu bütün bu söhbətlərə inanır və dəhşət içində evlərini tərk edirlər. Şayiələr demək olar aləmi bürüyüb.

Yevlax-Xaldan tərəfdə insanlar ev-eşiklərinı, olan-olmazını qoyub hara gəldi üz tutub qaçırlar.

- Bəs buralarda təəssürat, vəziyyət necədi, camaar nə plan qurur?

- Elə həmin təlaş burda da yaşanır. Rəşid bəy Yavaşallı məhəlləsinin Uzundərə tərəfində səngər qazdırmaq istiyirdi. Bəlkə də artıq başlayıb. Camaata danışır ki, döyüşmək lazımdı. Bir neçə ailə isə yığışib kənddən çıxıb. Gedənlər üz tutir Arazın o tayına. Ancaq əksəriyyət sizinlə görüşməmiş bir qərar vermək istəmir. İndi axşamdan keçib, gecdi. Məsləhət bilsəniz sabah xəbər edərəm, gəlmək istəyənlər böyüklü-kiçikli yığışarıq. Hamı sizi dinləmək istəyir.

- Neynək gecənin xeyrindən gündüzün şəri yaxşıdı.

İbrahim ayrılıb gedəndən sonra bəy evə qayıtdı. Pilləkənlərlə yuxarı qalxanda Xanım ana onu çox qayğılı, düşüncəli gördü. Ancaq heç birşey demədi. Bəy keçib əyləşdikdən sonra ona çay gətirərək astadan soruşdu.

- Bəy, nə düşünürsən? Camaat yaman təlaş içindədi. Nədi bu başımıza gələnlər, bu işlərin axırı necə olacaq?

- Əvvəla, sənə bu təmkininə görə təşəkkür edirəm. Kaş ki hamı sənin kimi səbirli, təmkinlı olaydı.

- Mən təmkinliyəm, çünki səni bilirəm, sənə inanıram, elə camaat da sənə inanır. Ancaq Dürrə qızımız yaman qorxur. Xanlardan da ehtiyat edirəm. Cox gəncdi, bir təcrübəsizlik, ehtiyatsızlıq etməyindən narahatam. Bir bilsəydik bu işlərin axırı necə oçacaq?

- Xanim ana eyni sualı günlərin bir günü səhabələrdən bir nəfər Peyğəmbərimiz səllallahu əleyhi və ali və s-səlləmə verir. Cavabında Peyğəmbərimiz deyir ki:“Allahın rəsulu olsam da, mən də sizin kimi bir insanam. Sabah yalnız cənabu Allaha bəl-

lidi" - deyə cavab vermişdir.

- Bəs nə cür hərəkət etməyi düşünürsünüz?

Hər zaman böyük sözu ilə oturub-durmağı doğru yol hesab edən bəy bir az düşünərək:

- Nizami böyüyümüz belə deyir:

Bu səhranın gövhəri təkçə dindir, yalnız din
Yalnız odur çarəsi bu qədər müşküllərin.

Bizi qarşıda gözlər nə gədər möhnət, kədər
Gəlhagəl dərdlərimiz yalnız din ilə gedər.

- Mən dinimizin buyurduğu kimi, insanlığı qorumaq adına əlimdən nə gəlirsə edəcəyəm.

- Köçmək barədə nə düşünürsən? Axı bizim Bakıda da, Təbrizdə də evlərimiz var. Ailəni bu atəşdən uzaq tumaq insanlığı qorumaq deyilmi?

- Hər şey Allahın əlindədi. Əvvəla, ailə barədə deyim ki, mən bütün camaatı özümə ailə, özümü də bu ailənin bir üzvü hesab edirəm. Bunu bilirsən. Bu camaatın ağsaqqallarını, ağbirçəklərini öz valideynlərim, yaşıdlarımı öz bacı-qardaşlarım, gəncləri öz övladlarım hesab edirəm və bunu həmişə dilimdə deyərək, dar gündə hamı əl-ələ verməlidi demişəm və inanmışam. İndi mən bu camaatı qoyub harasa köçub getsəm, hər şeydən əvvəl öz sözümü inkar etmiş, yəni özüm özümü inkar etmiş olaram. Bu isə mənə yaraşmaz. Lazım gələrsə, bu Allah yolunda, camaat-torpaq uğrunda qurban gedərik. Bu isə sözünü yeyərək şərəfsiz yaşamaqdan əlbəttə yaxşıdı.

Xanım ana diqqətlə qulaq asırdı.

- Qurban demişkən. Tanrımız qurban mövzusunu dinimizin təməli kimi bizə anladır. Xanım, sadəcə xatırına salıram İbrahim

peyğəmbərimiz Tanrıya tamamilə inandığını göstərərək öz oğlu İsmayili qurban verməyə razı olduğunu təsdiqlədiyi məqamda Allahımız onun oğlu əvəzində bir qoç göndərdi. Unutmayaq İbrahim peyğəmbərimizin tikdiyi kəbə evi indi bütün müsəlmanların qibləsidi. Əgər biz buna inanırıqsa, sonraya yalnız bir tək məsələ qalır: Yaradana inanaraq onun göstərdiyi yolun nədən ibarət olduğunu görmək və bu yolla getmək.

- Allah köməyin olsun bəy, bəsirətin açıq olsun.

Növbəti günün axırına qədər yığıncaq barədə məlumat hamıya çatmışdı. Yığıncağa Qiyaslı kəndinin bütün tayfalarından ağsaqqallar, ortayaşlılar və cavanlar Hüseynalı bəyin həyətinə, məktəbin qabağına yığışmışdılar. Yığıncağın iştirakçıları əsasən ağsaqqallar və bəylər məsələ barədə öz fikirlərini danışırdılar. Burda vəziyyətin gərginliyini artıran məsələ o idi ki, Qarabağı işğal etmək üçün gələn XI Qırmızı ordunun ən ehtimal olunan yolu Gəncə, Yevlax, Bərdə, Ağdam, Əsgəran, Xankəndi, Şuşa olması idi. Ordunun Ağdama girişi isə Uzundərədən gəlməklə Qiyaslı kəndinin içindən geçməli idi. Bu günə qədər gəzən şayiələr içində bolşeviklərin fəhlə, kəndli hökumət olması barədə də söhbətlər gəzirdi. Ancaq Gəncə qiyamında bu qədər adam qırılması ilə nəticələnən kütləvi terrordan sonra, üstəlik Qarabağ əhalısinin, xüsusilə ağdamlıların döyüşkənlikdə, davakarlıqda ad çıxarmalarının bolşeviklərə yaxşı məlum olduğunu camaat yaxşı bildiyindən bu söhbərlərin doğruluğuna cox az ehtimal edilirdi. Nəinki az ehtimal edilir, hec zərrə qədər inam yox idi. Gələnlərin işğalçı olmaları göz qabağında idi. Hüseynalı bəy yığıncağa gələnə qədər iki gün öncə bir neçə ailəni Arazın otayına qoyub burdakı evlərə göz-qulaq olmaq üçün qayıdan kənd cavanlarından biri at belində gəlib çıxdı. Danışdı ki:

- Yolda köçkün karvanlarına hücum edirlər. Əvvəl yolda xə-

bər buraxılar ki, ordu qaçanları sahibsiz, müdafiəsiz görüb öldürür. Sonra yaylım atəşləri ilə adamları qorxuzurlar ki, əşyalarını qoyub qaçsınlar, onlar da rahat qiymətli əşyalara sahib çıxsınlar. Quldurlar artıq bir neçə dəfə belə ediblər. Belə də olur bölgələrdə olan hərbi qüvvələr qaçan camaata basqın edir. Elə biz özümüz Xudafərini atəş altında keçmişik.

Rəşid bəy çılğınlıqla, əl-qolunu hərəkət etdirə-etdirə danışmağa başladı:

- Mən təklif edirəm döyüşək. Bu səhər tapşırdım səngər qazsınlar, axşama qədər 10 metr qazılıb. Ölmək varsa qoy döyüşüb ölək. Bizi öldürməyə gələn adamın qabağında sakit dayanası deyilik ha!

Səhərdən Ağdama gedən Hüseynalı bəy müzakirənin bu yerində gəlib çıxdı. Yığışanların çöx həyəcanlı olduğunu görərək umumi salam verib sakit dayanmaq istədi ki, hər kəs öz fikrini bildirsin. Rəşid bəy danışmağa davan edərək:

- Hətda məsləhət olsa qorxmaz, doyüşkən adamlarla gələnlərə gecə basqını da eləmək olar.

Beləliklə irəli sürülən təkliflər içərisində bir qrup döyüşməyi, digər qrup əhalini təhlükəsiz yerlərə - əsasən Arazın o tayına getməyi təklif edirdi. Hamı fikrini deyəndən sonra Bəşir bəy Hüseynalı bəyə müraciətlə:

- Bəy, sən necə düşünürsən?

Araya dərin sükut çökdü. Hamı bəyi ümidlə dinlədiyini sükutla bildirirdi.

- Əziz camaatımız mən tamam fərqli düşünürəm. Əvvəlcədeyilən təkliflərə oz münasibətimi bilədirmək istəyirəm.

Birincisi, döyüşmək deyəndə ələ silahı götürüb kənd camaatını təşkil edib bir orduya qalib gələcəyimizi mən real hesab edə

bilmirəm. Mənim fikrimcə, əgər döyüş qərarımız olsa, onda gərək bütün Qarabağ birləşə. Səngəri də Yavaşallıda, Həlimlidə yox, Ağdamın yuxarı hissəsində qurub dağları sipər alaq ki, bəlkə, bu dünya müharibəsində iştirak edən, məğlub olsa da bizimlə müqayisədə çox iri ölkənin böyük ordusu qarşısında duruş gətirə bilək-
. Hətta belə olsa da, Ağdam və Qiyaslı ərazisi döyüş meydanı olacaq. Bu vəziyyətdə evlərimiz, yuvalarımız dağılacaq, əhali qırılacaq, pərən-pərən düşəcək. Ustəlik bu işin təşkilinə inansaq belə buna vaxt yoxdur. Deyilənlərə görə, ordu Qarabağa gəlmək üçün Gəncədən çıxıb.

İkinci məsələ isə qaçqınlıq məsələsidi. Bildiyimə görə artıq bir neçə ailə yığışıb kənddən çıxıb. Məsələnin miqyasını fikirləşəndə gərək əhali daha uzaq yerlərə köçürülsün. Yəni Azərbaycandan kənara. Mən hesab edirəm bu doğru olmazdı bu baxımdan ki, bu məsələyə zaman məfhumunu qatanda görürük ki, millət get-gedə başqalaşır. Heç uzağa getməyək artıq 100 ildir millətimiz çox hissəsi Arazın o tayında başqa qanunlarla, başqa şəraitdə yaşayır.

Yaxud başqa sözlə deyim, digər ölkəyə koçürülüb gedilməsi millətin assimlyasiyası deməkdir. Assimlyasiya o deməkdir ki, bir millət məcburi olaraq başqa daha büyük bir millətin arasına köçürülürməsi nəticəsində bu millətin əriməsi baş verir. Yəni bir millət - camaat öz varlığını itirir. Köçmək işi elə burada qalmaq qədər təhlükəlidi. Ətraf yollarda köçkün karvanlarını soymağa hazır olan o qədər silahlı quldur var. Bu barədə mənsiz belə sizin məlumatınız var.

Mən başqa yol təklif edirəm. Formalaşmış hər iki təklifdə əhalimizin - camaatımızın real qırğın və talan olunması, sağ qaldıqda isə başqa millətin içərisində əriyib yox olması riskini nə-

zərə alaraq bunların baş verməməsi üçün Azərbaycan Demokratik Respublikasının rəhbərlərini özümdən daha təcrübəli və dünyagörüşlü hesab edərək, onların yolunu tutub gələn ordu ilə danışıqlara getməyi təklif edirəm.

Hamı diqqətlə dinləyirdi. Birdən Rəşid bəy səbirsizliklə yerindən dilləndi.

- Axı parlamentdə siyasətçilərlə danışığa getməklə burada əlisilahlı ordu ilə danışmaq eyni deyil?

- Bilirəm. Hesab edirəm əllərinə səbəb versək bütün Qarabağa görk olsun deyə Qiyaslını və ətraf kəndləri, bəlkədə Ağdam bölgəsini yerlə-yeksan etməkdən çəkinməyəcəklər. Ancaq dünya müharibəsindən çıxmış, zəif düşmüş ordu əllərinə səbəb verməyincə bütün əhalini qırmaq, bu işə hərbi sursat xərcləmək istəməyəcək. Üstəlik ətraf ölkələrlə, - məsələn: Türkiyə ilə artıq 1918 -ci ilə qədərki sərhədlərini bərpa etmək barədə razılığa gəliblər.

Mənim təklif etdiyim yol böyük sərkərdəmiz Azərbaycanın dahi oğlu Şah İsmayil Xətainin sözü ilə desək:

Söz vardır kəsdirər başı,
Söz vardır kəsər savaşı.

Bu yol da riskli yoldur. Amma bu risk bütün əhaliyə deyil, onun sayseçmə oğullarınadır. İşğalçı dövlətlərin gizli tarixlərinə nəzər salsaq görərik. İşğaldan sonra işğal etdiyi ərazinin öndə gedən oğullarını öldürüb təmizləyir ki, bu milləti istədiyi kimi idarə edə bilsin. Mən fəxr edərəm belə oğullardan olsam və istərəm bu millət, bu torpaq uğrunda şəhid olum. Təki bu millət öz torpaqlarda yaşasın. Əhalinin kütləvi qırılması, yaxud başqa millət arasında əriməsi onun məhvi deməkdir. Ancaq bu millət bu

torpaqda yaşadıqca olabilər öz dövlət müstəqilliyini və sayseçmə oğullarını itirsin, qorxu yoxdu. Qoy mənim başım bu millətə fəda olsun. Ancaq bu millət bu torpaqda qalsın. İnanıram ki, belə olsa, aradan 50, 70, bəlkə də, 100 il keçəcək bu millət yenə sayseçmə oğullar yetişdirəcək və dövlət müstəqilliyini elə bu torpaqda bərqərar edəcək.

Bəyin təklifi hamını mat qoymuşdu. Əsas bəyin "Qoy mənim başım bu camaat, millət yolunda fəda olsun" sözü onları daha da cəsarətləndirmişdi. Hamı bir nəfər kimi eyni şeyə inanmasa da, əksəriyyət Hüseynalı bəyin tutduğu yolu doğru hesab edirdi, ona güvənirdi.

OOO

Bu vaxt çöl işlərinin ən qızğın çağı idi. Biçinçilər arpanı biçib qurtarmamış, bəzi yerlərdə isə buğdanı biçiməyə heç başlamamışdılar.

Aradan iki gün kecmiş Uzundərədə keşik çəkən gənclər xəbər gətirdilər ki, Öndə atlı süvari dəstə arxasınca piyada alayı gəlir. Xanlarla Səlim xəbəri İbrahim kişiyə çatdıran kimi:

- Dayanmayın, tez çapın Ağdama. Bəy səhərdən gedəndi. Ağdamda bəylərlə, ağsaqqallarla görüşəcəkdi. Soraqlayın tapın xəbəri çatdırın.

Gənclər dayanmadan yola düşdülər. İbrahim Səfərə də tapşırıq verərək:

- Sən bir tərəfdən, mən bir tərəfdən camaatı xəbərdar edək. Qoy tədbirli olsunlar. Hər cür hadisə baş verə bilər. Bəyə xəbər yolladım, gəlsin görək başımıza nə gəlir.

İbrahimlə Səfər kənddə olanların hamısına xəbər çatdırınca kəndin Uzundərə tərəfində kəndə bitişik olan sahənin ayağına

süvari dəstə gəlib çatdı. Bu zaman burda olan taxıl sahəsinin sahibi kənd sakini Qırmızı Hüsən həyəcanından nə edəcəyini bilməyərək əlindəki tüfəngdən dəstəyə tərəf güllə atır. Güllə dəstədəki əsgərlərdən birinin atına dəyir. At süvari ilə birlikdə yerə yıxılır. Atəş açılan kimi yanlış etdiyini başa düşərək dərhal taxılın içində gizlənsə də, yaxında olan silahlı süvari dəstə atəş səsindən güllənin hardan gəldiyini başa düşdülər. Həmin istiqamətdə yaylım atəşi açaraq atlarını həmin istiqamətə sürürlər. Dəstədən ayrılan bir neçə atlı taxılın içində Hüsəni mühasirəyə alıb tutur. Taxılın içərisindən çıxardıb kəndlə taxıl arasındakı yola tərəf gətirirlər. Nə baş verdiyini aydınlaşdırmaq istəyi ilə səsə gələn kənd sakini Abbas kişi onlara yaxınlaşınca "cəlladlar" Qırmızı Hüsəni Abbas kişinin gözü qabağında Şaşka ilə (Şaşka - o zamkı əsgər qılıncı) əvvəlcə qollarını kəsdilər, sonra isə onun başını yerdə çabalayan bədənindən ayırdılar. Abbas kişi məsələni belə görüncə yerindəcə donub qalır. Süvarilər yaxınlaşıb onu da tutub sorğu-sualsız elə həminki kimi doğrayırlar. Həmin yol olan ərazi öldürülənlərin qanı ilə alqırmızı rəngə boyandı. Uzaqdan bu hadisəni görənlərin heç biri bura yaxınlaşa bilmir. Çünki süvarilər əllərindəki silahlarla və araba ilə gətirdikləri pulemyot ilə kəndi atəşə tutmağa başladılar.





Hədəfdə gözə görünən

insanlar və evlər idi. Arası kəsilmədən atılan pulemyot güllələri kəndin ağaclarını mişar kimi kəsib salır, evlərin damlarını və pəncərələrini qırıb tökürdü. Kəndin güllələnməsi xeyli davam etdi. Süvari dəstənin kəndin içərisində yalnız dinc əhalinin, yaxud Gəncədəki kimi silahlı qüvvənin olması barədə dəqiq kəşfiyyat məlumatı olmadığından hələlik kəndə girməyə cürət etmirdilər. Arxadan gələn Uzundərədən çıxmaq üzrə olan piyada alayını və onların arxasınca içərisində zirehli avtomobil, top və digər ağır silahları olan əlahiddə hissənin gəlməsini gözləyirdilər. Bu məqamda Hüseynalı bəy Qiyasliya gəlib çatdı. Təcili olaraq İbrahim həyəcanla məlumat verdi.

- Bəy qadan alım özünü yetir, yoxsa camaatı qırırlar.

- Kəndə giriblər?

- Yox, hələ, nəsə kənardan atırlar. Amma birinci atəş biz tərəfdən açıldı. Onlar da Qırmızı Hüsənnən Abbas kişini camaatın gözü qabağında doğrayıblar. Sonra başladılar kəndi atəşə tutmağa.

- Aydındı, qüvvənin dalının gəlməyini gözləyirlər. Hələlik bilmirlər kəndin içində nə var, nə yox. Amma quvvə gələn kimi kəndi "şumluyajaxlar"

- Bəs neynəməliyik?

- Sən belə elə. Qırğın olmasın deyə əlavə bir iş görməliyik.

- Nə iş?

- Evlərə xəbər çatdırın! Qırğın olmaması üçün hər kəs evin pəncərəsindən ağ bayraq assın. Mən hazırlaşıb onların qabağına çıxacam.

- Nə hazırlaşmaq bəy?

- Heç, sən dediyimi elə. Bir də əli silahlılara de ki, bundan sonra biz tərəfdən hər hansı bir atılan güllə hamımızın öldürülməsi, evlərimizin talanması deməkdir.

- Baş üstə bəy.
- Elşada de, tez Xanları tapıb evə yollasın.
- Oldu bəy.

İbrahimdən ayrılıb evə çatandan bir az sonra oğlu Xanlar da evə gəldi.

- Bala tez bir dənə ağ bayraq düzəlt. Sonra bu qızılları yüklə atın belinə. Xanım ana sən bir duz - çörək hazırla.

Bu məqamlarda evlərdə ağ bayraqları görəndən sonra atəş səsi azalmağa başladı. Ancaq ordu hələ də şübhələndikləri istiqamətlərə atəş açırdılar

- Xanları aparırsan?! Deyə həssas ana urəyi Xanım ananı dilləndirdi.

- Xanım, artıq qan tökülüb. Mən, doğrudan da, bilmirəm onları necə inandıracam ki, mən buranın sözü keçən adamıyam. Gözü qanlı, əli silahlı, adama söz inandırmaq üçün gərək Allah özü adama kömək olsun.

- Allah özü köməyiniz olsun, - dedi və Xanım ananın, gözləri doldu. Yeniyetmə qızı Dürrə də anasının sol qolundan tutub üzünü onun çiyninin arxasında gizlədib qorxudan için-için ağlayırdı

- Namusumuz Allaha əmanət, Allahu Əkbər - deyib Hüseynalı bəy evdən çıxdı.

Bəy aşağı enəndə Xanlar qızıl pulları ata yükləyib, bayrağı da hazırlayıb ata minmişdi. Hüseynalı bəy atlanınca Xanım ana duz - çorəyi gətirib Xanlara verdi.

OOO

İki atlı kəndin Uzundərəyə tərəf axırıncı evinin yanından orduya görünən tərəfdəki yamaca çıxanda Xanlar Hüseyinalı

bəyin tapşırığı ilə onun ardinca gəlirdi. Bu vaxt onlara tərəf bir neçə güllə atıldı. Öldürmək məqsədi ilə atılmış güllələr hədəfdən yan keçərək onların yaxınlığından uçuşurdu. Güllələrdən biri bəyin sol çiynindən bir az aşağı paltarını dəlib keçdi. Atılan atəşlərə baxmayaraq, bəy hərəkətini davam etdirdi. Bunu belə görən ordu kamandirləri bölmələrə atəşi dayandırmağı əmr etdi.

Hüseynalı bəy kəndin ayağındakı "Qoşatəpə" adlanan kiçik təpələrin arxasında qurulmuş ordu qərərgahına çatanda Pankratov familiyalı ordu başçısı xeyli əvvəl gəlib çatmış, vəziyyət barədə məruzə dinləyir, kəndə hücum planını müzakirə edirdi. Onunla görüşmək üçün gələn olduğunu köməkçisi məruzə edərək rus dilində:

- Deyəsən, başcıları gəlib, yerli dili bilən bir süvarimiz var, çağırtdırdım indi gələcək.

- Nə cür adamdı?

- Vəhşi xalqın nümayəndəsidi, necə olacaq? Ağbayraq qaldırdıqlarına görə yəqin kənddə hərbi qüvvə yoxdu. Başcıları bu gələndisə, elə onu burda öldürək, işimizə davam edək.

- Bəli, buraların böyüyü mənəm - deyərək Hüseynalı bəy rus dilində danışmağa başladı. Məni vəhşi adlandırsanız da, baxın mən sizin dildə danışmağı bacarıram. Ancaq siz mənim dilimdə danışa bilmirsiniz. Vəziyyətə görə sərt danışmağa başlayan bəy:

- Tərcüməçiyə gərək yoxdu, - dedi.

Milli geyimdə, bir kənddə qarşılarına çıxmış adamın belə mükəmməl danışması qərərgahda olanları çox təəccübləndirdi. Hamısı çevrilib Hüseynalı bəyə baxırdı.

- İndi deyin görüm nə olub? Biri təlaşdan bir güllə atıb bir at ölüb. Siz artıq iki adam doğramısınız. Bizim camaat da döyüş

nədir bilirlər. Bu nədir, ağ bayraq qaldırıldıqdan sonra yenə güllə atırsınız. Belə olmaz. Mən bura hədiyyə və duz çörəklə gəldim deyim ki, buranın böyüyü mənəm və sizə zəmanət verirəm bundan sonra bu ərazidə və Ağdamda sizə qarşı güllə atılmayacaq.

Bəyin bu cür cəsarətlə danışması qarşısındakıları tərəddüdə saldı

- Sözümə girov kimi özümün və oğlumun başını gətirmişəm. Əlavə itki nə bizim camaata lazımdı, nədə sizin orduya.

Deyilən sözlərə etibar etmirmiş kimi ordu başçısı Pankratov köməkçisinə baxanda Hüseynalı bəyin arxasından çox tanış bir səs gəldi.

- Müraciət etmək olar yoldaş baş komandan.

Hüseynalı bəy geri çönüb baxanda qərərgahın girişində Kəlbəcərdən müəllim işləmək üçün gətirdiyi Denis Kliçkonu gördü. Elə bu məqamda Ponkratov:

- Bu adamı tanıyırsanmı?

- Özüdürki, var yoldaş baş komandan. Əlbəttə tanıyıram.

- Necə tanıyırsan?

- Bu adam nə desə həmin sözün doğruluğuna mən cavabdeh dura bilərəm. O doğrudan da, burada millət atasıdı.

Hüseynalı bəy bu sözdən sonra Ponkratovun sükut etdiyini görən kimi Xanlara işarə etdi ki, qızılları gətirsin. Xanlar cəld qızıl dolu sandığı gətirib generalın yanına qoydu. Qızılla dolu sandığın ağzını açdı və bağladı. Duz - cörəyi də üstünə qoydu.

- Belə vəziyyətdə lüzumsuz qırğına gərək yoxdu, - deyərək Pankratov çörəkdən qırıb duza batırdı və ağzına qoydu, Hüseynalı bəyə baxdı.

- Əlbəttə, - deyərək Hüseynalı bəy də çörəkdən qoparıb duza batırıb ağzına qoydu. Bir-birimizi düz başa düşdüyümüzə çox

şadam.

- Bəs yerli əhali, bilirmi sən bu güllə qabağına özünü verməsəydin, burada nələr baş verəcəkdi?...

Bundan sonra XI Qırmızı ordunun əlahiddə hissələri də gəlib çıxdı. Ordu nəinki Qiyaslıya, hətda Ağdama girməyərək cöl yolu ilə əhalı üçün qan-qadasız yollarına davam etdi.

***03 Avqust 2015***
***Saat 03:40.***

## HEÇ BİR CƏMİYYƏT ŞƏXSİYYƏTSİZ YAŞAYA BİLMƏZ.

*Heydər Əliyev*

### Epiloq əvəzi

Olmuş hadisələr əsasında real insan haqqında yazılmış bu əsərdə Hüseynalı bəyin timsalında nümunəvi insan obrazı canlandırılmışdır. Əsər qəhrəmanının bir çox fəaliyyətləri haqqında qədirbilən camaatımız qeyrətli oğullarını heç vaxt unutmayaraq onun xatirəsini bu günə qədər yaşadır.

Əsərdə heç bir şişirtməyə yer verilməmiş və Hüseynalı bəyin yalnız kitabda verilən dövrdə (1906 - 1921 ci illər arası) Qiyaslı kəndində göstərdiyi fəaliyyət, gördüyü işlər barədə həqiqi məlumatlar verilmişdir.

Maariflənmə yolunda əməli fəaliyyət göstərərək savadlı, bacarıqlı vətəndaşların müstəqil dövlət qurulması və yaşadılması üçün ən vacib amil olduğuna inanır və bunu təbliğ edir.

**"Yaxşı o ola bilər ki, əgər yetərli sayda savadlı, bacarıqlı xalq nümayəndələrimiz olsa, Dövlət müstəqilliyimizi elan edər və onu yaşada bilərik".**

Hətta bu yolda lazım gələrsə özünü qurban verməyə hazır olan Hüseynalı bəy bütün risklərə baxmayaraq, əməli addımlar atır. Hər vəchlə əhalinin sağ-salamat öz yerlərində yaşamasına çalışır. Həqiqətən, dövlət müstəqilliyimiz əldən getsə də, aradan 70 il keçəndən sonra yenidən müstəqil dövlətimiz quruldu.

**Bu yol da riskli yoldur. Amma bu risk bütün əhaliyə deyil, onun say-seçmə oğullarınadır. İşğalçı dövlətlərin gizli tarixlərinə nəzər salsaq, görərik ki, İşğaldan sonra işğal etdiyi ərazinin öndə gedən oğullarını öldürüb təmizləyir ki, bu milləti istədiyi kimi idarə edə bilsin. Mən fəxr edərəm, belə oğullardan olsam və istərəm bu millət, bu torpaq uğrunda şəhid olum. Təki bu millət öz torpaqlarında yaşasın. Əhalinin kütləvi qırılması, yaxud başqa millət arasında əriməsi onun məhvi deməkdir. Ancaq bu millət bu torpaqda yaşadıqca ola bilər öz dövlət müstəqilliyini və say-seçmə oğullarını itirsin, qorxu yoxdu. Qoy mənim başım bu millətə fəda olsun. Ancaq bu millət bu torpaqda qalsın. İnanıram ki, belə olsa, aradan 50, 70, bəlkə də, 100 il keçəcək bu millət yenə say-seçmə oğullar yetişdirəcək və dövlət müstəqilliyini elə bu torpaqda bərqərar edəcək.**

"Qurani-Kərimi" əzbər bilən bəy inancının istinad yerı kimi həmişə kitaba əsaslanmışdır. Camaatın dar günündə kəfən alınmasını təmin edərək müsəlman adət və ədəb qaydalarının pozulmamasına nail olmuşdur. Xalq da onun adını əbədiləşdirmişdir.

**“Dərd, bəla qeybdən gələndə, kəfən də Hüseynalı bəydən gələr”.**

**``Qarabağ Zərb Məsəli`` (“Atalar sözü” kitabından. Azərnəşr 1985)**

İnsanlığı qorumaq adına camaatı öz ailəsi bilən bəy bütün addımlarını bu istiqamətdə ataraq əsl qeyrətli Azərbaycan kişisinin simvoluna çevrilmişdir.

**Hər şey Allahın əlindədi. Əvvəla, ailə barədə deyim ki,**

**mən bu bütün camaatı özümə ailə, özümü də bu ailənin bir üzvü hesab edirəm. Bunu bilirsən. Bu camaatın ağsaqqallarını, ağbirçəklərini öz valideynlərim, yaşıdlarımı öz bacı-qardaşlarım, gəncləri öz övladlarım hesab edirəm və bunu həmişə dilimdə deyərək, dar gündə hamı əl-ələ verməlidi demişəm və inanmışam. İndi mən bu camaatı qoyub harasa köçub getsəm, hər şeydən əvvəl, sözümü inkar etmiş, yəni özüm özümü inkar etmiş olaram. Bu isə mənə yaraşmaz. Lazım gələrsə bu Allah yolunda, camaat, torpaq uğrunda qurban gedərik. Bu isə sözünü yeyərək şərəfsiz yaşamaqdan, əlbətdə, yaxşıdı.**

Dövrünün ziyalı insanı olaraq mənfur ermənilərin və onun arxasında duranların məqsədini dərk etmiş və bu məqsədin həyata keçməməsi üçün fəaliyyət göstərmişdir. Hal hazırda işğal altında olan 90 qiyaslı kəndi mühaibəyə qədər 1000-dən çox təsərüfat var idi.

**Bir də başqa məsələ, bunlar özlərinə oxşamırlar. Açıq-aydın görünür ki, nə göstərdikləri cəsarət bunlara xas deyil, nə də qurduqları planlar bunların ağıllarının məhsulu deyil. Fakt budur ki, bunlar fəaliyyətdədirlər. Fikrimcə, camaat təhlükədədi.**

**Təklifim və sözüm ondan ibarətdir ki, bu vəziyyətə hamılıqla çox ciddi yanaşaq. Ağzıbir olub camaatı qoruyaq.**

1870 - ci il təvəllüdlü Hüseynalı bəy sonralar öz şəxsi evini də Qiyaslı kənd orta məktəbinin binası kimi istifadəyə vermiş, özü də burda dərs demişdir. 71 il ömür sürmüş, 6 övladvə çoxlu nəvə - nəticə sahibi olmuşdur. Xanlar, Dürrə, Kubra, Sona, Qasım, Qənirə adlı ovladlarından olan nəvələri və nəticələri Qarabağ

müharibəsində şücaət və qəhrəmanlıqlar göstərmiş. Hal hazırda isə məsuliyyətli vəzifələrdə çalışırlar.

**“Heroqlif”**
Nəşriyyat-poliqrafiya müəssisəsi

***Redaktor:***
***Dizayn:*** Sənan Aslansoy
***Operator:***
***Korrektor:*** Gülnar Süleymanova

*Müəlliflə əlaqə:* ***055 610 90 74***

Yığılmağa verilib: 18.11.2015
Çapa imzalanıb: 14.12.2015
Şərti çap vərəqi 4
Fiziki çap vərəqi 16
Ofset çap üsulu.
Sayı: 500